Sübhan Abasbəyli

# O yerlərdə izim qaldı

Bakı - 2025

*Ad, soyad* ______________________

*Arzu edirəm ki, yüz ömür yaşa,*
*Ayağın dəyməsin heç zaman daşa.*

***S. Abasbəyli***

**Redaktor:** **Nəcibə İlkin**

*Şair-publisist, yazıçı, AYB-nin, AJB-nin, Dünya Türk Yazarlar Birliyinin üzvü, Prezident mükafatçısı."Azad Qələm" jurnalının baş redaktoru*

***Subhan Abasbəyli,***
***"O yerlərdə izim qaldı"***
**Bakı, «İmza» nəşrlər evi, 2025, 344 səh.**

**Bu kitab satlıq üçün deyil.**

**İSBN 978-9952-37-316-5**

©*Subhan Abasbəyli* **- 2025**



AZƏRBAYCAN RESPUBLİKASI. Siyasi-inzibati xəritə
AZERBAIJAN REPUBLIC. Political administrative map
АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА. Политико-административная карта
XƏZƏR DƏNİZİ
BAKI
SUMQAYIT
TBİLİSİ
GƏNCƏ
MİNGƏÇEVİR
NAXÇIVAN
XANKƏNDİ
ŞİRVAN
LƏNKƏRAN
RUSİYA FEDERASİYASI
GÜRCÜSTAN
ERMƏNİSTAN
İRAN İSLAM RESPUBLİKASI
1: 850 000





**AZƏRBACAN! AZƏRBAYCAN!**

Musiqisi: **Üzeyir Hacıbəyli,**
Sözləri: **Əhməd Cavad.**

Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət,
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!
Azərbaycan! Azərbaycan!

# Qəhrəmanlığın yaddaş tarixi
## *Ön söz*

Sübhan Abasbəyli bir şair-publisist kimi tanıdığım müəlliflərdəndir. Onun qələmə aldığı bu ədəbi-publisistik kitab xalqımızın qəhrəmanlıq salnaməsinə dəyərli bir töhvədir. Müəllif bu kitabda Masallı rayonunun keçmişindən bu gününə qədər olan inkişaf yolunu, igid oğulllarının keçdiyi şərəfli döyüş yolunu dərin vərənpərvərlik hissi ilə təsvir edir.

Sübhan Abasbəyli təkcə faktları sadalamır, həm də o hadisələrin ruhunu, qəhrəmanların iç dünyasını oxucuya çatdırmağı bacarır. Onun yazılarında tarixi yaddaş, milli kimlik və vətən sevgisi qovuşaraq bir bütöv mənzərə yaradır. Kitab həm tariximizi öyrənmək, həm də gənc nəsildə milli qürur hissini möhkəmləndirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Onun qələmindən süzülən bu kitab xalqızımızın keçmişinə, qəhrəmanlıq salnaməsinə vurulan işıqlı bir imzadır. O, tarziximizin unudulmaz qəhrəmanlarını oxucuya sevə-sevə, qürurula təqdim edir. Müəllifin yazı üslubu həm sadə, həm də təsirlidir. Oxucu hadisələrin içində özünü hiss edir, qəhrəmanlarla birgə yaşayır.

Müəllifin araşdırma dəqiqiliyi, dil üslubunun səlisliyi və səmimiyyəti kitabı oxunaqlı və təsirli edir. Belə bir kitabın ərsəyə gəlməsi həm cənub bölgəsinin, həm də bütövlükdə ölkəmizin qəhrəmanlıq ənənələrinin yaşadılması üçün mühüm addımdır.

Bu kitab gənc nəsildə vətənpərvərlik hissini oyadır, vətən qənrəmanlarına, tarixi şəxsiyyətlərimizə olan hörməti daha da artırır. Belə kitabların yazılması milli yaddaşın qorunması baxımından çox dəyərlidir.

Müəllif vətəndaşı olduğu doğma Masallı rayonunun Yeyənkənd kəndinin Birinci və İkinci Qarabağ Vətən rəhrəmanlarını ustalıqla qələmə alıb. Onun yazılarında milli ruh, vətən  sevgisi və keçmişə dərin hörmət hiss olunur. Kitab oxucunu həm maarifləndirir, həm də qürurlandırır.

Sübhan Abasbəyli yaradıcılığı ilə oxucununu həm tariximizin dərin qatlarına aparır, həm də bu günün reallığını duymağa vadar edir. Onun qələmi həm publisistik canlılığı, həm də ədəbi səmimiyyəti ilə seçilir.  Onun qələmi həm düşündürür, həm də qürur hissi aşılayır. O, publisistikanı bədii sözün gücü ilə birləşdirərək oxucunun yaddaşında silinməz iz buraxır.

Bu kitab Masallı rayonunun Yeyənkənd qəhrəmanlarının  yaddaş tarixidir. Bu kitab o kəndin gənclərinin gələcək örnək məktəbdir.

Sübhan Abasbəylini bu dəyərli  işi üçün  təbrik edir ona gələcək  yaradıcılıq fəaliyyətində daha böyük uğurlar diləyirəm.

**Nəcibə İlkin**

# Sübhan Abasbəylinin (Əhədzadə) həyat hekayəsi

Sübhan Abasbəyli (Əhədzadə) Kamran oğlu Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. ADPU-nin (İnstitut) tarix-ictimaiyyat fakültəsini, eyni zamanda Moskvanın iki illik təbliğatçı-təşviqatçı şöbəsinin Bakı filialını bitirmiş, müxtəlif məktəblərdə müəllim, məktəb direktoru, direktor müavini, Masallı rayon qəzetində ictimai əsalarla müxbir, Masallı rayon Partiya Komitəsi yanında ictimai əsaslarla zona üzrə təbliğatçı-təşviqatçı vəzifələrində işləmişdir.

Sübhan Abasbəyli 1995-ci ildən - 2017-ci ilə kimi, Tatarıstan Respublikasının paytaxtı (Rusiya) Kazan şəhərində yaşamış, 2007-ci ildən, Tatarıstanda-Azərbaycan Milli-Mədəni Muxtariyyatın təftiş-nəzarət komissiyasının sədri, 2012-ci ilin dekabrından 2017-ci ilin yanvar ayina kimi Tatarıstanda, Reqional İctimai Təşkilatı Azərbaycan Milli -Mədəni Muxtariyyatın idarə heyyətin sədri işləmişdir.

S.Əhədzadə (Abasbəyli), Azərbaycan Diasporasına rəhbərlik etdiyi müddətdə Kazan şəhərində Azərbaycanın görkəmli şəxsiyyətləri  Nəriman Nərimanovun eyni adlı küçədə (2013), Mirzə Kazım bəyin Tatarıstan Federal Universitetində (2015) abidələri (barelyefi) ucaldılmışdır.

Hər iki abidənin açılış mərasimində Azərbaycan və Tatastan Respublikasının Dövlət və ictimai xadimləri, rayon diaspor sədrləri, Rusiyanın Diaspor nümayəndələri, jurnalistlər və.s iştirak edirdilər. Həmçinin Azərbaycan Mədəniyyət Nazirliyinin nümayəndəsi Rəşad

Əliyev, eyni zamanda nazirliyin göndərişilə Aşıq Əli, müğənni Elnarə Abdullayeva tədbirdə konsert proqramı ilə çıxış etdilər.

Tarixi faciəmiz olan Xocalı Soyqrımı, qeyri leqal şəraitdən leqal şəraitə keçirilməklə Rusiyada ilk dəfə Kazan şəhərində, Kinoteatr "MİR"-də,"Возвращение в будущее", "Xoca", "Xocalı faktlarla" sənədli kinoları yerli əhalinin iştirakıyla 2013-cü ildən- 2017-ci ilə qədər, hər il fevral ayının 25- 26 tarixlərində nümayiş etdrilmişdir. "Xocallı Faktlarla"-kino filmləri Rusiyada ilk dəfə məhz Kazan şəhərində yerli əhalinin iştirakıla göstərilmişdir. Xocalı faciəsinin simvolu olan "Ana və uşaq" iri həcimli afişası, "Xocalı Faktlarla" filminin göstərilməsinə 10 gün qalmış, kinoteatrın önündə nümayiş etdirilmişdir. Xocalıya aid 1000- ədədən çox buklet (Soyqrım haqqında məlumat) şəhər ictımaiyyatına paylanılırdı.

İlk dəfə Rusiyada, Kazan şəhərində tarixi kinolarımız- Аршин мал алан, Судъба государя, 40-я дверъ, Намерение, Возвращение в будущее, və.s."Tatarıstanda Azərbaycan kino günləri" tədbiri ilə ,2013 cü ildə - Kinoteatr "MİR"-də, yerli ictimaiyyatın iştirakıyla (pulsuz) nümayiş etdirilmişdir. Tədbir 5 gün davam etmişdir. Sonrakı illərdə yenə, həmin kinoteatrda ayrı-ayrı Azərbaycan filmləri göstərilmişdir. Azərbaycan Diasporu 2013-cü ildə, Kazan şəhərindən Kazanın hava limanına gedən magistral yolun sağ və sol hissəsində (şəhərin çıxış- giriş hissəsi) 410 həmşəyaşıl ağac əkmişdir. Bu tədbir Tatarıstanda 35 Diaspor təşkilatları içərisində ilk dəfə Azərbaycan Diasporunun gördüyü xeyriyyəçilik işi idi.

Azərbaycan Diasporu 2013-cü ildə, Tatarıstan Dövlətinin razılığı ilə, bir yetimlər evini hamiliyə götür-

müş və həmin uşaq evinə 2017-ci ilə qədər mütəmadi köməklik göstərmişdir, hansı ki, o uşaq evində 40-50 kimsəsiz uşaqlar (yaşları 7-13 yaş arası) yaşayirdılar. Həmçinin, o uşaqlar Azərbaycan Diasporunun keçirtdiyi hər bir konsert tədbirlərində iştirak edir, bəzən özləri çıxış edir, azərbaycanlı uşaqlarla dostluq münasibətləri yaradırdılar. Tatarıstan Respublikasının ali təhsil ocaqlarında oxuyan, Azərbaycandan gələn hər bir tələbə ilə maraqlanır ,onların çətinlikləri̇lə məşğul olurdular.

Azərbaycan Diasporası 2016-cı ildə Tatarıstanda 35 Diaspor təşkilatları içərisində, yarış cədvəlində ən yüksək pilləyə yüksəlmişdir.

Tatarıstan Respublikasında," Azərbaycan Milli- Mədəni Muxtariyyatı"-ın  yuxarıda sadalanan hər bir tədbiri həm Tatarıstan mediasında həm də, Azərbacan mediasında işıqlandırılmış , televizorda göstərilmişdir.

Şair- publisist S. Abasbəyli AYB -nin, AJB-nin üzvüdür, "Qızıl Qələm", media mukafatı laureatıdır. "İlin Vətənpərvər Şairi" poeziya diplomu ilə təltif edilmiş, bir çox antologiyalarda, qəzet və jurnallarda şeirləri,a poemaları dərc edilmişdir.

"Axırıncı güllə", "Peyğəmbərlər", "Ana fəryadı", "Ürəyimin harayı", "Danışan illər", "Азербайджанцы в Татарстане", "O yerlərdə izim qaldı" kitablarının müəllifidir.

" O yerlərdə izim qaldı"- kitabı Azərbaycan Respublikasının Birinci və İkinci Vətən müharibəsində, bir neçə vətənpərvər oğullarının döyüş yollarından bəhs edir.

# AZƏRBAYCAN RESPUBLİKASININ MASALLI RAYONUNA QİYABİ SƏYAHƏT



# GƏL MASALLIYA

Əgər arzulasan Talış dağların,
Yaşıl yamacların, barlı bağların,
Gözəl "İstisu"-yun, gur bulaqların,
Dağda pətəklərə, əli ballıya,
Baxmaq istəyirsən, gəl Masallıya.

Gedək Yanardağa, Viləşə, bəndə,
Baxaq zirvələrdən Xəzərə, kəndə,
Belə gözəllikdən dayanma gendə,
Düzdə ceyranlara, üzü xallıya,
Baxmaq istəyirsən, gəl Masallıya.

"Halay"-ın şöhrəti gəzir dünyanı,
"Nənələr" oxuyur, susdurur canı.
Başda tac ediblər Azərbaycanı.
Cənub zonasında, qədim yallıya,
Baxmaq istəyirsən, gəl Masallıya!

Qızlağac qoruğu, limonu, çayı,*
Şaqraq şəlalənin tapılmaz tayı.
Gələn qonaqların bilinmir sayı,
Qaçağan atlara, polad nallıya,
Görmək istəyirsən, gəl Masallıya!

İynəyarpaq, palıd, motal, tozağac,
Qızılgöz, qəndələş, nil, dəmirağac,
Gözəllik simvolu xeyli növ ağac,
İki göz hey baxa, iki əl saya,
Görmək istəyirsən, gəl Masallıya!

Bir yanı Talış dağ, bir yanı Xəzər,
Beş qonşu rayonlar ətrafın bəzər.
Durna qatarları ötəndə süzər,
Qədim xalçalara, qədim xalıya,
Baxmaq istəyirsən, gəl Masallıya!

Döyüşə atıldı, qalib gəlsin haqq,
Qəhrəman oğullar yetirən torpaq.
Şəhid qanlarıyla ucaldı bayraq,
Gavurları qova- qova, haylaya,
İgidlər məsgəni, gəl Masallıya!

Orucu, namazı, əlində Quran,
Əlləri qabarlı, yaradan, quran,
Başında hicabı, ürəkdə iman,
Yüz yaşlı nənəyə, beli şallıya,
Görmək istəyirsən, gəl Masallıya!

---

**-Qızılağac*

Masallı rayonu Azərbaycan Respublikasının inzibati-ərazi vahididir, mərkəzi Masallı şəhəridir, 8 avqust 1930-cu ildə yaradılıb, sahəsi 0,72 min kv.km-dir, əhalisinin sayı 2024-cü il məlumatına əsasən 226661 nəfərdir. Lənkəran, Lerik, Yardımlı, Cəlilabad, Neftçala rayonları ilə, şərqdə Xəzər dənizi, qərbdə Talış dağları ilə həmsərhəddir. Masallı rayonu öz Yanardağı, İstisuyu, Qızılağac qoruğu, Viləşçay su anbarı , "Halay"-folklor qrupu və.s ilə məşhurdur. Qızılgöz, iynəyarpaq, dəmirağac, ulas, şümşad, motal, qəndələş, vən, tozağac, nil, palıd, vələs, fısdıq, qarağac, razdal və.s nadir ağacları ilə zəngindir Masallı rayonu.

Rayonu ərazisində qədim insanlar 15-20 min il bundan əvvəl yaşamışlar."Masallı" coğrafi adnın meydana gəlməsi haqqında bir çox mülahizələr, rəvayətlər mövcuddur. Tarixi mənbələrdə bu toponim "məsəlli"," məsəl çəkən yer" ,"məsəl çəkənlər" mənasında işlədilir. Masallı sözünün "Mosullu" sözündən yaranmasi da, etimal olunur. Bəzi mənbələrdə isə, bu torpaqlarda "Masal" adlı bir xanın yaşadığı söylənilir. Görkəmli alimlər Rəmzi Yüzbaşov və Ş.Sədiyevin birlikdə yazdıqları "Azərbaycanın coğrafi adları" kitabında Masallı adının " Masal" nəslinə aid olduğu göstərilir. Bəzi alimlərimiz isə Masallının Masal bəy adlı bir şəxsə aid olduğunu qeyd edirlər.(N. Məmmədov). Masallı adının İranın "Masal" əyalətindən köçüb gələnlərin adı ilə də, əlaqələndirirlər."Masal"-yer, ərazi, "lı"-isə məkan bildirən şəkilçidir.

Masallıda, Talış dağlarının ətəklərində yerləşən İstisu sanatoriyası müalicəvi əhəmiyyətinə görə Azərbaycanda və qonşu ölkələrdə çox şöhrət qazanmışdır. Yerin altından çıxan qaynar su, əzələ və bel ağrıları, dəri- zöhrəvi xəstəliklərinin müalicəsində istifadə olunur.

Yerin altından qaynar suyun çıxdığı ərazidən azca aralı, buz kimi soyuq su pokur- pokkur çıxaraq dağ aşağı axıb Viləş çayına tökülür. Suyu büllur kimi soyuq bulaqdan 10 -15 metr aralı, yerin altından çıxan "yanar alov"görənləri valeh edir. Əsrlərlə torpağın üstündə alışıb yanan, heç vaxt sönməyən bu od- alovlar insanı düşünməyə vadar edir. Azərbaycanın təkcə Masallı rayonunda yox, müxtəlif bölgələrində yerin altından çıxan od- alovlar Azərbaycanın "Odlar ölkəsi, "Odlar yurdu" adlanmasına əsas vermirmi?!...

## MƏTƏRƏ ÇAYI HAQQINDA

Viləş çayına tökülən Mətərə çayı Talış dağlarından süzülüb axan buzlu bulaqların suyundan pərvazlanır. Viləş çayi isə, dağların suyunu toplayaraq Xəzər dənizinə tökülür. Həzin- həzin axan, dupduru, göz oxşayan şırıltısı ilə ürəklər fəth edən, musiqiyə bənzər Mətərə çayının sağ və sol sahilləri yaz, yay aylarında yamyaşıl ağaclarla rəgli bir xalçanı xatırladır. Gah səssiz gah da, şırıltılı axan bu dağ çayında oynaşan xırda- xırda balıqlar, suyun dərinliklərinə baş vurur, gah da, suyun üzünə qalxıb sanki ətrafa salam verirlər. Əgər desəm ki, uşaqlığım Mətərə çayının sahillərində keçib, heç də, yanılmaram.

Yazın axır ayında,
Gözəl səhər çağında,
Yolum düşdü dağlara,
Yaraşıqlı bağlara.
Gah əyləşdim, uzandım,
Özümü xoşbəxt sandım.

Təmiz dağ havasını,
Quşların yuvasını,
Körpəcə balasını,
Daşını, qayasını,
Bülbülün avazını,
Yaraşıqlı yazını,
Çiçəklərin ətrini,
Ağacların çətrini,
Gözəl səhər mehini,
Göy çəmənin şehini,
Ürəyimlə hiss etdim,
Arzu –amala yetdim.
Gözlərim oldu rəssam,
Ruhum da rəngli fırçam,
Meşələri, dağları,
Həyatdır yaz çağları.
Bulaqları saf, gözəl,
Şəlaləsi həm özəl.
Axır, şaqraq səsləşir,
Mətərədə birləşir,
Çayın o tay, bu tayı,
Çətirlənib hər payı.
Ağacların xolları,
Çəpərləyib yolları.
Balıqlar çayda üzür,
Şair də, gendən süzür.
Füsünkardır hər ayı,
Payız, qışı, yaz, yayı.
Yoxdur belə bir məkan,
Vətənimə tay olan.
Qəndələş, ulas, motal,
Can dərmanı dağda bal,
Mandarin, feyxoa, çay,

Çoxlu meyvə, xeyli say,
İstisu, Viləş çayda,
Yerləşir Masallıda.
Viləşçay su anbarı,
Sulayır rayonları.
Can verir yanan cana,
Gözəl Azərbaycana.

**(“Axırıncı güllə”-kitabından. S.A.)**

Hal-hazırda, Viləş çayının önü tutularaq “Viləşçay su anbarı” yaradılmışdır. Yuxarıda sadaladığım bir çox təbiət gözəlliklərinin aradan getməsinə baxmayaraq Viləşçay su anbarı 1986-cı ildən, on min hektarlarla əkin sahələrini su ilə təmin edir, Masallı şəhəri daxil olmaqla bir çox kəndlərimiz içməli su ilə təchiz olunmuşdur.

## BABAM, İSAYEV CAHANGİR KƏRBƏLAYİ ƏHƏD OĞLUNUN KEÇMİŞLƏRDƏN GƏLƏN HEKAYƏSİ

Uşaqlıq illərimdə uzaq keçmişlərdən çox danışardı mənə babam. O vaxt onun 80-dən yuxarı yaşı var idi.

-“Bir gün Mətərə çayının sol sahililə kəndimiz Abasbəyliyə tərəf gəlirdim”-deyə babam çay içə-içə danışmağa başladı.

-Kəndimizlə Mətərə çayı arasında olan məsafə təxminən 3- 4 km olardı. Hava mülayim idi. Çayın həzin -həzin, bəzən də, şırıltyla axan suyu sanki adama laylay çalırdı. Birdən, suyun üzündə ağac budaqlarına iliş-

miş sümük parçası gördüm. Sümük parçasının forması məni çox təəccübləndirdi və bir ağac budağı tapıb onu özümə tərəf çəkdim. Gördüyüm mənzərə bədənimi dəhşətə gətirdi. Qarşımda bir insan kəlləsi səssiz- səssız mənə "baxırdı". Gözlərimdən damcı- damcı yaş axmağa başladı, yerə çöküb iki əllərimlə başımı tutdum, hönkür -hönkür ağladım. Görən hansı bədbəxt ananın övladıymış bu insan?. Kim öldürüb onu?. Bəlkə ağacdan yıxılıb?. Bəlkə vəhşi hevanların qurbanı olub?...Suallar bir -birinin ardınca gəlir ,mənə rahatlq vermirdi...

O illər çox dəhşətli illər idi, cavan, yaşlı, əli silah tutanların hamısını müharibəyə aparmışdılar. 1941- 1945-ci illərı düşünəndə indi də, bədənimdən gizilti keçir, insanlar acından ölməmək üçün ağac yarpaqlarını, meşədə yabanı mevələri, mevə qurularını, əvəlik, tərə, başqa çöl bitkilərini tapıb yeyərdilər. Oğurluq, quldurluq hər yeri bürümüşdü. Mənim gözümün biri zəif gördüyü üçün müharibəyə aparmadılar. Çox çətinliklə ailəni saxlayırdım. Sübh tezdən, havanın qaranlıq vaxtında, 3- 4 km yolu piyada gedərək meşədə vən ağacından 3- 4 metr uzunluğunda kəl, at arabası üçün araba qolu (qoşqu) kəsib, qabığını soyub aparıb "Qala bazarı"-nda satardım. Onun puluna ərzaq alıb evə gətirərdim, evə çatanda gündüz saat 9- 10 olardı. Bunları sənə ona görə danışıram ki, keçmişimizi öyrənəsən, unutmayasan"-deyə babam, fikirli- fikirli gözlərini bir nöqtəyə dikib susdu.

-Baba, bəs, o insan kəlləsini neylədin?. Babam xəyal yollarından ayrılıb yenə söhbətinə davam etdi.

-"Tapdığım, o insan kəlləsini ağac yarpaqlarına, xollarına büküb meşənin kənarında, Xəlfələr kəndinə aid "Şümşədlik" adlanan qəbrstanlığa gətirdim, əlimdəki

balta ilə qəbir qazıb basdırdım və sonra namaz qıldım rəhmətlik üçün.

**Haşiyə:** -Şümşədlik qəbristanlığı Mətərə çayının sol sahilində, hər tərəfi meşəlik, şümşad ağacları ilə əhatə olunan bir ərazidə yerləşirdi. İlin bütün fəsillərində yaşıl rəngə çalan Şümşad ağaclarının hündürlüyü təqribən 2 m-ə çatır. Viləşçay su bəndinin tikintisiylə əlaqədar bu qəbristanlıq Xəlfələr kəndinin ikinci, əsas qəbristanlığına köçürülmüşdür.

Yeyənkənd kənd 8 illik məktəbin 7-8 siniflərində oxuyanda, 9 may qələbə gününü qeyd etmək üçün (1941-1945) məktəb rəhbərliyi bizi, yuxarı sinif oğlanlarını "bayram"a iki gün qalmış şümşad xolları gətirmək üçün meşəyə göndərərdi. Şümşad ağacı ilin bütün fəsillərində yaşıl qaldığı üçün məktəbin bəzədilməsində istifadə olunurdu. Uzun illər keçsə də, məktəbimizin müəllimlərini –Yavər müəllim, İzzət müəllim, Xanoğlan müəllim, Aşur müəllim, Əmir müəllim, Əjdər müəllim, Yunus müllim, Şakir müəllim, Fəxrəddin müəllim, Tofiq müllim, Zakir müəllim, Ədalət müəllim, Tərlan müəllim, Saday müəllim, Əhməd müəllim, Sabir müəllim, Mətləb müəllim ,Həbib müəllim, Balakişi müəllim, Rza müəllim, Ağadadaş müəllim, Dədəkişi müəllim, Qurban müəllim, Şövkət müəllimə, İsağ müəllim, Əlimusa müəllim, Ramiz müəllim (Allahyarlı), Ramiz müəllim (Banbaşı), Əliməmməd müəllim, Əlövsət müəllim, Adil müəllim (Yeyənkənd), Adil müəllim, Qadir müəllimi çox hörmətlə xatırlayıram, o cümlədən orta təhsil aldığım Ərkivan kənd orta məktəbin müəllimləri Xanoğlan müəllim, Əli müəllim, Qardaşxan müəllim, Qəni müəllim, Əbülfəz müəllimi, Şaban müəllimi və başqalarını heç vaxt unutmadım, unutmaram. Dünyasını dəyişən

müəllimlərimizə Allah rəhmət eləsin. Haşiyə bitdi.

-"Əlimizdə olanları Sovet hökuməti əlimizdən alıb cəbhəyə göndərirdi"-deyə babam yenə danışmağa başladı. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" şüarı hər yerə vurulmuşdu. Üç övlad itirdim, o illərdə, ikisi yeniyetmə idi, Əşrəf isə cavan idi. Heç bilmədim amansız ölüm hardan gəlib tapdı onu.

Sovetlər gəlməmiş öz torpaqlarımız, əkin yerlərimiz, mal-qara sürülərimiz var idi. Atam Kərbəlayi Əhədin 140- 150 baş camışı olub, təkcə potuqların sayı 70-80 baş olardı. Mal sürülərini kətdən xeyli aralıda yerləşən fermalarda (Sumaqlıq təpənin ətrafında) çobanların köməyilə saxlayardıq. Atam rəhmətə gedəndən bir müddət sonra, o mal-qaranın xeyli hissəsi əlimizdən çıxdı. Sovet hökuməti gələndən sonra əlimizdə olan bütün mal -qaranı, torpaqlarımızı əlimizdən aldı, vəziyyətimiz çox ağırlaşdı".

-Baba, Rusların 11- ci Ordusu, bizim kəndə girdimi?.

-"Yaxşı yadımdadır, 11-ci "Qızıl" Ordu 1920-ci ilin aprelin 27-də, Azərbaycana soxuldu, onlar bir neçə gündən sonra Lənkərana, Ərkivana, və ətraf kəndlərə, ordan da, bizim kəndlərimizə girdilər. "Qırmızılar" hələ kəndlərimizə girməmiş bizim camaatın xeyli hissəsi, əsasən qadınlar, uşaqlar kəndləri tərk edib dağlara, meşələrə çəkildilər. Kətdə qalanlar yalnız kişilər idi. Mən öz həyətimizdə boraşım (bellə torpağı çevirmək) edir, həyət-bacada işləyirdim, onlar həyətə girib rus dilində nəsə soruşdular, mən işarə ilə başa saldım ki, Rus dilini bilmirəm. Deyilənə görə Rus Ordusunun içərisində ermənilər çox idilər. Onlar bizim kətdə uzaqdan at üstündə gedən cavan bir oğlan uşağını güllələdilər, yenə Allahyarlı kəndində at üstündə olan bir kişini

snayper tüfəngilə vurdular. Sonra biz eşitdik ki, onları güllələyənlər ermənilər imiş. Əsgərlər bir gündən sonra çıxıb getdilər, meşədə qorunan qadınlar, uşaqlar, kəndin cavanları kəndə geri döndülər...

Səhərdən axşama kimi kolxoz tarlalarında işləyirdik, kişilərin çoxsu müharibəyə getmişdi, təsərrüfatda əsasən qadınlar, yaşlı kişilər işləyirdi. At və ya kəl qoşulmuş kotanla torpağı şumlayıb əkərdik. Buğda, arpa zəmilərini oraqla, çinlə biçib xırmana yığar, sonra "Vəllə" döyərdik, vəl möhkəm ağacdan hazırlanırdı, qalınlığı 3-4 sm olardı. Vəlin aşağı hissəsinə xırda metal parçaları bərkidilirdi ki, taxıl dənələrini sünbüllərdən ayira bilsin. Vəlin qabaq hissəsi azca yuxarıya əyilirdi ki, taxıl dərzlərinin üstündə sərbəst hərəkət etsin. Buğda dənələri, sünbüldən ayrılandan sonra kisələrə yığıb anmarlara daşıyardıq.

Sovet hökümətini müsbət cəhətləri də, var idi, təhsilə, xəstəxanalara çox diqqət yetirirdi".

## KƏNDİMİZDƏ İLK MƏKTƏB

-"Azərbaycanda Sovet Hakimiyyəti qurulandan sonra xalqın savadlanmasına diqqət göstərilməyə başlandı, baxmayaraq ki, ölkəmizi işğal etmişdilər, amma kəndlərdə dərhal məktəblərin açılması üçün müəyyən işlər görülürdü. Bizim iki mərtəbəli evimiz var idi, məktəb üçün bina axtarılanda, mən evimizin birinci mərtəbəsini məktəb üçün ayırdım. Həmin məktəbdə Mehdiyev Kərim dərs verməyə başladı. Onun müəyyən qədər savadı var idi, yazıb-oxumağı bacarırdı. Sonra, başqa yerdən də, müəllimlər gəlmişdi. Abasbəylidə açılmış ilk

məktəbə Yeyənkənddən və başqa yaxın kəndlərdən də, uşaqlar, böyklər yazmağı, oxumağı öyrənməyə gələrdilər. Məktəbə oxumağa gələnlər gün-gündən çoxalırdı, evimiz isə, darısqallıq edirdi. Ona görə bir müddətdən sonra məktəb "Kontor"-a köçürüldü."

-Baba, "Kontor" harda idi, niyə görə elə adlanırdı?

-"Kontor-idarə və müəssiələrin yerləşdiyi binalara deyilirdi. Orda meşə ağacları da, çəkilirdi. Ora uzaq da olsa, mənim evimdən geniş idi. Kontor, meşə kənarında, indiki "Oba"-deyilən yerdən meşə istiqamətinə tərəf bir ərazidə yerləşirdi.

Sonra Sovet dövləti, Yeyənkənd kəndindən çox gözəl insan, savadlı bir din xadimi olan Axund Möhsünü sürgün etdi. Hamımız ağlayırdıq, Sovetin verdiyi qanuna heç kim etiraz edə bilmirdi, dərhal tutub Sibirə sürgün edirdilər, ona görə də, bütün kənd camaatı belə faciələrə seyrçi qalırdı. Axundun evini boşaltdırıb məktəbə çevirdilər. Məktəb, "Kontor"-dan, Axund Möhsünün boşalmış evinə köçürüldü. O gün hamımz qəmgin idik, gözümüzdən yaş axırdı. Sonra məktəb başqa bir evə köçürülsə də, bir müddətdən sonra Kolxozun həyətində ayrıca məktəb binası tikildi".

## DƏYİRMAN DAŞI

-"Viləş çayının üstündə, 7 dəyirman yerləşirdi, ola bilsin daha çox idi, o dəyirmanlardan 3-ü Yeyənkənd, Abasbəyli, Xəlfələr kəndlərinə yaxın ərazidə tikilmişdi. Viləş çayndan çəkilmiş kiçik su kanalı şırıltıyla böyük dəyirman çarxını hərəkət etdirirdi, çarx da, öz növbəsində dəyirman daşını fırladırdı. Daşın diametiri təx-

minən 1,5 metr, qalınlığı isə 7,8 sm olurdu. Hərəkət edən dəyirman daşının alt hissəsində, ikinci daşın həcimi böyüklüyüdə hərəkət etməyən daş bərkidilirdi. Buğda dənələri üst daşın orta dəliyindən iki daşın arasına tökülür, firlanan daş isə buğda dənələrini una çevirirdi. Üyüdülmüş un, daşın yan tərəfində olan böyük qutuya tökülürdü. Kəndimizdə çəltik də əkilirdi, biz kəl qoşulmuş xışla, dizə qədər suyun içərisinə girir, çəltik yerlərini şumlayırdıq".

Bəlkə də, mənim Bakı Dövlət Pedaqoji Universitetinin (İnstitut) tarix fakültəsini bitirməyim, babamın mənim üçün danışdığı tarixi hadisələrdən irəli gəlmişdi.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİNİN BAŞLANMASI, BÖYÜK VƏTƏN MÜHARİBƏSİ (1941-1945)

Böyük vətən müharibəsində 700 mindən çox Azərbaycan vətəndaşı iştirak etmişdir ki, onların 300-mindən çoxu geri qayitmadı. Ümumiyyətlə, İkinci Dünya müharibəsində həlak olan 57 milyon insandan 27 milyonu Sovet İttifaqının payına düşürdü.

1939-cu il sentyabrın 1-də, İkinci Dünya müharibəsi, nasist Almaniyasının Polşa Dövləti üzərinə hücumu ilə başladı, 1945-ci il sentyabrın 1- də, Yaponiyanın təslim olması ilə başa çatdı. Müharibə iştirakçıları iki cəbhəyə bölünmüşdü:- Nasist blokuna-Almaniya, İtaliya, Yaponiya və.s daxil idi. Antihitler, antinasist koalisiyasında isə SSRİ, ABŞ, Britaniya, Fransa və.s. dövlətlər birləş-

mişdilər.

İkinci Dünya müharibəsində, o cümlədən Böyük Vətən müharibəsində, Sovet İttifaqının qazandığı qələbədə Azərbaycan xalqının, Azərbaycan Respublikasının müstəsna rolu, böyük xidmətləri olmuşdur. Müharibə illərində Azərbaycanın 132 nəfər vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş, 170- mindən çox əsgər və zabiti müxtəlif orden və medallarla təltif edilmişdir. Azərbaycanlılardan təşkil olunmuş bir çox diviziyalar, o cümlədən 416-Taqanroq milli atıcı diviziyası, Berlinə qədər şanlı döyüş yolu keçmişdir.

Cəbhə üçün çox zəruri olan neftin 70 %-dən çoxu, benzinin 80 %-i, mator yağlarının 90 %-i Azərbaycan Respublikasının payına düşürdü. Əlbətdə, Azərbaycanın köməyi olmasaydı Sovet İttifaqı bu müharibədə qalib gələ bilməzdı. Çox təəssüflər olsun ki, Bakı şəhərinə, müharibədən sonra “Qəhrəman şəhər”-adı verilmədi, bunun üçün ermənilər böyük canfəşanlıq göstərmişdilər. Azərbaycanın bu illərdə 3-milyondan çox əhalisi olmuşdur. Masallı rayonundan Böyük Vətən müharibəsinə 10- mindən çox əsgər getmiş, onlardan 5- mindən çoxu geri qayıtmamışdır.

Böyük Vətən Müharibəsində iştirak edən Yeyənkənd, Abasbəyli, Xəlfələr kənd veteranlarını yada salmaq bizim insanliq, vətəndaşlıq borcumuzdur:-

# YEYƏNKƏND KƏNDİ, 1941 -1945- Cİ İLLƏRDƏ

1. Abbasov Şaban Ramazan oğlu.
2. Abuşov İsrafil Nağı oğlu.
3. Abuşov Əliabbas Nağı oğlu.
4. Adıgözəlov Ağababa Baba oğlu.
5. Adıgözəlov Əlisa Oruc oğlu.
6. Bağırov İbrahim Məhəmməd oğlu.
7. Fərəcov Əvəz Ruhulla oğlu.
8. Fərəcov Qəzənfər Qədir oğlu.
9. Həmidov Atamalı Zeyni oğlu.
10. İsmayılov Rəcəb Şükür oğlu.
11. Məcidov Rəşid Rüstəm oğlu.
12. Məcidov Eyvaz Rüstəm oğlu.
13. Məcidov Sərvər Yavər oğlu.
14. Mirzəyev Rəsul Mirzə oğlu.
15. Mikayılov Alkişi Xankişi oğlu.
16. Nağıyev Məmədhüseyn Əli oğlu-Kapitan.
17. Nağıyev Əli Nağı oğlu.
18. Nağıyev Vəli Nağı oğlu.
19. Nəbiyev Əli Rza oğlu.
20. Xəlilov Tarverdi Vahab oğlu.

**Fəxrəddin Fərəcov**

# ABASBƏYLİ KƏNDİ, 1941- 1945- Cİ İLLƏRDƏ

1.Ağarzayev Mozi Kazım oğlu.
2.Babayev İzzət Abbas oğlu.
3.Babayev Hidayət Abbas oğlu.
4.Babayev Məhəmməd Xanbaba oğlu.
5.Babayev Əliş Əli oğlu.
6.Baxşıyev Cəmil Cəbi oğlu.
7.Baxşıyev Qələmirzə Qəni oğlu,
8.Baxşıyev Cəmil Baxış oğlu.
9.Baxşıyev Həzərxan Baxış oğlu.
10.Yaqubov Malik Teymur oğlu.
11.Əsədov Məmmədəli Qubad oğlu,
12.İsgəndərov Nifti İsgəndər oğlu,
13.İsayev İriş Alı oğlu.
14.Məmmədov Məhəmməd Hüseyn oğlu.
15.Mehdiyev Musa Mehdi oğlu.
16.Mehdiyev Kərim Mehdi oğlu,
17.Mirzəyev Yəhya Ağarza oğlu.
18.Paşayev Musa Paşa oğlu.

**Əlizaman Əhədov**

## XƏLFƏLƏR KƏNDİ, 1941 -1945-Cİ İLLƏRDƏ

1.Ağamməmədov Şaban Allahverdi oğlu.
2.Allahverdyev Ziyad Eyvaz oğlu.
3.Allahverdyev İrəc Eyvaz oğlu.
4.Allahverdyev Şahbaz Eyvaz oğlu.
5.Allahverdyev Mozi Eyvaz oğlu.
6.Həşimov İsmayıl Həşim oğlu.
7.Həşimov Həşim Həşim oğlu.
8.Hüseynov Qafur Yəhya oğlu.
9.Hüseynov Daxıl Mahmud oğlu.
10.İsrafilov Ağahəsən Tağı oğlu.
11.Məmmədov Surxay Manaf oğlu.
12.Məmmədov Nüsrət Məmməd oğlu.
13.Sadıqov Əsgər Əmiş Oğlu.
14.Sadıqov Kamil Alış oğlu.
15.Seyfullayev Həzi Məmmədqulu oğlu.
16.Sadıqov Həsən Sadıq oğlu.

**Tofiq Hüseynov**

# BİR TİKƏ ÇÖRƏK...

Bu hekayəni mənə danışanda, nənəmin təxminən 70- yaşı var idi. O vaxtlar mənim 14-15 yaşım olardı. Heç vaxt bu hekayəni unutmadım, unuda bilmədim. Nənəmlə birlikdə su gətirməyə getmişdik . Evimizdə əli iş tuta bilənlərin hamısı kolxozda işləyirdi. 1967-ci il idi. Su quyusu evimizdən 200-300 metr aralıda yerləşirdi, quyunun dərinliyi 16-18 metr olardı. Uzun kəndiri (ciyə) vedrəyə bağlayb quyuya endirirdik, 10 litirlik vedrə, su ilə dolandan sonra vedrəni yuxarıya çəkirdik. O vaxtlar 1-2 nəfər istsna olmaqla heç kimin həyətində su quyusu yox idi. Bunları ona görə yazıram ki, indiki və gələcək nəsil keçmişimizdən, xalqımızın ağır günlərindən xəbərdar olsunlar. İndi çox şükür ki, hər evin öz artezian quyusu vardır...

Su ilə dolmuş vedrələri nənəm əlimdən almaq istəsə də, vermədim, özüm götürdüm. Yolumuzun üstündə, yerə düşmüş çörək tikəsini adlayib keçmək istəyəndə, nənəm tez qabağa keçib çörək tikəsini yerdən götürdü, öpüb gözünün ustünə qoydu, evə gətirib toyuq-cücə üçün hazırlanmış enli bir dəmir qaba qoydu. Sonra məni yanına çağırıb qəmli bir hekayə danışdı.

Böyük Vətən müharibəsi illəri idi, çox çətin bir vəziyyətdə yaşayırdıq. Günlərimiz bir qarın ac bir qarın tox keçirdi, işləməkdən əllərimiz qabar -qabar olmuşdu. Qadınlar, qoca kişilər, hətda uşaqlar da, işləyirdi. Əkin sahələrindən buğdanı, arpanı, çəltiyi (düyü) biçib hökumət anbarına aparandan sonra kəndin bütün qız- gəlinləri, uşaqlar belə biçilmiş taxıl sahələrinə gedər, yerə düşən sünbülləri apardığımız kisələrə yığıb evə gətirirdik. Sünbülləri toxmaqla (əl ağacı) "döyüb"dənini çıxar-

dar, əl daşında üyüdüb löki, çəngüri, fətir bişirərdik.

Bazar günlərindən biri idi, kolxoz işindən bir az tez çıxmışdıq, öz aramızda razılaşdıq ki, Sumaqlıq təpəyə sumaq yığmağa gedək. 7-8 nəfər qadın idik. Sumaqlıq təpə kəndimizdən təxminən 3 km məsafədə yerləşirdi. Hamımız bir yerə yığışaraq Sumaqlıq təpəyə doğru getməyə başladıq, hərəmizin əlində bir kisə var idi. Hərə öz dərd -sərindən danışa- danışa yolun uzunluğunu hiss etmədik.

**Haşiyə:-** Sumaq ağacları 2 -3 metr hündürlüyündə, 15 -20 sant diametrli ağaclar olur. İyun, iyul aylarında çiçəklənir, əsasən kök və toxumları vasitəsiylə çoxalır. Sentyabr, oktyabr aylarında yetişir, tünd qırmızı rəngə çalır. Mərci böyüklüyündə olan meyvələri üzüm salxımlarını xatırladır. Haşiyə bitdi.

-Sumaq salxımlarını qayçı ilə kəsib kisələrə doldurduq, azca əyləşib dincələndən sonra hərə öz yükünü başına, çiyninə qoyaraq evə tərəf getməyə başladıq. Yolumuzu yaxın etmək üçün Sumaqlıq təpənin sol tərəfiylə aşağı enməyə başlayanda, təxminən 50 -60 addım uzaqlaşmışdıq ki, bizdən 4 -5 metr aralı yerdə, kəhraba kimi saralan çörək tikəsi gördük. Hamımız bir anda başımızda, çiynimizdə olan sumaq kisələrini atıb çörək parçasını götürmək üçün irəliyə qaçdıq. Qabaqda olduğum üçün birinci mən çatdım. Çörək əvəzinə ağac tolaşası (kəsilmiş ağac parçası) keçdi əlimə. Kəhraba kimi yerdə saralan ağac tikəsini əlimə aldım, hamımız diz üstə çöküb hönkür- hönkür ağlamağa başladıq. Bizi bu günə salan zəmanəyə nifrin etdik. (1941-1945 ci illər)

Oğlum Sübhan, harda olusansa ol, yedə çörək qırıntısı görsən üstündən, yanından adlayıb keçmə, əyil götür, ya evə gətirib toyuq -cücəyə ver, ya da, elə yerə qoy ki,

onu quşlar tapıb yeyə bilsinlər, ayaqlar altında qoyma çörəyi, oğlum!"

Nənəm bu hekayəni mənə danışanda gözündən damcı-damcı yaş axırdı. İndi mən də, bu hekayəni yazanda gözlərim damcı- damcı yaş süzürdü.

## ERMƏNİLƏRİN AZƏRBAYCAN TORPAQLARINA AXIŞMASININ SİRRİ

Rusiya İmperatoru 1- ci Pyotr, cənubi Qafqazda, Rusiyanın işğal etdiyi torpaqlarda, xüsusilə Xəzərin ətraf vilayətlərində, Bakıda, Dərbənddə, Gilanda, Mazandaran və başqa ərazilərdə ermənilərin yerləşdirilməsi haqqında 10 noyabr 1724- cü ildə fərman imzalamışdı.

Qılınc və qan gücünə işğal olunan torpaqlarda özlərinə casus şəbəkəsi yaratmaq üçün 1-ci Pyotrdan sonra gələn bütün Rusiya hökmdarları və eyni zamanda 1917-ci il 25 oktyabrda inqilabi çevriliş nəticəsində hakimiyyətə gələn Sovetlər, 1- ci Pyotrun fərmanından irəli gələn bu müddəalara artıqlaması ilə əməl etdilər.

1805- ci il may ayının 14-də, Goranboyun Kürəkçay kəndində, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirlə, Rus İmperatoru 1-ci Aleksandrın (1801-1825) Qafqazda olan səlahiyyətli nümayəndəsi General Pavel Sisianov arasında bağlanmış müqaviləyə əsasən, Qarabağ və Şəki xanlıqları Rusiyanin tərkibinə daxil edildilər. Bu müqavilə Azərbaycan xanlıqlarının Rusiyaya birləşdirilməsinin başlanğıcı oldu. (Kürəkçay -Goranboy, Göygöl, Yevlax rayonlarının ərazisindən axan, Kür çayının sağ qolu olan bir çaydır, uzunluğu 186 km-dir.)

Azərbaycan Prezidenti cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Kürəkçay müqaviləsində ermənilər haqqında bir kəlmə də, yoxdur. Ermənilərin Azərbaycan torpaqlarına yerləşdirilməsi "Gürəkçay" müqaviləsindən sonra, "Gülüstan" müqaviləsilə (1813 Rusiya-İran) başlanmış, "Türkmənçay" (1828 –Rusiya-İran) və Ədirnə (1829-Rusiya-Osmanlı İmperiyası.) müqavilələrilə başa çatmışdır.

Ermənilərin zəli kimi Azərbaycan torpaqlarına daraşmasının əsasını qoyan, Azərbaycan torpaqları uğrunda İran və Rusiya arasında 1804 -1813-cü illərdə baş vermiş müharibə, 1813- cü il 12 oktyabrda Goranboy rayonunun Gülüstan kəndində bağlanmış sülh müqaviləsilə başa çatır. Gülüstan müqaviləsinə əsasən Rusiya, Dağıstan, Gürcüstan, Azərbaycanın bir hissəsini, əsasən şimal tərəflərini özünə birləşdirir. Bu müharibədən narazi qalan tərəflər, xüsusilə İran yenə silaha əl atır.

1826 -1828- ci illərdə, yenidən İranla Rusiya arasında Azərbaycan torpaqları uğrunda gedən müharibə, 10 fevral 1828- ci ildə, Təbriz şəhərinin Türkmənçay kəndində sülh müqaviləsilə başa çatır.Türkmənçay müqaviləsilə Rusiya İrəvan və Naxçıvan xanlıqlarını da, özünə birləşdirır. Bundan başqa İran, Rusiyanın Xəzər dənizində hərbi donanma saxlamaq hüququnu təsdiq edır.

Gülüstandan başlanan, Türkmənçayda başa çatan işğalçılıq müharibələri bir milləti, bir xalqı iki yerə bölür.

# KƏDƏR TARİXİMİZ OLDU, “GÜLÜSTAN”

*“Arazı ayırdılar,*
*Lil ilə doyurdular.*
*Mən səndən ayrılmazdım,*
*Zülm ilə ayırdılar”*

**1**

Araz nalə çəkdi, hayqırdı, o gün,
Göy üzü tutuldu, göz yaşı tökdü.
Quşlar oxumurdu, baxırdı küsgün,
Kəpəzim, Savalan boynunu bükdü.
Ağ vərəq üstündə bölündü bir can,
Bir xalqı ikiyə böldü, “Gülüstan”.

**2**

Müdhiş bir sazişin ağırlığından,
Əyildi belimiz hey, zaman- zaman.
İşğalçı, ölkəmdə sürərək dövran,
Söndü Təbrizimin gur çıraqları.
Zeybənin suları ağladı bu an,*
Göz yaşı axıtdı, susdu, “Gülüstan”.

**3**

Ağ vərəq üstündə atılan imza,
Əsarət zəncirin qoluma vurdu.
İmzalar zəhər tək axdı boğaza,
Yandırdı içimi, boynumu burdu.
Ayaqlar altında kəsdilər “qurban”,
Əsdi qara yellər, dondu “ Gülüstan”.

**4**

Masalar üstündə bölündü elim,
Böləndü tarixim, bölündü dilim.
Arazdan, o tayda qaldı bir əlim,
Qardaşı qardaşdan ayrı saldılar.
Əyildim, əzildim, oldum yarımcan,
Vurdu ürəyimə damğa, “Gülüstan”.

**5**

Sızlayan biz olduq, sevinən onlar,
Gülüş çələnginə bürünən onlar.
Qalib görkəmində öyünən onlar,
Faciəm üstündə qurdular büsat.
Kədər çələnginə bələndi hər yan,
Vətən tariximi böldü, "Gülüstan".

**6**

Qardaş ayrı düşdü, büküldü dizim,
Gözü yolda qaldı Bakım, Təbrizim.
O taylı, bu taylı bir Vətən, bizim.
Ayrılıq yamandır, yamandır, qardaş,
Başımın üstündə qara bir duman,
Vurdu ürəyimə damğa,"Gülüstan".

**7**

"Gülüstan" sazişin sanaraq bədnam,
"Payıma az düşdü" çəkdilər əncam.
Yenə hökümdarlar verdi sərəncam,
Yenə göz yaşına bələndi Vətən.
Türkmənçay sazişi yazılan zaman,
İlişib boğazda qaldı,"Gülüstan".

**8**

İkiyə  bölündük, haray, ay haray!
Araz sərhəd oldu, ayrıldı, o tay.
Boğuldu içimdə bəzəkli saray.
Dirəklər vuruldu sinəmin üstə,
İkiyüz ildən çox yandırır hicran,
Kədər tariximi yazdı, "Gülüstan".

**9**

Həris gözləriylə bir də, baxdılar,
Vətən torpağına həmən axdılar.
Bölünmüş ürəyə bayraq taxdılar.
Bir qardaş o üzdə, biri bu üzdə,
Dağların o üzü, əllərim çatan,
Bir xalqı ikiyə böldü," Gülüstan".

**10**

Hər iki sazişdən keçmişdi gün, ay,
Sürüldü evimə yüz minlərlə“ hay ”*.
Sonrakı illərdə xeyli artdı say.
Xalqımın əfqanı göyə ucaldı,
Axdı su yerinə Vətənimdə qan,
Kədər tariximi yazdı “Gülüstan”.

**11**

İşğalçı ölkələr məqsədə çatdı,
Özgənin torpağın özünə qatdı.
Dartdılar “şikarı” hərə bir yana,
Yaralar vurdular Azərbaycana.
Ayrılıq mahnısı olaraq dastan,
Bir xalqı ikiyə böldü, “Gülüstan”.

**12**

Böldülər bir xalqı rahat, ahəstə,
Sürüldü evimə “hay” dəstə- dəstə.
Yığıldı Vətəndə yadlar üst- üstə,
Gözlərim yaş süzdü hey için- için.
Sancdı ürəyimi hər yerdən ilan,
Kədər tariximiz oldu, “ Gülüstan”.

**13**

Farslarla döyüşü gətirdi zəfər,*
Sonra Türkiyəyə etdilər “səfər”.*
Qardaş ölkəmizi aldı qəm- kədər,
Ruslar kömək əlin uzatdı “yan”-a,
Ədirnə sülhüylə qaynadı tiyan.*
Töküldü içinə, yandı müsəlman,
Kədər tariximi yazdı, “Gülüstan”.

**14**

İranla sazişdən keçən hər saat,*
Dəyişdi “hay”-larda şərait, həyat.
Hər yerdən axışdı hey üzü bəri,
Çoxaldı xalqımın ağır dərd- səri.
Başlandı Vətəndə oğurluq, talan.
Kədər tariximi yazdı, “Gülüstan”.

**15**
Deyirlər, Pyotur etmiş vəsiyyət,*
"Gərək Avropaya çata mülkiyyət.
Sərhəd məkanımız ola Hindistan,
Sünnilər, şiələr olsunlar düşman.
Tutulan torpaqda yaşasın rus,"yan",
Gərək dost olmaya İranla, Osman."*
**16**
Yerli hakimlərdən "Çar"-a yazhayaz,*
Satqınlıq "yan"-lara verir imtiyaz.
"Gülüstan"-dan ötən on yeddi il, ay,
Sürüldü yurduma ikiyüz min "hay".
Doldu erməniylə Göyçə, İrəvan,
Zəngəzur, Qarabağ, Şəki, Naxçıvan.
Kədər tariximi yazdı, " Gülüstan".
**17**
"Arxalı köpəklər hürər, qurd basar",
Qudurub saldırar Qartala da, Sar.
Qəddarın axırı sonda qan qusar,
Məzlumun naləsin eşidər Allah.
Şərəfin, mənliyin, əxlaqın satan,
Tarixin önündə verər imtahan.
**18**
Min doqquzyüz beşin şaxtalı ayı,
Çatdı dördyüz minə "hay"-ların sayı.
Zəngəzur, Naxçıvan, Bakı, Qarabağ,
İrəvan, Göyçəyə çəkdilər min dağ.
Soyqrım törətdi o, mənfur düşman,
Gətirdi qəm- kədər, yaxdı, "Gülüstan".
**19**
Keçdi faciədən, keçdi on üç il,*
Yenə hiylə torun hörərək qatil.
Erməni qüvvələr Bakıya doldu.
Xalqımın bağçası saraldı, soldu,
Qanlı qırğınlara verərək fərman,
Yurdumu atəşə tutdu, Şaumyan.
Kədər tariximi yazdı, " Gülüstan".

**20**
Martın otuzuydu, hava da, təmiz,*
Hiylədən xəbərsiz saf millətimiz,
Atəşə tutuldu, qan döndü çaya,
Lenin də, şimaldan söz verir,"hay"-a,
Güllələndi əlli mindən çox insan,
Qana qəltan olan, can Azərbaycan!
**21**
Şərqdə göy gurladı, bir ulduz doğdu,
Düşmənin ürəyin, nəfəsin boğdu.
Müstəqil bayrağım ucaldı göyə,
Xoş xəbər yayıldı şəhərə, köyə.
Vətən torpaqlarım oldu çıraqban,
Tarixlər bəzədin, can Azərbaycan!
**22**
Xəbis qonşulardan həzər, ay həzər,
Kin- küdrət içini dolaşar, gəzər.
Gözləri pislikdən çələng toxuyar,
Atdığı hər addım çirkab qoxuyar.
Saxlar qəzəbini, kinini pünhan,
Allahım uzaq et belə qonşudan.
**23**
Şaumyan Bakıdan Leninə yazır,
Müstəqil ölkəmə quyular qazır.
"Aman,Türkiyəni qoymayın gələ,
Bütün bənd- bərəni keçirdin ələ".
Lenin Gürcüstana vəd verir, dolu,*
Təki Türkiyənin kəsilsin yolu.
**24**
Hər bir təhlükəni alaraq gözə,
Osmanlı Ordusu yetişdi bizə.
Milli qüvvələrlə İslam Ordusu,
Bakı azad oldu, keçdi qorxusu.
Gəncədən Bakıya kəldi hökumət,
Təhlükə sovuşdu, sevindi ümmət.

**25**

Ucaldı bayrağım, gur işıq saçdı,
Keçdiyi yollarda qızıl gül açdı.
Sülhün, həmrəyliyin ardınca qaçdı,
Hər bir əməlindən ucaldı Vətən.
Yolunda özünü verərək qurban,
Neçə Türk əsgəri, neçə qəhrəman.

**26**

Düşmənin nəfəsin kəsirdi hiddət,
Nifrətlə süzürdü gözündə şiddət.
Yanıb tökülürdü görəndə vəhdət,
Müstəqil Vətənim deşirdi gözün,
Süzülür içindən, sözündən böhtan,
Bizə qəm gətirdi, kədər," Gülüstan".

**27**

Artır Vətənimdə hər an təhlükə,
Çətinlik önündə dayanır ölkə.
Yağı düşmənlərlə qalır üz- üzə,
Tuşlanır üzümə, köksümə nizə,
İrəvan "hədiyyə" edildi, aman!
"Gavur"-u evimə saldı," Gülüstan".

**28**

Zəngəzurla Göyçə, irəvan getdi,
Şərur- Dərələyəz gözümdən itdi.
Riyakar qonşular arzuya yetdi.
Bir- bir Oğuz yurdum haya verildi,
Mülküm qarət oldu, olmadı həyan,
Bizə qəm gətirdi, kədər, "Gülüstan".

**29**

Vətənim bələndi al qızıl qana,
Yaralar vuruldu Azərbaycana.
Alova büründü hey, Odlar Yurdu,
"Gavur"-lar ölkəmdə xaniman qurdu.
Dostları şadlandı, oldu pasiban,
Kaş ki, olmayaydı əzəl, "Gülüstan".

**30**

Qərbi Azərbaycan verildi, bitdi,
Bir müddət "itlərin" hürüşü itdi.
Qorbaçov orada gəldi "Mərkəz"-ə,
Tülkülər yenidən girdilər gözə,
"Qarabağ da, bizim",etdilər üsyan,
Bizə qəm gətirdi, kədər,"Gülüstan".

**31**

Moskva önündə ağladı zar- zar,
Vurdu baş- gözünə etdi ahuzar.
Şərait yaratdı, gözlərin yumdu,
Riyakar erməni üstümə cumdu.
İkiyüz əlli min qovuldu yurddan,
Bizləri möhnətə saldı, "Gülüstan".

**32**

Moskva işindən qovuldu, Öndər,*
Aldı caynağına bizi qəm- kədər.
Yağı düşmənlərin açıldı yolu,
Yağdı başımıza daş- kəsək dolu.
Xocalım dağıldı, edildi viran,
Bizə qəm gətirdi, kədər,"Gülüstan".

**33**

Sonra da, verildi Laçınım, Şuşam,
Xocavənd, Kəlbəcər, Xocalım, Ağdam.
Cəbrayıl, Füzulim, Qubadlım yandı,
Gözəl Zəngilanım qana boyandı.
Tamam Qarabağım olaraq biryan,
Faciəm sən oldun, sən ey,"Gülüstan!"

**34**

Otuz il Qarabağ edildi işğal,
Otuz il utandıq, biz olduq bihal.
Ağır məğlubiyyət etdi bizi lal.
İnlədi Sübhan da, əlində Quran,
Kədər tariximiz oldu, "Gülüstan".

**35**

Budur, qoç igidlər qalxdı ayağa,
Ordumuz oxşayır sanki bir dağa.
İt kimi qovuldu o, mənfur dığa.
Qardaşlar verdilər çiyin- çiyinə,
Qovuşdu Qarabağ, qırıldı zindan,
Vətən xilas oldu vətənsiz "Yan"-dan.

**36**

Alnımızda qara olan bir ləkə,
Əydi qəddimizi hey zaman- zaman.
Ağır qəm yükünü biz çəkə- çəkə,
Güldü üzümüzə hiyləgər düşman.
İnşəallah qurtuldu, o Cənnətməkan,
Gözlərimiz aydın, can Azərbaycan!

**37**

Çaldı Qarabağda Ordumuz, Zəfər,
Qalan torpaqlara edəcək səfər.
Zəngəzur, Göyçəmdə qalmayıb təpər,
Şərur- Dərələyəz, dilican betər.
Ələksərin qəbri olubdur yeksan,
Bir xalqı ikiyə böldü, "Gülüstan".

**38**

Ey kədər tarixim, Gülüstan kəndi,
Böldün sən xalqımı, əyildi qəddi.
Çəkdin ürəyimə tikandan səddi.
Qardaşı, qardaşa qoyaraq həsrət,
Nə vaxt yollarımdan itəcək tikan?
Əzdi bir milləti, böldü,"Gülüstan".

**39**

Təbriz ağı dedi, göz yaşı tökdü,
Quzey, Quzey deyib diz üstə çökdü.
O tay da, bu tay da, buynunu bükdü,
Bakı qan ağladı, haray, ay haray!
Sən ey ayrılığa qol qoyan, utan!
Kədər tariximi yazdı,"Gülüstan".

**40**

Arazı ayırdılar, o gündən bəri,
Vurdular sinəmə iti xəncəri.
İkiyüz ildir ki, gözlərimdə yaş,
Əllərim uzanıb, o taya, qardaş!
Hanı qarşılayan, əlimdən tutan?
Oyan, aç gözünü, bitsin "Gülüstan",
Güneyli, Quzeyli, can Azərbaycan!.

***S. Abasbəyli.***

---

**-Goranboyun Gülüstan kəndində çay.*
**-Hay-erməni,*
**-1804-1813-ci il, Rus- İran müharibəsi,*
**-Osmanlı İmperiyası adlanırdı,*
**-1826-1829-ci il, Rus- Osmanlı(Türk) müharibəsi*
**-1813-ci il Gülüstan sazişi,*
**-1-ci Pyotur,*
**-Osmanlı dövləti,*
**-Çar- İmperator,*
**-1905-1906 -cı illər,*
**-1918-ci il,*
**-Gürcüstana muxtariyyat vəd olunmuşdu,*
**-Ulu Öndər Heydər Əliyev.*

Bu iki müqavilə ilə, Azərbaycan xalqı iki dövlət arasında bölündü.

Rusiya İranla müharibəni bitirdikdən sonra dərhal Osmanlı İmperiyası ilə (Türkiyə- 1828- 1829) müharibəyə başladı və bu müharibə Ədirnə sülh müqaviləsilə başa çatdı. Rusiyanın İrana və Osmanlı İmperiyasına qalib gəlməsi ermənilərin əl-qolunu tamam açır.

"Gülüstan", "Türkmənçay" və "Ədirnə" sülh müqavilələrindən sonra, Rusiya ilk əvvəl Azərbaycanın Naxçıvan, Zəngəzur, İrəvan, Qarabağ bölgələrinə İrandan 83-min, Türkiyədən isə 90- min erməni ailəsini köçürür. Köçürmə işi ilə məşğul olan Çar (Rusiya İmperatoru) məmuru N.İ.Şavrov köçürmə işi ilə bağlı yazırdı: "Cənubi Qafqazda yaşayan 1 milyon 300 min ermənidən 1 milyondan çoxu yerli əhali deyil, onları İrandan və Türkiyədən biz gətirmişik"

Rusiya, Azərbaycan torpaqlarında erməni dövləti yaratmaq üçün çox canfəşanlıq edirdi. Onlar ermənilərdən özləri üçün casuc şəbəkəsi yaratmaq istəyirdilər. Rusiya- İran, Rusiya- Türkiyə müharibələrində ermənilər öz casusluq peşəsini tam sübut edə bilmişdilər. Onlar, o vaxt əldə etdikləri bütün məxvi -hərbi məlumatları Rus komandanlığına ötürərək onların yanında əlverişli mövqe tutmuşdular.

Rus Ordusunda xidmət edən erməni mənşəli Rus polkovniki Lazaryan İrandan köçürülən ermənilərə deyirdi:- "Siz ermənilər Şimalı Azərbaycanda yeni vətən əldə edəcəksiniz, İranın müxtəlif yerlərinə səpələnmiş siz ermənilər, Şimali Azərbaycanda bir yerə cəmləşəcək, dövlət yaradacaqsınız. Tələsin, vaxt gözləmir, tezliklə biz, Rus qoşunları İranı tərk edəcəyik, sizin üçün sonradan köçmək çətin olar, nə qədər ki, biz burdayıq köçün

yeni torpaqlara, bir vaxt gələcək bizə "Sağ olun" -deyəcəksiniz. İran çörəyi yeməkdənsə Rus otu yemək daha yaxşıdır".(bax-Qlinka S.əsərləri səh -107-111 . Yaqub Mahmudov- tarix elmləri doktoru, professor, əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü, Dövlət mukafatı laureatı).

Yaqub Mahmudov ADPİ-da (Universitet), bizim ən sevimli müəllimlərimizdən biri idi (1972-1076). Mən öz sevimli müəllimlə yalnız 40- ildən sonra, Tatarıstan Respublikasında (Rusiya) Azərbaycan Milli- mədəni Muxtariyyatın sədri işləyəndə, bir təsadüf nəticəsində görüşdüm. (2015). Yaqub müəllim bir qrup alimlə Kazan şəhərinə, dövlət tədbirinə gəlmişdi. Sevimli müəllimimlə görüşmək həyatımın ən gözəl anlarından biri idi.

1832-ci ilin siyahıya alınmasına görə İrəvan əyalətindəki kəndlərin 463 kəndində azərbaycanlılar, 63-ü qarışıq şəkildə, 98 kəndində isə ermənilər yaşayırdılar. Köçürmə işi ilə məşğul olan Çar məmuru N. İ. Şavrov yazırdı ki, rəsmi köçürülən ermənilərlə yanaşı, qeyri rəsmi köçürülən ermənilər daha çoxluq təşkil edirdilər. Ümumiyyətlə, o dövrdə İrandan və Türkiyədən 200-mindən çox erməni Azərbaycan torpaqlarına köçürülmüşdür.

19- cu əsrin 90- cı illərində, Türkiyədə baş verən erməni qiyamlarının (ermənilər Türkiyədən muxtariyyat tələb edirdilər) yatızdırılmasından sonra, daha 400-minə yaxın erməni, Azərbaycan torpaqlarına köçürülür.

Beləliklə, 1813-cü ildən başlayaraq Cənubi Qafqazın etnik xəritəsində yeni toplum, erməni toplumu peyda olur.

# XALQIMIZIN BAŞINA GƏTİRİLƏN MÜSİBƏTLƏRDƏ ERMƏNİ İZLƏRİ

1. 1905- 1907- ci illərdə ermənilər Bakıdan başlayaraq Şuşa, Zəngəzur, İrəvan, Naxçıvan, Ordubad, Cavanşir, Qazax qəzalarında azərbaycanlıların yaşadıqları 200-dən çox yaşayış məsgənlərini yandıraraq 10- mindən çox azərbaycanlını qanına qəltan etdilər.

1917- ci ilin 27- fevralda Rusiyada Burjua-Demokratik inqilabı baş verdi, Çar hakimiyyəti devrildi, Rusiyada "İkihakimiyyətlik"yarandı.

1917- ci il, 25 oktyabrda Rusiyada Sosialist İnqilabı qalib gəldi və "İkihakimiyyət"-liyə son qoyuldu və Proletar Diktaturası quruldu.

1918- ci il, 30 mart tarixindən başlayaraq 1920- ci ilə qədər, Bakıda və Bakı quberniyasının müxtəlif bölgələrində, o cümlədən Quba, Şamaxı, Xaçmaz, Salyan, Lənkəran, Masallı, Hacqabul, Qarabağ,

Zəngəzur, Naxçıvan və digər ərazilərdə, Bakı Sovetinin rəhbərliyi altında Erməni silahlı qüvvələri, azərbaycanlılara qarışı amansız qırğınlara başladılar.

Erməni millətçiləri, "Böyük Ermənstan" ideyasını gerçəkləşdirmək məqsədilə Bakı Xalq Komissralar Sovetinin sədri Stepan Şaumyanın bilavasitə rəhbərliyi altında, erməni "Daşnaksutyun"partiyasının iştirakı ilə, 50- mindən çox azərbaycanlıya divan tutaraq vəhşicəsinə öldürdülər. (Masallıda, Lənkərana gedən körpünün üstündə 100-dən çox dinc sakini güllələyib körpünün altına tökürlər."Axırıncı güllə"-S.Abasbəyli)

2007- ci ilin aprel ayında Quba şəhərində, futbol mey-

dançasının təmiri ilə əlaqədar qazıntı işləri aparılan zaman, kütləvi məzarlıq aşkar edilir. Məzarlıqda 500- dək insan kəlləsi tapılır. Onların 50- dən çoxu uşaqlar, 100 -dən çoxu isə, qadınlara məxsus idi. Bu hadisə 1918-ci il mart ayında, ermənilərin Qubada törətdikləri dəhşətli soyqrımlardan xəbər verirdi. Qətlə yetirilənlərin əksəriyyətinin kəllə smükləri küt alətlə əzilmiş, bəziləri isə mismarla deşilmişdi.

1918-ci il mayın 28-də, Azərbaycan Demokratik Respublikasının (Cümhuriyyət) yaranması Azərbaycan xalqının həyatında böyk rol oynadı. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay yaşasa da, çox böyük işlər görməklə tarixin yaddaşına həkk olundu və bu Türk-müsəlman dünyasında ilk dünyavi Demokratik Respublika, Parlamentli Respublika idi. Paytaxtı əvvəlcə Gəncə şəhəri, sonra isə Bakı şəhəri oldu.

Azərbaycan Xalq Cümhuriyyətinin banisi, Məmməd Əmin Rəsulzadə idi.

Müstəqil dövlətimizin yaranması dövründə Azərbaycanın ərazisi təqribən 150 min kv.km olmuşdur.

2. Azərbaycan Xalq Cümhuriyyəti, 1918-ci il mayın 29-da, Sovet Rusiyasının təkidilə əzəli torpağımız olan İrəvanı ermənilərə bağışlamağa məcbur oldu. 1918-ci ildə, Azərbaycanın əzəli torpaqlarında Ermənstan Dövləti yaradıldı.

1920-ci il aprelin 25-dən, 26-na keçən gecə, Rus qoşunları, Azərbaycana şimal tərəfdən hücum edərək Xaçmazı, Yalamanı tutdular və Azərbaycan Xalq Cümhuriyyətinə,  hakimiyyəti Bakı Sovetinə təhvil vermək haqqında ultimatum göndərdilər.

Azərbaycan hakimiyyəti qan tökülməməsi üçün aprelin 27- də, keçirtdikləri iclasda hakimiyyəti bolşeviklərə təhvil vermək haqqında qərar qəbul etdilər. Beləliklə 1920-ci il aprelin 28-də, Azərbaycan Demokratik hakimiyyəti süqut etdi, onun yerində Sovet hakimiyyəti quruldu.

3. 1920-ci il noyabrın 30- da, Azərbaycan Kommunist bolşeviklər Partiyasının Mərkəzi Komitəsi (AK(b)P-MK-si), Zəngəzurun çox hissəsini- Göyçə, Şərur, Dərələyəz mahallarını, Dilican ərazisini Ermənstana bağışlamağa Sovet hakimiyyəti tərəfindən məcbur edildi.

Ermənilər 1933- cü ildə, Zəngəzurun adını tarixdən silmək üçün həmin ərazilərdə Qafan, Gorus, Sisian və Mehri rayonlarını yaratdılar. Beləliklə 1724 -cü ildə, 1-ci Pyoturun “ Ermənilərin Cənubi Qafqazda, mümbit torpaqlarda yerləşdirilməsi “haqqında verdiyi tövsiyələr zaman-zaman reallaşmağa başlayır.

Haşiyə: “Gorus”-un adını yazanda bir hadisə yadıma düşdü, istəyirəm dəyərli oxucularımla bölüşəm, o hadisəni.

1982- ci ilin yayı idi, Masallı rayonunun Təhsil Şöbəsinin Həmkarlar təşkilatından, Şuşa şəhərində olan sanatoriyaya göndəriş alıb Şuşa şəhərinə getdim. O vaxtlar Masallı rayonunun Yeyənkənd kənd orta məktəbində Təlim- tərbiyə işləri üzrə Direktor müavini işləyirdim. Günlərin bir günü, bizi avtobusla Şuşa şəhərindən Gorusa ekskursiyaya apardılar. Təxminən 20 -25 nəfər idik, Gorus şəhərində, mərkəzi univermaqda bəyəndiyim köynəyin pulunu verən zaman, satıcı qız təəccüblə, yavaş səslə məndən soruşdu:- “Qorxmursu-

nuz bura gəlməyə?". Mən çox təəccübləndim, "Axı nədən qorxmalıyıq?"-dedim. Satıcı qız gülümsəyib daha heç nə demədi. İllər sonra başa düşdüm ki, o satıcı qız mənə niyə, o sualı vermişdi. Haşiyə bitdi.

4. 1947- ci il dekabrın 23-də, SSRİ Nazirlər Soveti " Ermənstan SSRİ-dən, azərbaycanlıların köçürülməsi, onların Azərbaycanın Kür -Araz ovalıqlarına yerləşdirilməsi" haqqında qərar qəbul etdi. Qərarda göstərilirdi ki, "1948- 1953-cü illər ərzində Ermənctanda yaşayan 150 min azərbaycanlılar Azərbaycan SSRİ-nin Kür-Araz ovalıqlarına köçürülsün".

Öz ev- eşiklərindən, ata- baba yurdlarından didərgin salınan soydaşlarımızın köçürülməsi, tariximizin ən qanlı, ən qara səhıfələrindən birdir. Minlərlə insan -qoca, körpə, qadın, hamilə qadınlar yollarda həlak oldular. Göz yaşları ilə öz torpaqlarından zorla çıxarılan azərbaycanlıların qan yaddaşıdır bu faciəmiz.

Bu köçürülmənin yeganə səbəbi onların azərbaycanlı olması və "Böyük Ermənstan dövləti" yaratmaq planlarından irəli gəlirdi.

Tarixin ən qanlı diktatoru olan Stalinin bu qərarı yalnız onun ölümündən sonra dayandırılmışdı. (1953).

5. Sovet hakimiyyətində təmsil olunan bəzi ermənilər və erməni Diasporu 1980-cı ilın sonunda SSRİ- də, mərkəzi hakimiyyətin zəifləməsindən istifadə edərək 1923-cü ildə, Azərbaycan SSRİ- nin tərkibində yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətin (DQMV), Ermənstana birləşdirilməsi üçün hərəkətə keçdilər. Bunun üçün ermənilər, onlar üçün uyğun olan əlverişli vaxtı gözləməyə başladılar. Belə bir vaxt ,nəhayət gəlib çatdı,

1985- ci ildə M.S.Qorbaçov hakimiyyətə gəldi.

Qorbaçov hakimiyyəti bu işdə ermənilərə yaşıl işıq yandırdı. Ermənilər, öz çirkin işləri üçün onların qarşısında ciddi maneə olan Heydər Əliyevi, Siyasi Bürodan uzaqlaşdırmağa nail oldular.

Bundan sonra Qorbaçovun iktisadi məsələlər üzrə köməkçisi olan erməni akademik Aqanbekyan, Parisdə belə bir müsahibə verdi ki, "Dağlıq Qarabağın, Azərbaycanın tərkibindən çıxarılıb Ermənstana birləşdirilməsi haqqında, Sovet rəhbərliyinə təklif vermişdir və ümüd edir ki, bu təklif öz bəhrəsini verəcəkdir ".

Beləliklə, öz məkrli niyyətlərini gizli şəkildə həyata keçirmək üçün fəaliyyət göstərən "Erməni Qarabağ Komitəsi" və Qarabağ sepratçı terror təşkilatı -"Krinik" (durna), qeyri leqal şəraitdən leqal şəraitə (açıq) keçdi.

"Miatsim" (birləşmə) –adlı təşkilat yaratdılar. Bundan sonra ermənilər daha mütəşəkkil, açıq halda " Dənizdən dənizə-Böyük Ermənstan" uğrunda mübarizəyə başladılar. Erməni terror təşkilatları, Sovet rəhbərliyinə və dünya ermənilərinin dəstəyinə ümüd bəsləyirdilər.

1987-ci ilin sonlarında Ermənstan SSRİ-nin Qafan rayonunda (Zəngəzur), azərbaycanlıların öz tarixi torpaqlarından zorla çıxarılması prosesinə təkan verildi.

Qafan rayonunda azərbaycanlılar, Ermənstanın digər ərazilərinə nisbətən daha çox yaşaırdılar. Bu bölgədə 10-minə yaxın azərbaycanlı yaşayirdı. Qafanlı azərbaycanlılar, Ermənstandan qovulan ilk azərbaycanlılar idi. Əhali vaqonlarla, avtobuslarla köçərək Bakıda, Sumqayıtda müvəqqəti sığınacaqlarda yerləşdirilirdi.

1988-ci ilin fevral ayından başlayaraq, erməni terror

təşkilatları daha da, fəallaşmağa başladılar. İrəvanda, Xankəndində (Stepanakert) erməni millətçiləri və seperatçı qüvvələr, planlı şəkildə mitinqlər təşkil etdilər. 1988-ci il fevralın 13-də, ermənilər Xankəndində ilk nümayiş keçirtdilər və fevralın 20-də, DQMV- nin Xalq Deputatları Sovetinin erməni deputatları, DQMV- nin Ermənstana birləşdirilməsi haqqında təklif verdilər. O səsvermədə azərbaycanlı deputatlar iştirak etmədilər. Erməni deputatlar DQMV-nin statusuna yenidən baxılması üçün Azərbaycan SSRİ Ali Sovetinə müraciət etdilər. Əlbətdə ki, ermənilərin bu təklifi rədd edildi.

Erməni "Antiazərbaycan" ideoloqları Ermənstanda və Qarabağda yaşayan erməniləri uzun illərdən bəri çirkin təbliğatla, müxtəlif məlumatlarla məlumatlandırmışdılar. Çox təəssüflər olsun ki, biz, Azərbaycan xalqı, ermənilərin uzun illərdən bəri apardığı Azərbaycan əleyhinə təbliğatlardan xəbərsiz idik.

# QUQARK FACİƏSİ

5. Qafan rayonundan azərbaycanlıların öz ata- baba torpaqlarından qovulmasından sonra ermənilər Quqark rayonunda yeni bir faciyəyə əl atdılar. Quqark rayonunun Vartanlı kəndində törədilmiş soyqrım, tarixin qanlı səhifəsinə, qanlı göz yaşları ilə yazıldı. Qədimdə bu kəndin adı “Vartana” olmuşdur, sənədlərdə isə “Vartanlı” kimi qeyd edilmişdir. 1955-ci ildən isə “ Şaumyan” adlanırdı. 1964-cü ildə, Quqark rayonu yaradılanda Vartanlı kəndi, həmin rayonun ərazisinə daxil edilir.

20 ci əsrin əvvələrində bu kətdə azərbaycanlılar, ermənilərdən sayca daha çox idilər, amma sonrakı illərdə, ermənilərin sayı sürətlə artmağa başlayır və 1988- ci ilin sonunda say etibarı ilə ermənilər çoxluq təşkil etdilər.

1988 ci il noyabrın 26-dan, 27-nə keçən gecə, erməni silahlı dəstələri kəndə hücum təşkil etdilər. Həmin gün hava çox soyuq idi. Azərbaycanlılar, ermənilərin maşınlarla kəndə yaxınlaşmasını görərək evlərini tərk edib çöllərə, meşələrə üz tutdular.

Erməni silahlı dəstələri kətdən çıxmağa macal tapa bilməyən azərbaycanlıları güllələyir, diri -diri yandırıdılar. Bu əməliyyatda kəndin erməni əhalisi daha çox fəallıq göstərirdi. Vartanlı kəndinin meşələrə qaçan əhalisi sərt soyuq bir havada, gündüzlər meşələrdə gizlənir, gecələr isə, Azərbaycana pənah aparırdılar. Nəhayət 10 gündən çox yol qət edərək Azərbaycan torpaqlarına çata bilirlər. Bu faciədə 187- nəfər kənd sakini öldürül-

dü və xeyli insan itgin düşdü, yollarda həlak oldular.

1988- ci ilin noyabr ayında QUQARK rayonunda yeni qanlı cinayət törədildi.

70-ə yaxın 12 yaşa qədər körpə, qadın, iri diametrli dəmir borulara doldurularaq hər iki tərəfini qaynaqlayıb üstünə odun töküb yandırılar. Bu qanlı cinayəti, Ermənstanda zəlzələ olan zaman, Ermənstana köməyə gələn Fransız xilasedicilər görüb dəhşətə gəlmışdilər.

1988-ci ilin noyabrında ermənilərin yalnız Spitak rayonunda qətlə yetirdikləri azərbaycanlıların 216 nəfərdən 57-si qadın, 5-i südəmər körpə, 18-i daha böyük uşaqlar idi.

1988-ci il dekabrın 5-də, Hamanlı şəhərində (Spitak) yenə 17 nəfər azyaşlı uşağı, iri diametrli turbanın içinə dolduraraq, sıldırımlı qayadan tullamışdılar.

# MEYDAN HƏRƏKATI



Qərbi Azərbaycanda və Qarabağda erməni vəhşiliyinə, təxribatlarına qarşı Azərbaycanda ilk etiraz mitinqi, 1988-ci il fevralın 19-da, Bakıda başladı. Azərbaycan Xalq Cəbhəsinin lideri, Əbülfəz Elçibəyin başçılığı ilə keçirilən etiraz mitinqləri, getdikcə daha geniş vüsət almağa başladı. Topxana meşələrinin ermənilər tərəfindən qırılmasına qarşı, Qərbi Azərbaycanda, Qarabağda azərbaycanlıların öldürülməsinə, sıxışdırılmasına etiraz əlaməti olaraq xalq hərəkatının yeni dalğası, meydan hərəkatı, 1988-ci il dekabrın 4-də, Azadlıq meydanında hökumət qüvvələri tərəfindən dağıdıldı. Lakin xalq hərəkatının, azdalıq hərəkatının qarşısını almaq mümkün olmadı.

Erməni millətçilərinin seperatçı çıxışlarına qarşı Bakıda başlanan Xalq hərəkatı daha aktiv, kütləvi hal almağa başlayır. Əvvəlcə Topxana meşələrinin qırılmasına qarşı başlanan Xalq hərəkatı, fasiləsiz mitinq və nümayişlərə çevrildi. Meydan hərəkatında, ermənilərin

Azərbaycana qarşı işğalçı siyasətinin dayandırılması, Qarabağda anti Azərbaycan siyasətinin aradan qaldırılması və Ermənstana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsi tələbləri irəli sürülürdü. Bu mitinqlərdə hərdən "müstəqillik", "azadlıq" şuarları da, səsləndirilirdi.

Mitinqdə ilk dəfə Azərbaycan Xalq Cümhuriyyətinin ( 1918- 28 may) üçrəngli bayrağı qaldırıldı.

Milli-azadlıq hərəkatı, tarixə "Meydan hərəkatı" kimi daxil olmuşdur və hər il noyabrın 17-si ölkəmizdə "Milli Dirçəliş" günü kimi qeyd edilir.



# SUMQAYIT HADİSƏLƏRİ




1988- ci il fevral ayının 24- də, Qarabağın Əsgəran rayonunda, erməni terorçuları 2 nəfər azərbaycanlını qətlə yetirdilər, 19 nəfəri yaraladılar. Terror aktı planlı şəkildə aparılırdı. Eyni zamanda erməni xüsusi xidmət orqanları, fevral ayının sonunda Sumqayıt şəhərində xüsusi qəsdlər təşkil etdilər.

"Hay"- lar, qərbi Azərbaycandan (Ermənstan) qo-

vulmuş və öldürülmüş, yandırılmış azərbaycanlıların faciələrini ört -basdır etmək üçün Sumqayıt şəhərində, təmiz azərbaycan dilində danışan ermənilərdən istifadə etməklə, qırğınlar törətdilər. 1988- ci il fevralın 27-dən 28-nə keçən gecə, Sumqayıt şəhərində 26 erməni, 6 nəfər azərbaycanlı öldürüldü. Qəsdin əsas iştirakçısı, iki dəfə məhkum edilmiş Eduard Qriqoryan idi.

Əvvəlcədən xüsusi hazırlıq keçmiş erməni jurnalistləri, gizli çəkiliş apararaq bu hadisələri dünyaya yaydılar. Məqsədləri Azərbaycan xalqına qarşı dünya ictimaiyyatında "nifrət" və "vəhşi" obrazı yaratmaq idi.

Sumqayıt qırğınlarının fəal təşkilatçıları Ohanyanin Samoulov və Pavlovskinin adları çox sonralar ictimaiyyata məlum oldu.

Öldürülən ermənilərin hamısı (26 nəfər) erməni terror təşkilatlarına kömək etməyənlər idi.

SSRİ Dövlət Təhlükəsizlik Komitəsi, yalnız fevralın 29-da hadisələrə mədaxil edir, nəticədə 6 azərbaycanlı tankların altında qalaraq şəhid olur, 400 nəfər yaralanır, 200 mənzil talan edilir, 50 mədəni -məişət obyektləri dağıdılır, 40 dan çox avtomobil yararsız hala salınır.

Mart ayının 1-də, Sumqayıtda komendat saatı tətbiq edilir.

Çox təəssüf ki, hadisələrin bütün günahları azərbaycanlıların üzərinə atılır və əsl həqiqət isə, ört-basdır edilir. Ermənilərin Sumqayıt əməliyyatı "nalyotçik" (basqınçı) kodu altında aparılmışdır.

# QANLI YANVAR – OYANIŞ GÜNÜ-1990

Azərbaycana qanlı divan tutmaq və Azərbaycanın timsalında bütün Sovet Respublikalarına göz dağı göstərmək üçün Sovet Dövləti, 1990-cı il yanvarın 20-də Bakıya qoşun yeritdi.

**Haşiyə:-** 1990- cı il yanvarın 19- da, səhər tezdən bir məsələ ilə əlaqədar Bakıya yola düşdüm. Səhər saat 9:00-da, indiki Sədərək bazarı istiqamətində, iki yol ayrıcında maşını saxladım. Yolun biri Xəzərin sahililə şəhərə, digəri isə sol tərəfdən Sumqayıt istiqamətinə qalxırdı. Hər iki yol ayrıcları xalq hərakatının iştirakçıları tərəfindən bağlanmışdı, sanki "ətdən divar" çəkilmişdi. Heç bir tərəfə adam buraxılmırdı. Burda tələbəlik illərimdən tanıdığım, mitiq iştirakşılarının biri ilə rastlaşdım. O, mənə Sumqayıt istiqamətinə qalxmağı və Bakıya gedən yolun solunda yerləşən maşın dayanacağında maşını saxlamağı məsləhət gördü. Maşınla indiki, Sədərək bazarından yuxarıya, Sumqayıt istiqamətinə qalxdım. Yol kənarları, yollar gənclərimiz tərəfindən tam nəzarətə alınmışdı. Maşını dörd yol ayrıcının kənarında saxlayıb maşın dayanacağına piyada getdim ki, boş yerin olub-olmamasını öyrənim. Maşın dayanacağında boş yer yox idi. Yollarda gediş- gəliş tamam dayandırılmışdı. Saat 10:00 olardı, ətraf insanlarla dolu idi, bu zaman Quba istiqamətindən bir neçə hərbi maşın mərkəzi yolla , Bakı istiqamətinə tərəf hərəkət edərkən yolun bağlandığını görüb dayandı. Yol hər tərəfdən mitinq iştirakçıları tərəfindən tutulmuşdu. Hərbi maşınlardan bir neçə nəfər yüksək rütbəli Rus zabiti düşərək yolun açılmasını tələb etdilər. Mitinq iştirakçıları etiraz edərək yolu açmayacaqlarını bildirdilər.

Təxminən 2- saat Bakıda qalandan sonra geriyə qayıtdım. O vaxtlar mən məktəbdə təlim- tərbiyə işləri üzrə direktor müavini işləyirdim. Həmin günün səhəri ,20 YANVAR 1990- cı ildə, Bakıda dəhşətli qırğının törədildiyini eşitdik.



Sovet Ordusunun Bakıda törətdiyi faciədə 131- nəfər insan həlak oldu, 794- nəfər yaralandı, 400-nəfər həbs edildi, 4- nəfər itgin düşdü. Ölənlər arasında qadınlar, uşaqlar, qocalar, Fövqaladə Hallar Nazirliyinin əməkdaşları və polislər də, var idi.

Hərbiçilərin açdığı yandırıcı güllələr ilə, 200-ev və mənzil, 80- minik avtomobili, o cümlədən təcili tibb

yardım maşınları, dövlət əmlakları dağıdıldı. 20 yanvar faciəsi Azərbaycan xalqına qarışı törədilmiş ən qanlı cinayət idi. Bakıda gecə vaxtı elan edilmiş fövqaladə vəziyyətdən isə əhalinin xəbəri yox idi, bu haqda əhaliyə xəbər verilməmişdi.

20- Yanvar faciəsi Dünya azərbaycanlılarının, Azərbaycan xalqının OYANIŞ GÜNÜDÜR, milli oyanışın çiçəklənməsi, cəsarət, qəhrəmanlıq günüdür. Bu faciə Azərbaycan xalqının iradəsini nəinki qıra bilmədi, daha da bərkitdi, polad kimi əyilməz etdi və xalqımıza sarsılmazlıq dərsi keçdi.

20-Yanvar faciəsi bir məşəl olaraq azadlıq yolumuzu işıqlandırdı, müstəqilliyimizi yaxınlaşdırdı. Bu faciəni törətməklə Qorbaçov hakimiyyəti öz iç üzünü nümayiş etdirdi, ermənipərəst olduğunu sübut etdi.

20-Yanvar faciəsi Azərbaycanın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda mübarizədə fenomenal rol oynadı.

O gün Bakıda törədilmiş qırğınlardan sonra yanvarın 25- də Neftçalada, yanvarın 26- da  Lənkəranda daha 8- nəfər qətlə yetirildi.

Yanvarın 21-də, Azərbaycan xalqının görkəmli oğlu, Ümummilli lider Heydər Əliyev, ailə üzvlərilə birlikdə, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək doğma xalqı ilə bir yerdə olduğunu nümayiş etdirdi.

Heydər Əliyev, Bakıda qırğn törətmiş, Bakı küçələrini qanla böyamış Sovet Hakimiyyətini, Azərbaycanın yarıtmaz rəhbərliyini kəsgin ittiham edərək bəyanat verdi, bu hadisəni terror aktı kimi pislədi və Kommunist Partiyası sıralarından imtina etdi.

20- Yanvar, xalqımızın şüurunda inqilabi çevriliş etdi, Sovet Dövlətinə qarşı nifrət hissini alovlandırdı!

# MÜSTƏQİL AZƏRBAYCAN



20- ci əsrin sonlarında SSRİ- nin dağılması ilə, Azərbaycan dövləti öz müstəqilliyini bərpa etdi.

1991-ci ilin avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sesiyası xalqın tələbilə "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyini bərpa etmək haqqında" bəyənnamə qəbul etdi.

Azərbaycan Respublikasının Ali Sovetinin 18 oktyabr 1991- ci il tarixi sesiyasında, "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı yekdilliklə qəbul edildi. Azərbaycan xalqı yenidən öz müstəqilliyinə qovuşdu.

Azərbaycan Respublikasının müstəqilliyini ilk olaraq 1991-ci il noyabrın 9-da Türkiyə, sonra Rumuniya, Pakistan, İsveçrə, İran, ABŞ, Rusiya (10 aprel 1992) tanıdı.

2 mart 1992-ci ildə, Azərbaycan müstəqil dövlət kimi BMT- də, təmsil olundu.

# QANLI GÖZ YAŞIMIZ, QARAKƏND FACİƏSİ



1991-ci il noyabrın 20-də, Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kənd ərazisində, Erməni hərbiçiləri tərəfindən saat 14:42- də, 300- metr yüksəklikdə uçan Azərbaycana məxsus Mİ-8 №72 helikopteri vurulur. Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, baş prokroru İsmət Qayıbov, Dövlət müşaviri Məhəmməd Əsədov, Millət vəkilləri Vaqif Cəfərov, Vəli Məmmədov, baş nazirin müavini Zülfi Hacıyev, Prezident Aparatının şöbə müdiri Osman Mirzəyev, Qazaxstan Respublikası Daxili İşlər Nazirinin müavini Saylau Serikov, jurnalist Alı Mustafayev var idi. Ümumilikdə 22- nəfər həlak olur.

Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də verilir. Lakin bu faciə, Xankəndində erməni dilində 15:30- da səsləndirilir. Yerevan radiosu 16:15-də, Tehran radiosu 16:40-da, Moskva radiosu 19:00- da, məlumat verir.

Həlak olanlar, Xankəndinə Moskvanın xahişilə, Erməni liderlərilə Qarabağ problemini müzakirə etmək üçün gedirdilər.

# MALIBƏYLİ VƏ QUŞÇULAR FACİƏLƏRİ




Malıbəyli və Quşçular kəndləri, Şuşa rayonunda Qarabağ silsiləsinin dağətəyi ərazisində yerləşir. Erməni silahlı qüvvələri, Xocalı şəhərini işğal etməzdən əvvəl Malıbəyli , Aşağı və Yuxarı Quşçular kəndlərini ələ keçirməyi planlaşdırmışdılar. Bu çirkin niyyətlərinə çatmaq üçün erməni silahlı qüvvələri üç müxtəlif istiqamətlərdən Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri üzərinə hücuma keçdilər. Bu kəndlərdə 3 mindən çox əhali yaşayırdı. Kəndlərin müdafiəsinə yalnız 60 nəfər əli silahlı könüllü cəlb edilmişdi. Kənd camaatı döyüşmək istəsə də, silahları yox idi.

Düşmən çox amansız və qəddar idi, kənd sakinlərinə kətdən çıxıb getməyə imkan vermirdilər. Erməni cəlladları kənd  sakinlərini əsir götürmək, yandırıb göz dağı vermək istəyirdilər. Kəndlərdən çıxmaq üçün bütün

yollar erməni silahlıları tərəfindən tam nəzarətə alınmışdı.

Kənd sakinləri məcbur olub düşmən nəzarətində olan ərazilərdən keçib Ağdama, Xocalıya getmək istərkən düşmən qüvvələrinin atəşi altına düşdülər. Bu dəhşətli gündə 50 nəfərdən çox kənd sakinləri vəhşicəsinə öldürüldü, 100- dən çox kənd sakinləri ağır yaralandı və əsir götürüldü. 1992- ci il fevralın 11- 12- də, Şuşanın Malıbəyli, Aşağı və Yuxarı Quşçular kəndləri erməni silahlı qüvvələrinin əlinə keçir.

Bu faciənin baş verməsində ermənilərin xarici ölkələrdən- Suriyadan, Fransadan, Livandan gətirdikləri muzdurlar da, böyük rol oynamışdılar. Həmin kəndlərdə 1988- ci ildə Ermənstandan zorla çıxarılmış çoxlu qaçqın yerləşdirilmişdi. Kənd əhalisi qışın sərt, çaxtalı günlərində öz bədənlərini gülləyə sipər edərək dağlara, meşələrə üz tuturlar. Belə şaxtalı günlərdə canını götürüb meşələrə üz tutan kənd sakinlərinin xeyli hissəsi həlak olur, yalnız az bir hissəsi düşmən əlindən xilas ola bilirlər.

# QANLI GÖZ YAŞIMIZ, QARADAĞLI FACİƏSİ





Ermənilərin Qarabağda azərbaycanlılara qarşı törətdiyi ən qanlı cinayətlərdən biri də, Qaradağlı faciəsidir.

Qaradağlı kəndı Xocavənd rayon mərkəzindən 13 km qərbdə, Xankəndinə gedən avtomobil yolunun üstündə, dağətəyi ərazidə yerləşir. Kənd əhalisi Qarabağda erməni seperatçılarının baş qaldırdığı gündən rahat yata bilmr, bəzən səhəri "dirigözlü" açırdılar.

1990- cı il noyabrın 24- də, 3 nəfər kənd sakini Xocavənd -Xankəndi yolunun 6 km- yində ermənilər tərəfindən vəhşicəsinə qətl edilir. 1991- ci il yanvarın 9- da, kəndin girəcəyində UAZ-markalı avtomobil, erməni vandalları tərəfindən atəşə tutulur, 3 nəfər öldürülür, 1 nəfər yaralanır.

Daha sonra iki nəfər kənd sakinini kəndin yaxılığında qətl edirlər. Bir neçə gündən sonra, 6 nəfər kənd sakinləri diri -diri yandırılır. 1991- ci il sentyabrın 8-də, Xocavən -Xankəndi yolunda sərnişin dolu avtobus erməni quldurları tərəfindən atəşə tutulur, 2 nəfər oğlan uşağı, 6 nəfər qadın həlak olur. Bütün bu qətllərin hamısı planlı şəkildə, yuxarıların göstərişilə aparılırdı. 1992- ci il fevralın 14-də, qarlı- çovğunlu bir gündə erməni quldurları, öz havadarlarının köməyilə, heç bir yerdən kömək ala bilməyən, tək- tənha qalan Qaradağlı kəndinə hücum edirlər.

14 nəfər Azərbaycan Ordusunun əsgəri Vətən yolunda qəhrəmancasına şəhid olur. 118 nəfər kənd sakinlərini düşmən əsir alır. Əsir aparılanlardan 101 nəfəri vəhşicəsinə öldürülür. Kəndin "Bəylik bağı"- adlanan yerində daha 23 nəfər kənd sakinləri erməni cəlladları tərəfindən güllələnir, yaralıları isə silos quyusuna töküb diri- diri basdırırlar.

1992- ci il 17 fevralda, Qaradağlı kəndi işğal edilərək yandırılır, qarət edilir. 200- dən çox ev yandırılaraq külə döndərilir. Kənd sakinlərinin bəziləri düşmənin əlindən canını qurtararaq dağlarla, meşələrlə üz tutaraq Vətənə pənah aparırlar.

# XOCALI, QAN YADDAŞIMIZ




Xocalı faciəsi dünyanın ən qəddar, ən amansız, ən dəhşətli soyqrımlarından biridir.

"Dənizdən dənizə böyük Ermənstan "-yaratmaq arzusu ilə yaşayan erməni ideoloqları Xocalı faciəsini törətməklə Azərbaycan xalqını qorxutmaq, öz doğma, ata- baba yurdlarından didərgin salmaq və Qarabağa yiyələnmək məqsədi güdürdülər."Hay"-lar Qarabağı Ermənstana birləşdirmək üçün hər cür şərəfsizlikdən istifadə edirdilər.

1992-ci il fevralın 25-dən, 26-na keçən gecə, təkcə Azərbaycan tarixinə yox, dünya tarixinə qanla yazıldı. Soyuq və şaxtalı bir qış günündə, dünya xalqlarını lərzəyə salan dəhşətli bir cinayət törədildi.

Xankəndı şəhərindən 14 km şimal- şərqdə yerləşən Xocalı şəhərində 1992-ci ilin faciə gününə qədər 7-min əhali yaşayırdı. 1989-cu ildə Fərqanədən (Özbəkistan) didərgin salınmış Axısqa türkləri də, burda yaşayırdılar.

**Haşiyə:-** 1944- cü ildə, Stalinin əmrilə Gürcüstanın Ahalsıx bölgəsində yaşayan 86-min axısqa Türkləri, öz ev-eşiklərindən, doğma yurdlarından didərgin salındılar. Stalinin bu əmri cəmi 24- saat ərzində icra edildilmiş, 86- min Axısqa Türkləri Qazaxstana, Özbəkistana, Qırğızıstana, Azərbaycana köçürülmüşdür. Özbəkistan SSR-i, axısqa türklərininin ən kompakt yaşadığı bir ərazi olmuşdur. 1988-ci il məlumatına əsasən bu ərazidə 110- minə yaxın axısqa türkü yaşamışdır.

Fərqanə hadisələri 1989- cu ilin 1 iyun tarixində başlamışdır. İlk əvvəl Özbək gənclərilə axısqalı gənclər arasında başlanmış narazılıq, sonra genuş miqyaslı bir hadisəyə çevrilir. Bu davada 100-nəfərdən çox axısqalı türkü öldürülür və 100- lərlə insan yaralanır, çox sayda yaşayış evləri yandırılır, dağıdılır. Vəziyyətin daha da, ağırlaşmasından ehtiyat edən axısqalı türklər bölgəni tərk etmək məcburiyyətində qalırlar.

Təxminən 100 minə yaxın axısqalı türkü Azərbaycana və digər yaxin ölkələrə pənah aparırlar. Yaxşı yadimdadır, Bakının hava limanında idim, Azərbaycana pənah gətirən axısqa türk qardaş- bacılarımızın hava limanında acınacaqlı vəziyyətlərini görəndə hamımız, orda olanlar göz yaşımızı saxlaya bilmədik, axısqalı körpə uşaqların, qadınların göz yaşı axıtdıqlarını görındə biz də, göz yaşı axıdırdıq. (1989). Haşiyə bitdi.

Həmçinin, erməni faşistləri tərəfindən Qarabağın ətraf ərazilərindən qovulan azərbaycanlılar da, Xocalıda yaşayırdılar.

Xankəndində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyilə 50-dən çox qrad və "Alazan "-tipli raketlərdən, tanklardan Xocalı şəhəri 2-saata qədər fasiləsiz atəşə tutulur.

Azğınlaşmış erməni hərbi birləşmələri Qarqar çayı istiqamətindən “ Ferma”-deyilən yerdən dinc əhaliyə qarşı kütləvi soyqrım törətdilər.

O günlər Xocalı şəhərini yüngül atıcı silahlarla silahlanmış Xocalı özünümüdafiə dəstəsi, milis və milli Ordunun döyüşçüləri müdafiə edirdilər. Şübhəsiz ki, yüngül silahlarla silahlanmış döyüşçülər, başdan ayağa ağır silahlarla silahlanmış , tanklarla hücum edən düşmənin qarşısını ala bilməzdilər.

Xocalı soyqrımı, 20- əsrin sonunda yer üzündə törədilmiş ən dəhşətli cinayət idi.

Bu faciə hitlrerçilərin Belarusiyanın Xatın kəndində törətdikləri cinayətlərin oxşarı idi. O kətdə faşistlər 149- kənd sakinini tövləyə yığıb diri- diri yandırmışdılar, cavanları, körpələri isə vaqonlara doldurub Almaniyaya göndərmişdilər.



XOCALI SOYQRIMI nəticəsində 613- nəfər şəhər sakinləri, o cümlədən 63- uşaq, 106-qadın, 70- yaşlı insan




vəhşicəsinə öldürülür, 8- ailə tamamilə məhv edilir. Xocalıda 25-uşaq hər iki valideynlərini itirir, 130-uşaq bir valideynindən məhrum olur, 487 nəfər yaralanır, 1275-nəfər əsir aparılır. Əsir aparılanların 68- i qadın, 26- sı uşaq idi, onlardan indiyə qədər heç bir məlumat əldə etmək mümkün olmadı. Bu faciədə 67 nəfər Xocalı sakini amansızlıqla öldürülür, onların gözləri çıxardılır, diri- diri yandırılır. Süngü ilə hamilə qadınların qarnı deşik- deşik edilib öldürülürdü. Öldürülənlərin üstündən tanklarla, ağır maşınlara keçirdilər. (bu kitabı yazanda bir veteran-əsgərdən aldığım müsahibə:- “Düşmən bizim şəhidlərin üstündən tanklarla keçirdilər, biz bu dəhşətli mənzərəni uzaqdan görürdük, amma hücuma keçmək üçün hərbi sursatımız tamam qurtarmışdı, gücümüz ancaq göz yaşımıza çatırdı”.)

Ümummilli Lider Heydər Əliyev 1 mart 1994- cü ildə Xocalı Soyqrımı haqqında xüsusi fərman imzalayır. Azərbaycan Respublikasının Milli Məclisinin qərarı ilə, 26 fevral “Xocalı Soyqrım günü, milli matəm günü” elan edilir. Hər il 17:00-da, Respublikada “Sükut günü” elan edilmişdir.

**Haşiyə:** -Tatarıstan Respublikasında Azərbaycan Diasporasına rəhbərlik etdiyim illərdə( Reqional İctimai Təşkilatı Azərbaycan Milli- Mədəni Muxtariyyatı İdarə heyətinin sədri- 2012 dekabr- 2017-ci illər ), Xocalı soyqrımı həmişə bizim diqqətimizdə olmuşdur. Belə

ki, 2013- cü ildə, Diasporamız tərəfindən fevralın 25-də, Kazan şəhərinin mərkəzi xəstəxanasında (15 №) Xocalı soyqrımı ilə əlaqədar "Qan köçürmə"aksiyası keçirtdik və bu aksiya 1917- ci ilə qədər davam etdi. Hər aksiyada 15 litrdən çox qan təmənnasız olaraq xəstəxanalara verilirdi. Eyni zamanda Rusiyada ilk dəfə məhz Kazan şəhərində "Xocalı faktlarla" sənədli kinoları 2013-cü ildən başlayaraq yerli əhalinin iştirakı ilə, "MİR"-kinoteatrında nümayiş etdirilirdi və bu tədbir 2017- ci ilə qədər, hər il fevral ayının 25- 26 da, həmin kinoteatrda nümayiş olunurdu. Xocalı faciəsininin simvolu olan "Ana və uşaq" afişası, iki metrə qədər hündürlüyündə Kinoteatrın önündə 10 günə qədər asılı qalırdı. Şəhər sakinləri, "Xocalı faktlarla" sənədli kinoları izləyərkən ermənilərin, Xocalı sakinlərinin başına gətirdikləri müsibətləri görüb göz yaşlarını saxlaya bilmirdilər. Azərbaycandan ATV-televiziya kanalının Moskvada olan nümayəndəsi, jurnalist Roman Ağayev və yerli jurnalistlər də, o tədbirdə iştirak edirdilər. Həmin günlərdə Xocalı haqqında minlərlə buklet şəhər sakinlərinə paylanılırdı. Bu tədbirlərin birində (2015) Heydər Əliyev Fondunun vitse Prezidenti, " Xocalıya ədalət " beynəlxalq kompaniyasının təşəbbüsçüsü Leyla xanım Əliyeva, öz nümayəndəsi Ruslan Eyvazovu, "Xocalı soyqrımı" günü ilə əlaqədar tədbirdə iştirak etmək üçün Kazan şəhərinə göndərmişdi. Ruslan müəllim tədbirdən bir gün əvvəl keçirtdiyimiz iclasda da, iştirak etdi.

Biz, Kazan şəhərində hər il Azərbaycanın ayrı-ayrı kinolarını,"Azərbaycan kino günləri"-tədbirilə, Kazanda kinoteatr "MİR"-də, yerli əhalinin iştirakı ilə nümayiş etdirirdik.

Haşiyə bitdi.

# QANLI GÖZ YAŞIMIZ , "AĞDABAN" FACİƏSİ




Ağdaban kəndi, Kəlbəcər rayonunda Ağdaban çayının sağ sahilində, Ağdaban dağının yamacında, Murovdağ silsiləsinin cənub ətəyində, Kəlbəcər şəhərinindən 35 km.şımal- şərqdə yerləşir.

Ermənilər Kəlbəcər rayonunun işğalını asanlaşdırmaq üçün ətraf kəndləri yandırıb camaata göz dağı vermək istəyirdilər.

1992-ci il aprelin 7-dən 8- nə keçən gecə Ermənstan silahlı qüvvələri, Dağlıq Qarabağın seperatçı quldur dəstələrinin köməyilə, Ağdaban və Çauqovuşan kəndlərinə hücum etdilər. Kənd əhalisi şirin yuxuda idi, onlar belə vəhşiliyi gözləmirdilər.

Erməni quldur dəstələri kəndi müdafiə edən kiçik dəstəni qəddarcasına öldürdükdən sonra, kəndi yaylım atəşinə tuturlar. Kənd yuxuda ikən hər tərəfdən açılan yaylım atəşləri, heç bir yerdən köməyə ümidi olmayan

kənd camaatının gözündə yanar alova çevrildi. 130-dan çox ev alova büründü, 779 nəfər müxtəlif işgəncələrə məruz qaldı, 67 nəfər kənd sakinləri işgəncə ilə öldürüldü, 12 nəfər ağır bədən xəsarəti aldı, 8 nəfər qoca, 2 azyaşlı uşaq ,7 nəfər qadın diri-diri yandırıldı. Sayı məlum olmayan çoxlu insan əsir aparıldı, girov götürüldü.

Ermənilər dünyada görünməmiş ən qəddar, ən qorxunc üsullarla kənd camaatına divan tuturdular.

Dədə Şəmşirin nəslindən olan 15 nəfər kənd sakini də, bu faciənin qurbanı oldu. Dədə Şəmşirin 28 yaşı olan nəvəsi Qurbanov Qulu Şabər oğlunu, ermənilər diri- diri yandırmış, 8 yaşlı körpəsinin gözləri önündə atası Camalı güllələmiş, sonra uşağı diri- diri torpağa basdırmışdılar.

Aşıq Qurbaninin və onun oğlu olmuş aşıq Şəmşirin ev arxivi yandırılaraq külə döndərilmişdir.

Faciədən sonra salamat qalan bəzi yaşlılar, kətdən çıxıb getməyə imkanı olmayan kəndin bir neçə sakinləri, yandırılmış evlərini birtəhər təmir edərək kətdə yaşamağa başlayırlar, lakin düşmən 1993-cü ilin mart ayının 27-də, Kəlbəcər şəhərini işğal edən zaman yenidın Ağdaban kəndinə hücum etdilər, kənd ikinci dəfə yandırıldı, külə döndərildi, məzarlıq yerlə -yeksan olundu.

# QANLI GÖZ YAŞIMIZ, "BALLIQAYA" FACİƏSİ



Ballıqaya faciəsi, 1992-ci il avqustun 28- də, səhər saat 5:00- da, Goranboy rayonunun Ballıqaya kəndində baş verdi.

1992-ci il mayın 18-də, Laçın rayonu işğal ediləndən sonra öz evlərindən didərgin düşən Laçın əhalisi Azərbaycanın müxtəlif bölgələrinə üz tutdular. O cümlədən bir neçə Laçınlı ailə Masallı rayonuna pənah gətirdilər. Onlardan iki ailə Masallının Abasbəyli kəndində yerləşdilər. Qonşuluğumuzda olan Laçınli bacı -qardaşlarımız çox zəhmətkeş, səmimi, gözəl insanlardır. Allah erməniləri bəlasını versin ki, xalqımız ayrı düşdü öz ata -baba yurdlarından.

Bir-birinə yaxın qohumluğu olan 6 Laçınlı ailə də, Goranboy rayonunun Ballıqaya kəndinə üz tuturlar. On-

ların əsas məşğuliyyəti heyvandarlıq idi. Onlar başqa köçgün bacı- qardaşlarımız kimi öz ata-baba yurdlarına qayıtmaq arzusu ilə yaşayırdılar.

1992- ci il, avqustun 28- də, saat 5:00-da Ermənstan Silahlı Qüvvələrinin yaratdığı divversiya qrupunun 12- nəfər üzvü, öz çadırlarında şirin yuxuya gedən Laçınlı köçgünləri, iri çaplı silahlardan, qumbaraatanlardan atəşə tutdular. Atəş nəticəsində 24 nəfər günahsız insan şəhid oldu, qətl edilənlər arasında 6 nəfər azyaşlı uşaqlar da, var idi.

Çadırlarda əzab- əziyyətlə yaşayan, öz dədə -baba yurdlarından didərgin düşən Laçınlı bacı-qardaşlarımıza aman vermədi, erməni cəlladları.

Təsadüf üzündən, o güllələnənlər arasında 9 nəfər yaralı sağ qalır, həyata dönür.

Ballıqaya faciəsi, bundan əvvəl Azərbaycan torpağında törədilmiş faciələrin silsilə davamı idi. İnsanlığa sığmayan vəhşiliyin, barbarlığın nümunəsini cızdılar erməni şərəfsizləri. Yatmış insanı ilan da çalmır, körpə uşaqları, qocaları, qadınları yuxuda olan zaman güllələyən, öldürən və bundan həzz alan vəhşi bir toplum...

# ERMƏNİLƏRİN RUSİYADA ÇİRKİN İŞLƏRİ

2014-cü ilin qış aylarından biri idi, gecə saat 22:00 olardı, telefonuma zəng gəldi. Zəng edən Bakıdan Vesti. Az saytının rəhbəri Araz müəllim idi.-“ Sübhan müəllim, salam, necəsiniz?

-Çox təşəkkür edirəm, siz necəsiniz?- dedim.

Araz müəllim dərhal mətləbə keçdi.-“Sübhan müəllim, necə olur ki, ermənilər sizin gözünüzün qabağında, Kazan şəhərinin mərkəzində “ Qarabağ” adıyla konsert verirlər, amma siz susursunuz?. Onların küçələrə vurduqları afişanı Kazan Diasporası görmürmü?”...

Sözün düzü, bu xəbər məni çox narahat etdi. Axı necə ola bilər ki, ermənilər Kazanda belə bir tədbir keçirir, amma biz, Azərbaycan Diasporunun bu işdən xəbəri yoxdur?

Səhər saat 10:00- da, Kazan şəhərinin “Dostluq Evi”-ndə, Azərbaycan Milli- Mədəni Muxtariyyatın idarə heyətinin iclasını çağırdıq və bu məsələni müzakirə etdik. Məlum oldu ki, İdarə heyətinin 13 nəfər üzvlərindən heç birinin ermənilərin “ Qarabağ” adı altında keçirtdiyi konsert tədbirindən xəbərləri yoxdur. O gün heyət üzvləri ilə birlikdə Kazan şəhərinin bütün kinoteatrlarını yoxladıq, lakin “Qarabağ” adı altında erməni tədbiri haqqında məlumat əldə edə bilmədik. Günün ikinci yarsında axır ki, öyrəndik ki, ermənilər şəhər mərkəzindən kənar, çox xəlvət bir yerdə “ Qarabağ” adı altında tədbir keçirirlər və binanın giriş qapısına da, bu barədə afişa vururlar. Sonra erməni diasporu, bu tədbir haqqında erməni saytlarında paylaşım edir. Bu

məlumatı da, Vesti.Az saytı, erməni saytlarından öyrənir. Mən Diaspor sədrı kimi Tatarıstan Respublikasının müxtəlif dövlət orqanlarına, o cümlədən Diasporla iş üzrə Dövlət Komitəsinə ermənilərin qanunsuz "Qarabaq" tədbirinin tezliklə dayandırılması haqqında etirazımı yazılı şəkildə bildirdim. Həmin gün dərhal erməni tədbiri ləğv edildi və bir gündən sonra müğənnilər Ermənctana qaytarıldı. Sonradan öyrəndik ki, Ermənstandan Kazana gələn həmin "Qarabağ" qrupu, Tatarıstanın ermənilər yaşayan bütün rayonlarında da, konsert proqramı ilə çıxış etməliymişlər, sonra da, Rusiya şəhərlərini gəzib "Qarabağ" proqramı ilə çıxış edəcəklərərmiş. Vesti.az. saytına, bizi xəbərdar etdikləri üçün zəng edib təşəkkürümü bildirdim. Həmçinin Rusiyanın Diaspor Təşkilatlarını bu barədə məlumatlandırdım.

# XANKƏNDİ ŞƏHƏRİNİN İŞĞALI




Xankəndi şəhərinin 270 illik yaşı vardır. Bu şəhər 18-ci əsrin axırlarında Qarabağ xanlığının istirahət məsgəni kimi salınmışdır. 1813-cü il, Gülüstan müqaviləsinə qədər Xankəndi, ancaq xan ailəlsinin və bəzi əyanların yaşadığı, istirahət etdiyi məsgən kimi tanınıb.O vaxtlar erməni adlı bir toplum Xankəndində yaşamırdı.

Gülüstan müqaviləsindən (1813) sonra bu şəhərdə Rusların hərbi qarnizonu yerləşdirilir. Xankəndi, Bakıdan 329 km. məsafədə yerləşir. Ruslar özlərinə qulluqçu və casus kimi İrandan ilk olaraq 80 nəfər erməni ailəsini Xankəndinə gətirirlər. Rusların, o dövrdə olan rəsmi sənədlərində bu şəhər elə Xankəndi kimi  də, qeyd olunmuşdu.

O dövrdə Xankəndində çoxlu Azərbaycan əyanları da, yaşayırdı.

Xankəndi şəhəri, şimaldan Kəlbəcər, Tərtər, Ağdərə, Ağdam, cənubdan Şuşa, şərqdən Xocavənd, qərbdən Laçın, mərkəzdən isə Xocalı və Əsgəran rayonları ilə həmsərhəddir.

Azərbaycan Mərkəzi İcrayə Komitəsi Sovetinin 07.07.1923- cü il tarixi Dekretinə əsasən, Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılarkən, vilayətin mərkəzi Xankəndi şəhəri olmuşdur. 18 sentyabr 1923- cü ildə, Qarabağ Vilayət Partiya Komitəsinin qərarı ilə, Xankəndi şəhərinin adı dəyişdirilərək Stepanakert şəhəri adlandırılmışdır.

26 noyabr 1991-ci il tarixli, 279- 12 №-li Azərbaycan Respublikasının qanununa əsasən, şəhərin tarixi adı yenidən özünə qaytarılaraq Xankəndi adlandırılır.

28 dekabr 1991-ci ildə, Ermənstan Silahlı Qüvvələri tərəfindən Xankəndi şəhəri işğal edildi və orada seperatçı rejim yaradıldı. Həmin gün Xankəndinin sonuncu yaşayış məntəqəsi olan Kərgicahan qəsəbəsi də, işğal edilir.

Xankəndi şəhəri, 15 oktyabr 2023- cü ildə Azərbaycan Ordusu tərəfindən azad olunur.

# ŞUŞA ŞƏHƏRİNİN QISA TARİXİ




Şuşa şəhərinin təməli 1752- ci ildə, Qarabağ xanı Pənahəli xan tərəfindən qoyulmuşdur. İlk əvvəllər " Şuşa "adı ilə bərabər "Pənahabad" da, adlandırılmışdır.

18-cı əsrdə, Şuşa şəhəri Azərbaycanın ən mühüm şəhərlərindən biri olmuşdur. 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində Şuşa şəhəri Qarabağın musiqi mərkəzinə çevrilmişdir. Böyük bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi nəticəsində, Şuşada musiqi məktəbinin bünövrəsi qoyulmuşdur.

Xalq əfsanələrinə görə Şuşa şəhərinin yerləşdiyi ərazinin havası saf və şəffaf olduğu üçün bu yerə "Şuşa"-(-Şüşə) adı verilmişdir.

Şuşa şəhəri, 8 may 1992- ci ildə, erməni silahlı qüvvələri tərəfindən işğal edilir. İşğal zamanı 195 nəfər azərbaycanlı vəhşicəsinə öldürülür, 165 nəfər yaralanır, 58 nəfər azərbaycanlı itgin düşür.

Ermənilər 600-dən çox memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər Ağa məscidini, Xurşidbanu Natəvanın evini, Mollah Pənah Vaqifin məqbərəsini dağıtmış, 22 məktəb, 8 mədəniyyət evi, 22 klub, 31 kitabxana, 2 kinoteatr, 8 muzey, həmçinin

Şuşa tarix muzeyi, musiqi alətləri fabriki yerlə yeksan edilmişdir.

Şuşanın işğal edilməsilə ermənilər demək olar ki, Dağlıq Qarabağa sahib olurlar.

Haşiyə:- Şuşa şəhərində əvvəllər, yəni Sovetlər vaxtı iki dəfə olmuşdum, amma çox istəyirdim ki, İkinci Vətən müharibəsindən sonra Qarabağın mərkəzi Şuşa şəhərinə yenə gedim. Nəhayət, 20 iyul 2025- ci ildə, Şuşaya getmək mənə qismət oldu. Ailəmlə birlikdə Ağdam, Əsgəran, Xocalı, Xocavənd, Xankəndi və Şuşa şəhərində olduq. Yol boyu dağıdılmış kəndlərimizi, rayonlarımızı görəndə içim sızılayır, göz yaşı axıdırdım. Müzəffər Ali Baş Komandan başda olmaqla Müzəffər Ordumuzun adı tarixə qızıl hərflərlə yazıldı, o torpaqları düşmən əsarətindən xilas etdikləri üçün, alın ləkəmizi sildikləri üçün, Azərbaycan xalqının başını dünya xalqları içərisində ucaltdıqları üçün.

İsa bulağında, iki nəfər aşıq qardaş sinəsində saz oxuyurdu. Mən də, bir tarix müəllimi kimi orda, İsa bulağında, Xan Şuşanın tarixindən, Azərbaycan Ordusunun qəhrəmanlığından bir neçə kəlmə danışdım, şəhidlərimizi yad etdik.

Şuşa şəhəri, 8 noyabr 2020- ci ildə erməni barbarlarından azad edilmişdir.

**Qəhrəman Şuşa**

Sən ey tarix yazan qəhrəman əsgər,
Vuruş meydanında göstərdin hünər.
Xalqın dar günündə qeyrətli bir ər,
Bu gün azad etdin, qurtuldu Şuşan,
Gözün aydın olsun, can Azərbaycan.

Vətən müharibəsi aparır Vətən,
İt kimi qovulur ölkəmdən düşmən.
Gözü götürməyən yanır içindən,
Azad oldu bu gün, o cənnətməkan,
Gözün aydın olsun, ey Azərbaycan.

Siz ey tülkü kimi hiyləgər tayfa,
Səndən çox uzaqdır etibar, vəfa,
Sülənir qap -qapı, gəzirsən şəfa.
Artıq son nəfəsdir, verirsiniz can,
Gözlərimiz aydın, ey Azərbaycan.

Tarixi şəhərim qovuşdu bizə,
Xarı bülbüllərim çıxdılar düzə.
Qara gecələrim döndü gündüzə,
Salam söyləyirlər Vaqif, Natəvan,
Gözlərimiz aydın, ey Azərbaycan.

Ali Baş Komandan, gözümüz aydın,
Məzarını qazdıq düşmənin, yadın.
Ey şanlı əsgərim, həkk oldu adın,
Üçrəngli bayraqla yüksəldi Şuşan,
Yeni tarix yazdı əsgər, komandan.

Ey dəyərli xalqım, sən ey sirdaşım,
Vahid bir cəbhədə olan qardaşım.
Türkiyəm, Pakistan, tarix yaddaşım,
Sübhan Abasbəyli sizlərə qurban,
Sən ey tarix yazan, can Azərbaycan.

**(8 noyabr 2020.)**

# LAÇIN RAYONU HAQQINDA MƏLUMAT




Laçın rayonu şimaldan Kəlbəcər, cənubdan Qubadlı, şərqdən Xocalı, Şuşa və Xocavənd rayonları, qərbdən Ermənstanla həmsərhəddir.

Laçın rayonu ən qədım insan məsgənlərindən biridir. Bir vaxtlar Qarabağ xanlığına, Zəngəzur qəzasına daxil olmuşdur. 1930-cu ildə, müstəqil inzibati rayon kimi yaradılıb. Rayon ərazisi 1835 kv.km- dir, hevandarlıq üçün çox əlverişli ərazisi, gözəl təbiəti vardır. Laçın rayonu, nadir tapılan ağacları ilə çox zəngindir.

Qeyd: 1920-ci il noyabrın 30- da, Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsinin Siyası və Təşkilat bürolarının birgə iclasında, Zəngəzurun çox hissəsi Ermənstan SSR-yə bağışlanır.

Ermənistan hökuməti 1933- cü ildə, Zəngəzurun adını xəritədən silmək üçün Zəngəzurun yerində Qafan, Gorus, Sisian (Qarakilsə) və Mehri rayonlarını yaradır. Nəticədə Naxçıvan, Azərbaycanın digər rayonlarından ayrı düşür.

Zəngəzurun Azərbaycanda qalan hissəsində isə, Zəngilan (707 kv.km), Qubadlı (802 kv.km), Laçın (1835 kv.km) rayonları yaradılır. Beləliklə, Azərbaycan Demokratik Respublikasının tərkibində mövcud olmuş Zəngəzur qəzasının çox hissəsi Ermənistana verilərək Azərbaycan xəritəsindən silinir, amma Azərbaycan xalqının yaddaşında həmişəlik qalır.

Laçın sözünün mənası- yüksəklik, ucalıq deməkdir. Əvvəlki adı Abdalılar olmuş, 1926-cı ildə, Laçın rayonu adlandırılmışdır.

Ermənilər nəyin bahasına olursa- olsun, Zəngəzurun Azərbaycan tərəfində qalan hissəsini də, ələ keçırmək və eyni zamanda bütün Qarabağa yiyələnmək məqsədi güdürdülər. Erməni komandanı Andronik öz silahlı qüvvələrilə, Laçın istiqamətindən Qarabağa daxil olmaq və oranın erməni əhalisini Azərbaycana qarşı üsyana qaldırmaq niyyəti güdürdü. O, çox böyük bir qüvvə ilə, Zabux kəndinə keçərək Laçın istiqamətindən irəliləməyə başladı.

Bu zaman Qarabağın general-qubernatoru Xosrov bəy Sultanovun qardaşı Sultan bəy Sultanov, öz partizan dəstəsilə ermənilərin yolunu kəsərək, Andronikin silahlı qüvvələrini darmadağın edirlər və Andronik çətinliklə qaçıb canını qurtarır. Sonralar o, Rusların maddi və hərbi köməyilə güclənir və Laçına tez- tez basqınlar

təşkil etməyə başlayır.

**Qeyd:** Kürdüstan qəzası Sergey Kirovun təklifilə, 1923-cü il iyunun 21-də, Azərbaycan SSR Xalq Komissarları Sovetinin iclasında yaradılmışdı. Kürdüstan qəzasının ilk mərkəzi Pircahan kəndi, daha sonra Laçın şəhəri olmuşdur. Ana dili Kürd dili idi.

Azərbaycan SSR- nin, 1929-cu il 8 aprel tarixi qərarı ilə, Kürdüstan qəzası ləğ edilir. Kürdüstan qəzasının yaradılması ermənilərin növbəti oyunu idi, lakin bu oyun öz bəhrəsini vermədi.

Ermənstanı Dağlıq Qarabağla birləşdirən əsas yol, Laçın rayonun ərazisindən keçirdi və bu yol, Laçın dəhlizi adlanırdı. Bu yol ermənilər üçün Xankəndinə gedən ən əlverişli yol idi. Bir də, Murov silsiləsi də, Ermənistanı Dağlıq Qarabağla birləşdirən əlavə bir yol idi.

Azərbaycan Respublikasının daxilində baş verən hökumət böhranı, Laçın rayonunun işğalını çox sürətləndirdi. 18 may 1992- ci ildə, Laçın rayonu Erməni Silahlı Qüvvələri tərəfindən işğal edilir. Ermənilər Laçın rayonunu qarət etdikdən sonra Laçını yandırıb külə döndərirlər.

Laçın şəhərinin 65430 nəfər azərbaycanlı və Kürd əsilli sakinləri öz ata- baba yurdlarından didərgin düşdülər. Çoxlu Laçınlı əsir götürüldü. 13745-ədəd yaşayış evi qarət edilib yandırıldı. Laçının müdafiəsi zamanı Azərbaycan Ordusunun 31 nəfər əsgəri şəhid oldu, 43 nəfər yaralandı.

Laçın rayonu, 26 avqust 2022- ci ildə, Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad edilir.

## LAÇIN

Otuz il zindanda qaldın Vətənsiz,
Otuz il göz yaşın töküldü, axdı.
Otuz il əzildin, yandın bədənsiz,
Bəzəyin yolları, qapını açın!
Qayıtdı evinə, qayıtdı, Laçın.

"Qızıl" ağacına soyqrım oldu,
İran bazarında satıldı, doldu.
Zümrüd meşələrin saraldı, soldu,
Sal qaya daşların hey qırçın- qırçın,
Qovuşdu Vətənə, qovuşdu, Laçın.

Əl- əyaq zəncirdən açıldı indi,
Üçrəngli bayrağım sevindi, dindi,
Qalib əsgərlərim düşməni yendi.
Siz ey vətənsizlər, durmayın, qaçın!
Döndü öz evinə, döndü, xan Laçın.

Şuşamın sağ əli, düşmən çəpəri,
Müzəffər Ordumun sinə dəftəri,
Məğrur dağ gözəli, elin təpəri,
Ey Günəş, ey Ulduz, şöləni saçın!
Qayıtdı evinə, qayıtdı, Laçın.

Sevindi ürəyim, üzüm oldu ağ,
Düşmən sinəsinə basıldı köz, dağ.
Yayıldı dünyaya xoş xəbər, növrağ,
Qartallar oylağı dağ, qaya yalçın,
Sübhan da, söyləyir, xoş gəldin, Laçın!.

**S.A.**

# XOCAVƏND RAYONU HAQQINDA




Xocavənd rayonu 1992-ci il oktyabr ayının 2- də, Ermənstan Silahlı Qüvvələri tərəfindən işğal edilir. Ermənilər tərəfindən 1723 yaşayış məntəqəsi, 47 sənaye obyekti, 144 kənd təsərrüfatı obyekti talan edilir və yandırılır.

Erməni vandalları 17 təhsil müəssisəsini, 4 məktəbəqədər tərbiyə ocağını, 59 mədəniyyət obyektini, 10 tarixi abidəni talanıb məhv edirlər. Xocavənd rayonunda 32 körpü, 42 su ambarı, 316 metr su kəməri sıradan çıxarıldı. Xocavəndlilər 145 nəfər şəhid verdilər, 300 nəfər-

dən çox insan əlil olmuş, 110 nəfər əsir aparılmışdı.

Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.

Xocavənd rayonu ərazisində 1,5 milyon yaşı olan Azıx mağarası yerləşir, həmçinin Tağlar mağarası, Tuğ kənd ərazisində yerləşən 5-8-ci əsrlərə aid Rituş qalası, Ərgünəş qalası, Ərgünəş dağ gümbəzi, Böyük Tağlar kəndində "Alban"məbədi və.s. yerləşir.

Xocavənd rayonu qədim tarixi abidələr məsgənidir, 1923-cü ilədək adı Aşağı Qaranlıq olmuşdur.

Ərazidə "Qaranlıq" dağı olduğu üçün rayona "Qaranlıq" adı verilmişdir. Bu yerlərdə "Qaranlıq" adlı çay da, vardır.

26 noyabr 1991- ci ildə DQMV ləğv edilərək Martuni və Hadrut rayonlarının bazası əsasında Xocavənd rayonu yaradılmışdır.

Rayonun ümumi sahəsi 1458 kv.km ,əhalisi 41725 min nəfər olmuşdur.

19-20 sentyabr 2023-cü il tarixində, Azərbaycan Silahlı Qüvvələrin Antiterror əməliyyatı nəticəsində Xocavənd rayonu Azərbaycanın nəzarətinə qaytarılmışdır.

# KƏLBƏCƏR HAQQINDA QISA MƏLUMAT




Kəlbəcər rayonu, qərbdən Ermənstan, şimaldan Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdən Tərtər, şərqdən Ağdam, Xocalı, cənubdan Laçın rayonları ilə həmsərhəddir.

1930-cu il avqustun 8-də, inzibati rayon statusu almışdır, qədim Türk dilində (Kevliçer) "Çay üstündə qala" deməkdir.

Kəlbəcər qədim yaşayış məsgənidir, burda 30 min illik yaşayış məsgənləri, 6 min il yaşı olan qaya təsvirləri, qədim Türk əlifbasının nümunələri aşkar edilmişdir.

18-ci əsrin ortalarında Qarabağ xanlıqlarının tərkibində olmuş, sahəsi 3054 kv.km olan bir şəhər, bir şəhər tipli qəsəbə (İstisu) , 145 ədəd kənddən ibarət olmuşdur. Tərtər çayı boyunca qədim süni mağaralar möv-

cuddur.

Kəlbəcər şəhəri Bakıdan təxminən 458 km. qərbdə, Tərtər sayı sahilində, sıldırımlı qayalar üzərində yerləşir. Şəhərin yerləşdiyi ərazi dağ düzənliyindən ibarətdir.

Mineral su yataqları, İstisu mineral bulaqları ilə zəngindir. Uzun müddət rayonun İstisu qəsəbəsində dünyaca şöhrəti olan İstisu sanatoriyası fəaliyyət göstərmişdir.

Kəlbəcər rayonu 2 aprel 1993- cü ildə, ermənilər tərəfindən işğal edilmiş, 54000 mindən çox Kəlbəçərli köçgün vəziyyətinə düşür, 321 nəfər əsir düşmüş, 511 nəfər Kəlbəcərli vəhşicəsinə öldürülmüşdür. O cümlədən 97 məktəb, 9 uşaq bağçası, 116 kitabxana, 43 klub, 42 mədəniyyət evi, 9 xəstəxana, 75 tibbi məntəqə, 100 mindən çox qaramal, 500 mindən çox qoyun-quzu, 100-lərlə maşın, texnika talan edilmiş və Ermənstana aparılmışdır.

Min illərlə Kəlbəcərdə , ata- baba yurdlarında yaşayan Kəlbəcər sakinləri, doğma torpaqlarından ayrı düşmüşdür .

Kəlbəcərin vətənpərvər oğullarının təşkil etdikləri özünmüdafiə qüvvələri, başdan-başa müasir silahlarla silahlanmış erməni faşistlərinin qarşısında geri çəkilməyə məcbur olurlar.

Ermənstan Silahlı Qüvvələrinin martın 27-də başlamış genişmiqyaslı hücumları Kəlbəcər rayonunn 2 -3 aprel 1993- cü ildə işğal edilməsilə başa çatır.

Kəlbəcərin müdafiəsində 140 nəfər Azərbaycan əsgəri şəhid oldu, 111 nəfər itgin düşdü, 1337 nəfər döyüşçümüz şaxtadan, don vurmadan xəsarət aldı.

Murov silsiləsilə əhatə olunan, sıx meşələri, çaylari, bulaqlari, qızıl yataqları ilə zəngin olan Kəlbəcər rayonu erməni vəhşilərinin əlinə keçir.

Kəlbəcər rayonu 2020- ci il noyabrın 25-də , Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmən əsarətindən azad edilir.

Gedək Kəlbəcərə, bir gəzib gələk,
Açsın ürəyimdə söz ləçək- ləçək.
Baxaq "İstisu"-ya, gur bulaqlara,
O gözəl yerlərə bir salam deyək.

Azad Vətənimi gəzək doyunca,
Gəzək dağlarını Murov boyunca.
Gözüm gözəlliyə baxıb uyunca,
Vətən bayrağını ürəyə geyək.

Düşmənin əlində oldu bir zaman,
Füzuli, Cəbrayıl, Şuşa, Zəngilan.
Qubadlı, Xocalı, Ağdam, Əsgəran,
Düşmənin boynunu sındırıb, əyək.

**S.A.**

# AĞDƏRƏ RAYONU HAQQINDA

Ağdərə oronimi "ağ" və "dərə" sözlərindən düzəlib, "kiçik çay yatağı" ,"dərin çuxur" deməkdir.

19 -cu əsrdə, Ruslar tərəfindən ermənilərin İrandan və Osmanlı İmperiyasından köçürülməsinə qədər, Ağdərə bölgəsində əhalinin əksəriyyətini, Azərbaycan türkləri təşkil edirdi. Ermənilərin, Azərbaycan torpaqlarına köçürülməsindən sonra, başqa bölgələrdə olduğu kimi, Ağdərədə də, ermənilərin sayı sürətlə artmağa başlayır.




Ayrı-ayrı dövrlərdə azərbaycanlıların ermənilər tərəfindən soyqrmlara məruz qalması, Ağdərədə ermənilərin sayının daha da, çoxalmasına şərait yaradır.

Ağdərə bölgəsi coğrafi baxımdan Xatınçay və Tərtər-

çay hövzəsinin bir hissəsini əhatə edir. Azərbaycan torpaqları Çar Rusiyasının tərkibində olduğu müddətdə, Ağdərə bölgəsi Yelizavetapol ( Gəncə) quberniyasının Cavanşir qəzasının ərazisinə daxil olmuşdur.

1923 -cü ildə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılanda, Ağdərə ərazisi 1923-1930- cu illərdə Geraberd, 1930- 1992- ci illərdə isə, Mardakerd adlandırılmışdır.

1985- ci ildən Ağdərəyə şəhər statusu verilir. Bu illərdə Ağdərənin əhalisinin sayı 44,4 min nəfər olmuş, ərazisi 1705 kv.km olmuşdur. Bu illərdə Ağdərədə 14 min azərbaycanlı yaşayırdı.

1992- ci ildə Ağdərənin tarixi adı bərpa olunur.

Ağdərə rayonunda bir şəhər, iki şəhər tipli qəsəbə, 57 kənd, 22 kənd sovetliyi olmuşdur.

Ağdərə rayonu DQMV- də, əhalinin ən çox məskunlaşdığı rayonlardan biri idi. 1992-ci il iyulun 4- də, Ordumuz tərəfindən azad olunsa da, yeni qüvvələr cəlb etməklə

1993-cü il iyulun 7- də, yenidən Ermənstan ordusu tərıfindən işğal edilir.

2023-cü il sentyabrın 20- də, Müzəffər Azərbaycan Ordusunun Qarabağda keçirtdiyi “Antiterror” əməliyyatı nəticəsində, Ağdərə şəhəri Azərbaycan Ordusunun nəzarətinə keçir.

# AĞDAM RAYONU HAQQINDA




Ağdam adının mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. ″Ağdam″ sözü qədim türk dilində “kiçik qala”- deməkdir. Çox -çox qədimlərdə Türkdilli qəbilələr özlərini müdafiə etmək üçün möhkəm qalalar tikdirərdilər.

Başqa bir mənbədə Ağdamın əsası 18-ci əsrdə, Qarabağ xanlığı dövründə Pənahəli xan tərəfindən qoyulmuşdur. Pənahəli xan bu ərazidə özü üçün ağ daşdan ev tikdirmiş və o, vaxtlardan həmin ev, ətraf kənd sakinləri tərəfindən “Ağ dam”, “Ağ ev” adlandırılmışdır.

Şəhərin rəsmi olaraq salınması bəzi mənbələrdə 1741-

ci il, bəzilərində isə 1752-ci il göstərilir. 1828-ci ildə, Ağdama şəhər statusu verilmişdir.

1988-ci ilin son aylarından etibarən Ermənstandan və Dağlıq Qarabağdan didərgin salınan 10- minlərə soydaşımız məhz, Ağdam torpağına pənah gətirirlər.

1993-cü il iyulun 4- dən başlayaraq erməni silahlı qüvvələri, artilleriya ilə Ağdam rayonunu atəşə tuturlar. Çox keçmir ki, Ağdam şəhəri və ətraf ərazilər tamamilə dağıdılır. Əhali məcburiyyət üzündən daha təhlükəsiz ərazilərə köçməyə başlayırlar. 23 iyul 1993- cü ildə, Ağdam rayonu erməni işğalçıları tərəfindən işğal edilir.

20 noyabr 2020-ci ildə, atəşkəs bəyanatının şərtlərinə əsasən Azərbaycan Silahlı Qüvvələri Ağdam şəhərinə daxil olur və bununla da, Ağdamın erməni işğalına son qoyulur.

Ağdam rayonu 8 avqust 1930-cu ildə, yaradılıb. Sahəsi 1150 kv.km, əhalisi 202, 200 nəfər olmuşdur. Rayonun relyefi əsasən düzənlik, qismən dağlıq ərazidən ibarətdir. Erməni işğalından əvvəl rayonda 54 tibb məntəqəsi, 79 mədəniyyət ocağı, 15 şərab zavodu, 1 şampan zavodu, 10 istirahət mərkəzi və xeyli musiqi məktəbləri olmuşdur. Ağdam uğrunda gedən döyüşlərdə, Azərbaycan Silahlı Qüvvələri 5 (bəzi məlumatlarda 6 min) mindən çox şəhid vermişdir. Ağdamın 16 nəfər Milli Qəhrəmanı, qazilərin sayı isə 4950 nəfərdir.

Qarabağ müharibəsinin ilk şəhidləri Ağdamdan olmuşdur. Onlar 22 fevral 1988-ci ildə şəhid olan Əli Hacıyev, Bəxtiyar Quliyev idi.

# CƏBRAYIL RAYONU HAQQINDA




Qarabağın gözəl dilbər guşələrindən biri də, Cəbrayıl rayonudur.

Cəbrayıl rayonu Azərbaycan Respublikasının cənubunda, Kiçik Qafqaz dağlarının cənub-şərqində, Araz çayının sol sahilində yerləşir, cənubdan İranla, cənub-qərbdən Zəngilanla, qərbdən Qubadlı, şimaldan Xocavənd, şərqdən Füzuli rayonu ilə həmsərhəddir.

Rayonun adı Cəbrayıl kəndinin adından götürülmüşdür.

Cəbyayıl kəndinin əsası 8-ci əsrdə yaşamış Cəbrayıl ata tərəfindən qoyulmuşdur. O, Sultan Əhməd adlı bir hökmdarın yaxın adamlarında biri olmuşdur. Digər məlumata görə Cəbrayıl toponimi Allahın mələklərindən biri olan Cəbrayıl adlı bir mələyin adı ilə əlaqədardır. Cəbrayıl sözü ərəbcə "Allahın qulu"-deməkdir.

Cəbrayıl ərazisi Midiya (e.ə. 7-3 əsr.), Albaniya (e.ə.4-

3 əsr.), Əhmənilər imperiyasının (e.ə. 4-3 əsr.) dövlətlərinin tərkibində olmuşdur. Cəbrayıl rayonu Babək Xürrəminin vaxtında ərəblərə qarşı mübarizənin dayaq məntəqələrindən biri olmuşdur.

10-cu əsrdən başlayaraq Şəddadilərin, Hülakilərin (13-14 əsr.), 14-əsrdə Teymurilərin, Qaraqoyunlu və Ağqoyunlu dövlətinin, Səfəvilər dövlətinin tərkibində olmuşdur. Çox-çox sonralar 18- ci əsrin ikinci yarsında və 19- cu əsrin əvvəllərində Qarabağ xanlığının tərkibində olmuşdur.

1873-cü ildə, Cəbrayıl və ona yaxın ərazilər Şuşa qəzasının tərkibindən çıxarılaraq Yelizavetapol quberniyasının tərkibində Cəbyarıl qəzası yaradılır. 1876- cı ildə, Cəbrayılda ilk rus məktəbi, 1912-ci ildə isə, qızlar məktəbi açılır.

1905-1918-ci illərdə, Cəbrayıl qəzası Qaryagin qəzası adlandırılmışdır.

Bir rayon kimi isə, 8 avqust 1930-cu ildə təşkil edilmiş, 4 yanvar 1963-cü ildən ləğv edilərək Füzuli rayonuna birləşdirilmiş, 17 iyun 1964-cü ildə isə, yenidən yaradılmışdır.

Cəbrayıl rayonu 1993- cü il avqustun 23- də, Ermənstan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir. İşğal zamanı rayonda 1 şəhər, 4 qəsəbə, 97 kənd olmuşdur. Bütün məcburi köçgünlər Azərbaycanın müxtəlif bölgələrində məsgunlaşmışdır. Birinci Qarabağ müharibəsində Cəbrayıl rayonu 400-dən çox şəhid vermişdir

1979- cu il siyahıyaalınma nəticəsində, Cəbrayılda 43 mindən çox əhali olmuşdur, o cümlədən ermənilərin sayı 41 nəfər olmuşdur. Ruslar isə 434- nəfər, ləzgilər

33-nəfər, gürcülər 10 nəfər olmuşdular.

1994- cü ilin əvvəllərində keçirilən Horadiz əməliyyatı zamanı Cocuq Mərcanlı işğaldan azad edilmişdir. 2016-cı il aprel döyüşlərində Lələtəpə yüksəkliyi, düşmən işğalından qurtulur.

Cəbrayıl işğal olunan zaman rayonun 72 ümumtəhsil məktəbi, 8 xəstəxanası, 132 tarixi abidəsi, 150 mədəniyyət ocağı, 100-ə yaxın kənd, 32 klub, 1 muzey, 3 musiqi məktəbi erməni işğalçıları tərəfindən qarət və məhv edilmişdir.

Cəbrayıl 4 oktyabr 2020-ci ildə, Azərbaycan Silahlı Qüvvələr tərəfindən azad edilmişdir.

# FÜZULİ RAYONUNUN QISA TARİXİ




Azərbaycanın qədim tarixə malik bölgələrindən biri olan Füzuli rayonu, Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər olan əraziləri əhatə edir.

Füzuli rayonu Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və Araz çayı boyunca İranla həmsərhəddir. Bakıdan 325 km məsafədə yerləşən Füzuli rayonunun ərazisi 1386 kv.km- dir, 15 km şəhərdən aralıda Azıx mağarası yerləşir.

Füzuli şəhəri 1827- ci ilə kimi kənd olmuş və "Qarabulaq" adlandırılmışdır, sonra Rus ordusunun polkovniki Pavel Qaryaginin şərəfinə "Qaryagin"adını daşımışdır. O vaxtdan bu kəndə şəhər statusu verilmişdir.

1959-cu ilin aprel ayında, şair Məhəmməd Füzulinin

anadan olmasının 400- illiyi şərəfinə Füzuli rayonu adlandırılmışdır. Əhalisi 105- min nəfərdən ibarət olmuş Füzuli rayonunda bir şəhər, 78 kənd olmuşdur. 1993-cü il avqust ayının 23- də, Füzuli rayonu, 58 kənd və 1 şəhər daxil olmaqla erməni vandallarının işğalına məruz qalır.

Ermənilər Füzuli rayonunun, ümumiyyətlə işğal etdikləri rayonlarımızın bütün ərazisini yerlə- yeksan edərək minalayırlar. İşğal zamanı 1100- dən çox Füzuli sakinləri şəhid olur və itgin düşür, 113 nəfər girov götürülür, 155 nəfər uşaq yetim qalır, 1450 nəfər əlil olur, 55 min nəfər isə öz ata- baba yurdlarından didərgin düşürlər.

Füzuli rayonunda dəhşətli cinayətlərin əsas ağırlığı Füzuli şəhərinin, Yuxarı Yağləvənd, Dövlətyarlı, Qacar, Divanalılar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Yuxarı və Aşağı Güzlək, Xaləfşə, Mollavəli, Xatınbulaq, Dilağarda, Govşadlı, Gorazilli kəndlərinin üzərinə düşür. Erməni Silahlı Qüvvələri, Füzulini başdan- başa talan edib dağıdaraq səhraya çevrirlər.

1994-cü ildə, Azərbaycan Ordusu tərəfindən Horadiz əməliyyatı ilə Horadiz qəsəbəsi və bəzi kəndlər düşmən əsarətindən xilas edilir.

44 günlük İkinci Vətən müharibəsində, Azərbaycan Silahlı Qüvvələrinin “ Dəmir Yumuruq” əməliyyat ilə, 17 oktyabr 2020-ci ildə, Füzulinin işğalına son qoyulur.

# QUBADLI RAYONUNUN QISA TARİXİ




Qubadlı rayonu 1933- cü ildə, Qubadlı kəndinin əsasında təşkil olunmuşdur.

1963- cü ildə, ləğv olunaraq Zəngilan rayonu ilə birləşdirilsə də, 1964 -cü ildə, yenidən müstəqil rayon kimi fəaliyyət göstərməyə başlamışdır.

Qubadlı rayonu Azərbaycan Respublikasının cənub -qərbində, Qafqaz yaylasının cənub- şərqində yerləşir, sahəsi 802 kv.km  Bakı şəhəri ilə olan məsafəsi isə, 404 km-dir.

Qubadlının adı, Şirvanşah Şeyx İbrahim Dərbəndinin babasının adı ilə bağlı olduğu ehtimal olunur. Şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd, Cəbrayıl, qərbdən Ermənstanla həmsərhəddir.

Bazarçay ( Bərgüşad) , Hakəri, Kiçik Hakəri, Meydan Dərəsi çayları rayonun əsas su mənbəyidir. Qubadlı rayonunun ərazisində çoxlu təbii bulaqlar mövcuddur, səthi əsasən dağlıq ərazidir, iqlimi mülayim isti və quru subtropikdir. İllik yağıntı 400 -600 mm- dir, meşələri quşlar və heyvanlar aləmilə çox zəngindir.

Qubadlı şəhəri Bərgüşad çayının hər iki sahilində yerləşir, rayon əhalisi əsasən kənd təsərrüfatı və heyvandarlıqla məşğul olur. Qubadlı rayonu 31 avqust 1993 -cü ildə, Ermənstan Silahlı birlışmələri tərəfindən işğal edilir, əhalisi isə məcburi köçgün vəziyyətinə düşürlər. Rayonun 93 kəndi erməni vandallarının əlinə keçir, 31000-dən çox əhalisi didərgin vəziyyətinə düşür, əksəriyyəti Sumqayıt, Bakı, Abşeron ərazilərində məsgunlaşırlar.

Qubadlının müdafiəsi zamanı 283 nəfər könüllü qəhrəmancasına şəhid olur, onların 7-si Azərbaycanın Milli Qəhrəmanlarıdır.

Bu rayon tarixdə Bərgüşad mahalı kimi tanınmış, Zəngəzur mahalının bir hissəsi olmuş, sonralar Qarabağ xanlığının tərkibində Qarabağ xanlığına tabeh olmuşdur.

Qubadlıda erməni işğalına qədər 1 şəhər, 93 kənd olmuşdur. Ərazisində 115 iri və orta müəssisə, 11 məktəbəqədər uşaq bağçası, 56 ümumtəhsil məktəbi, xəstəxana və tibb müəssisəsi, 1 texniki peşə məktəbi, 11 mədəniyyət ocağı olmuş və bütün bunlar Qubadlının içğalı zamanı yerlə yeksan olunur.

Qubadlı rayonu 25 oktyabr 2020-ci ildə, Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalından azad edilir.

# ZƏNGİLAN HAQQINDA QISA MƏLUMAT




Zəngilan rayonu Azərbaycan Respublikasının cənub-qərbində yerləşir. Şimaldan Qubadlı, şərqdən Cəbrayıl, cənubdan Araz çayı boyunca İranla , qərbdən Ermənstanın Mehri, Qafan rayonları ilə həmsərhəddir. (Qeyd: Azərbaycanın tarixi torpağı olan Zəngəzur mahalı, Sovet Rusiyasının təkidli tələbilə, Azərbaycan K(b)P MK- nin 1920-ci il noyabrın 30-da, qəbul etdiyi qərarla Ermənstana bağışlanır. Ermənilər 1923- cü ildə Zəngəzurun adını tarixdən silmək üçün Zəngəzurun yerində Qafan, Gorus, Sisian, Mehri rayonlarını yaradırlar. Zəngilan, Qubadlı, Laçın rayonlarmız isə Zəngəzurun

Azərbaycan tərəfində qalan hissəsində yaradılmışdir. Bu məlumatı təkrar yazıram ki, unutmayaq ).

Zəngilan ərazisi, şərqdən Hakəri çayından Mehri dağ silsiləsinə qədər olan bir ərazini əhatə edir. Coğrafi mövqeyinə, torpaq və iqlim xüsusiyyətlərinə görə füsünkar gözəlliyə, zəngin təbiətə malikdir. Zəngilan rayonunun ərazisindən 4 çay keçir ki, bunlar da, Araz, Oxçuçay, Həkəri və Bəsitçay çayları adlanır.

Ərazisi 730 kv.km, əhalisi 45473 nəfərdir. Zəngilanın çox qədim tarixi vardır, adının mənası “ Zəngilərin məsgəni “ -deməkdir

Zəngilan rayonu 1993-cü il oktyabrın 29-30-da, Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal edilir. Rayon işğal ediləndə rayon ərazisində 1 şəhər, 5 qəsəbə, 83 kənd olmuşdur. Zəngilan əhalisi məcbur olaraq Azərbaycanın müxtəlif rayonlarına pənah aparırlar.

Ermənilər Zəngilanda da, “daşı daş üstünə” qoymurlar, rayon tamamilə talan edilərək yerlə yeksan edilir.

Azərbaycan Silahlı Qüvvələrinin İldırım sürətli hücumu ilə Zəngilan rayonu 20 oktyabr 2020-ci ildə, mənfur düşməndən azad olunur və Azərbaycan -İran sərhəddi tam bərpa edilir.

2020-ci il noyabrın 26- da, “Zəngilanın azad olunmasına görə” medalı təsis edilir. Azərbaycan Silahlı Qüvvələrinin 6974 hərbi qulluqçusu “Zəngilanın azad olunmasına görə” medalı ilə təltif olunmuşdur.

# BİRİNCİ VƏTƏN MÜHARİBƏSİNİN AĞIR NƏTİCƏLƏRİ!



Birinci Vətən müharibəsi və ya, birinci Qarabağ müharibəsi 1988-ci ildən, 1994-cü ilin may ayının 12- nə kimi, Azərbaycanın cənub-qərb hissəsində yerləşən, Azərbaycanın bir hissəsi olan Dağlıq Qarabağ bölgəsində, onun ətraf rayonlarında, Ermənstan Respublikası və onun dəstəklədiyi Qarabağın etnik erməniləri (seperatçı qüvvələr) ilə, Azərbaycan Respublikası arasında başlanmış ölüm-dirim müharibəsi idi.

Bu müharibədə Azərbaycana, 818 milyard 880 milyondan çox ABŞ dolları civarında ziyan dəydi. Bir milyondan çox Azərbaycan xalqı öz ata -baba yurdlarından didərgin düşdülər, əsrlərlə alın təri ilə tikdikləri, qurduqları yurd- yuvalarından ayrı salındılar, ev- eşikləri talan və qarət edildi, yandırılıb külə döndərildi.

Birinci Qarabağ müharibəsində Azərbaycanın Silahlı Qüvvələri, 11557 min nəfər şəhid verdi. Əsir və itgin düşənlərin sayı 4354 nəfər idi, bunlardan 3503 nəfəri hərbiçi olmuşdur. Yaralılarımızın sayı 50 mini ötmüşdü. ( Düşünürəm ki, şəhid və itgin düşənlərin, əsir aparılanların ümümi sayı 20 minə yaxın idi).

Bu müharibədə 230 min erməni, xətərsiz, itgisiz Azərbaycanı tərk etdilər. Onlar Azərbaycandan öz mülklərini sataraq çıxdılar və gedərkən heç bir zorakılığa, işgəncəyə məruz qalmadılar.

Sumqayıt hadisələrini, Erməni millətçiləri Qərbi Azərbaycanda, azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərə, faciələrə haqq qazandırmaq üçün təşkil etmişdilər. Onlar Sumqayıt hadisələrini dərhal video-a çəkərək, kino kimi dünyada nümayiş etdirdilər. Erməni ideoloqları bununla dünya xalqları içərisində Azərbaycana qarışı nifrət oyatmaq məqsədi güdürdülər.

Birinci Qarabağ müharibəsində 350 mindən çox azərbaycanlı, Ermənstandan zorla çıxarıldı, onlar öz ata-baba yurdlarından didərgin düşəndə, başlarına olmazın müsibətlər gətirildi, müxtəlif işgəncələrə, qarətlərə, faciələrə məruz qaldılar. Ermənstanın Quqark rayonunda körpələri, qadınları dəmir turbalara doldurub diri-diri yandırdılar.

Birinci Qarabağ müharibəsində, Dağlıq Qarabağ və onun ətraf rayonlarından 789 min azərbaycanlı öz evlərindən didərgin düşüb Azərbaycanın müxtəlif rayonlarına pəhah apardılar.

Bu müharibə, Ermənstan tərəfindən aparılan işğalçı və ədalətsiz bir müharibə idi.

1923-cü ildə, Sovet Hakimiyyətinin Azərbaycanın əzəli torpaqları olan Qarabağda yaratdıqları Dağlıq

Qarabağ Muxtar Vilayətini (DQMV), Ermənstana birləşdirmək üçün erməni İDEOLOQLARI, 1980- cı ildən başlayaraq hərəkətə keçdilər və bu yolda hər cür şərəfsizlikdən, iyrənc üsullardan istifadə etməkdən çəkinmədilər.



1.1991-ci il dekabrin 26 -da, Xankəndi,
2.1992-ci il fevralın 25- 26-da, Xocalı,
3.1992-ci il mayın 8-də, Şuşa,
4.1992-ci il mayın 18-də, Laçın,
5.1992-ci il oktyabrın 2-də, Xocavənd,
6.1993-cü il aprelin 3-də, Kəlbəcər ,
7.1993-cü il iyulun 7-də, Ağdərə,
8.1993-cü il iyulun 23-də, Ağdam,
9.1993-cü il avqustun 23-də, Cəbrayıl,
10.1993-cü il avqustun 23-də, Füzuli,
11.1993-cü il avqustun 31-də,Qubadlı,
12.1993-cü il oktyabrın 31-də Zəngilan, Erməni işğalçıları tərəfindən işğal olunaraq kütləvi talanlara, soyq-

rımlara məruz qaldılar.

12 may 1994-cü ildə, Rusiyanın vasitəçiliyilə Azərbaycan, Ermənstan və qondarma "Dağlıq Qarabağ Muxrar Respublikası" arasında  Bişkek protokoluna əsasən "Atəşkəs" sazişi imzalandı.(Bişkek protokolu 5 may 1994-cü ildə, Qırğızıstanda Rusiya, Azərbaycan, Ermənstan, qondarma "DQR-sı" və Qırğızistanın da, iştirakı ilə imzalanmışdır).

Bişkek protokoluna əsasən imzalanmış "Atəşkəs" müqaviləsi, bir saziş idi və istənilən anda pozula bilərdi.

Bu saziş Azərbaycana, öz Ordusunu yenidən qurmaq üçün, silah- sursat tədarük etmək, ölkədə yaranmış hərcmərcliyi, özbaşınalığı aradan qaldırmaq üçün çox vacib və lazım  idi.

Ulu Öndər Heydər Əliyevin düşünülmüş bu addımı, 30 illik bir fasilədən sonra öz bəhrəsini verdi.

Erməni ideoloqlarının bu təcavüzkar planı əsasında, Ermənstan və qondarma " Dağlıq Qarabağ Respublikası"-nın seperatçı qüvvələrinin qərbi Azərbaycanda (ermənstan) və Qarabağda 1988- 1994-cü illərdə törətdikləri qanlı cinayətlərə, Dünya ölkələri seyirçi qaldılar. Sanki onlar erməni vandallarının Quqark rayonunda törətdikləri qanlı cinayətləri ,qanlı yanvar faciəsini, Qarakənd, Qaradağlı, Ağdaban, Xocalı, Ballıqaya, Malıbəyli və Quşçular faciələrini "görmür" və ya görməməzlikdən gəlirdilər.

Yenicə öz müstəqilliyini bərpa etmiş Azərbaycan, dünya aləmində tək qalmışdı.

Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının Ermənstanın təcavüzkar hərəkətlərinə qarşı qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələri təəssüf ki, kağız üzərində qaldı və heç bir əməli addım atılmadı.

Münaqişəni, ədalətsizliyi qaydaya salmaq üçün ayrılan Rusiya, Fransa, ABŞ nümayəndiliyi də, uzun illər fəaliyyət göstərməsinə baxmayaraq yalnız "gözdən pərdə asmaq" üçün görüşlər keçirir, yalandan danışıqlar aparırdılar.

Sonradan məlum oldu ki, bu "üçlük" münaqişəni həll etməkdə maraqlı deyillər, əksinə ermənilәri müdafiə etmək üçün çalışırdılar.

Azərbaycan yalnız öz gücü ilə, öz ərazi bütövlüyünü həll etməli idi.

Heydər Əliyevin müdrik siyasətinin ən böyük naliyyətlərindən biri, 1994- cü ilin sentyabr ayında dünyanın ən nüfuzlu neft şirkətlərilə " Əsrin müqaviləsi"-ni imzalaması oldu. Bu müqavilə Azərbaycan iktisadiyyatının dirşəldilməsi, dünya ölkələri içərisində "Söz sahibi" olmaq üçün böyük əhəmiyyətə malik bir müqavilə idi.

Heydər Əliyev həmçinin, qardaş Türkiyə ilə siyasi və iktisadi əlaqələri möhkəmlətdi, bir çox ölkələrlə əməkdaşlıq münasibətləri yaratdı, tarixi qonşularımız olan Rusiya, İran, Gürcüstanla dostluq, qonşuluq münasibətlərini qaydaya saldı.

2001- ci ildə, Dünya azərbaycanlılarının Birinci Qurultayının Bakıda keçirilməsi, Azərbaycanın dünya azərbaycanlılarına olan hörməti və sevgisindən irəli gəlirdi.

2003- cü il dekabrın 12- də, Azərbaycanın ümummilli lideri Heydər Əliyevin qəlbi ABŞ-ın Klivlend klinikasında əbədi olaraq dayandı.

2003 cü il oktyabrın 15- də, Azərbaycanda keçirilən Prezident seçkilərində seçicilərin 76%- dən çoxunu yığmaqla, İlham Heydər oğlu Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi və Heydər Əliyev siyasətinin

davamçısı oldu.

İlham Əliyev ilk növbədə Azərbaycan Ordusunun daha da, möhkəmlənməsi, müasir silahlarla təchiz edilməsi üçün mümkün olan bütün variantlardan istifadə etməyə başladı.

2016- cı il 2 aprel döyüşləri, Azərbaycan Silahlı Qüvvələrinin gücünün, xalqla dövlət birliyinin parlaq təzahürü idi.

Aprel döyüşləri, Azərbaycan Ordusuna ruh yüksəkliyi verdi, Lələtəpə yüksəkliyinin azad edilməsi, 1994-cü ildə Cəbrayıl rayonunun azad edilmiş Cocuq Mərcanlı kəndinin təhlükəsizliyini təmin etdi.

Aprel döyüşlərindən sonra Azərbaycan xalqına bir daha aydın oldu ki, qələbə çox da, uzaqda deyil.

## QARABAĞ POEMASI

Vətən torpağnda sən əsir oldun,
Murdar ayaqlarla əzildin, doldun,
Qanlı yaş axıdıb başını yoldun,
Vətənində yanan, solan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Bazarda hərraca qoydular səni,
İşgəncə, əzabla soydular səni,
Çox asan yollarla tutdular səni,
Şərəfsiz, satqınla dolan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Torpağını tamam tutdu o,”Yan”lar,
Getdi əlimizdən kəndlər, rayonlar,
Didərgin salındı minlər, milyonlar,
Gülşənləri viran qalan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Məktəblər dağıldı, evlər söküldü,
Məscidlər, gümbəzlər yerə töküldü,
Tarix saxtalaşdı, bir- bir gömüldü,
Muzeyləri yerlə yeksan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Qəbristan qazılır “hay -lar əkilir”,*
Köhnə qəbrlərə “xaç”-lar çəkilir,
Sonra Avropaya gözlər dikilir,
“Bizik ibtidai insan”, Qarabağ,
Torpaqları işğal olan, Qarabağ!.

Xankəndi, Laçınım, Şuşam, Xocalım,
Xocavənd, Kəlbəcər, gözəl Qubadlım,
Ağdərə, Füzuli, qədim Əsgəran,
Cəbrayıl, Quşçular, bir də, Zəngilan.
Çəkilsin başından duman, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Meşələr qırılır Laçın, Şuşanda,
Aparıb satırlar qonşu İranda,
Tiryək becərilir torpaqlarında.
Vətənimin yurdu viran, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Şərur həm Zəngəzur, əvvəl İrəvan,
Aldılar, oldular bu işdən rəvan,
Mehri ilə ayrı düşdü Naxçıvan.
Dığalar əlində yanan , Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Naxçıvana diş atdılar, tutmadı,
Vuruşmaq istədi, gücü çatmadı,
Çaqqaltək uladı, gecə yatmadı,
Türkiyəm yetişdi haman, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Adın dəyişdilər öncə, Xankəndin,
Dəyşildi küçələr, rayonun, kəndin,
Alçaq siyasətə tamam yenildin.
Güzəşt etdin, getdi o can,Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

İtə yal atarsan quyruq bulayar,
Dilini çıxardıb ayaq yalayar,
Verməsən diş qıcıb sənə ulayar.
Daha bəsdir oyan, oyan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Gəzdim Qarabağı, Cıdır düzünü,
Yazdım Natəvanın dürlü sözünü,
Xatırladım mən Vaqifin özünü.
Zakirin Vətəni sınan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Şairlər məsgəni o, Qarabağda,
Böyük şəxsiyyətlər yetişib orda,
Üzeyirin ruhu qalıbdır darda.
Köçərlini yada salan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Seyr etdim Şuşanı, uca dağını,
Vurğunun gəzdiyi dağ bulağını,
Meyvəli, çiçəkli, barlı bağını,
“Hay”-lar talan edir,aman, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Şəhid oldi min-min, oldular biryan,
Oğuz elim, yatıb qalma, qalx, oyan!
İt kimi qovulsun Vətəndən düşman.
Qırılsın buxovlar hər an, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!.

Dağların qoynunda yerləşir bulaq,
İsa adlı kişi qazıbdır qabaq,
İzn ver Allahım, Şuşada olaq.
Güllü -gülüstanın talan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Azərbaycan, nə çox səxavətlisən,
Bütün qonşulara “pay vermisən sən”,
Düşübdür torpağn hey pərən- pərən,
Azad olacaqsan inan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Qacar başın qoydu, "getdi" İrana*,
Ellər "əhsən"- dedi, o vaxt Şuşana,
Qovuşdu tarixə, düşdü ad- sana.
Nəcəf bəyin ruhu şan-şan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Daşınır ölkəmin qızılı, daşı,
Vətəni hər yerin bürüb göz yaşı,
Qaçqındı bir miyon öz vətəndaşı.
Vətənin üz-gözü al-qan, Qarabağ!
Torpaqları işğal olan, Qarabağ!

Sevinmə ey dığa, gələcək bir vaxt!
İnşəallah bizə də, gülümsəyər baxt.
Yeksan olunacaq çıxdığın o, taxt!
Sübhan, qəm yemə, gələr Qarabağ!
Düşmənini qovar yurddan, Qarabağ.

---

**-başı kəsildi.*

*Qarabağ poeması, Kazan şəhəri-2009-cu ildə "Axırıncı güllə"-kitabımda çap olunmuşdur.*

# BİRİNCİ VƏTƏN MÜHARİBƏSİ
# ÖLÜMSÜZ DOĞULANLAR



# ŞƏHİD-İSMAYILOV ƏRZUMAN ƏLİZAMİN OĞLU




Bəlkə qayıtmadım, dostluq haqqını halal et mənə"-deyəndə gözlərim doldu, boynunu qucaqlayıb üzündən öpdüm, göz yaşlarım yanaqlarıma süzüldü. Onu, Ordu sıralarına yola salmaq üçün Masallı rayon Hərbi Komissarlığına çox adam gəlmişdi. İkimiz də, ərizə vermişdik cəbhəyə getməyə, çox təəssüf ki, bir əlimdə qüsur olduğu üçün mən həkim komissiyasından keçə bilmədim. Ərzumanla Yeyənkənd kənd orta məktəbində, 11 il bir yerdə oxumuşuq, bir parta arxasında əyləşmişik, uşaqlığımız bir yerdə keçib. O, mənim ən yaxın dostum idi.

Yay aylarında həmişə pioner düşərgəsinə birlikdə (Ulduz) gedərdik. Düşərgədə olanda, atası Əlizamin

əmi tez- tez gələrdi yanımıza, Ərzumanı "Arzu"-deyə çağırardı. Pioner düşərgəsində şam yeməyindən sonra bizə kino göstərərdilər.Yaxşı yadımdadır, növbəti dəfə yenə Əlizamin əmi gələndə Ərzumanın yanında əyləşdi, birlikdə kinoya baxdıq.

Nənəsi Laləzar nənə, Ərzumanı şox sevərdi, mən onlara gedəndə məni də, yeməyə dəvət edərdilər, "Sağ ol, nənə, ac deyiləm"-deyərdim.

Rizvan əmisi həmişə Ərzumanla maraqlanar, ona çox qayğı göstərərdi.

Ərzuman qorxubilməz, çox cəsur bir oğlan idi, heç nədən qorxmazdı. O, həm də, idmançı idi. Biz lap uşaqlıqdan Masallı şəhərində, idman zalında sərbəst güləşlə məşğul olardıq, tez-tez idman yarışlarında iştirak edərdik.

Viləş çayında, kəndimizə yaxın yerdə, torpaqda bulaq qazdıq, çox içməli sərin suyu var idi, kətdən bir çox adamlar gəlib, o bulaqdan su aparardılar. Ərzuman şəhid olandan sonra, o bulağa tez-tez gedər, dostumu yad edərdim, indi Rusiyada yaşadığım üçün daha, o bulağa gedə bilmirəm, bəlkə də, sıradan çıxıb, xəbərim yoxdur.

Ərzuman Ordu sıralarına getmək üçün avtobusa minəndə, məni qəmgin görüb- "Nəriman, darıxma, müharibədə qalib gələcəyik, mən qayıdacağam, biz yenə görüşəcəyik"-dedi və boynuma sarıldı. Ərzumanla razılaşmışdıq ki,o, cəbhədən qayıdandan sonra birlikdə Rusiyaya işləməyə gedək, amma qismət olmdı. Həmişə Rusiyadan kəndimizə gələndə dostumun məzarını ziyarət edir, onunla " söhbət edirəm"-deyə

Əhədov Nəriman Əlizaman oğlu öz şəhid dostu haqqında yana -yana, göz yaşları içində danışırdı"...

İsmayılov Ərzuman Əlizamin oğlu 1973-cü il mayın 8-də, Azərbaycan Respublikası Masallı rayonunun Abas-




bəyli kəndində anadan olmuşdur. Yeyənkənd kənd orta məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra, Cəlilabad rayonunun Göytəpə qəsəbəsinin texniki peşə məktəbində təhsilini davam etdirir.

1992-ci ildə, Ərzuman İsmayılov, Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılır. O, əvvəlcə Ağdam rayonunun №-saylı hərbi hissəsində hərbi təlim keçdikdən sonra Füzuli rayonunun N saylı hərbi hissəsinə göndərilir. Bu zaman artıq Ermənstan silahlı qüvvələri və Qarabağın erməni seperatçı qüvvələri tərəfindən Xankəndi şəhəri işğal edilmiş, orda yaşayan azərbaycanlılar öz ata- baba yurdlarından didərgin salınmış, Xocalı soyqrımı, başqa soyqrımlar törədilmişdi.

Dünyanın Erməni Diasporasının və ermənipərəst ölkələrin köməyi ilə, müasir silahlarla təchiz edilmiş Ermənstan silahlı qüvvələri, nəyin bahasına olursa- olsun irəliyə can atır, hər cür rəzillik etməkdən çəkinmirdilər. Onlar körpələri, qocaları, qadınları işgəncə ilə öldürməkdən həzz alır, tanklarla meyidlərin üstündən keçirdilər.

Ərzuman İsmayılov Bala Bəhmənli, Kərimbəyli, Böyük Bəhmənli, Aşağı Seyidəhmədli kəndləri uğrunda gedən ölüm- dirim savaşında cəsur bir əsgər kimi, erməni vandallarına qarışı qəhrəmancasına vuruşurdu. Hərbi komandanlıq ona bir həftəlik evə getməyə icazə versə də o, bu məzuniyyətdən imtina edir:- "Öz əsgər yoldaşlarımı odun- alovun içində atıb necə gedim ki ?-

deyir, Ərzuman.

Cəbhə dostu Akif adlı bir əsgərin dediklərindən:-" Ordu sıralarına birgə getmişdik. İgid bir döyüşçü idi Ərzuman. Heç nədən qorxmurdu, ölümün gözünə dik baxırdı, çox cəsarətli bir əsgər kimi hərbi hissədə hörmət qazanmışdı.

O günü heç unuda bilmirəm, 1994-cü il yanvarın 26- da, Şişqaya istiqamətində qızğın döyüşlər gedirdi. Şişqaya ucalığı isə, artıq düşmənin əlində idi.

**Haşiyə:** Xocavənd rayonu, 1991- ci il 26-sı noyabrda keçmiş DQMV- nin Martuni, Hadrut rayonlarının bazası əsasında yaradılmışdı. Şişqaya Martuni şəhəri yaxınlığında Gülmətəpə və başqa ucalıqlardan ibarət idi. Ermənilər Şişqaya ucalığı, eyni zamanda Böyük Oxlu ucalığı ilə Füzuli, Ağdam, Beyləqan, Ağcabədi rayonlarını öz müşahidələrində saxlaya bilirdilər. Ermənilər bu ucalıqları çoxdan ələ keçirmiş və burda möhkəmlənmişdilər. Şişqaya ucalığı Füzuli rayonunun Aşağı Veysəlli kəndindən 20 km məsafədə yerləşirdi. Haşiyə bitdi.

-Biz Şişqaya istiqamətində düşmənlə qızğın döyüşlər apardığımız zaman hərbi sursatımız qurtarmaq üzrə idi. Arxadan isə heç bir yardım gəlmirdi. Bu zaman Ərzuman həyatını təhlükəyə ataraq sürünüb kolların arası ilə, düşmən mövqeyinə yaxınlaşdı və əlindəki qumbaraları düşmən səngərinə tulladı. Səngər bir anlığa göyə sovruldu. Biz, o gün erməni yırtıcılarını geri çəkilməyə məcbur etdik, lakin çox təəssüflər olsun ki, yenə köməyimizə gələn olmadı, bizə nə hərbi sursat nə də canlı qüvvə göndərilmədi. Düşmən əlavə qüvvə alaraq üstümüzə quduz it kimi hücuma keçdi.

Çox qızğın döyüşlər gedirdi, mən də, daxil olmaqla xeyli əsgərimiz yaralandı. Şəhidlərimizin sayı çox idi. Ərzuman və bir neçə əsgər, döyüşün qızğın çağında



bizi, yəni yaralıları və şəhidləri bir maşınla arxaya yola salanda, Ərzuman əyilib mənim üzümdən öpdü, "Hələlik Akif "-dedi.

Xəstəxanada eşitdik ki, 5 saat davam edən ölüm-dirim savaşında 13 nəfər əsgərin hamısı qəhrəmancasına şəhid olmuşdur.

Bu faciəni eşidəndə hönkür- hönkür ağladım, başımı divara çırpdım –"Kaş mən də, orda olaydım, birlikdə öləydik"-dedim.

Ərzuman İsmayılov 1994-cü il fevralın 5-də, Şişqaya ətrafında gedən döyüşlərdə qəhrəmancasına şəhid olur.

Ərzumanı qarşılamağa bütün el-oba gəlmişdi, çox təəssüf ki, qarşılayanlar arasında atası yox idi, o bir il olardı ki, bu dünyaya "Əlvida!"-demişdi.

Xatirəsini əbədiləşdirmək üçün oxuduğu Yeyənkənd kənd tam orta məktəbinə Şəhidin adı verilmişdir. Məktəbə gedən yolda yerləşən bulaq Şəhidin adını daşıyır.

Ərzuman mənim ən sevimli şagirdlərimdən biri idi. O vaxtlar mən Yeyənkənd kənd orta məktəbində tarix müəllimi işləyirdim. Bütün müəllimlər Ərzuman haqqında fəxrlə danışırdılar. O, çox sakit təbiətli, tərbiyəli bir şagird idi. Mən hardan biləydim ki, bir gün gələcək öz sevimli şagirdlərim Ərzuman və Cəmil haqqında esse yazacağam, şəhidlik essesi.

Ərzuman və Ərzuman kimi Vətən şəhidlərimiz Azərbaycan xalqının, Dünya azərbaycanlıların qəlbində həmişə yaşayacaqdır!

## ŞƏHİDLƏR

Yazdı öz qanıyla, can Azərbaycan,
Azadlıq yolunda neçə- neçə can,
Üçrəngli bayrağım oldu qızıl qan.
Göstərdi cəbhədə, rəşadət, hünər,
Xalqın yaddaşına hopdu, Şəhidlər.

Ölməzlik suyuna onlar bələndi,
Vətən torpağından çiçək ələndi.
Göylər pərisindən gülab çiləndi,
Ruhları dərgaha köçdü igidlər,
Qanlarıyla Vətən yazdı, Şəhidlər.

Ölümün gözünə dikdi gözünü,
"Vətənim sağ olsun"- dedi sözünü.
Qurban verdi arzusunu, özünü.
Kitablar bəzədi, o qəhrəman ər,
Azadlığı qanla yazdı, Şəhidlər.

Arxalı köpəklər arxayın oldu,
Murdar ayaqları ölkəmə doldu.
Açan qərənfillər saraldı, soldu.
Hayların qanıyla dolaraq səngər,
Düşmən məzarını qazdı, Şəhidlər.

Dəmir dirəkləri vurub keçdilər,
Bir-bir düşmənləri əzib biçdilər.
Şəhidlik şərbətin baltək içdilər,
Sərrast atəşlərlə yarıldı sədlər,
Qanlarıyla tarix yazdı, Şəhidlər!

(S.Abasbəyli.15.10.2020."Ürəyimin harayı" kitabı)

# ŞƏHİD- EYVAZOV CƏMİL İSMAYIL OĞLU



Cəmil Eyvazov 25 oktyabr 1974-cü ildə, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində dünyaya göz açmışdır. 1980-1991-ci illərdə, Yeyənkənd kənd orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

Birinci Vətən müharibəsi başlayanda Cəmil də, başqa könüllülər kimi cəbhəyə yollandı.

Təsadüf üzündən o, qardaşı Əfrail Eyvazovun xidmət etdiyi №-saylı hərbi hissəyə göndərilir.

Cəmil Eyvazov əvvəlcə Cəbrayıl, sonra Füzuli rayonunda öz əsgər silahdaşları ilə, azğın düşmənə qarşı ölüm- dirim savaşına girir və öz cəsarətilə döyüş yoldaşlarının, komandanlığın hörmətini qazanır.

Azad Vətənimə hörüldü tələ,
Bürüdü hər yeri məkrli hiylə.
"Hay"-lar qısqırıldı üstümə belə,
Tutuldu Qarabağ, başlandı hicran,
Başın nələr çəkdi, ey Azərbaycan?

**S.A.**

Haşiyə:- Erməni silahlı qüvvələri, Füzuli rayonu istiqamətində öz işğalçı planlarını həyata keçirmək üçün canfəşanlıq edirdilər. 1993- cü ilin fevral ayında, Azərbaycan Respublikasının Müdafiə Naziri Rəhim Qazıyev

vəzifəsindən istefa verdi, sonra vətənə xəyanətdə ittiham olunaraq həbs edildi. Onun nazir işlədiyi dövrdə Şuşa və Laçın ermənilər tərəfindən işğal olundu.

O, Şuşa şəhərinin işğalında, vətənə xəyanətdə ittiham edilərək ölüm cəzasına məhkum edilir. Lakin, ölüm hökmü sonra ömürlük həbslə əvəz olunur, 2005-ci ilin dekabrında isə, əfv edilərək azadlığa buraxılır. R. Qazıyevdən sonra Dadaş Rzayev Hərbi Nazir postuna gətirilir. Haşiyə bitdi.

Ermənstan silahlı qüvvələri və Qarabağın seperatçı ünsürləri, 1993- cü ilin iyul ayında Füzuli istiqamətində öz hücumlarını daha da, genişləndirdilər. Füzuli rayonunun Arış, Qoçəhmədli, Qaracallı, Xatınbulaq və daha bir neçə kəndlərini işğal edirlər.

Lakin, Cəmil Eyvazovun da, xidmət etdiyi №-saylı hərbi hissənin uğurlu döyüşləri ilə, düşməni geri otuzdurmaq mümkün olur.

Ağdam alınandan sonra (23.07.093.), düşmən bütün qüvvəsini Hadrut və Martuni (Xocavənd) istiqamətində cəmləşdirməklə Füzuli rayonunu işğal etməyi qarşısına məqsəd qoymuşdu.

1993- cü il avqustun 3- də, düşmən güclü artilleriya hazırlığından sonra Füzuli istiqamətində hücuma başlasalar da, №-saylı hərbi hissə düşməni geri çəkilməyə məcbur edir. Bu qızğın döyüşlərdə Cəmil Eyvazov da, öz silahdaşlarılə qəhrəmanlıqla döyüşürdü. Lakin, çox təəssüflər olsun ki, Füzuli istiqamətində vuruşan hərbi hissəmiz başqa hərbi hissələrimiz kimi silah- sursat tərəfdən çox əziyyət çəkirdi. Vuruşan əsgərlərimizə heç bir kömək gəlmirdi. Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Ermənilər Azərbaycan daxilində gedən özbaşınalıqdan məharətlə istifadə edirdilər.

1993- cü ilin avqustun ortalarında “ Yapon” ləqəbli




Səfa Əliyevin başçılıq etdiyi bir qrup silahlı şəxs Füzuli rayon İcra Başçısını devirərək başqa birisini ( Kazım İbişov) rayon rəhbəri elan edir. Bütün bunlar cəbhədə vuruşan Ordumuza çox mənfi təsir göstərirdi.

1993- cü il avqustun 19- da, Erməni silahlı qüvvələri, Füzuli şəhərini intensiv atəşə tutmağa başlayırlar. Öz havadarlarının köməyi ilə başdan ayağa müasir silahlarla silahlanmış düşmən, bütün vasitələrdən istifadə edib şəhəri ələ keçirməyə çalışırdılar. Ona görə rayon mərkəzi düşmən tərəfindən " Qrad " raketləri və artilleriya atəşləri ilə fasiləsiz atəşə tutulurdu.

O raketlərdən biri, Azərbaycan əsgərləri ilə dolu səngərə düşür. O səngərdə Cəmil Eyvazov da, var idi.

Hələ arzuları təzəcə tumurcuqlanan, ürəklərində neçə- neçə istəkləri olan, həyata yenicə göz açan 19 yaşlı Cəmil Eyvazov və 20- dən yuxarı əsgər, Vətən uğrunda gedən döyüşərdə qəhrəmancasına şəhid olurlar.

Dönsəydi kağıza hər dağ, hər qaya,
Dəniz də, mürəkkəb olsaydı əgər,
Şairlər dursaydı yrdən, ta aya,
Yenə vəsf etməyə acizdir bəşər,
Sizlərin haqqında, ey şəhid əsgər!.

**S.A.**

Cəmil də, Ərzuman kimi mənim şagirdim olmuşdu. Hər ikisi haqqında yazanda göz yaşlarım, ağ vərəq üstündə naxış- naxış iz salırdı.

Qardaşı, Mayor Əfrail Eyvazov göz yaşları içində, o günü belə xatırlayır:-"Biz səngərə baxmağa gələndə orda olan bütün əsgərlər mənfur düşmənlə amansız döyüşlərdə qəhramancasına, faciəli halda şəhid olmuşdular"...

Mən bu sözlərdən sonra, Mayordan daha heç nə soruşmadım, daha doğrusu, soruşa bilmədim. Gözlərimiz səssiz- səssiz yaş süzürdü...

Anası Zibeydə bacı oğlunun dərdindən çox yaşamadı, "Cəmil"-deyə- deyə, bu fani dünyaya "Əlvida!"-dedi.

23 avqust 1993-cü ildə, Füzuli rayonu belə işğal olundu.

Hal- hazırda Yeyənkənd kəndində, mərkəzi küçələrdən biri, şəhid Cəmil Eyvazovun adını daşıyır və Yeyənkənd kəndinin mərkəzində, şəhidin xatirə lövhəsi ucaldılmışdır.

**Şəhid əsgər**

Yeni tarix yazdın, diilərdə dastan,
Torpağın qayıtdı, özün verdin can.
Qovuldu ölkəndən işğalçı düşman,
Gətirdin Vətənə xoşbəxtlik, zəfər,
Sən ey şəhid olan yenilməz, əsgər!

Tökülən qanından bitdi gül- çiçək,
Açdı torpağımız hey ləçək- ləçək.
Üz-gözümüz güldü, sevindi gerçək,
Sizləri unutmaq olarmı məgər?
Şəhidlik taxtında əyləşən, əsgər!

Hayların gözünə çəkərək min dağ,
İşğaldan qurtuldu doğma Qarabağ.
Qalxdı xan Şuşada üçrəngli Bayrağ,*
Qanlı döyüşlərdə göstərdin hünər!
Düşmənə zərbəni endirən əsgər!

---

**-Bayraq*
*S.Abasbəyli.20.11.020- ci il,"Ürəyimin harayı" kitabındn.*

## ONLARI ULDUZLARDA AXTAR

Gecə keçirdi, öz iş otağımda əyləşib, şəhid Ərzuman və şəhid Cəmil haqqında yazdığım sətirlərə, gözlərimi yumub, xəyalən, bir də nəzər salmağa başladım.

Orta məktəbdə oxuyanda hər ikisinin müəllimi olduğum üçün, ürəyim sızıldayırdı onların haqqında yazanda, hər ikisi çox tərbiyəli, çalışqan, sakit təbiətli şagirdlər idilər. Gözlərim yenə damla- damla yaş süzməyə başladı, gözlərimi açıb pəncərə önünə gəldim, açıq pəncərədən səmaya, bərq vuran ulduzlara baxmağa başladım. Ulduzların arasında, Birinci və İkinci Vətən Müharibəsində, 20- minə qədər Vətən uğrunda canını fəda edən şəhidlərimizi, o cümlədən Ərzumanı, Cəmili axtardım. Sanki onlar, o zirvələrdən, ulduzlarların arasından mənə baxıb gülümsəyir:-"Müəllim, biz yaşayırıq, biz zirvələrdə yaşayırıq"-deyirdilər...

Bu yaxınlarda, ( 2025-ci il) Masallı rayon İcra Hakimiyyətinin Başçısı, çox hörmətli Araz Əhmədov cə-

nablarının təşəbbüsü ilə, şəhid Ərzuman İsmayılovun anası, Gülüsüm bacı üçün, Yeyənkənd kəndində gözəl bir ev tikildi. Evin açılış mərasimində Masallı Rayon İcra Hakimiyyətinin başçısı, çox hörmətli Araz Əhmədov cənabları ilə yanaşı, Rayon İcra Hakimiyyətinin bir qrup işçiləri, o cümlədən, Yeyənkənd kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsi Ramiz Əlinağıyev, müavini Yaşar Yavərov, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbin direktoru İmaməddin Teymurov, Yeyənkənd, Abasbəyli, Xəlfələr kənd ağsaqqalları, Fəxrəddin Fərəcov, Kamal Xəlilov, Akif Mehdiyev, Tofiq Hüseynov, iş adamı, xeyriyyəçi Samir Şükürov, Şair- publisist Sübhan Abasbəyli və başqaları iştirak edirdilər. Şəhid anasına ev tikmək üçün, torpağın alınmasında maddi köməyini əsirgəməyən iş adamları, Hacı Samir Şükürov, Nəriman Əhədov, Qamət Nəcəfov, Malik Teymurov və evin təmir olunmasında zəhmət çəkən Yeyənkənd kənd İcra nümayəndəliyinə, köməyi keçən hər kəsə, Allahdan xoşbəxtlik, əmnamanlıq diləyirik.

Çox səmimi, işgüzar Dövlət qulluqçusu, gözəl insan, Masallı rayon İcra Hakimiyyətinin başçısı, Araz Əhmədov cənablarına, Allahdan can sağlığı, uzun ömr arzulayırıq. Nə yaxşı ki, həyatda belə insanlar vardır.

Şəhidimiz, Cəmil Eyvazovun evinin önündə, şəhidin xatirə lövhəsi asılmışdır. Bu xeyriyyə işi üçün, iş adamı Hacı Samir Şükürova çox-çox təşəkkür edirik.

Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbinə gedən yolda, Abasbəyli kənd bulağında, şəhid Ərzuman İsmayılovun xatirə lövhəsi asılmışdır. Bu xeyriyəçilik işi üçün Elmar Əhədova çox- çox təşəkkür edirik.

# YARI YOLDA QALMIŞ BİR MAYOR ÖMRÜ ABBASOV ASİF FƏRMAN OĞLU




Azərbaycan Silahlı Qüvvələrin hərbi qulluqçusu, mayor Abbasov Asif Fərman oğlu, 26 may 1975-ci ildə, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

1981-1982-ci illərdə,Yeyənkənd kənd orta məktəbin hazırlıq sinifində oxumuş, sonra Naxçıvan Muxtar Respublikası, Naxçıvan şəhərinin Babək küçəsində yerləşən tam orta məktəbində təhsilini davam etdirərək 4-cü sinifi bitirir. Asif Abbasov Bakı şəhərinin Mərdəkan qəsəbə 3 saylı tam orta məktəbin 10-cu sinifini, daha sonra Masallı rayon 1 nömrəli tam orta məktəbin 11-ci sinifini müvəffəqiyyətlə bitirmişdir.

1993-cü ildə, Heydər Əliyev adına Bakı Ali Ümumqoşun Komandirlər məktəbinə daxil olan Asif Abbasov, 1997-ci ildə, həmin ali təhsil ocağını "Artilleriya" ixtisası üzrə, leytenant rütbəsində bitirir. Azərbaycan Silahlı Qüvvələrin hərbi qulluqçusu Asif Abbasov, 1997-2003-cü illərdə, № saylı Gəncə Hərbi Korpusunda baş leytenant, 2003-2008-ci illərdə Bərdə Hərbi Korpusunda kapitan, sonra Mayor rütbəsində kəşfiyyat rəisi, 2008-2014 cü illərdə, Ağstafa Hərbi Korpusunda, Qərargah rəisi vəzifəsində işləmişdir.

Çox bacarıqlı, ürəyi vətən, el-oba eşqilə döyünən, Azərbaycan Ordusunun dəyərli hərbi qulluqçusu, mayor Asif Abbasov, 2014-ci ilin yanvarında, iş vaxtı qəflətən ağrı hiss edərək təcili xəstəxanaya göndərilir. Türkiyədə müalicə alan mayoru, həkimlərin bütün səylərinə baxmayaraq, ölümün pəncəsindən xilas etmək mümkün olmur. 10 fevral 2015-ci ildə, vaxtsız ölüm çox savadlı, cəsur bir hərbiçini, gözəl bir insanı aramızdan aparır. İki övladı yadigar qalır. Azərbaycan Silahlı Qüvvələri, öz igid, cəsur bir mayorunu itirir.

Asif Abbasov həmişə insanlara əl tutan, hər bir çətinlik zamanı onların yanında olan bir insan idi. Deyirlər belə insanlar dünyasını dəyişəndə şəhid qismində olurlar. Axı, oda Vətənə, ailəsinə, xalqına xidmət edirdi.

Ondan yalnız xoş sözlər, xoş xatirələr qalmışdir. Allah rəhmət eləsin, ruhu şad olsun.

*ABBASOV ASİF FƏRMAN OĞLU,*



*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan adından, Müdafiə Nazirinin sərəncamı ilə, "Qüsursuz xidmətə görə"3 cü dərəcəli medalla təltif olunmuşdur.*

*"Azərbaycan Rüspublikası Silahlı Qüvvələrin 10 illiyi" (1991-2001) yubley medalı ilə təltif olunmuşdur.*

*"Azərbaycan Silahlı Qüvvələrin 90 illiyi" yubley medalı ilə təltif olunmuşdur.*

*Ayrı-ayrı vaxtlarda 8 dəfə "Fəxri Fərman"-la mukafatlandırılmışdır.*

# QAZİ –İSAYEV EYVAZ ŞİRVAN OĞLU



Eyvaz İsayev 19 fevral 1975-ci ildə, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

Yeyənkənd kənd orta məktəbini bitirdikdən sonra 1993-cü il oktyabrın 10-da, Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılır. Əvvəlcə N saylı Hərbi Hissədə, sonra Azərbaycanın Milli Qəhrəmanı adını almış (1995) general-mayor Fəxrəddin Cəbrayılovun № saylı hərbi hissəsində xidmət edir. Eyvaz İsayev Ordu sıralarına çağırıldığı zaman artıq, Xankəndi - 26.12.1991, Xocalı - 26.02.1992, Şuşa - 08.05.1992, Laçın - 18.05.1992, Xocavənd - 02.10.1992, Kəlbəcər-03.04.1993, Ağdərə - 07.07.1993, Ağdam - 23.07.1993, Cəbrayıl - 23.08.1993, Füzuli- 23.08.1993, Qubadlı-31.08.1993-cü ildə, artıq mənfur erməni işğalçılarının nəzarəti altında idi.

-"Bizim Hərbi Hissəyə verilən əsas tapşırıq Füzuli və Cəbrayıl istiqamətində, Araz çayı boyunca hücuma keçməklə Xocavənd və Şuşa şəhərini erməni silahlı qüvvələrindən və seperatçı rejimdən təmizləmək idi"-deyə qazi Eyvaz İsayev danışmağa başladı.

-Əvvəlcə Horadiz və Cocuq Mərcanlı qəsəbələri düşməndən təmizlənməli idi. Düşmən bu iki kənd is-

tiqamətində çox böyük qüvvə toplamışdı. Çünki onlar yaxşı bilirdilər ki, bu iki kənd əldən çıxarsa 20-dən çox kəndləri də, itirəcəklər.

Ümummilli lider Heydər Əliyev 1993- cü il oktyabrın 3- də, ümumxalq səsverməsilə Azərbaycan respublikasının Prezidenti seçilir. Şuşa şəhərinin düşməndən geri alınmasını bilavasitə Heydər Əliyev göstəriş vermişdi.

1993-cü il dekabr ayından başlayaraq Horadiz əməliyyatı ilə, Füzulinin Horadiz qəsəbəsi daxil olmaqla 22 kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı qəsəbəsini mənfur düşməndən azad etdik. Bu kəndləri azad edən zaman xeyli əsgərimiz Vətən yolunda şəhid oldu və yaralandılar. Ermənilər də, bu döyüşlərdə xeyli canlı qüvvə, hərbi sursat itirdilər".

**-Yadınızda qalan hansı hadisəni daha çox xatırlayırsınız? -**




***Qazi-Eyvaz İsayev, övladları ilə***

-Qarabağ döyüşlərində keçən hər gün əzablı bir xatirədir, o günləri heç vaxt unutmaq mümkün deyil, amma bir hadisəni daha, tez-tez xatırlayıram.

Düşmən bizdən daha əlverişli mövqeydə yerləşmişdi, biz hücuma keçən tərəf olduğumuz üçün çox itgilərə məruz qalırdıq. Gecə səhərə kimi güllə yağışı davam edirdi. Ermənilər yerləşdiyi mövqeylərərinə, yeni-yeni qüvvələr gətiridilər.

Döyüş gedən ərazinin yaxınlığından qamışla örtül-

müş bir kanal keçirdi. Emənilər “qaz- 66 maşını” ilə yeni əlavə qüvvələr gətirdilər. Komandirimiz “Qoca” –ləqəbli, çox cəsarətli, qorxmaz bir zabit idi. Təxminən bizdən 100 metr aralı bir dəyirman var idi. Birdən, gözləmədiyimiz halda, dəyirmanın içindən 50-60 erməni çıxaraq üstümüzə yağış kimi gülləni yağdırmağa başladılar.

Arxadan da, düşmən dayanmadan üstümüzə atəş açırdı. Onların məqsədi bizim rotanı mühasirəyə almaq idi. Rotamızın mühasirəyə düşmək təlükəsi anbaan artırdı. Mühasirəyə düşmək isə, ölüm demək idi.

Mühasirəyə düşməmək üçün bizim bir yolumuz qalırdı, ya vuruşub ölmək, ya da, mühasirə həlqəsinin tam daralmasına imkan verməmək, mühasirə təhlükəsindən xilas olmaq.

Üstümüzə yağış kimi yağan güllələrin gözünə dik baxa- baxa, ölümdən qorxmayaraq iri daşları, sal qayaları özümüzə sipər edərək, düşmənə yaylım atəşi aça-aça, addım-addım mühasirəyə tam düşməkdən qurtulduq. Mühasirə təhlükəsindən qurtulan zaman şəhidlərimizi, yaralılarımızı da, çiynimizdə, kürəyimizdə təhlükəsiz əraziyə apara bildik. Biz döyüşən zaman özümüzü tamam unudurduq, ölümü fikirləşmidik”.

**-Eyvaz, daha hansı hadisə haqqında danşmaq istəyərdin?**

-“Füzuli rayonunun dərəli- təpəli bir ərazisində düşmənlə ölüm- dirim savaşına girmişdik. Gündüz vaxtı idi. Gecə isə bizim batalyona (Tabor) əmr olundu ki, ərazini tərk edək.

Dağlıq yer olduğu üçün yerimək çox çətin idi, göz-gözü görmürdü. Durduğumuz ərazini çox səssiz keçməli idik. Mən , o qaranlıq gecədə öz əsgər yoldaşla-

rımdan ayrı düşdüm, hara getdiyimi bilmirdim, yenə deyirəm göz- gözü görmürdü, çox qaranlıq idi. Bir-birimizdən zəncirvari, aralı hərəkət edirdik, nəinki, işıq, hətda kibrit çöpü də, yandırmaq olmazdı. Bir də, ətrafıma baxanda, gördüm ki, heç kim yoxdur, əsgər yoldaşlarımdan səs- səmir gəlmir.

Ya Allah, deyib irəliyə doğru getməyə başladım, bir neçə yüz metr getmişdim ki, irəlidə yanar ocaq gördüm, hava çox soyuq idi. Könlümdən, o ocaqda qızınmaq həvəsi keçdi. Səssizcə yanan ocağa sarı yaxınlaşmağa başladım. Hələ bilmirdim ki, orda olanlar düşməndir, ya özümüzkü. Avtomat silahımı tam hazır vəziyyətdə saxlamışdım. Əyilə-əyilə bir neçə addım gedəndən sonra hiss etdim ki, erməni dilində danışırlar. Onlar 4 nəfər idilər, ocaq başında, kötük üstündə oturduqlarını təxmin edirdim, alovun az da, olsa şöləsi ətrafı işıqlandırmışdı. Yəqin ki, erməni silahlı qüvvələrinin kəşfiyyat- divversiya qrupunun üzvləri idilər, kim bilir, bəlkə onlar da, mənim kimi azmışdılar. Qalmışdım çətin vəziyyətdə, onları öldürümmü, ya əsir götürümmü? Onları əsir aparmağım çox təhlükəli ola bilərdi, axı onlar dörd nəfər idilər, həmdə ki, gecə vaxtı. Ermənilərin Azərbaycanda törətdikləri dəhşətli faciələr yadıma düşdü, hər gün yüzlərlə şəhid olan əsgərlərimiz yadıma düşdü. Onlar bizim körpələrə, qocalara, qadınlara rəhm etmir, işgəncə ilə öldürürlər. Bunları düşünərək iri gövdəli bir ağaca söykənib yaylım atəşi açdım, dördü də, ocağın kənarına yıxıldılar. Onların yanına gəlib silahlarını götürdüm, meyidlərini ocaqdan uzaqlaşdırdım ki, yanmasınlar. Ordan uzaqlaşdım, çətinliklə də, olsa öz döyüş yoldaşlarımı tapa bildim".

Qazi qardaşımız Eyvazın- "Onların meyidlərini ya-

nar ocaqdan kənara çəkdim ki, yanmasınlar" söhbətindən sonra bir az susdum, fikir- xəyal məni uzaqlara apardı.

Ermənilərin Azərbaycan xalqının başına gətirdikləri müsibətlər bir -bir gözlərim önündən keçdi. Onrarı ana doğmayıbmı?. Ermənistanın Quqark rayonunda, azərbaycanlı anaların gözü qarşısında, körpələrini iri diametirli dəmir boruya doldurub diri-diri yandıran bəlkə ermənilər deyildi?

Əsrlikdə qalan körpələrin, qocaların, qadınların dərilərini diri-diri soyan, onların üzərində təcrübələr aparan bəlkə ermənilər deyildi?

Yox, mən də, Eyvazın yerində olsaydım onların meydini ocaqdan kənara çəkərdim ki, yanmasınlar, axı biz insanıq...

Ermənilər isə bizim şəhid olmuş əsgərlərimizin üstündən tanklarla keçirdilər və bundan həzz alırdılar.

Bizim əsgərlər isə onların meyidləri ilə, onların etdikləri şərəfsizliyi etmirdilər.

İkinci Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələri evlərinə getmək istəyən erməniləri avtobuslarla yola saldılar və onlara yemək- içmək təklif edirdilər.

-Bir gün eşitdik ki, Kəlbəcər istiqamətində gedən döyüşlərdə hərbi hissələrimizdən biri çox böyük təlafat verib. Bizim tabor bu dəhşətli hadisəni eşidəndə hönkür-hönkür ağladıq, bir gün ac-susuz qaldıq, boğazımızdan heç nə keçmədi. O faciədə 1500 nəfərdən çox əgərimiz şəhid olmuşdu (14 fevral 1994-cü il- Murovdağ)".

Bu sətirləri yazanda ikimizin də, gözləri yaş süzürdü.

Harda yaralandınız? - deyə cəsur döyüşçü, qazi, Eyvaz İsayevə yenə sual verdim.

1994- cü il fevralın 20- də, erməni vandalları ilə qız-

ğın bir döyüşdə sol ayağımdan ağır yaralandım. İlk yardım göstəriləndən sonra məni başqa yaralılarla birlikdə Bakıya yola saldılar. Bir neçə ay xəstəxanada müalicə olundum. 4 may 1995-ci ildə, ordudan tərxis etdilər. Birinci qrup əliləm".

**-Siz bir qazi kimi Dövlətimizdən razısınızmı?-** deyə axırıncı sualımı Silahlı Qüvvələrin igid döyüşçüsü, qazi qardaşımız Eyvaz İsayevə verdim.

-"Əlbəttə razıyam, Dövlətimiz mənə ev, maşın verdi, təqaüd verir, Allah Dövlətimizdən razı olsun".

Allah sizdən də, sizin kimi bütün qazi qardaşlarımızdan, veteranlarımızdan razı olsun. Allah Ordumuzu qorusun. Allah cəmi Şəhidlərimizi qəni- qəni rəhmət eləsin.

# QAZİ- HƏMİDOV MAQSUD HƏMİD OĞLU



Həmidov Maqsud Həmid oğlu 1973-cü il noyabrın 13-də, Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

1980-1991-ci illərdə, Yeyənkənd kənd orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

1991-ci ildə, Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılır. O, əvvəlcə N saylı hərbi hissədə hərbi hazırlıq keçir, sonra isə Əsgəran rayonunda düşmənlə üz- üzə dayanan N saylı hərbi hissəyə yola salınır.

**Haşiyə:-** Əsgəran qalası 13-cü əsrdə Qarabağ xanlığının yaradıcısı Pənahəli xan (1693-1763) tərəfindən Şuşa şəhərinin təhlükəsizliyini təmin etmək üçün tikdirilmişdir. Əsgəran qalası həm də, xan ailələrinin istirahət mərkəzlərindən biri olmuşdur. Bu qala Qarabağ xanlığının şərq qapısı adlandırılırdı. Şuşa şəhərindən təqribən 25 km aralıda yerləşən Əsgəran qalası Qarqar çayının sağ və sol sahilində, dağlar qoynunda yerləşir.

1813- cü il Gülüstan və 1828- ci il Türkmənçay müqavilələrilə, Rusiya İmperiyası tərəfindən Azərbaycanda xanlıqların mərhələ-mərhələ ləğv edilməsilə, Əsgəran qalası öz müdafiə mövqeyini, həm də, xan ailəsinin istirahət yeri kimi əhəmiyyətini itirərək ləğv edilir.

Əsgəran qalası “Əsgəran” adlı yerdə tikildiyi üçün Əsgəran qalası adlandırılmışdır.” Əsgi”-köhnə, qədim,”Aran”-isə, düz yer mənasında işlədilir.

Əsgəran qalası hündür bürclərlə möhkəmlndirilmiş, iki qat daş divarlarla əhatə olunmuşdur. Qala düşmən hücumu zamanı çox etibarlı olmuşdur. Ağdam şəhərindən 12 km cənubda, Xocalıdan isə 5 km aralı yerləşir. (2025-ci il iyulun 20-də, Ağdamda, Xocalıda, Əsgəran qalasında, Xankəndi və Şuşa şəhərində oldum. Çox təəssüf ki, Əsgəran qalasının bəzi divarları erməni vandalları tərəfindən dağıdılmışdır.)

Əsgəran rayonu 1930- cu ildə, yaradılanda Xankəndi ( Stepanakert) rayonu kimi yaradılır, lakin 1978-ci ildə, adı dəyişdirilərək Əsgəran rayonu adlandırılır.

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixi qərarı ilə, Əsgəran və Hadrut rayonları ləğv edilməklə, Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılır. Əsgəran rayonunun ərazisi Xocalıya birləşdirilir. Hadrut rayonu isə Xocavənd rayonunun tərkibinə qatılır. Haşiyə bitdi.

**Həmidov Maqsud Həmid oğlunun döyüş yolu**

Əsgəran uğrunda döyüşlərə atılan №-saylı hərbi hissə ilə bağlıdır. N saylı hərbi hissənin qarşısında duran ən başlıca vəzifə Əsgəran qəsəbəsini və ətraf əraziləri düşmən hücumundan qorumaq, düşmənin Ağdam rayonu istiqamətinə irəliləməsinin qarşısını almaq idi. Əsgəran qəsəbəsi (əvvəl rayon idi) strateji əhəmiyyəti olan bir ərazi idi. Əsgəran qəsəbəsinin və ətraf ərazilərin işğal olunması ilə, Ağdam şəhərinə gedən yol düşmənin üzünə açıla bilərdi. Ona görə erməni silahlı qüvvələri Əsgəran istiqamətinə xeyli hərbi qüvvə toplamışdılar.

1992-ci ilin əvvəlində, Azərbaycan Ordusu hücuma

keçərək düşməni Əsgəran istiqamətindən geri otuzdurur, lakin müasir silahlarla silahlanmış düşmən, əlavə canlı qüvvə və hərbi sursat alaraq Əsgəran qəsəbəsini ələ keçirə bilir. Azərbaycan ordusuna isə, əlavə kömək gəlmirdi, hərcməclik, pərakəndəlik ,özbaşınalıq ölkəmizdə tüğyan edirdi.

Maqsud Həmidovun da, vuruşduğu №-saylı hərbi hissə xeyli şəhid verərək geriyə çəkilməyə məcbur olur. Ermənilər Əsgəran torpağından Ağdamın mərkəzini, Şelli, Bağbanlar, Şahbulaq, Yusifcanlı və.s kəndləri fasiləsiz atəş yağışına tuturlar.

Başdan ayağa müasir silahlarla silahlanmış düşmənə qarşı Azərbaycan əsgəri, qeyri bərabər döyüşlərə girmişdi. Qan su yerinə axırdı. Düşmən nəyin bahasına olursa -olsun Ağdamı ələ keçirməyə çalışırdı.

Maqsudun Ordu sıralarında olanda yazmış olduğu xatirələrdən: - "1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda baş verən faciəni eşitdik. Bu zaman bizim tabor Ağdam istiqamətində yerləşirdi. Xocalı sakinlərinin- körpələrin, qocaların, qadınların, cavanlarımızın rəhm edilmədən qana-qəltan edilməsini, vəhşicəsinə öldürülməsini eşidəndə biz, bütün tabor hönkür- hönkür ağlamağa başladıq. Öldürülənlərin üstündən vəhşiləşmiş, azğın düşmən tanklarla, ağır maşınlarla keçmişdilər. Qışın şaxtalı, qan donduran vaxtında insanlığa sığmayan dəhşətli Soyqrım törədilmişdi"

Xocalı soyqırımı haqqında ağlaya- ağlaya öz xatirələrini yazan Maqsud Həmid oğlu Həmidov, bir il sonra 26 fevral 1993-cü ildə, erməni vandalları ilə ölüm- dirim döyüşlərində ağır yaralanır. Hərbi komandanlıq Maqsudla bərabər yaralanmış 25 döyüşçünü və 12 şəhidi döyüş bölgəsindən çıxararaq maşınla arxaya, xəstəxa-

naya yola salırlar.

Qeyd:- Əsgəran qəsəbəsi 10 oktyabr 2020-ci il üçtərəfli müqaviləyə əsasən, Rusiya sülhməramlı qüvvələrin nəzarətinə keçir.

19-20 sentyabr 2023-cü ildə, Qarabağda keçirilən "Antiterror əməliyyatı"-dan sonra Azərbaycan Ordusu, Əsgəran qəsəbəsində nəzarəti ələ keçirir və Azərbaycan Silahlı Qüvvələrinin Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, işğaldan azad olunmuş başqa torpaqlarımızda olduğu kimi Əsgəran qəsəbəsində də, Azərbaycan bayrağını ucaldır.



# ABBASOV İNKİŞAF KAMİL OĞLU

-“1971-ci il oktyabrın 12- də, Azərbaycan Respulikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşam. 1988- ci ildə Masallı şəhər bir saylı tam orta məktəbini müvəffəqiyyətlə bitirmişəm. 1993-cü ildə, Azərbaycan Dövlət İnşahat Mühəndisləri Unuversitetini bitirdikdən sonra həmin ilin iyulun 1- də, Ordu sıralarına çağırıldım. Əvvəlcə № saylı hərbi hissədə bir neçə gün hərbi təlim keçəndən sonra bizi Ağdam rayon istiqamətində, № saylı hərbi hissəyə yola saldılar. Bu elə bir vaxt idi ki, Ermənistan Silahlı Qüvvələri və Qarabağın seperatçı ünsürləri Ağdam şəhərini gecə və gündüz yaylim atəşinə tuturdular”-deyə Birinci Qarabağ müharibəsinin veteran- əsgəri fikirli halda söhbətini davam etdirməyə başladı.



***Birinci Qarabağ döyüşçüsü-İnkişaf Abbasov (sağdan 3-cü)***

-Müharibədən danışanda yəqin ki, şəhidlərimiz yadına düşdü?- deyə İnkişaf Abbasova sual verdim.

-Gözlərim önündə can verən, şəhid olan əsgər dostlarım, əsgər yoldaşlarım, komandirlərim gəlib durdu. Müharibədən danışanda istər- istəməz gözlərimdən yaş damcılayır, özümü qəm- kədər içində hiss edirəm".

-Hərbi hissənizin döyüş yolundan az da olsa danış, danış ki, o illər ağ kağızlara həkk olunsun, yazaq ki, gələcək nəsillərər, o illərdən məlumatlı olsunlar.

-Bizim tabor Ağdam rayonunun Paprəvənd, Güllücə kəndləri istiqamətində düşmənə qarışı şiddətli döyüşlər aparırdı.

Xankəndini, Xocalını, Şuşanı, Laçını, Xocavəndi, Kəlbəcəri işğal etdikdən sonra erməni işğalçıları bütün səylərini Ağdam şəhərinin işğalına yönəltmişdilər.

Ermənistan Ordusunun Ağdam şəhərini işğal etmək üçün keçirtdiyi hərbi əməliyyatların qarşısı Ordumuz tərəfindən alındı. Ağdamda uğurlu nəticə əldə edə bilməyən düşmən hücum istiqamətini Ağdərə istiqamətinə dəyişir və çox keçmədən hərbi manevr edərək yenidən bütün qüvvəsini Ağdam üzərinə yönəldir.

Məcburiyyət üzündən hərbi hissəmiz tutduğu mövqeydən geri çəkildi. Ermənilər Papravənd, Mollalar, Kürdlər və.s. kəndlərini işğal edə bildilər.

Haşiyə:- Ağdam rayonunun Papravənd kəndi rayon mərkəzindən 20 km şimalda, Ağdam, Ağdərə yolunun üzərində, Gülyataq çayının hər iki sahili olan vadidə yerləşir. Kənd 1993-cü ilin iyunun 26- da, erməni ünsürləri tərəfindən işğal edilir.

Bu kətdə olan məktəb, kitabxana, mədəniyyət evi, daş karxanası, ticarət obyektləri, hevandarlıq kompleksi erməni işğalçıları tərəfindən qarət edilir, xarabalığa

döndərilir.

Azərbaycanın daxilində hakimiyyət uğrunda gedən mübarizə ermənilərin əl-qolunun açılmasına şərait yaradırdı.

15 may 1993- cü ildən etibarən Moskvada Ermənstan səfirliyində, Azərbaycan tərəfindən Baş Nazir Pənah Hüseynov və Azərbaycanın Moskvadakı səfiri Hikmət Hacızadə ilə, Ermənistan nümayəndiliyi arasında sülh danışıqları aparılırdı. Danışıqların əsas məğzi Qarabağ müharibəsinin sülh yolu ilə həll edilməsindən ibarət idi. Sülh yolunun ən başlıca şərtini isə erməni nümayəndələri  DQMV- nə Azərbaycan daxilində "Respublika" statusunun verilməsini göstərirdilər. Ermənilərin bu tələbinə Azərbaycan nümayəndələri öz razılıqlarını bildirmişdilər və tərəflər arasında razılıq əldə edilmişdi. Lakin ermənilər bir tərəfdən sülh danışıqları aparır, digər tərəfdən isə Ermənstan Silahlı Qüvvələrinin ən çevik hissəsini Ağdam istiqamətində toplayırdılar. Moskvada isə Azərbaycan nümayəndəliyini inandırmağa şalışırdılar ki, tezliklə ordularını Kəlbəcərdən geri çəkib Kəlbəcəri azad edəcəklər. (Kəlbəcər 03.04.093- cü ildə işğal edilmişdi). Azərbaycan Hökuməti sülh müqaviləsi imzalamaqla ölkə daxilində hər gün artan problemlərdən qurtulmaq və vətəndaş müharibəsi təhlükəsini aradan qaldırmaq, Ordunu yenidən qurmaq məqsədi güdürdü.

Azərbaycanın daxilində vəziyyət getdikcə ağırlaşırdı.

1993-cü il 4 iyunda Gəncədə Azərbaycan Ordusunun, o vaxtkı korpus komandiri Surət Hüseynovun rəhbərlik etdiyi hərbi qüvvələrlə hökumət qüvvələri arasnda silahlı toqquşma baş verdi. Surət Hüseynovun nəzarətində olan 709 saylı hərbi hissə Azərbaycan Dövlətinə tabe olmaqdan imtina etdi. Hökumət qüvvələri ilə qi-

yamçılar arasında baş verən toqquşmada 35 nəfər həlak oldu."4 iyun qiyamı" Azərbaycan tarixinə qara ləkə kimi daxil oldu.

Belə bir vəziyyətdə 1993-cü ilin iyun ayında, Əlkiram Hümbətov belə bir ağır gündə ölkəmizin cənubunda "Talış Muğan Respublikası" yaratmaq ideyasını irəli atdı. Bu hərəkət Surət Hüseynovun hərəkəti kimi ölkəmizə qarışı ən böyük xəyanət idi.

Ermənilərlə ölüm- dirim savaşının getdiyi bir vaxtda hərbi qüvvələrimizi cəbhədən Lənkərana geri çəkmək şərəfsizliyin, satqınlığın bariz nümunəsi idi. Əlbətdə Masallı, Cəlilabad, Yardımlı, Astara, Lerik, Yardımlı camaatı Əlikramın bu satqınlığını lənətləyərək pislədi. Cənub zonasının bütün rayon əhalisi seperatçı qüvvələrə qarışı ayağa qalxdı. Avqustun 23-də xain qüvvələr Əlkiram Hümbətov başda olmaqla iflasa uğradı. Əsas məsələdən uzaqlaşsaq da, Surət Hüseynov və Əlikram Hümbətov kimi satqınların cinayətlərini dəyərli oxucularımıza bir daha xatırlatmaq çox vacibdir.

Belə bir vəziyyətdə Azərbaycan Hakimiyyəti daxili intriqalardan, gözlənilən vətəndaş müharibəsindən qurtulmaq üçün Heydər Əliyevdən kömək istədi. Heydər Əliyev 15 iyun 1993- cü ildə, Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Prezident Əbülfəz Elçibəy heç kimə xəbər vermədən Bakıdan Kələki kəndinə gedir. Konstitusiyaya uyğun olaraq hakimiyyət siyasi aləmdə böyük təcrübəsi olan Heydər Əliyevə həvalə olundu.

Azərbaycanın daxilində vəziyyət elə ağırlaşmışdı ki, onu birdən-birə həll etmək qeyri mümkün idi, buna vaxt lazım idi.

Erməni quldurları isə, Azərbaycanın daxilində olan

bu vəziyyətdən maksimum istifadə etmək istəyirdilər. Haşiyə bitdi.

**Yenə danışır İnkişaf Abbasov.**

-"12 iyun 1993-cü ildə, Ağdam istiqamətinə toplaşmış Ermənistan Silahlı Qüvvələri və Qarabağın seperatçı ünsürləri Ağdam və Ağdərə istiqamətindən hücuma keçdilər. Hücum əməliyyatında ermənilərin 6000- mindən çox canlı qüvvəsi, saysız- hesabsız hərbi texnikası, artilleriya qurğuları, Mi-24 döyüş vertalyotları iştirak edirdi. (biz bu məlumatları sonra öyrəndik)




*Birinci Qarabağ döyüşçüsü-İnkişaf Abbasov (sağdan 2-ci)*

Ermənilər 1993-cü il iyulun 7- də, Ağdam ətrafında olan kəndləri və Ağdərəni işğal etdilər, onlar üçün Ağ-

damın işğalı daha da asanlaşır. Əsgərlərimiz Ağdam uğrunda ölüm-dirim savaşına girmişdi. Artıq dördüncü dəfə idi ki, ermənilər Ağdam şəhərini tutmaq üçün hücuma keçirdi.

1993- cü il iyulun 21-də, ermənilər Ağdam şəhərini, ətraf kəndləri güclü artilleriya və top atəşinə tutmağa başladılar. Ermənilər Ağdam şəhərinə yaxın Qiyaslı, Xıdırlı, Qasımlı, Novruzlu, Yusifcanlı kəndlərini tutmaqla Ağdam şəhərini mühasirəyə aldılar.

Bizim №- saylı hərbi hissəmiz və Ağdam briqadası məcburiyyət üzündən geriyə çəkildilər. Xeyli canlı qüvvəmiz şəhid oldu. Ağdam briqadası bir neçə nəfər istisna olmaqla hamısı şəhid oldular".

Beləliklə 43 gün davam edən ağır döyüşlərdən sonra Ağdam şəhəri 23 iyun 1993- cü ildə işğal edildi.

Ağdam uğrunda gedən ölüm- dirim savaşında, xeyli əsgərimiz şəhid oldu və itkin düşdü. Ağdamın 153 min əhalisindən 130 mini, məcburi köçgün vəziyyətinə düşərək Azərbaycanın müxtəlif bölgələrinə pənah apardılar.

Abbasov İnkişaf Kamil oğlu 1996-cı il noyabrın 12-də, Ordudan tərxis olunaraq ehtiyata buraxılır.

Müharibə veteranıdır.

# ABBASOV CAMAL ŞABAN OĞLU



*Abbasov Camal (arxada sağdan 3-cü)*

Camal Abbasov 1974-cü il fevralın 1-də, Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur. 1981-1991-ci illərdə, Yeyənkənd kənd orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmiş, 13 may 1993-cü ildə, Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılmışdır. O, əvvəlcə Lənkəran şəhərinin № saylı hərbi hissəsində xidmət edir, sonra isə 24 dekabr 1993-cü ildə, Beyləqan rayonunun N saylı hərbi hissəsinə yola salınır.

Hərbi hissədə sürücü vəzifəsində xidmət edən Camal Abbasov Beyləqan və Xocavənd istiqamətində, Xocavəndin erməni işğalçılarından azad edilməsi uğrunda gedən ağır döyüşlərdə rəşadətlə vuruşur, hərbi hissənin döyüşçüləri arasında nüfuz və hörmət qazanır. O, heç nədən qorxmayan cəsur bir döyüşçü idi.

-"Dağlıq Qarabağda ermənilərin ən çox hərbi qüvvə topladıqları ərazilərdən biri də, Xocavənd istiqamətində idi. Çox təəssüflər olsun ki, Xocavənd rayonu artıq 02 oktyabr 1992-ci ildə, erməni vandalları tərəfindən işğal edilmişdi"- deyə, Camal Abbasov öz döyüş yolların-

dan danışmağa başladı.

-"Bizim N saylı hərbi hissənin qarşısında duran ən başlıca vəzifə Xocavəndi və Şuşa şəhərini xain düşməndən azad etmək idi.

Xocavənd rayonu böyük strateji əhəmiyyəti olan ərazi olduğu üçün erməni işğalçıları bu istiqamətdə böyük hərbi sursat, canlı qüvvə toplamışdılar.

Düşmən Xacavənd rayonunun Qaraçuq dağ silsiləsindən, Böyük Oxlu yüksəkliyindən Füzulini, Beyləqanı, Ağcabədini, Ağdam rayon ərazilərini tam müşahidə edə bilirdi.

Böyük Oxlu məntəqəsinin kimin əlində olması döyüşün taleyini həll edirdi.

Əməliyyat aprel ayının əvvəllərində başlandı. Gecə idi, çisgin yağış yağır, göz-gözü görmürdü. Xocavənd polisi də, döyüşə dəstək vermək üçün hərəkətə keçmişdi.

Bizim rotanın (bölük) döyüşçüləri "Qranatatan"-la düşmən səngərlərinə zərbə endirməyə başladılar. Düşmən tərəfi xeyli itgi verərək pərakəndə halında geriyə çəkilməyə məcbur oldular. Döyüş meydanında düşmənin xeyli hərbi sursatı, meyidləri tökülüb qalmışdı, Böyük Oxlu məntəqəsi bizim əlimizə keçdi.

Lakin düşmən həmin istiqamətdə yeni hərbi qüvvələr cəmləşdirərək bizim yerləşdiyimiz ərazini güclü top və artilleriya atəşinə tutdular. Sanki göydən mərmi yağışı yağırdı. Bizim komandanlıq kömək üçün arxa ilə əlaqə saxladı. Mərkəzdən bildirdilər ki, "Gözləyin, kömək gələcək". Bir də, gördük ki, bizə tərəf bir neçə tank hərəkət etməyə başladı. Çox sevinirdik ki, bizə kömək göndəriblər. Bir neçə dəqiqədən sonra "bizə köməyə gələn" tanklar üstümüzə atəş yağdırmağa başladı. Çox

təəssüf ki, ümidimiz boşa çıxdı. Biz azğın düşmənlə qeyri bərabər döyüşlərə, ölüm- dirim savaşına girdik. Ümidlə arxadan kömək gözlədiyimiz halda, mərkəz bizi köməksiz qoydu. Döyüşçülərimizin qəhrəmanlığına, ölümlə göz-gözə dayanıb igidliklə vuruşduqlarına baxmayaraq geriyə çəkilməyə məcbur idik. Çoxlu şəhid vermişdik, qan su yerinə axırdı, yaralılarımız həddindən artıq çox idi. Düşmən bizim rotanı mühasirəyə almaq üçün dəridən- qabıqdan çıxırdı. Şəhidlərimizi, yaralılarımızı maşınlara yığaraq güllə yağışı altında döyüş bölgəsini tərk etməyə başladıq. Xocavənd polisi də, məcburiyyət üzündən geriyə çəkilməyə başladı. Geriyə çəkiləndə gözümüzdən yağış kimi damcılar axırdı, axı arxada şəhid, yaralı əsgərlərimizin qanına bələnmiş torpaqlarımız qalırdı. Bir tərəfdən maşınlara yığdığımız qalaq- qalaq şəhidlər, yaralılar, bir tərəfdən də, geridə buraxdığımız, uğrunda qan tökdüyümüz vətən torpağı."Bağışla Vətən, biz yenə qayıdacağıq"-deyə əsgərlərimiz ağrılı, iniltili səslə pıçıldayırdılar".

Mənim sevimli şagirdim olmuş, birinci Qarabağ döyüşçüsü Camal yana- yana danışırdı, onun ağrılı sözlərini ağ vərəqə köçürürdüm, gözlərimdə axan damcı-damcı göz yaşları ağ vərəq üstündə naxış salırdı. Gözlərim, Qarabağda həlak olan şəhidlərimiz, itgind düşən və əsir aparılanlar üçün, ata- baba yurdlarından didərgin salınan bir milyon qaçqın və köçgün xalqimiz üçün qəm yaşı axıdırdı.

Müəllim işlədiyim Birinci Qarabağ müharibəsi illərini yenə xatırladım.Yeni yaranmış Respublikada daxili hərcmərclik, özbaşınalıq, hakimiyyət uğurunda mübarizə tüğyan edirdi. Erməni vandalları da, bütün bunlardan çox məharətlə istifadə edərək 20 % torpaqlarımızı

işğal etdilər.

Abbasov Camal Şaban oğlu 15 avqust 1997-ci ildə Ordu sıralarından tərxis olunaraq ehtiyata buraxılır. Müharibə veteranıdır.




*Abbasov Camal (arxada ikinci)*

# BAXŞIYEV VASİF MİRZAĞA OĞLU

Vasif Baxşıyev 24 may 1974- cü ildə, Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur.

1981-1991- ci illərdə, Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağrılır və N saylı hərbi hissəyə göndərilir.



*Baxşıyev Vasif, döyüşçü dostları ilə*

Bu vaxta qədər artıq Xankəndi, Xocalı, Şuşa, Laçın, Xocavənd ermənilər tərəfindən işğal edilmişdi. Vasif Baxşıyevin xidmət etdiyi № saylı hərbi hissə ermənilərə qarışı rəşadətlə vuruşan hərbi hissələrdən biri idi.

№ saylı hərbi hissə Ağdamın ermənilər tərəfindən işğal edilməsindən sonra (23.07.093) əsas gücünü Füzuli rayonunun müdafiə olunmasına yönəltmişdi.

Azərbaycan Ordusunun bütün cəhdlərinə baxmayaraq çox təəssüf ki, Ağdam şəhəri kimi, Füzuli rayonu da, xaricdən hər cür dəstək və kömək alan, xarici ölkələrdən muzdlu əsgərlərlə təmin edilmiş Ermənstan Ordusu tərəfindən 23 avqust 1993- cü il tarixdə işğal

edildi. Çox təəssüf ki, həmin tarixdə Cəbrayıl rayonu da, işğal olunur.

-"Bizim N saylı hərbi hissəmiz azğın düşmənə qarışı qəhrəmanlıqla vuruşurdu"-deyə, Vasif həyəcanla danışmağa başladı. Bu döyüşlərdə 1100 nəfərdən çox şəhid verdik. Ermənilər bizə göz dağı vermək üçün, götürməyə imkan tapa bilmədiyimiz şəhid əsgərlərimizin üstündən tankları sürüb keçirdilər. Onlar öz insaniyyətini tamam itirmiş, vəhşiləşmiş bir toplum kimi hərəkət edirdilər.




Sonra biz arxadan az da olsa, əlavə qüvvə alaraq 1994-cü ilin dekabr ayında hücuma keçib Füzuli rayonunun 21 kəndini və hərbi əhəmiyyətli, strateji baxımdan mühüm məntəqə olan Horadiz qəsəbəsini işğaldan azad etdik.

Hərbi hissəmiz Füzuli şəhərini işğaldan azad etmək üçün hücuma keçsə də, hücum müvəffəqiyyətsizliklə nəticələndi.

Bizim məğlubiyyətimizin əsas səbəblərindən biri vaxtlı- vaxtında əlavə kımək, dəstək ala bilməməyimizdən irəli gəlirdi, bəzən güllə belə çatışmırdı".

Baxşıyev Vasif Mirzağa oğlu 30 oktyabr 1996- cı ildə, Ordu sıralarında tərxis olunur.

Müharibə veteranıdır.

# ƏLİYEV BƏYMƏMMƏD YUNUS OĞLU



Azərbaycan Silahlı Qüvvələrinin əsgəri olmuş Əliyev Bəyməməd Yunus oğlu 17 iyun 1974- cü ildə Azərbaycan Respublikası Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. Yeyənkənd kənd orta məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra 15 sentyabr 1992- ci ildə Masallı rayon Hərbi Komissrarlığından həqiqi hərbi xidmətə çağırılır.

№ saylı hərbi hissənin əsgəri olaraq Xocavənd, Nərgiztəpə, Şişqaya istiqamətində gedən döyüşlərdə mənfur düşmənə qarşı öz qorxmazlığı, şücaəti ilə Bəyməmməd Əliyev hərbi hissə komandanlığının bir neçə dəfə təşəkkürünü qazanır. Məlum olduğu kimi Xocavənd rayonu 1992- ci il oktyabrin 2- də, mənfur düşmən tərəfindən işğal edilsə də, Azərbaycan Ordusu işğal edilmiş torpaqlarımızı, o cümlədən Xocavəndi azad etmək üçün düşmənlə ölüm- dirim savaşına girmişdi.

Ermənilər Dağlıq Qarabağdan və ətraf rayonlardan azərbaycanlıları öz ata- baba yurdlarından didərgin salmaq üçün soyqrımlar törədir, əhalinin başına olmazin müsibətlər açırdılar. Xocavəndin Qaradağlı faciəsi də, ermənilərin azərbaycanlılara qarşı törətdikləri saysız-hesabsız faciələrdən biri idi.

-" 1993- cü il aprelin 17-də, Xocavəndin 5 km-də, alınmaz qala olan Nərgiztəpə uğrunda ölüm- dirim döyüşlərinə başladıq"-deyə Bəyməməd öz döyüş xatirələrini danışmağa başladı.

-Nərgiztəpə strateji cəhətdən çox əhəmiyyətə malik bir məntəqə olmaqla yanaşı həm də, qədim yaşayış məskənlərindən biridir. Bu təpə yaz ayları başdan- başa nərgiz gülü ilə bəzəndiyi üçün çox güman ki, buna görə Nərgiztəpə adlandırılmışdır.

Bir neçə dəfə Nərgiztəpə əldən ələ keçir. Düşmən bütün qüvvəsilə bu məntəqəni əldə saxlamaq istəyirdi. Nəhayət 1993-cü ilin sonu, 1994- cü ilin əvvəllərində şiddətli döyüşlərdən sonra biz Nərgiztəpəni işğaldan azad edə bildik. Nərgiztəpə uğrunda gedən döyüşlərdə xeyli şəhid  və yaralımız oldu.

1994- cü ilin aprelin 10- da, Ümummilli lider Heydər Əliyev bizim № saylı hərbi hissəmizdə oldu, səngərdə əsgərlərlə görüşdü.

Nərgiztəpə ərazisində şəhidlərimizin ruhuna hörmət əlaməti olaraq abidə komleksi ucaldılmışdır.

Birinci Qarabağ Müharibəsi veteranı Bəyməmməd Yunus oğlu Əliyev 9 noyabr 1996- cı ildə Azərbaycan Ordusu sıralarından tərxis olunur. Müharibə veteranıdır.

# KAPİTAN- EYVAZOV ƏFRAİL İSMAYIL OĞLU



*Kapitan-Əfrail Eyvazov (sağdan birinci)*

Əfrail Eyvazov 1966-cı il iyunun 8-də, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

1973-1981-ci illərdə, Yeyənkənd kənd orta məktəbin 8- ci sinifini bitirdikdən sonra Bakı şəhərində kimya- bialogiya təmaüllü 5-nömrəli internet məktəbdə oxumuş və orta təhsilini müvəffəqiyyətlə başa vurmuşdur.

Əfrail Eyvazov 1983-cü ildə M. Əzizbəyov adına Azərbaycan Neft- Kimya İnstitutuna qəbul olunur.

1984- 1986-cı illərdə, həqiqi hərbi xidmət borcunu yerinə yetirir. 1991-ci ildə, ali təhsil ocağını bitirdikdən sonra Bakı şəhərinin Neft Əmsalı Zavodunda əmək fəaliyyətinə başlayır.

1992- ci ilin may ayında, Vətənin ağır günlərində könüllü olaraq Ordu sıralarına yollanır.

Əfrailin döyüş yolu Füzuli rayonundan başlayaraq Xocavənd rayonunda, Qırmızı Bazar qəsəbəsində mənfur düşmənə qarşı amansız döyüşlərdən keçir. Qırmızı Bazar məntəqəsi Xankəndi ilə Füzulini, Xankəndi ilə Xocavəndi birləşdirən strateji əhəmiyyətli məntəqələrdən biri idi. Bu yol həmçinin Xankəndi şəhərini Tuğ, Bö-



yük Tağlar və başqa kəndlər ilə birləşdirirdi.

Bütün bunlara görə Ermənistan bu istiqamətdə böyük hərbi qüvvələr cəmləşdirmişdi.

Əfrail Eyvazovun xidmət etdiyi N saylı hərbi hissə, 1993-cü ilin dekabr ayından 6 yanvar 1994-cü ilə kimi, Horadiz əməliyyatlarında erməni seperatçılarına və hərbi qüvvələrinə qarşı qəhrəmanlıqla vuruşan hərbi hissələrdən biri idi. Horadiz qəsəbəsi Füzuli rayonunda ən önəmli məntəqələrdən sayılırdı.

Baş leytenant Əfrail Eyvazov, savadlı bir bölük komandiri kimi tabeçiliyində olan əsgərlərlə Horadiz qəsəbəsi daxil olmaqla Füzuli rayonunun 21 kəndinin mənfur düşməndən azad olunmasında igidlik və şücaət göstərir.

Düşməndən qənimət olaraq 3 tank, 6 ədəd top, 6 ədəd

top qoşqusu, 10 ədəd nəqliyyat vasitəsi, çoxlu sayda silah- sursat qənimət kimi götürülür.

"Hay"-lar öz ölülərini, yaralı əsgərlərini döyüş meydanında ataraq geri çəkilirlər. 1994- cü il yanvarın 5- də Horadizdə Azərbaycan bayrağı dalğalanır.

Göstərdiyi döyüş keyfiyyətlərinə , igidliyə görə Əfrail Eyvazov kapitan rütbəsinə yüksəlir.

Kapitan Əfrail Eyvazov Qarabağ döyüşlərində göstərdiyi şəxsi komandirlik bacarığına görə 1996- cı ildə, Azərbaycan Müdafiə Nazirliyinin kadrlar şöbəsində vəzifəyə irəli çəkilir.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandanın adından Müdafiə Nazirinin sərəncamı ilə,

Azərbaycan Silahlı Qüvvələrin 10 illiyi yubley medalı ilə təltif edilmiş, veteran vəsiqəsi ilə təmin olunmuşdur.

# POLİS MAYORU FƏRƏCOV VASİF İZZƏT OĞLU



Təqaüddə olan Polis Mayoru Vasif Fərəcova " Eşitdiyimə görə siz Rusiyada da, işləmisiniz, Vasif müəllim".- deyə sual verdim.

-" Mən, 5- ildən çox Rusiyanın Daxili İşlər Nazirliyinin Krasnoyarsk diyarının Kansk şəhərinin Daxili İşlər şöbəsində milis nəfəri işləmişəm. Krasnoyarsk diyarı Rusiyanın ən böyük regionlarından biridir. Tarixi adı "Qırmızı Yar"-dır (Красный яр). Bura qədim Türklərin ərazisi olmuşdur. Çar Rusiyası bu ərazini işğal edəndən sonra, regiona "Krasnoyarsk" adı verilib. Ümumi əhalisi 3 milyona yaxındır. Bu diyarda xeyli azərbaycanlı yaşayır".

Vasif Fərəcov 1957-ci il iyilun 27-də, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur. Əvvəlcə Yeyənkənd kənd 8 illik məktəbini, sonra isə Masallı şəhər 3 saylı orta məktəbi bitirmişdir.

1976-cı ildə, Masallı rayon Hərbi Komissarlığından həqiqi hərbi xidmətə çağırılır və 1978-ci ildə Ordu sıralarından tərxis olunur.

1979-1984-cü illərdə, Azərbaycan Respublikası Daxili

İşlər Nazirliyinin Bakı şəhərnin Oktyabr (Yasamal) rayonunda milis nəfəri işləmişdir.

1984-1986-cı illərdə, SSRİ Daxili İşlər Nazirliyinin Kalininqrad şəhərində Milis məktəbində oxumuşdur.

-Vasif müəllim, necə oldu ki, Rusiyadan Vətənə döndünüz?

-"Pusiyada işləsəm də, ürəyim həmişə Azərbaycanın yanında olub. 1987-ci ildən başlayaraq Qərbi Azərbaycandan soydaşlarımızın öz ata-baba yurdlarından didərgin salınıb çıxarılması, vəhşicəsinə öldürülməsi, 1988-ci ildə, Qarabağ müharibəsinin başlanması, xarici ölkələrdə yaşayan vətənpərvər oğullarımızı narahat etdiyi kimi məni də, çox narahat edirdi. Azərbaycanda olan ağır vəziyyət bir an da, olsun yadımdan çıxmırdı. Vətənin ağır vəziyyəti, məni Vətənə çağırırdı.

1991-ci ildə, ərizə verərək işimdən azad olundum və Rusiyadan Vətənimə-Azərbaycana döndüm.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təyinatı ilə Lerik rayonunun Polis Şöbəsinə göndərildim.

Bir neçə gündən sonra könüllü olaraq biz, Lerik rayon Polis işçiləri, Qarabağa, döyüş bölgələrinə yollandıq. Mənfur düşmənlə 15 gün vuruşduqdan sonra, yenə öz iş yerimizə, Lerik rayonuna qayıdırdıq.

Daxili İşlər Nazirliyinin göstərişi ilə rayon və şəhər Polis işçiləri, döyüş bölgələrində hərbi fəaliyyətlərini növbəli şəkildə aparırdılar.

Təxminən iki aydan bir, azğın düşmənlə döyüşlərə qatılırdıq.

1988- ci ildə, Ermənilərin Azərbaycana qarışı hərbi təcavüzünə ilk olaraq Azərbaycan polisi ( milis) müqavimət göstərmişdir. Bu döyüşlərdə 1695- polis əməkdaşı şəhadət zirvəsinə ucalır, 1710- nəfər yaralanır, 67-nəfər

“Azərbaycanın Milli Qəhrəmanı” adına, 1193- nəfər orden və medallarla təltif edilir.”

**-Vasif müəllim, siz, şəxsən hansı döyüşlərdə iştirak etmisiniz?**



-Əvvəla, Birinci Qarabağ müharibəsinin ilk ayları Ordumuz tam formalaşmamışdı, pərakəndəlik hökm sürürdü. Məhz, belə bir vaxtda, Vətənimizin ağır günlərində ilk olaraq Azərbayacan polisi öz bədənini düşmən önündə sipər etdi. Təəssüf ki, düşmən artıq Xankəndini, Xocalını, Şuşanı, Laçını işğal etmişdi, cəbhədə şiddətli döyüşlər gedirdi. Şəhid olanları, yurd- yuvasından didərgin düşən soydaşlarımızı Ağdamda siyahıya alır, təhlükəsiz yerlərə yola salırdıq.

Xocavənd rayonunun Tuğ, Dalanlar kəndləri, Had-

rut qəsəbəsi istiqamətində, Ağdamın Güllücə kəndi və Ağdam uğrunda gedən döyüşlərdə mən də, daxil olmaqla Lerik rayon polis işçiləri və Azərbaycanın başqa bölgələrindən olan polis işçilərilə birlikdə erməni işğalçılarına qarşı ölüm-dirim savaşında iştirak etmişik.

Bəzi istiqamətlərdə düşməni geri oturtmağa müvəffəq olsaq da, yetərincə arxa köməyimiz, silah-sursat olmadığı üçün geri çəkilməyə məcbur olurduq. Cəbhədə dəhşətli anlar yaşayırdıq, qan su yerinə axırdı, bəzi səngərlərimizin içi şəhidlərimizlə dolu olurdu, o anları yadıma salanda düşünürəm ki, necə olub ki, mən sağ qalmışam. Yenə Allah bilən məsləhətdir. Çox təəssüf ki, ölkəmizdə pərakəndəlik, özbaşınalıq idi, bunun da, əzabını cəbhə bölgəsində vuruşan hərbi qulluqçular, polis işçiləri, xalq çəkirdi ".

**-Ağdam işğal olunanda siz hansı bölgədə idiniz?**

-Ağdam şəhəri və kəndləri uğrunda ölüm-dirim döyüşləri gedəndə biz, Lerik rayon polis işçiləri cəbhədə idik, şiddətli döyüşlər gedirdi. Elə hadisələr, elə shnələr görmüşəm ki, onlar xatırlamaq belə indi mənim üçün çox ağırdır. Ağdam şəhərini və Ağdam kəndlərinin çöx hissəsini arxalı düşmən işğal edə bildi, baxmayaraq ki, Qarabağın başqa bölgələri kimi Ağdam uğrunda da, hər bir əsgər, hər bir polis işçisi öz bədənini sipər etmişdi. Çox təəssüf edirəm ki, onun- bunun quyruğunda sürünən satqın bir toplum Azərbaycan xalqına, keçmişi qəhrəmanlıqlarla dolu bir xalqa qalib gəldi".

Gözümü kağız üzərindən, yazdığım sətrlərdən çəkib Vasif müəllimin üzünə baxdım, onun gözlərindən kədər yağırdı. Bəli, təkcə Ağdamda beş mindən çox şəhid vermişdik, itkin düşənlərimiz də, çox idi. Birinci Qarabağ müharibəsində şəhidlərimizin, əsir aparılanların,

itgin düşənlərin sayı ürək ağrıdır, erməni işğalçılarına qarışı nifrət hissini dahada alovlandırır.

Müharibədə qalib gəlmək üçün təkcə vətənpərvərlik, qəhrəmanlıq  azdır, qələbə üçün səriştəli, təcrübəli, vahid birliyə malik komandanlıq, möhkəm Dövlət aparatı, müasir silah- sursat, arxa- dayaq da, vacibdir.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi, Azərbaycan dövlətçiliyinin bir dövlət kimi formalaşmasının, yaşamasının qarantı oldu. Heydər Əliyev elə bir vaxtda hakimiyyətə gəldi ki, pərakəndə bir Ordunu, parçalanmaq üzrə olan bir ölkəni yenidən qurmaq günün vacib tələbi idi.

Polis Mayoru Vasif Fərəcov 1999-2012-ci illərdə Masallı rayon Polis Şöbəsində işləmiş, 2012-ci ildə, əmək təqaüdünə çıxmışdır. Birinci Qarabağ müharibəsi veteranıdır.

# BAŞ LEYTENANT, HƏSƏNOV RUSLAN HƏSƏN OĞLU



*Ruslan Həsənov (sağdan birinci)*

Həsənov Ruslan Həsən oğlu 1966-cı il fevralın 1-də, Azərbaycan Respublikası, Goranboy rayonunun Tap Qaraqoyunlu kəndində anadan olmuşdur. 1973-1983- cü illərdə, Tap Qaraqoyunlu orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

1984-1986-cı illərdə, əvvəlcə Gürcüstan Respublikasında, sonra isə Azərbaycan Respublikasında həqiqi hərbi xidmətdə olmuş və hərbi xidmətini tam başa vurmuşdur.

Ordudan tərxis olunduqdan sonra, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Naftalan şəhər milis şöbəsində serjant (çavuş) rütbəsində milis nəfəri işləmişdir.

**Haşiyə: -** 1980-cı illərin sonunda, Sovet Hakimiyyətinin zəifləməsindən istifadə edən dünya erməni diasporu və Sovet Hakimiyyətində müxtəlif vəzifələrdə təmsil olunan ermənilər, 1923-cü ildə, Azərbaycan SSRİ-nin tərkibində yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Azərbaycandan ayırıb Ermənstana bir-

ləşdirilməsi üçün gizli olaraq fəaliyyətlərini genişləndirirlər. “Böyük Ermənistan” yaratmaq kimi qondarma ideyanı gerçəkləşdirmək üçün erməni ideoloqları, hər cür şərəfsizlikdən istifadə edərək müxtəlif yollara əl atırlar.

1985-ci ildə, M. Qorbaçovun hakimiyyətə gətirilməsi, Rusiyada ermənilərin əl-qolunu daha da, açır və 1987-ci ildən başlayaraq gizli fəaliyyətdən açıq fəaliyyətə keçirlər. Azərbaycanın əzəli torpaqları olan Qarabağa yiyələnmək hərisliyi gün-gündən alovlanmağa başlayır.



1988-ci il fevralın 19-da, “Türklərsiz Ermənstan”, “Qarabağ ancaq ermənilərindir” kimi şüarlarla həm Ermənstanda, həm də, Xankəndində nümayişlər dalğası daha da, genişlənir. Bu nümayişlərdə azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) çıxarılması, DQMV-nin Ermənistana birləşdirilməsi açıq şəkildə qoyulmuşdu.

Erməni təcavüzkarlığına, vəhşiliyinə qarşı 1988-ci il fevralın 19-da, Bakıda etiraz mitinqləri başlayır. O

cümlədən Ağdamda 1988-ci il fevralın 22-də, minlərlə insan şəhər mərkəzinə toplaşaraq Əsgəran istiqamətinə hərəkət edirlər. Onlar silahsız idilər. Onlar dinc yolla öz narazılıqlarını, etirazlarını ermənilərə bildirmək istəyirdilər. Qəflətən erməni tərəfdən mitinq iştirakçılarına atəş açılır, xeyli insan yaralanır, Əli Hacıyev və Bəxtiyar Quliyev şəhid olurlar. Minlərlə insan daha da, hiddətlənərək irəliyə doğru hərəkət etmək istəyəndə, Sosialist Əməyi Qəhrəmanı Xuraman Abbasova, baş yaylığını mitinq iştirakçılarının ayaqları altına ataraq, onların irəliyə hərəkət etməsinin qarşısını alır. Xuraman Abbasova, bu hərəkətilə böyük bir faciənin baş verməsinə imkan vermir. Çünki, Qarabağın erməni ünsürləri tam silahlı vəziyyətdə idilər...Haşiyə bitdi.

Danışır, Tap Qaraqoyunlu kəndinin "Könüllü batalyon" komandiri, baş leytenant, Ruslan Həsənov.

-" Tap Qaraqoyunlu kəndi, Talış kəndinin yaxınlığında yerləşir. Ermənilər, Talış zirvəsindən (Ağdərə rayonu) uzun müddət (2020- ci il, 3 oktyabr- Talişkənd alınana kimi) Tap Qaraqoyunlu kəndini müxtəlif silahlardan atəşə tutur, dağıntılar törədirdilər. Kəndimizin 38 sakini bu azğın millətin gülləsinə tuş gəlmiş və həlak olmuşdur. Bir neçə dəfə erməni seperatçı qüvvələri kəndimizə hücum edərək kəndi işğal etmək istəsələr də, məqsədlərinə nail ola bilmədilər. Bizim təşkil etdiyimiz könüllü batalyonu ( Tabor), belə hücumların qarşısını cəsarətlə alaraq düşməni geri çəkilməyə məcbur edirdi.

Əvvəllər silah-sursat tərəfdən çox əziyyət çəkirdik, kənd sakinlərində təklülə, qoşalülə, beşatılan tüfənglər olsa da, bu silahlarla başdan ayağa silahlanmış düşmənin qarşısını kəsmək çox çətin idi. 1988-ci ildə, erməni quldur dəstələrinə qarşı yaratdığımız könüllülər dəstə-

sini silahla təmin etmək, günün ən vacib məsələsi idi.

Batalyonun silahla təmin olunması işini mən- Ruslan Həsənov və Niyazi Aslanov (şəhid-Milli Qəhrəman), Vüqar Gülməmmədov, Fəxrəddin Əhmədov (şəhid) öz üzərimizə götürdük. Mən o vaxtlar, serjant (çavuş) rütbəsində idim, milis orqanlarında işləyirdim. Məlumat üçün deyim ki, 1988-ci ildə, Ermənstanın Azərbaycana qarşı hərbi təcavüzünə ilk olaraq Azərbaycan polisi ( Sovetlər vaxtı milis adlanırdı) sinəsini sipər etmişdi. 1695 nəfər polis əməkdaşı şəhidlik zirvəsinə ucalmış, 67 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.

Biz, dörd nəfər, silah-sursat əldə etmək üçün Gəncə şəhərinə getdik. Mən əynimə polkovnik rütbəsində Rusun hərbi formasını geyinmişdim. Gəncə şəhərində Sovetin silah-sursat bazasından müəyyən yollarla bir tank əldə edib Tap Qaraqoyunlu kəndinə gətirdik. Tank nasaz vəziyyətdə idi. Niyazi Aslanov, Namiq Şirinovla birlikdə, o tankı işlək vəziyyətinə gətirdilər. Bu işdə Niyazi Aslanovun daha çox zəhməti olmuşdu (Allah cəmi şəhidlərimizə rəhmət eləsin).

Tankı sınaqdan keçirmək üçün Tap Qaraqoyunlu kəndindən aralı, Kolan deyilən dərədən düşmən tərəfə, Talış kənd zirvəsinə atəş açdıq. Bundan sonra tankın işlək vəziyyətdə olmasına bizdə əminlik yarandı.

Sonra, TOZ- 8 markalı 20 ədəddən çox tüfəng əldə etdik. Bu silahlardan əlavə başqa silahlarımız da, var idi. Kəndimizdə olan uşaq bağçasını müvəqqəti bağlayaraq kəndin özünmüdafiə batalyonu üçün məntəqə yaratdıq".

**-Sizin Tap Qaraqoyunlu kəndində təşkil etdiyiniz könüllü dəstələri, erməni təcavüzünə məruz qalan**

**qonşu kəndləri də, qoruyurdumu?**

-Bizim təşkil etdiyimiz könüllü dəstələri (batalyon) təkcə Tap Qaraqoyunlu kəndini yox, eyni zamanda qonşu kəndləri də, Şəfəq, Gürzallar, Todan, Sarısu, Buzluq və başqa kəndləri də, qoruyurdu, həmçinin Ağdərə, Tərtər, Ağdam istiqamətlərində düşmənlə gedən ölüm-dirim savaşında qəhrəmanlıqla vuruşurdu. Bu döyüşlərdə birlikdə, cinah- cinaha addımladığım könüllülər dəstəsinin hər bir üzvü mənim üçün çox əzizdir. Onlar, öz əməllərilə tarixin qəhrəmanlıq səhifəsini yazan döyüşçülər idi. Bu çətin anda qeyrətli, mərd oğullarımız, vətənin bötövlüyü naminə hər an canlarından keçməyə hazır idilər.

Niyazi Aslanov (şəhid-Milli Qəhrəman), Müşviq Əmirov, Vüqar Gülmmədov, Fəxrəddin Əhmədov (şəhid), Kərim Kərimov (şəhid-Milli Qəhrəman), Namiq Şirinov ( şəhid) və başqaları hərəsi bir qəhrəmanlıq nümunəsidir.

***Ey igid əsgərim, sən bir qəhrəman,***
***Unutmaz sizləri əlli milyon can.***
***Yandır Qarabağda bayram şamları!***
***Anam Azərbaycan öpür üzündən,***
***Şair əsgərinəm mən də, bu gündən!***

**S.A.**

**- Azərbaycanın Milli Qəhrəmanları Niyazi Şərəfxan oğlu Aslanov və Kərim Məmməd oğlu Kərimov hansı döyüşdə şəhid oldular?**

- 4 may 1992-ci il tarixdə, Tap Qaraqoyonlu kəndinin yaxınlığında, hündür bir ərazidə, " Yaltağıl" deyilən bir yerdə, erməni vandalları ilə qeyri bərabər döyüşə gir-

dik. Bizim batalyon Yaltağıl ərazisini düşmənlə qanlı döyüşlər apararaq geri almışdı, lakin məkrli düşmən çox böyük qüvvə toplayaraq quduz it kimi üstümüzə yenidən hücum etdi.



*Tap Qaraqoyunlu kəndinin döyüşçüləri.*
*Birinci Vətən Müharibəsi*
*Baş Leytenant Ruslan Həsənov*

Baş leytenant Kərim Kərimov düşmənin BMP-2 döyüş maşınını vurub sıradan çıxartdı. Əgər o, düşmənin BMP-2 döyüş maşınını vurub dağıtmasaydı, sizi inandırım ki, o döyüşdən bizim heç birimiz sağ çıxa bilməzdik. Kərim bu döyüşə xəstəxanadan çıxıb gəlmişdi”.

Erməni vandalları ilə döyüşlərdə öz igidliyi, mərdliyilə tanınan, çox cəsur bir döyüşçü Əmirov Müşviq, Milli Qəhrəman Kərim Kərimov haqqında öz xatirələrini danışdı:-Yaltağıl ərazisində, ermənilərlə döyüşün qızğın vaxtında, baş leytenant Kərim Kərimov özünü yetirdi. Ona dedim ki, axı sən yaralısan, müalicə olunmalısan, niyə xəstəxandan çıxıb gəldin?.

**- Siz burda azğın düşmənlə ölüm- dirim savaşında ikən, mən xəstəxanada necə qala bilərdim ki?-** deyə mənə cavab verdi. Bu döyüşdə Baş Leytenant Kərim Kərimov qəhrəmancasına şəhadət sarayına daxil oldu. O, cəsur bir döyüşçü idi, ayağından mərmi yarası almasına baxmayaraq xəstəxanadan çıxıb döyüşə gəlmişdi.”

- Başqa döyüşlərdə olduğu kimi bu döyüşdə də, Müşviq Əmirov əsl cəngavər kimi vuruşurdu"-deyə Baş leytenant, cəsur komandir Ruslan Həsənov, yenə xatirələrini danışmağa başladı:

- Müşviq Əmirov pulemyotla düşmənə göz açmağa macal vermirdi, ot kimi onları biçirdi. O, bundan əvvəlki döyüşlərin birində, erməni döyüşçüsünü öldürərək onun pulemyotunu götürmüşdü. Müşviq Əmiov düşmənin öz silahı ilə, özlərinə qarşı fasiləsiz ölümsaçan güllələr yağdırarmaqla, döyüşçülərimizin yeni mövqrylərə çəkilməsini təmin etdi.

Bu döyüşdə çox igid bir insanı, könüllü batalyonunun yaradıcılarından birini, qəhrəman bir döyüşçünü, Tap Qaraqoyunlu kəndinin fəxr elədiyi Niyazi Aslanovu da, itirdik. O, öz rota komandiri İsfəndiyar Əsədovu ölümün pəncəsindən qurtararkən qəhrəmancasına şəhid oldu. Bu qeyri bərabər döyüşdə öz sinəsini vətən yolunda sipər edən cəsur bir insan İsfəndiyar Əsədov da, qəhrəmancasına şəhid oldu.

Ölümündən sonra Kərim Kərimov, Niyazi Aslanov, Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə, Azərbaycanın Milli qəhrəmanı adına layiq görüldülər".

***Ey igid döyüşçü, ey igid qardaş!***
***Sizləri unutmaz bu qaya, bu daş!***
***Saldız Yaltağıl-da düşməni çaş-baş!***
***Vətən keşiyində hazır qaldınız!***
***Tarixə həkk oldu, o mərd adınız!***

**S.A.**

2010 –cu il oktyabrın 14-də, Tap Qaraqoyunlu kəndində, Azərbaycan ərazisindəki ikinci ən hündür bayra-

ğın təntənəli açılış mərasimi olur. Bayrağın hündürlüyü 65 metr, uzunluğu 18 metr, eni 9 metrdir.

Özü haqqında danışmağı sevməyən, Tap Qaraqoyunlu kəndinin batalyon komandiri (Könüllülər) Ruslan Həsənov öz döyüş yoldaşları, silahdaşları haqqında ürək dolusu danışırdı.

Həsənov Ruslan Həsən oğlu  1993-cü ildə, Daxili İşlər Nazirliyinin nəzdində olan Azərbaycan Polis Akademiyasına daxil olur və həmin Akademiyanı 1998-ci ildə, müvəffəqiyyətlə bitirir.

2009-cu ildən Kazan şəhərində yaşayan bu qəhrəman insan, orda da, öz vətənpərvərlik işlərini davam etdirir və müxtəlif tədbirlərin keçirilməsində yaxından iştirak edir.

Ruslan Həsənon Tatarıstan Respublikasında, Reqional İctimai Təşkilatı, Azərbaycan Milli-Mədəni Muxtariyyatın idarə heyyətin üzvüdür.


ƏBDÜLLA QURBANİ
Lələtəpə
fatehləri

# İKİNCİ VƏTƏN MÜHARİBƏSİ-
# "DƏMİR YUMURUQ" ƏMƏLİYYATI



# ÖLÜMÜN GÖZÜNƏ DİK BAXANLAR



Azərbaycana qarşı hərbi təcavüzün aradan qaldırılması, işğalda olan 20%-dən çox torpaqlarımızın işğaldan azad olunması üçün BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrini heçə sayan, 30- ilə yaxın davam edən danışıqlara məhəl qoymayan "Hay"-lar bir–birinin ardınca Azrərbaycan sərhəddində, ərazisində ixtişaşlar, təxribatlar törədir, yeni-yeni ərazilərimizi işğal etmək üçün canfəşanlıq edir, tez-tez işğalşı, çirkin bəyənatlar verirdilər.

Hər gün demək olar ki, "atəşkəs" pozulur, əsgərlərimizi yaralayır, şəhid edirdilər. Azərbaycanın qədim tarixi şəhəri olan Şuşa şəhərində tez- tez bayram tədbirləri keçirməklə xalqımıza göz dağı verirdilər.

2020-ci il sentyabrın 27-də, Ermənstan Silahlı Qüvvələri beynəlxalq hüquq normalarını yenidən pozaraq müxtəlif növ silahlardan istifadə etməklə Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı, Orta Qərvənd, Füzuli rayonunun Mirzənağılı, Qazaxlar, Əhmədalılar, Alıxanlı, Şükürbəyli və Horadiz şəhəri, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri saat 6:00-da, intensiv atəşə məruz qaldı. Nəticədə yenə Azərbaycan əhalisi, hərbi qulluqçularımız arasında şəhid olanlar, yaralananlar oldu.

Daha gözləmək olmazdı, 20 minə qədər qərbi Azərbaycanda, Qarabağda və ətraf rayonlarda axan şəhid qanları, Azərbaycan əsgərlərinə -"Qalx ayağa, Azərbaycan əsgəri, Vətən dardadır"-deyirdi.

Tutuldu torpağım, bölündü Vətən,
Başımın üstünü aldı duman, çən.
Bizə dil uzadır indi hər yetən,
Yanır Qarabağın, yanır hər yeri,
Qalx ey Vətən oğlu, Vətən əsgəri.

Otuz ildir artıq, çox keçdi zaman,
Hər gün axıdılır torpağımda qan.
Gülür üzümüzə şərəfsiz düşman.
Silin ürəyimdən, silin dərd- səri,
Qalx ey Vətən oğlu, Vətən əsgəri.

Xankəndi, Xocalım, Şuşam, Əsgəran,
Laçınım, Xocavənd, Ağdam, Zəngilan.
Kəlbəcər, Cəbrayıl, Füzulim tüğyan,
Qubadlı hey baxır, hey üzü bəri,
Qalx ey Vətən oğlu, Vətən əsgəri.

Zəngəzurdan əvvəl getdi İrəvan,
Mehri yandı, ayrı düşdü Naxçıvan.
Bir- bir qoparıldı bədənimdən can.
Qaytar xan Şuşanı, qiymətli zəri,
Sən ey Vətənimin, igid əsgəri!

Daşınır ölkəmin qızılı, daşı,
Vətən göylərinə hopub göz yaşı.
Qaçqındır bir milyon öz vətəndaşı,
Silinsin ürəkdən vətən dərd-səri,
Qalxın Vətən oğlu, Vətən əsgəri!

İgid bir sərkərdə, Nadir şah Əfşar,
Qurdu İmperiya tarixdə yaşar,
Hindistan tutuldu, dünya xəbərdar,
Unutma şöhrətli, şanlı illəri,
Sən ey Vətənimin, igid əsgəri!

Ölək birdəfəlik, ya da, var olaq,
Kişilik rəmzini qoruyub qalaq.
Birləşib torpağı haylardan alaq,
Silinsin ürəkdən vətən dərd-səri,
Siz ey Vətənimin, igid əsgəri!

(“Ürəyimin harayı”-kitabımdan 08.06.020.)

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin sədrliyi ilə, Təhlükəsizlik Şurasının fövqaladə iclası keçirildi. 27 sentyabr 2020- ci il tarixdə “ Dəmir Yumuruq “ əməliyyatının başlanması haqqında fərman verildi.

27 sentayabr 2020- ci il, saat 6:00- da, Ermənistan Silahlı Qüvvələrinin cəbhə boyu törətdikləri təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks hücum əməliyyatlarına başladı.

Ey ulu millətim, Ey Azərbaycan,
Bölünüb ürəyim, parçalanıb can.
Hər gün axıdılır Vətənimdə qan,
İt kimi diş atır “hay” cuma-cuma,
Haydı igid əsgər, haydı hücuma!

Əsir gedənlərim qalıbdır darda,
Bir milyon qaçqınım hey intizarda.
Məzar daşlarımız bilinmir harda.
Düşmən hiyləsinə Vətənim, uyma!
Xan Şuşam ağlayır, haydı hücuma!

Dığalar vətəndə sulayır meydan,
Axtarma kənardan özünə həyan.
Azadlıq yolumuz döyüşdür, inan.
Arxalan xalqıma, doğma soyuma,
Qarabağ gözləyir, haydı hücuma!

İnləyir torpağım, gözləmə daha!
Səni and verirəm gözəl Allaha!
Qisas günlərini qoyma sabaha!
Ey ulu Vətənim, yatma, uyuma!
Şair əsgərinəm, haydı hücuma!.

(“Ürəyimin harayı”-kitabı,11.08.020. S.A.)

28 sentyabr 2020- ci ildə Azərbaycanda hərbi vəziyyət elan olundu və qismən səfərbərlik haqqında qərar verildi.

Həmin gün Ermənistanda da, tam səfərbərlik və hərbi vəziyyət elan olunur.

Beləliklə İkinci Vətən müharibəsi, “Dəmir Yumruq” əməliyyatı başlandı və Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.

Azərbaycan Ordusu, ildırım sürətli hücumu ilə, düşmənə sarsıdıcı zərbə endirməklə onların “məğlubedil-

məzlik"- mifini darmadağın etdi və hay-ların Qarabağda deyib- gülən üz- gözünə dağ basdı. 27 sentyabr 2020- ci ildə, Azərbaycan Silahlı Qüvvələrinin şəxsi heyəti və tank bölmələri, raket artilleriya qoşunlarının bölmələri, cəbhə aviasiyası və pilotsuz uçuş aparatlarının dəstəyilə erməni vandallarının ön xətdə, müdafiənin dərinliklərində yerləşən xeyli sayda canlı qüvvəsi, hərbi obyektəri və döyüş texnikası, o cümlədən 12 ədəd " OSA" zenit- raket komleksi aşkar edilərək məhv edildi. Həmin vaxtda Tərtər istiqamətində ermənilərin bir döyüş helikopteri vuruldu.

Azərbaycan Ordusunun apardığı hərbi əməliyyatlar zamanı Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Yuxarı və Aşağı Əbdülrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri işğaldan azad edilir. Eyni zamanda Ağdərə istiqamətində, Murovdağ silsiləsində hündürlükdə olan postlar, Murov zirvəsi işğaldan azad edilir.

Tezliklə Qarabağın İranla olan cənub sərhəddi Azərbaycan Silahlı Qüvvələrinin nəzarətinə keçir. 2020- ci il oktyabrın 4- də, Cəbrayıl rayonu , 17 oktyabrda Füzuli rayonu mənfur düşməndən azad edilir. 18 oktyabrda Cəbrayıl rayonunun Xudafərin körpüsünün 18- illik həsrətinə son qoyulur.

Xudafərin körpüsü üzərində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev, Azərbaycan bayrağını ucaldır. Bu tarixi gündə Araz çayının, o üzündən Güneyli bacı- qardaşlarımız bizi təbrik edib gözaydınlığı verdilər." Kədər tariximiz oldu Gülüstan" poemam yadıma düşdü.

Araz nalə çəkdi, hayqırdı, o gün,
Göy üzü tutuldu, göz yaşı tökdü.
Quşlar oxumurdu, baxırdı küsgün,
Kəpəzim, Savalan boynunu bükdü.
Bir vərəq üstündə böləndü bir can,
Bir xalqı ikiyə böldü, "Gülüstan".

Şanlı Ordumuz Füzuli rayonundan sonra, 20 oktyabrda Zəngilanı, 25 oktyabrda Qubadlını, 8 noyabrda Şuşa şəhərini mənfur düşməndən azad etdi.

7 noyabrın axşamı bilirdik ki, Şuşanın azad olunması uğrunda qanlı döyüşlər gedir, ailəmlə birlikdə səhəri "diri gözlü" açdıq, o cümlədən Azərbaycan xalqı bilirdi ki, Şuşa uğrunda ölüm-dirim savaşı gedir, çox insanlar bizim kimi yatmamışdı, o gecə. 8 noyabrda isə Abasbəyli məscidində 3 qurban kəsib camaata payladım. Şuşa şəhəri Qarabağın vuran ürəyi idi, onu itirmək Qarabağı itirmək demək idi, Şuşanın azad olunması Qarabağın azad olunması demək idi.

Sən ey tarix yazan qəhrəman əsgər,
Vuruş meydanında göstərdin hünər!
Xalqın dar günündə qeyrətli bir ər,
Bu gün azad etdin, qurtuldu Şuşan,
Gözün aydın olsun, can Azərbaycan!

Vətən müharibəsi aparır Vətən,
İt kimi qovulur ölkəmdən düşmən.
Gözü götürməyən yanır içindən,
Azad oldu bu gün, o cənnətməkan,
Gözün aydın olsun, ey Azərbaycan!.

("Ürəyimin harayı" kitabı.08.11.020.S.A.)

Azərbaycan Silahlı Qüvvələri, Ermənistanın Qarabağla əlaqəsini kəsmək üçün Laçın rayonuna tərəf hərəkət istiqaməti alır. Laçın yolunun bağlanmasının böyük əhəmiyyəti var idi. Çünki, düşmən bu yolla Qarabağda olan qoşunlarını və seperatçı qüvvələrini hərbu sursatla təmin edirdi.

Azərbaycan Silahlı Qüvvələrinin Baş Komandanlığı, Şuşa şəhərini düşmən işğalından azad etmmək üçün havadan güclü bombardıman edilməsini, artilleriya atəşləri ilə vurulması yolunu yox, sıldırımlı qayalardan, dağlardan aşıb əlbəyaxa döyüşü üstün tutmuşdu. Çünki, Şuşa tarixi abidələrlə zəngin tarixi bir şəhər idi, onu dağıtmaq olmazdı.

Erməni döyüşçüləri, sıldırımlı qayalıqlardan Azərbaycan Ordusunun hücuma keçəcəyini gözləmirdilər. Məhz, o qayalardan qəhrəman döyüşçülərimiz pələng kimi dırmaşaraq cıdır düzünən və şəhərin başqa istiqamətlərindən şəhərə girə bilmişdilər. Birdən- birə erməni döyüşçüləri Azərbaycan əsgərlərini öz yanlarında peyda olduqlarını görəndə dəhşətə gəlmişdilər. Əlbəyaxa və yüngül silahlarla döyüş zamanı saysız- hesabsız erməni meyidləri, yaralıları, hərbi sursatları döyüş meydanında qalır.

Xarici bir jurnalist sonradan etiraf edərək yazırdı ki, Xankəndi şəhər xəstəxanası Şuşa şəhərindən gətirilən erməni meyid və yaralıları ilə dolu idi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev, 8 noyabr 2020- ci il tarixdə, Azərbaycan xalqını bu tarixi qələbə münasibətilə təbrik etdi.

Şuşa şəhərinin işğaldan azad olunması müharibənin taleyini həll etdi. Ermənstan Dövləti Azərbaycan Dövlətinin şərtlərini qəbul edərək KAPİTULUYASİYA aktını

imzalamağa məcbur oldu.

10 noyabr 2020- ci ildə, Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Baş Naziri, Rusiya Dövlətinin Prezidenti münaqişə zonasında bütün hərbi əməliyyatların, atəşin dayandırılması haqqında bəyənat imzaladılar.

Bəyanata əsasən 20 noyabrda Ağdam, 25 noyabrda Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu Ermənistan Dövlətinin hərbi qüvvələrindən boşaldılmalıydı. Göstərilən tarixlərdə həmin rayonlar gülləsiz, döyüşsüz azad edilərək Azərbaycana qaytarılmalı idi.

Azərbaycan təkcə "DƏMİR YUMRUQ" əməliyyatında yox, həm də, İNFORMASİYA müharibəsində Ermənstanı və Azərbaycanın qələbəsini gözü götürməyən bir çox ölkələrin saxta məlumatlarını darmadağın etdi. Cənab İlham Əliyev öz təkzibolunmaz dəlilləri ilə, ermənipərəst media qrumlarının qarayaxma kompaniyasını alt -üst etdi.

Vaxtı ilə Ermənistanın Baş Naziri N. Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin " Qarabağ Azərbaycandır və nida" bəyanatı ilə tarixdən silindi, cənab İlham Əliyevin öz sözü ilə desək "Cəhənnəmə getdi".

Bu nüharibədə Türkiyə bir qardaş ölkə kimi həmişə Azərbaycanın yanında oldu və hər vasitə ilə Azərbaycanı dəstəklədi.

Pakistan, İsrail, Ukrayna, Böyük Britaniya, İtaliya, Hersoqovina, Macarstan Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini bəyan etdilər. Güney (İran) azərbaycanlı bacı- qardaşlarımız kədərimizlə kədərləndilər, sevincimizlə sevindilər.

"Arazı ayırdılar,
Lil ilə doyurdular,
Mən səndən ayrılmazdım,
Zülm ilə ayırdılar".

Masalar üstündə böləndü elim,
Bölündü tariximim, bölündü dilim.
Arazdan, o tayda qaldı bir əlim,
Qardaşı qardaşdan ayrı saldılar,
Əyildim, əzildim, oldum yarımcan,
Vurdu ürəyimə damğa, "Gülüstan".

(S.A. Kədər tariximiz oldu, Gülüstan-poemasından)

Beləliklə, 44 gün ərzində Azərbaycan Ordusu, 30 illik işğala son qoymaqla Azərbaycan dövlətinin qətiyyətini, Azərbaycan Silahlı Qüvvələrinin gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi.

" Dəmir Yumuruq" əməliyyatı Azərbaycan xalqının, Dünya azərbaycanlılarının təkcə 30 illik yox, 200 illik alın ləkəsini təmizlədi. 1813- cü il Gülüstan sülhü, 1828-ci il Türkmənçay sülhü və 1829- cu il Ədirnə sülhü ilə cənubi Qafqaza, o cümlədən Azərbaycana qarışqa kimi doluşan ermənilərin Azərbaycan torpaqlarından süpürülüb atılmasını təmin etdi. İkinci Vətən müharibəsi, Azərbaycan xalqının əyilmiş belini dikəltdi, üzünü güldürdü.

44 günlük tarixi qələbəmizdən sonra Azərbaycan dövləti, Ermənstan dövlətinə dəfələrlə davamlı sülh bağlamaq üçün müraciət etsə də, təəssüf ki, müraciətimiz ermənilər tərəfindən "qulaqardına" vürulur, öz təxribatlarını davam etdirirdilər.

2021- ci il noyabr ayında, müharibədən sonra sərhəddə birinci silahlı toqqüşma baş verdi. Yenə 2022- ci ilin sentyabr ayında ən qanlı toqquşma oldu.

Qarabağ bölgəsində yerləşən Ermənistan silahlı qüvvələrinin birləşmələri və onların dəstəklədikləri erməni seperatçı ünsürləri 2023- cü ilin mart, aprel, may aylarında Azərbaycan Ordusunun yerləşdiyi ərazini atəşə tutdular və Şuşa istiqamətində növbəti təxribatlar törətdilər.

2020-ci il 10 noyabr tarixli Üçtərəfli Bəyanata zidd olaraq Ermənstan Dövləti öz hərbi hissələrini Qarabağ və ətraf ərazilərdən çıxarmadı. "Bəlkə yenidən Qarabağı işğal edə bildik ”xülyası ilə yaşayan, gecə-gündüz bu barədə “baş sındıran” erməni ideoloqları “ölmüşük bizi yedən qaldırın” deyib, ölkə-ölkə gəzib dilənirdilər.

Ermənstan ordusunun Qarabağda olan kəşfiyyat-divversiya qurplarnın 2023-cü il sentyabrın 19-da, Əhmədbəyli- Füzuli- Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırdıqları minanın partlaması nəticəsində bir nəqliyyat vasitəsi sıradan çıxdı, bir neçə mülki şəxslər həlak oldular. Həmin gün yenə bir hərbi nəqliyyat vasitəmiz minaya düşərək sıradan çıxdı, bir neçə hərbi qulluqçumuz həlak oldu və yaralandılar.

Beləliklə Qarabağ torpağında LOKAL XARAKTERLİ ANTİTERROR əməliyyatına başlanılması günün vacib tələbi idi.

2023-cü ilin 19-20 sentyabr tarixində qısa müddətli lokal xarakterli antiterror əməliyyatları nəticəsində düşmənə, ağır sarsıdıcı zərbə endirilərək, cəmi 23 saat 48 dəqiqə ərzində iki yüzdən çox topu, yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, xeyli artilleriya qurğuları və.s sıradan çıxarıldı, qənimət kimi götürüldü. Düşmən

ağ bayraq qaldırmağa məcbur oldu və Rusiya sülhməramlı kontingenti vasitəsilə atəşkəs haqqında razılaşma əldə olundu. Azərbaycan Silahlı Qüvvələri 44 günlük " Dəmir Yumuruq" əməliyyatında olduğu kimi bu əməliyyatda da, düşməni qısa bir müddətdə diz çökdürdü.

Cəmi 23 saat davam etmiş və 20 sentyabrda başa çatan bu əməliyyat nəticəsində müzəffər Azərbaycan Ordusu qarşısına qoyduğu bütün vəzifələri çox layiqincə yerinə yetirdi, Azərbaycanın suverenliyi tam bərpa olundu. İndi ölkəmizdə hər il sentyabrın 20- də, Dövlət Suverenliyi günü, həmçinin Xankəndi, Xocalı, Xocavənd, Ağdərə şəhər günləri kimi qeyd olunur.

Gözün aydın olsun, ey Azərbaycan,
Qurbanın olmağa hazırdır hər can.
Tülkütək quyruğun qısaraq düşman,
Qaçdı ölkəmizdən, qaçdı diz- dizə,
Ali Baş Komandan, eşq olsun sizə!

**S.A.**

# ŞƏHİD MƏMMƏDOV RAMİL HABİL OĞLU




Növbəti yazım yenə bir şəhid haqqındadır, bir şəhid balamızın həyat hekayəsi haqqında.

Yarı yolda bir ömür karivanının qırılması, mənzil başına çatmaması, yarımçıq qalmış arzuların inildəyə-inildəyə, hönkür- hönkür ağlaması, bir şair- publisist kimi məni də, ağladır, qəm dəryasına qərq edir.

Bir tərəfdən düşünürəm ki, axı şəhidlər ölmür, onlar yaşayırlar, ən uca zirvələrdən bizə baxıb gülümsəyirlər. Şəhid qanlarına bələnmiş Şuşa torpağında, xarı bülbüllərin 30 illik zindan həyatından qurtulub azadlığa çıxması, şəhid ruhları qarşısında baş əyməsi, hər adama nəsib olmur axı.

Məmədov Ramil Habil oğlu 18 oktyabr 2004- cü ildə, Azərbaycan Respublikası, Masallı rayonunun Allahyarlı kəndində anadan olmuşdur. Əvvəlcə Allahyarlı kənd ibtidai məktəbində oxumuş, sonra Ərkivan qəsəbə tam orta məktəbində təhsilini davam etdirmiş, 2014- cü ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

- Ramil ailəmizin ilk övladı idi"- deyə atası Habil Məmmədov ürək ağrısı ilə danışmağa başladı.

-O, çox işgüzar, sakit təbiətli övladlarımdan biri idi.




Məktəbdə oxuyanda müəllim və şagird kollektivinin dərin hörmətini qazanmışdı.

Çox ürəkyanan idi Ramil, hamının köməyinə çatmağa tələsirdi. Hələ uşaqlıqdan namaz qılardı, həmyaşıdlarına da, namaz qılmağı məsləhət görərdi. Ramil idmanı çox sevirdi, uşaqlıqdan idmanla məşğul olardı. Ürəyi arzularla dolu idi Ramilin. Bir gün təsadüfən anası ilə olan söhbətini eşitdim. “ Ana, mən hərbi xidmətdən qayıdandan sonra Bakıda özümə iş quracağam, yoxsulluğun daşını atacağıq, Bakıda evimiz də, maşınımız da, olacaq, darıxma ana”. Bu sözləri eşidəndə gözlərim doldu, çox kövrəldim.

Çörək pulu qazanmaq üçün hərdən Rusiyaya işləməyə gedirdim. Hər dəfə ona zəng edəndə, “ Ata, narahat olma, biz yaxşıyıq, özünə əziyyət vermə, özünü incitmə”-deyərdi.

2023-cü il yanvarın 24 də, Məmmədov Ramil Habil oğlu Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır.

O, Qaradağ rayonunun Hərbi Dəniz Qüvvələrinin birinci piyada dəniz taborunda öz hərbi xidmət borcunu yerinə yetirməyə başlayır. Ramil tez bir zamanda öz nizam- intizamı, fiziki hazırlığı, cəsur bir əsgər olması ilə, hərbi hissə komandanlığının dərin hörmətini qazanır.

Məlum olduğu kimi 27 sentyabr 2020- ci ildən 10 no-

yabr 2020-ci ilə qədər davam edən “ Dəmir Yumruq” əməliyyatı nəticəsində, 30 il əsarət altında əzilən Dağlıq Qarabağ və onun ətraf rayonları əsarət zəncirini qıraraq azadlığa çıxır. Bu qələbə, Azərbaycan xalqının və dünya azərbaycanlılarının həyatında böyük dönüş nöqtəsi oldu. İkinci Vətən Müharibəsində rəşadətli Azərbaycan Ordusu, öz adını Azərbaycan tarixinə və dünya tarixinə qızıl hərflərlə yazdı.

44 günlük tarixi qələbədən sonra da, Ermənistan silahlı qüvvələri və onların Qarabağda yaradıb dəstəklədikləri erməni seperatçı qüvvələri, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda tez-tez təxribatlar törədirdilər. Onlar Rusiyanın Qarabağda yerləşən Sülhməramlı Qüvvələrinə arxayın olaraq 2021, 2022, 2023- cü illərdə yeni- yeni təxribatlar törətdilər. Bu təxribatlarda  silahlı qüvvələrimizin xeyli hərbi qulluqçusu şəhid oldu. Erməni təxribatları, Azərbaycan Silahlı Qüvvələrinin tezliklə “Lokal Xarakterli Antiterror”əməliyyatına başlanmasını zəruri edirdi.

2023-cü ilin iyun ayında, Hərbi Dəniz Qüvvələrinin birinci piyada taborunun matrosu Ramil Habil oğlu Məmmədov, doğulub boya- başa çatdığı Masallı rayonunun Allahyarlı kəndinə bir neçə günlüyə məzunyyətə buraxılır.

-“Məzuniyyətə buraxılıb evə gələndə qurban kəsdik. Qohum- əqraba, dost-tanış Ramillə görüşə gəlmişdi. Ramil onların hamısı ilə görüşüb hal- əhval tutdu. O, sözarası danışdı ki, “Qarabağda erməni təxribatçılarının sayı çox artıb. Seperatçı qüvvələr getdikcə azğınlaşırlar. Onlar öz məğlubiyyətlərilə barışmaq istəmirlər. Ona görə Hərbi Dəniz Qüvvələrinin birinci dəniz piyada taborunu, yəni bizi, tezliklə Qarabağa, ermənilərə

“qulaq burması” vermək üçün göndərəcəklər. Allahın işidir, bəlkə, bir də, sizləri görmədim, haqqınızı mənə halal edin”-deyə gülümsəyib bir- bir qohum- əqrəbanı, dostlarını qucaqlayıb üzündən öpdü. O, sanki şəhid olacağını hiss etmişdi. Ramilin bu sözündən sonra anasının da, mənim də, yuxum ərşə çəkildi, gecələri səksəkə içində keçirməyə başladıq. Məzuniyyətdən hərbi hissəyə geri qayıdanda ailəmiz bir- bir qucaqlayıb Ramilin üzündən öpdü. Hardan biləydik ki, bu görüş son görüşümüzdür?“- deyə şəhid atası Habil  qəm- kədər içində, gözlərindən kədər damcıları yağa- yağa danışır, ara bir göz yaşlarını silirdi. Həmin gün hava da, tutqun idi, altında əyləşdiyimiz yaşıl ağacın budağına qonmuş qaratoyuq quşu da, qəmli- qəmli oxuyurdu...

Ramil Məmmədov Hərbi hissəyə geri qayıdandan bir müddət sonra onun qulluq etdiyi birinci dəniz piyada taboru, Qarabağın Xocalı- Ağdam istiqamətinə yola salındı. Xocal- Ağdam istiqamətində, Xanaabad kəndi ətrafında Erməni silahlı qüvvələrinin, seperatçı rejimin xeyli qüvvələri cəmləşmişdi.

2023- cü il sentyabrın 19- da, saat təxminən 13: 00- da, Qarabağın müxtəlif istiqamətlərində, o cümlədən Xanaabad kəndi ətrafında, Ermənistan Silahlı Qüvvələrinə və Qarabağın seperatçı ünsürlərinə qarşı “Lokal Xrakterli Antiterror” əməliyiyati başlandı.

Aparılan əməliyyat nəticəsində Ermənstan Silahlı qüvvələrinin 60- dan çox döyüş mövqeyi, 20- dən artıq hərbi təyinatlı avtomobili, 40- dan artıq artilleriya qurğuları, 30- ədəd minaatan, 2- ədəd zenit- raket qurğusu və digər hərbi təyinatlı texnikası zərərsizləşdirildi. Xeyli sayda canlı qüvvəsi məhv edildi. Həmçinin mərmi dolu 6 ədəd Ural markalı hərbi avtomobili ələ keçirildi.




Xanabad kəndi ətrafında, Hərbi Dəniz Qüvvələrinin 1 №- li piyada taborunun matrosu Məmədov Ramil Habil oğlu, düşmənlə amansız döyüşlərdə qəhrəmancasına şəhid oldu. Düşmənin əsas qüvvələri mühasirəyə alınaraq darmadağın edildi, yerdə qalan tör-töküntüləri ağ bayraq qaldğrmağa məcbur oldular.

19-20 sentyabr 2023-cü il Lokal Xarakterli Antiterror əməliyyatı cəmi 23 saat, 43 dəqiqə davam etdi və 8 noyabr 2020- ci il Şuşanın işğaldan azad olunması günü kimi, tarixə qızıl hərflərlə yazıldı. Bu əməliyyat Azərbaycanın Dövlət Suverenliyini bərpa etdi və tarixə Dövlət Suverenliyi günü kimi düşdü.

Azərbaycanın bütölüyü uğrunda qəhrəmancasına şəhid olan Ramil Məmmədov, 22 sentyabr 2023- cü ildə, doğulduğu, boya- başa çatdığı Allahyarlı kəndində torpağa tapşırıldı.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin 7 noyabr 2023- cü il tarixli sərəncamı ilə,

Hərbi Dəniz Qüvvələrinin igid matrosu Məmmədov Ramil Habil oğlu, Azərbaycanın Suverenliyi uğrunda göstərdiyi igidliyə görə 3- cü dərəcəli

“Vətənə Xidmətə görə “ ordeni,

"Vətən Uğrunda "- medalı ilə təltif edilmişdir.

Vətən sevgisindən bir məbəd qurdun,
Vətən, "Dur"-deyəndə ayağa durdun.
Düşmənin boynunu sındırıb burdun,
Cənnət çiçəyindən birisən, Şəhid!
Sən də, bir mələksən, dirisən, Şəhid!

Döyüş meydanında yenilməz ərdin,
Qaniçən düşmənə sən sinə gərdin.
" Hay"-ın göydən yerə nəşini sərdin,
Xalqımın aslanı- şirisən, Şəhid !
Sən cənnət bağında dirisən, Şəhid!

Torpağa bələnən al-qan müqəddəs,
Tarixi yaddaşım, o can müqəddəs,
Qızıl- qan axıdan yaran müqəddəs,
Vətənin ürəyi, zərisən, Şəhid !
Sən də, bir mələksən, dirisən, Şəhid!

Ey şəhid qardaşım, sən zəfər çaldın,
Qarabağ torpağın geriyə aldın.
Düşmən boğazına ilməni saldın.
Xalqın inanc yeri, pirisən, Şəhid,
Sən də, bir mələksən,dirisən, Şəhid!

"Danışan illər"-noyabr- 2024.S.A.

# ŞƏHİD- MƏHƏRRƏMOV İSA MƏHƏRRƏM OĞLU



"-Bacım məndən xahiş etdi ki, uşağın adını sən qoy. Mən də, uşağa " İsa " adını verdim. İsa Peğəmbər də, Mühəmməd Peyğəmbər (s) kimi möcüzələr yaratmış, dünyaya nur saçmışdır. İstəyirdim ki, körpə balamız İsa da, böyük oğlan olanda öz zehniyyatı, əməlilə ətrafa işıq saçsın, nur bəxş eləsin"- deyə xalası, göz yaşları içində danışırdı onun haqqında.

İsa öz əməli, qəhrəmanlığı ilə Azərbaycana işıq saçdı, yaddaşlara həkk olundu, öz qanı ilə, öz canı ilə. İsa kimi Azərbaycan şəhidləri, öz qanları ilə Azərbaycan tarixinə " Vətən " yazdılar, şəhid qanları ilə, çiçək açdı Qarabağ torpağı, "xarı bülbül"-lər baş qaldırıb ətrafa ətir saçdı, o qanların gücü ilə qırıldı, çilik- çilik oldu 30 illik dəmir buxovlar, o qanlar ilə, 200- illik alın ləkəmiz silindi, təmizləndi, üzümüz güldü, aşağı əyilmiş başımız dikəldi, kədərli bayrağımız Qarabağın zirvələrində, Şuşa torpağında nərə çəkib dalğalandı, düşmən sinəsinə dağ çəkdi, o Cıdır düzündə.

44- günlük "Dəmir Yumruq"-əməliyyatı Azərbayca tarixinə qızıl hərflərlə yazıldı, dünya tarixində silinməz iz qoydu.

Yazdı öz qanıyla , can Azərbaycan,
Azadlıq  yolunda neçə- neçə can,
Üçrəngli bayrağım oldu qızıl qan.
Göstərdin cəbhədə rəşadət, hünər,
Xalqın yaddaşına hopdu Şəhidlər!



Məhərrəmov İsa Məhərrəm oğlu 15 fevral 1999- cu ildə, Bakı şəhərində anadan olmuşdur.

Anası Kəmalə bacı, Masallı rayonunun Xəlfələr kəndinnin qızı olduğu üçün uşaqlıq illəri çox zaman Xəlfələr kəndində keçib İsanın." Məktəbdə oxuyanda çox sahəyə maraq göstərərdi, rəssamlığa meyilli idi, müəllimləri onu çox vətənpərvər, dürüst, zəhmətkeş bir şagird kimi təqdim edirdilər" - deyə anası Kəmalə bacı göz yaşları içində danışırdı şəhid övladı haqqında.

-Atası xəstə olub yatağa düşəndə vəziyyətimiz şox çətinləşdi, işləmk istəsəm də, məni işləməyə qoymadı "-Evdə xəstə atamla məşğul ol, ay ana!" -dedi. Evin bütün ağırlığı İsanın üstünə düşmüşdü".

İsa Məhərrəmov orta məktəbi bitirdikdən sonra təhsilini Bakı Koperasiya və Biznes kollecində davam etdirməyə başlayır. 2017-ci ildə, Kollecdə oxuduğu vaxt Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xid-

mətinin Yasamal rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır.

İsa Məhərrəmov Naxçıvan Muxtar Respublikasının N saylı hərbi hissəsində hərbi borcunu yerinə yetirməyə başlayır.

**Haşiyə:** 2018- ci il may ayının 20- dən, 27-nə kimi Naxşıvanda Azərbaycan və Ermənistan Silahlı Qüvvələri arasında baş vermiş Günnüt əməliyyatında Azərbaycan Ordusunun əks- hücum əməliyyatı ilə, Şərur rayonunun Günnüt kəndi, Ağbulaq yüksəkliyi, Qızılqaya dağı, Qaraqaya dağı Azərbaycan Ordusunun nəzarətinə keçir.

Həmçinin Dərələyəz mahalının Arpa kəndi, Ordumuz tərəfindən azad olunur. Bu döyüşdə 11 min hektardan çox ərazi azad edilir. Haşiyə bitdi.

Bu əməliyyat Azərbaycan Silahlı Qüvvələrinə imkan verir ki, İrəvan- Yegeqnadzor (Ermənistan resp.Başkənd çayı yaxınlığında şəhər)- Gorus- laçın- Xankəndi avtomobil yoluna nəzarət etsin. Hərbi əməliyyatlar zamanı Ordumuzun bir əsgəri şəhid olur.

Günnüt əməliyyatında № saylı hərbi hissənin hərbi qulluqçusu İsa Məhərrəmov qorxmaz, cəsur bir əsgər kimi özünü göstərir və hərbi hissə komandanlığının diqqətini cəlb edir. Komandanlıq tərəfindən İsa Məhərrəmovun ailəsinə təşəkkür məktubu göndərilir.

İsa Məhərrəmov Azərbaycan Silahlı Qüvvələrindən tərxis olunduqdan sonra kollecdə təhsilini davam etdirməyə başlayır. Kolleci müvəffəqiyyətlə bitirsə də, diplom almaq ona qismət olmur, 27 sentyabr 2020-ci ildə, İkinci Vətən Müharibəsi başlayır, İsa könüllü olaraq cəbhəyə yola düşür.

29 sentyabr 2020- ci ildə o, təcrübəli bir kəşfiyyatçı

kimi N saylı Hərbi Hissənin ön sıralarında idi.

İsa Məhərrəmov Füzuli rayonunun düşmən işğalından azad olunması üçün qəhrəmanlıqla döyüşür və əsgər yoldaşlarına nümunə olur. O, bir kəşfiyyatçı kimi öz kəşfiyyatçı bölüyü ilə, keçilməz sədləri keçdi, düşmənə qan uddurdu.

Məlumdur ki, ordunun qalib gəlməsi üçün düşmən mövqeyi, texnikası, dil, hərbi sursatı, yerləşdiyi ərazinin hava şəraiti və s. haqqında dəqiq məlumatlara sahib olmaq lazımdır. İsa da, təcrübəli bir kəşfiyyatçı kimi bütün bunları başa düşür, komandanlığın bütün tapşırıqlarını dəqiqliklə yerinə yetiridi. O, və onun kəşfiyyat dəstəsi öz canını Vətən yolunda hər an qurban verməyə hazır idi.




-İsa Ordu sıralarına gedəndə, mənə dedi ki, "Hərbi Hissə komandanlığından icazə alıb atamın 40- mərasiminə gələcəyəm"-deyə Kəmalə bacı yenə də, qəm- kədər içində danışmağa başladı.

Oktyabrın 18-də, 2020-ci il atasının 40 mərasimi idi. Biz hamımız İsanın yolunu gözləyirdik, axı o, söz vermişdi mənə. İsa verdiyi sözə həmişə əməl edərdi, ona görə mən əmin idim ki, o, gələcək atasının hüzr məclisinə". Şəhid anası göz yaşları içində danışır, arabir qapıya baxırdı, hiss edirdim ki, o, hələ də şəhid övladını gözləyir, ana hələ də, inanmırdı övladının şəhid olmasına.



**Haşiyə:**

2011- ci ildə, mən də, cavan övladımı itirdim, Rusiyada, maşın qəzasında həlak oldu, 32 yaşı var idi. Hüquq fakültəsini bitirmişdi, amma öz sahəsi üzrə işləmədi... Hələ də, elə bilirəm ki, İlkin yaşayır, Vətəndən çox- çox uzaqlardadır, bir gün o, qayıdacaq öz evinə... Haşiyə bitdi.

-Şəhid anası göz yaşlarını boğa- boğa danışırdı:-"Həmin gün 18 oktyabrda gec də, olsa zəng etdi mənə. -"Ana, məni bağışla, gələ bilmədim atamın 40-mərasiminə". Mənim heç vaxt ağlıma gəlməzdi ki, bu zəng övladımın vida zəngidir. O gün İsanın son səsini eşitdim, o, ailəmizin hamısı ilə danışdı –" Sabah yenə zəng edəcəm, ana"-dedi. Amma, çox gözlədim, zəng etmədi, o zəngi indi də, gözləyirəm, elə bilirəm ki, İsa mütləq zəng edəcək"- deyə yaralı ana hönkür- hönkür ağladı. Bu qəmli sətirləri yazanda mənim də, gözlərim yağış kimi yaş süzürdü, ağ kağız üzərinə...

Qardaşı İsmayıla -" Biz bu gün döyüşə girəcəyik, amma anaya demə"- demişdi.

19 oktyabr 2023- cü ildə, uzaq Qarabağ bölgəsindən Bakıya bir maşın şütüyürdü. Sürücü bərk sürmürdü maşını, yolda sanki nəyi isə əzəcəyindən qorxurdu. Maşında bir neçə əsgər də, var idi. İsa da, əsgərlərin arasında idi. Atasının 18 oktyabrda keçirilmiş 40- mərasiminə bir gün yubanmışdı İsa. Maşın evə yaxınlaşanda İsa ilə görüşmək üçün bütün el- oba axışırdı, "iynə atsaydın

yerə düşməzdi”.

O gün hava da, tutqun idi, sanki qəm paltarı geyinmişdi, quşlar da, çox alçaqdan uçur, İsanın gəldiyi maşının üstündə dövrə vururdular.

O gün İsa ilə görüşə Dövlət adamları da, gəlmişdi, hamı onu görmək, onunla son dəfə görüşmək istəyirdi...

İsa Məhərrəmov Məhərrəm oğlu 2-ci Fəxri Xiyabanda dəfn olindu.

Yenə bir gəncin ürəyində saysız- hesabsız arzuları qırıldı, yarı yolda qaldı. Allah rəhmət eləsin sənə, Şəhidim!. Allah rəhmət eləsin sizə, Şəhidlərim!

İgid şəhidimiz, İsa Məhərrəmov, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə-

“Vətən Uğrunda", “Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilmişdir.

Oxuduğu məktəbdə və yaşadığı binanın önündə, uşaqlıq xatirələri ilə zəngin olan Xəlfələr kəndinin girəcəyində Şəhid İsa Məhərrəmovun xatirə lövhəsi asılmışdır.

***Dönsəydi kağıza hər dağ, hər qaya,***
***Dəniz də, mürəkkəb olsaydı əgər,***
***Yazarlar dursaydı yerdən ta, Aya,***
***Yenə vəsf etməyə acizdir bəşər,***
***Sizlərin haqqında, ey Şəhid əsgər!***

**S.A.**

**Şəhid haqqında bəzi məlumatları**
**İqbal Həşimov toplayıb**

# AĞAYEV SAHİL ŞƏRBƏTƏLİ OĞLU



Ağayev Sahil Şərbətəli oğlu 21 sentyabr 1998- ci ildə, Azərbaycan Respublikası Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur.

2004-cü ildə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbin 1-ci sinfinə getmiş, 2015-ci ildə həmin məktəbin 11-ci sinfini müvəffəqiyyətlə bitirmişdir.

2016-cı ildə, Sahil Ağayev Səfərbərlik və Hərbi Xidmətə Çağrış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və Goranboy rayonunun N saylı hərbi hissəsinə göndərilir.

Sahil Ağayev üç ay hərbi hazırlıqdan sonra müxtəlif silah və hərbi texnikanın sirlərinə bələd olan əsgər kimi, Ağdam rayonunun işğal edilmiş ərazilərinə yaxın, №

saylı hərbi hissəyə yola salınır.

Ağdam rayonu 1993- cü il iyul ayının 23-də, Erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Ağdamın 122 kəndinin 87-si ermənilərin nəzarətinə keçir, 35 kəndi isə, Azərbaycan Ordusunun nəzarətində qalır.

Erməni işğalçıları təkcə Ağdam rayonuna 13 milyard 135 milyon ABŞ dolları ziyan vurur. 2010- cu il noyabr ayında erməni seperatçıları Ağdamın adını dəyişib "Akna" qoyurlar və 360 nəfər erməni qanunsuz olaraq Ağdamda məsgunlaşır. "Dəmir Yumruq" əməliyyatından sonra Ağdamın tarixi adı özünə qaytarılır.

Sahil Ağayev 2018- ci il aprel ayının 14- də, hərbi xidmətini başa vurub Ordu sıralarından tərxis olunur.

Azərbaycan Respublikasının 20 %- dən çox torpağını işğal edən, bir milyondan çox insanı öz ata- baba yurdlarından didərgin salan Ermənistan dövləti, öz işğalçılıq siyasətindən əl çəkmir, yeni- yeni ərazilər işğal etmək üçün müxtəlif təxribatlar törədirdilər.

2020- ci il iyul ayının 12- də, Ermənistan Silahlı Qüvvələri Azərbaycanın dövlət sərhəddinin Tovuz rayonu istiqamətində növbəti təxribat törədirlər.

Yeni erməni təcavüzkarlığına qarşı Azərbaycanın vətənpərvər oğulları könüllü olaraq ordu sıralarına getmək üçün ərizə verb qeydiyyata düşürlər. O cümlədən Sahil  də, Hərbi Xidmətin Masallı rayon şöbəsinə ərizə verib qeydiyyata düşür.

2020- ci ilin oktyabr ayında, Sahil Ağayev Hərbi Xidmətin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və Ağcabədi rayonunun N saylı Hərbi Hissəsinə göndərilir. Bu hərbi hissədə müxtəlif silahlarla davranmaq yollarını bir daha öyrənərək, 8-noyabr 2020- ci ildə, Xocavənd rayonunun N saylı hərbi hissəsinə göndərilir.



Artıq bu zaman, Qarabağın baş tacı olan Şuşa şəhəri Azərbaycan Silahlı Qüvvələrin qəhrəman oğulları tərəfindən işğaldan azad edilmişdi. Şuşanın azad edilməsini həmin gün Azərbaycan xalqı və bütün dünya azərbaycanlıları ruh yüksəkliyi ilə bayram etdilər.

Dağlıq zonada yerləşən, şərqdə və cənubda dağətəyi düzənlikləri olan Xocavənd rayonu 1992- ci il oktyabrın 2- də, erməni işğalçıları tərəfindən işğal edilmişdi.

2020- ci il oktyabrın 9- da, Xocavənd rayonunun Hadrut qəsəbəsi daxil olmaqla 48 kənd silahlı qüvvələrimiz tərəfindən azad edilir. Sahil Ağayev bu döyüşlərdə, xüsusilə Xocavəndin Tuğ, Azıx, Ağdam kəndi, Quşçular, Susanlıq, Şahyeri, Zoğalbulaq, Aragül, Köhnə Tağlar və.s kəndlərinin işğaldan azad olunmasında igidlik göstərərək hərbi komandanlığın bir neçə dəfə təşəkkürünü qazanır.

Ey igid əsgərim, ey vətən oğlu,
Şuşanın yoludur azadlıq yolu.
Başlandı "hay"larla amansız savaş,
Quduzlaşıb hürür it kimi düşmən,
Şair əsgərinəm mən də, bu gündən.

Ey igid əsgərim, sən bir qəhrəman,
Unutmaz sizləri əlli milyon can.
Yandır Qarabağda bayram şamları!
Anam Azərbaycan öpür üzündən,
Şair əsgərinəm mən də, bu gündən!

("Ürəyimin harayı"-10.10.020. S,A.)



10 noyabr 2020-ci ildə, "Dəmir Yumruq" əməliyyatı Azərbaycan Silahlı Qüvvələrinin tam qələbəsilə başa çatır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə

Ağayev Sahil Şərbətəli oğlu,

"Xocavəndin azad olunmasına görə",

"Vətən Müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir. Müharibə veteranıdır.

## BAŞ LEYTENANT, BAYRAMOV ASİF CƏLİL OĞLU



Biz Ordu sıralarında, həqiqi hərbi xidmətdə olanda, 27 sentyabr 2020-ci il, saat 6:00-da, İkinci Vətən Müharibəsi, "Dəmir Yumruq" əməliyyatı başldı.

Biz əsgərlər, bu günü çox səbrsizliklə gözləyirdik. 30 il erməni işğalçılarının Qarabağ torpağını ac qurd kimi, zəli kimi sovurmasına göz yuma bilməzdik, bunu bizdən o, torpaqlara qanları bələnmiş şəhid ruhları tələb edirdi və hər gün əsarət altında əzilən o, torpaqlar bizi gözləyirdi" - deyə, Azərbaycan Silahlı Qüvvələrin baş leytenantı Asif Bayramov Cəlil oğlu, bir hərbiçi ciddiyyətilə danışmağa başladı.

Asif Bayramov 12 iyun 1997- ci ildə, Azərbaycan Respublikasının Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

2003- cü ildə Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbin 1-ci sinifinə getmiş, 2014- cü ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

2014- 2018- ci illərdə Lənkəran Dövlət Universitetinin kompüter mühəndisliyi fakültəsində oxumuş və həmin Universiteti müvəffəqiyyətlə bitirmişdir.

2018-ci ildə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və № saylı hərbi hissədə xidmət etməyə başlayır. Müxtəlif təlimlər zamanı əsgərlər, o cümlədən Asif Bayramov ayrı -ayrı silahlardan istifadə etmək bacarığına yiyələnir və döyüş şəraitinə uyğun nəticə çıxarmaq, ona aid hərəkət etmək yollarını öyrənirlər.



Ordunun gücü hərbi qulluqçuların gücü, hərbi qulluqçuların gücü isə Ordunun gücü deməkdir. Tez- tez artilleriya atışlı təlimlərdə əsgərlər şərti olaraq düşmən mövqeylərinin kordinatlarını dəqiq müəyyən edir, düşmən qruplaşmalarını, məntəqələrini, səngərlərini, hərbi sursat daşıyan maşınları, maşın karvanlarını məhv etmək bacarığına yiyələnirlər.

Asif Bayramovun N saylı hərbi hissəsi 44 günlük Vətən Vətən müharibəsi ərəfəsində ən yüksək səviyyədə döyüş hazırlığına malik, mənəvi-psixoloji cəhətdən tam hazır vəziyyətdə idilər.

-“ Müharibə başlayanda bizim hərbi hissənin qaşısında duran ən mühüm tapşırıq 27 sentyabrdan 30 sentyabra kimi Daşkəsəndən Kəlbəcər istiqamətinə, Hünal dağına tərəf hücuma keçmək idi. Lakin hərbi vəziyyətlə əlaqədar bu tapşırıq başqa bir tapşırıqla əvəz olundu”-deyə Asif Bayramov danışmağa başladı.

Hünal dağ Azərbaycan Respublikasının Daşkəsən

rayon ərazisində yerləşən bir dağdır. Tanrıyoxuş aşırımından qərbdə, Levçay, Şəmkir və Gəncə çaylarının mənbə hissəsindədir. Kiçik Qafqazın şərq hissəsindən keçən Şahdağ silsiləsinin baş zirvəsidir, hündürlüyü 3367 metrdir. Komandanlıqdan bizə verilən yeni tapşırıq oktyabrın əvvəlindən başlayaraq Cəbrayıl, Zəngilan istiqamətindən hücum əməliyyatlarında iştirak etmək idi. Bizim hərbi hissəmiz 4 oktyabr 2020-ci ildə, Cəbrayıl rayonunun erməni işğalçılarından azad olunmasında böyük rol oynadı. Lakin Cəbrayıl rayonunun xeyli kəndləri hələ düşmən nəzarətində idi, erməni seperatçı ünsürləri öz çirkin işlərini Azərbaycan torpaqlarında davam etdirirdilər.Qarabağ torpağı ermənilər üçün narkotika biznesinə çevrilmişdi.

İşğal altında olan torpaqlarımızın azadlığa çıxması




üçün hərbi hissəmizin əsgər və zabit heyyəti ölümün gözünə dik baxaraq düşmən üzərinə şığıyır, onları məhv edirdilər. Əlbətdə şəhidlərimiz, yaralılarımız da, çox idi.

Bizim zabitlər düşmən üzərinə hücuma keçəndə mən də, daxil olmaqla əsgərlərin arxasında yox, önündə hücuma atılırdılar. Biz, komandirlər əsgərlərə “Ardım-

ca"-deyərək komanda verirdik. Hərbi hissəmiz 19 oktyabrdan 20-si oktyabra kimi, cəmi bir gün ərzində, 135 km Araz çayı boyu torpaqlarımızı mənfur düşməndən azad etdi. 30 il  düşmən tapdağı altında inləyən Araz çayı üzərində olan torpaqlarımız azadlığa çıxdı.

Gözün aydın olsun, ey Azərbaycan,
Qurbanın olmağa hazırdır hər can.
Tülkütək quyruğun qısaraq düşman,
Qaçır ölkəmizdən, qaçır diz- dizə,
Ali Baş Komandan, eşq olsun sizə.

Düşmənin üzülür, üzülür bağrı,
Tutub havadarın qarnını ağrı.
İşğal torpaqlarım alınıb yarı,
Gəlməsin Ordumuz nəzərə, gözə,
Ey vətən əsgərim, eşq olsun sizə.

("Ürəyimin harayı"-kitabı S.A.15.9.20.)

18 oktyabr 2020- ci ildə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, müstəqillik günümüzdə Azərbaycan bayrağını XUDAFƏRİN KÖRPÜSÜ üzərində ucaltdı, Araz çayının göz yaşı axıdan suları təskinlik tapdı.

Araz nalə çəkdi, hayqırdı, o gün,
Göy üzü tutuldu, göz yaşı tökdü.
Quşlar oxumurdu, baxırdı küsgün,
Kəpəzim, Savalan boynunu bükdü,
Ağ vərəq üstündə böləndü bir can,
Bir xalqı ikiyə böldü, "Gülüstan".

İkiyə böləndük haray, ay haray,
Araz sərhəd oldu, ayrıldı, o gün.
Boğuldu içimdə bəzəkli saray,
Dirəklər vuruldu sinəmin üstə,
İki yüz ildən çox yandırır hicran,

Kədər tariximi yazdı, "Gülüstan".S.A.

**Haşiyə:-** Araz çayı üzərində əsrlər boyu çoxlu körpülər salınmışdır. Onlardan yalnız ikisi bu günümüzə kimi gəlib çatmışdır. Bir- birindən 750 metr aralı olan bu körpülər çay yamaclarının ən əlverişli keçidlərindən biri olan Xudafərin dərəsində yerləşir. Burada iki təbii daşlar körpünün tağları üçün əlverişli təməl rolunu oynayır.

Xudafərin körpüləri Azərbayzanın memarlıq sənətinin ən dəyərli nümunələrindən biridir.

Körpülərdən biri, baş Xudafərin körpüsünün uzunluğu 130 metr, eni 6 metr, hündürlüyü 12 metrdir, 11 aşırımdan ibarətdir.

Digər ikinci körpünün uzunluğu 200 metr, eni 4,5 metr, hündürlüyü 10 metrdir. Bu körpü 15 aşırımlıdır. Ehtimal olunur ki, 15-aşırımlı körpü 1027-ci ildə Azərbaycan hökümdarı Fəzi ibn Məhəmməd tərəfindən inşa edilmişdir.

Orta əsr tarixçisi Qəzvinin əsərində körpünün adı "Xuda Afərin" kimi yazılmışdır. Haşiyə bitdi.

-" 20 oktyabr 2020- ci ildə, bizim T saylı hərbi hissəmiz Zəngilan rayonunun düşmən işğalından azad olunmasında böyük rol oynadı"-deyə baş letenant Asif Bayramov yenə o, illəri xatırlayıb danışmağa başladı.

Zəngilana ayaq basan minlərlə hərbi qulluqçuların

ayaq izləri içərisində, bir zabit kimi mənim də, ayaq izim var idi.

Şəhid Xudayar Yusifzadə bizim hərbi hissəmizin qəhrəman bir əsgəri idi. O, çox səmimi, şən, hazırcavab, qorxubilməz bir əsgər idi. Hamımızın dostu idi Xudayar. Allah şəhid qardaşımızı, bütün şəhidlərimizi qəni-qəni rəhmət eləsin. Ən yaxın dostum Sultan İbrahimov Mikayıl oğlu erməni vandalları ilə ağır döyüşlərin birində qəhramancasına şəhid oldu. Hər şəhidimiz olanda, hamımız- əsgər və zabit heyyəti qəm-kədər içində olurduq, xeyli vaxt özümüzə gələ bilmirdik.

Hərbi hissəmizin komandiri, Vətən Müharibəsi Qəhrəmanı general-mayor Babək Ələkbərov idi.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə, İgid döyüşçü, Bayramov Asif Cəlil oğlu,

"Cəbrayılın azad olunmasına görə",

"Zəngilanın azad olunmasına görə"

"Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilmişdir.

Asif Bayramov hal- hazırda № saylı hərbi hissədə Baş Leytenant kimi müddətli həqiqı hərbi xidmətini davam etdirir.

## BAŞ LEYTENANT, YAŞAR YAVƏROV



2020-ci il sentyabrın 25-də, bizim Hərbi Hissənin əsgər və zabitləri döyüş mövqeyində idilər, döyüş əmri gözləyirdilər"-deyə baş leytenant öz döyüş xatirələrindən danışmağa başladı.

2020-ci il sentyabrın 27-də, 6:00-da, bütün hərbi hissələrdə cəbhə boyu xüsusi siqnalla Vətən Müharibəsinin başlanması haqqında məlumat verildi. Bu siqnal 30 illik işğala son vermək üçün verilən siqnal idi. Azadlıq hayqırdı atılan top mərmiləri, artilleriya qurğularının yaylım atəşləri, hay-lara ölüm, 30 il zəncirlənib əsarətdə qalan Qarabağa isə "Biz gəlirik "-şad xəbərini verdi".

Otuz ildir gözüm gözləyir zəfər,
Nə vaxt Qarabağa edəcək səfər?
Daha ürəyimdə qalmayıb təpər,
Qırın zəncirləri, nur caç yoluma,
Haydı igid əsgər, haydı hücuma!

(Ürəyimin harayı-kitabı,11.08.020.S.A.)

Yaşar Yavərov Sənan oğlu 20 avqust 1976- cı ildə, Azər-

baycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

Yaşar Yavərov, Yeyənkənd kənd orta məktəbini bitirdikdən sonra BDU- nin riyaziyyat- mexanika fakültəsinə daxil olur və 1997-ci ildə, Universiteti müvəffəqiyyətlə bitirir. Təhsil aldığı müddətdə Universitetin nəzdində olan hərbi kafedrada hərbi təhsil alaraq leytenant rütbəsinə yiyələnir.

Gənc leytenant, 2004-cü ilin noyabr ayında, Hərbi Xidmətin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır. Əvvəlcə Gəncə şəhərində, sonra da, Naxçıvanda № saylı hərbi hissədə qulluq edir və 31 dekabr 2005-ci ildə "Baş Leytenant" rütbəsinə layiq görülür və nümunəvi xidmətinə görə komandanlıq tərəfindən "Təşəkkürnamə"-ilə təltif edilir. 2006-cı ilin iyun ayında Ordudan tərxis olunur.

Azərbaycanın 20%-dən çox torpaqlarını işğal edən Ermənstan Silahlı Qüvvələri və Qarabağın erməni seperatçı ünsürləri "Aprel döyüşləri"-dən dərs almayaraq tez-tez təxribatlar törədir, yeni ərazilərimizi işğal etmək arzusu ilə yaşayırdılar. Belə təxribatçı hücumlardan biri də, 2020-ci ilin 12 iyulda Tovuz rayonu istiqamətində Dövlət sərhəddimizdə oldu. Tovuz əməliyyatı 6 gün davam etdi. Bu müddət ərzində düşmən 100-dən çox canlı qüvvəsini və xeyli hərbi sursatını itirdi. Tovuz döyüşləri Azərbaycan Silahlı Qüvvələrinin qələbəsilə başa çatd.

Ordumuzun apardığı Aprel və Tovuz döyüşləri (2020-ci il 12 iyul), həmçinin Günnüt əməliyyatı (2018-ci il, may ayının 20- 27-si Naxçıvan) İkinci Vətən müharibəsinin ilk qığılcımları idi.

Tovuz döyüşlərində xalqımız öz qəhrəman oğlu, General- mayor Polad Həşimovu, Polkovnik İlqar Mirzəyevi və 12 nəfər hərbi qulluqçusunu şəhid verdi.

Artıq Azərbaycan xalqı başa düşürdü ki, qələbə çox da, uzaqda deyil.




Azərbaycanın igid övladları könüllü olaraq Ordu sıralarına yazılırdılar. Onlardan biri də, baş leytenant Yaşar Yavərov idi. O, 2020-ci il iyun ayında Ordu sıralarına getmək üçün ərizə verdi.

Baş leytenant Yaşar Yavərov 2020-ci il sentyabrın 21-də, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmə çağırılır və Goranboy rayonunun № saylı hərbi hissəsinin artilleriya biriqadasına göndərilir.

Danışır baş leytenant Yaşar Yavərov:

-"Saat 6:00- da, top atəşləri yeri, göyü lərzəyə gətirəndə artıq mən sübh namazını qılmışdım, qoşa əllərimi Allaha qaldırıb, "İlahi, Silahlı Qüvvələrimizə yardım et"- deyə dua etməyə başladım...

31 zabitdən 3 zabit qalmışdıq, bütün zabitlər ön

mövqeylərdə idilər. Komandanlıq, zabitlərin hamısını ön cəbhəyə göndərmək istəmirdi, bu döyüş qaydalarına zidd idi, amma biz də, çox narahat idik axı, bir süfrədə yemək yediyimiz zabit və əsgər heyyətimiz düşmənlə ölüm- dirim savaşına girmişdi, biz- 3 zabit isə, onların yanında deyildik. Buna görə ön cəbhyə getmək üçün qərərgaha gəlib öz narahatlığımızı bildirdik. Bizə -" Olmaz, bütün komanda heyətini döyüşə göndərmək hərbi qaydalara ziddir"-dedilər. Gözümüzdən yaş süzüldü, "Bizi döyüş yoldaşlarımızdan ayırmayın, çox xahiş edirik, bizi də, döyüş bölgəsinə yollayın, Mayor!"- dedik. Mayorun ürəyi yumuşaldı, "özündən yuxarı" ilə danışdı, "İcazə verdilər, gedə bilərsiniz, amma ehtiyatlı olun"-dedi.

Təxminən 1 saatdan sonra biz döyüş mövqeyində, hərbi hissə komandirinin müavini polkovnik Adıgözəlovun sərəncamında idik. Tərtər rayonunda yerləşirdi hərbi mövqeyimiz. Ağdərə və Suqovuşan istiqamətində gedən döyüşlərdə biz komandirlər, əsgərlərlə çiyin- çiyinə vuruşurduq. Tərtər rayonundan Kəlbəcər istiqamətinə artilleriya atəşi ilə, düşmənin canına qorxu salmışdıq.

Düşmən artilleriyası susmaq bilmirdi, onlar hara gəldi atırdılar, ölümə məhkum edilmiş insanlar kimi vuruşurdular. Döyüşçülərimiz hey irəliyə can atırdılar, bir- birinin ardınca düşmən səngərlərini bombalayır, darmadağın edirdilər. Biz, komandirlər hər vaxt əsgərlərin arasında olurduq.

Təvazökarlıqdan uzaq da, olsa demək istəyirəm ki, döyüş öncəsi mayor Gülməmmədov, komanda heyyətinə vəsiyyət etmişdi:- "Əgər şəhid olsam məni baş leytenant Yaşar Yavərov əvəz etsin".

Hərbi hissəmiz 9 şəhid verdi, onlar gənc idi, ürəklə-

ri arzularla dolu idi. Hər şəhidi yola salanda komandir və əsgər heyyətimiz hönkür-hönkür ağlayırdı, ürəyimiz param -param olurdu.

Qollarımın üstündə əbədi gözlərini yuman bir şəhid əsgərimin dediyi sözlər heç yadımdan çıxmır, için- için ağladır məni. Onun 18 yaşı var idi, cəbhəyə könüllü gəlmişdi. Döyüş bölgəsində yaylım atəşi qısa da olsa kəsiləndə, əsgərlər növbə ilə səngərdə oturaq vəziyyətdə gözlərini yumur, gözlərinin "acısını" alırdılar. Adını dilimə gətirməyə ürək eləmədiyim həmin əsgər, birdən gözlərini açıb gülə- gülə dedi: -"Yuxuda gördüm ki, şəhid olmuşam, əgər döğrudan da, şəhid olsam ata- anama deyərsiniz ki, oğlunuz şəhid olmazdan əvvəl sizə salam göndərdi. Oğlunuz vətən uğrunda şəhid oldu, ona görə ağlamayın, axı şəhidlər ölmür"...

Nə qədər yazılsa şəninə əsər,
Yenə azlıq edər, ey şanlı Ordum.
Sildin tariximdən qanlı bir ləkə,
Bayram libasını geyindi yurdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

**S.A.**

Baş leytenant Yaşar Yavərov mənim ən sevimli, tərbiyəli, çalışqan şagirdlərimdən biri olub. Oxuduğu müddətdə müəllimlər ondan çox razılıq edirdilər. Hal-hazırda Yaşar, Masallı rayon İcra Hakimiyyətinin Yeyənkənd kənd Ərazi nümayəndəsinin müavini işləyir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin sərəncamı ilə,

Ordumuzun igid baş leytenantı Yaşar Yavərov

"Suqovuşanın azad olunmasına görə"

"Vətən müharibəsi iştirakçısı"medalları ilə təltif olunmuşdur. Müharibə veteranıdır.

# ƏSGƏROV XƏYAL NƏSRƏDDİN OĞLU



28 sentyabr 2020- ci ildə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Akademiyasına, Hərbi Nazirliyin bir neçə əməkdaşı gəldi. Onlar kursantlara 27 sentyabr İkinci Vətən Müharibəsinin başlanması haqqında məlumat verdilər. Həmçinin, 30 ilə yaxın erməni işğalında olan Qarabağ torpağının həsrətlə gözlədiyini, 1 milyon qaçqın və köçkünlərin öz ata-baba yurdlarına dönmək intizarında olduqlarını, şəhid qanlarının fəryad edib inildədiyini, birdaha kursantların nəzər- diqqətinə çatdırdılar. Onlar Hərbi Akademiyanın kursant və zabitlərinə-“ Cəbhəyə könüllü getmək istəyən varmı ?”-deyə müraciət etdilər.

Akademiyanın kursantları bir ağızdan –“ Biz hamımız Vətən yolunda ölümə belə getməyə  hazırıq”- deyə cavab verdilər.

Zalı tidrədən bu səslər içərisində kursant Xəyal Əsgərovun da, səsi var idi.

Xəyal Əsgərov 11 mart 1999- cu ildə, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur. 2005-ci ildə Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbin 1- ci sinifinə getmiş, 2014- cü ildə 9- cu sinifi müvəffəqiyyətlə bitir-

mişdir. Xəyal Əsgərov sonra Cəmşıd Naxçıvanski adına hərbi liseyə daxil olur, 3 il təhsil aldıqdan sonra bu liseydən birbaşa Heydər Əliyev adına Azərbaycan Ali Hərbi İnstitutuna (Akademiya) daxil olur.

Oxuduğu müddətdə məşğələlərə ciddi hazırlaşması, ədəb-ərkanı, ciddiyyətilə ali məktəb rəhbərliyinin diqqətini cəlb edir və yazılı, şifahi təşəkkürlərə layiq görülür, eyni zamanda valideynlərinə də, təşəkkür məktubları göndərilir.

Akademiyanı hər bir zabit və kursantının Ordu sıralarına getmək üçün can atmalarına baxmayaraq, rəhbərlik könüllürər içərisindən 50 nəfərin adını qeyd edir. Həmin 50 nəfər könüllünün adları yazılan siyahıda Xəyal Əsgərovun da, adı var idi.

Danışır Azərbaycan Silahlı Qüvvələrin leytenantı Xəyal Əsgərov:

-“2020- ci il sentyabrın 28- də, axşam Hərbi Akademiyanın kursant və zabitlərinin müşayiətilə bizi, ali məktəb ocağından yola salıb müvəffəqiyyət arzuladılar. Bizi əvvəlcə Mingəçevirə, N saylı hərbi hissəyə gətirdilər. İki gündən sonra bizə,Daxili İşlər Nazirliyinin əmrilə bizə, “Kiçik Leytenant” rütbəsi verildi.

Hələ Mingəçevirdə olanda, 4 oktyabrda Cəbrayıl şəhərinin düşmən işğalından azad olunması haqqında şad xəbər aldıq. Bu xəbəri hamımız, N saylı hərbi hissənin əsgər və zabitləri böyük ruh yüksəkliyilə qarşıladıq. 3 gündən sonra bizi maşınlarla Füzuli rayonunun Qaraxanbəyli kəndi istiqamətində, dağlar qoynunda olan bir əraziyə gətirdilər.

Ermənstan Silahlı Qüvvələrinin kəşfiyyat qrupu, bizim yerləşdiyimiz ərazini müəyyən edərək iri çaplı si-

lahlardan intensiv atəşə tutmağa başladı.

Hərbi hissəmizin cavab atəşilə düşmənin atəş nöqtəsi darmadağın edildi. Füzuli rayonunun bir çox kəndlərini, o cümlədən Qaraxanbəyli kəndini düşmən əsarətindən xilas etdik. Bu kətdə 3 gün qalandan sonra hərbi hissəmiz, o cümlədən bizim tabor öz döyüş yolunu Füzuli rayonunun düşmən tapdağı altında olan başqa məntəqələrinə doğru genişləndirməyə başladı.




Bir hadisəni tez- tez xatırlayıram. Bir gün yanımıza tanımadığımız yaşlı bir kişi gəldi. Əlində çomaq tutmuş bu kişinin pal- paltarı çox köhnə idi, azərbaycan dilində səlist danışırdı. O, özünü Qarabağlı kimi təqdim etdi, bizimlə çox səmimi, zəhmətkeş bir insan kimi söhbət edirdi. Bir az söhbət edəndən sonra xüdahafizləşib getdi. O gedəndən sonra çox çəkmədi ki, başımıza yağış kimi mərmi yağmağa başladı. Sonra başa düşdük ki,

özünü çoban kimi təqdim edən, o kişi düşmən kəşfiyyatçısı imiş.

Biz, Qaravənd, Aşağı Əbdürrəhmanlı, Yuxarı Güzdək, Xatınbulaq və.s. kəndləri düşmən işğalından azad edib irəliyə hərəkət etməyə başladıq. Düşmən Azərbaycan Ordusunun ildırımsürətli hücumu qarşısında duruş gətirə bilmir, ya təslim olur, ya da, ölülərini, yaralılarını döyüş meydanında ataraq qaçırdılar. Baxmayaraq ki, onlar 30 il müddətində Qarabağda möhkəm müdafiə istehkamları, bir- biri ilə əlaqəsi olan yeraltı tunellər, səngərlər yaratmışdılar.

Bir dəfə tutduğumuz erməni səngərlərinin birində azca dincəlmək istəyirdik ki, birdən üstümüzə yeraltı tuneldən atəş yağdırmağa başladılar. Bu atışmada bir şəhid versək də, tuneldə olan bütün erməniləri məhv etdik.

Erməni hiyləsi hər addımbaşı qarşımıza çıxırdı. Sökük, köhnə bir evə baxış keçirmək üçün ehtiyatla evin içərisinə girmək istəyəndə erməni kəşfiyyat-diversiya qrupunun yaylım atəşilə qarşılaşdıq. Çox Şükr ki, tələfat vermədik, evin içərisində olan erməniləri zərərsisləşdirdik, 3 nəfərini isə əsir aldıq.

Burda 3-4 dəqiqə vaxt tapıb atama zəng etdim: - Soruşdu ki, "Cəhəhədə vəziyyət necədir?". Hələ bizi cəbhəyə aparmayıblar, ata- dedim.

Füzuli rayonundan başqa Cəbrayıl, Zəngilan rayonlarının mənfur düşməndən azad olunmasında da, iştirak etmişəm".

10 noyabr 2020- ci ildə, İkinci Vətən Müharibəsi və ya "Dəmir Yumruq" əməliyyatı Azərbaycan Silahlı Qüvvələrinin tam qələbəsilə başa çatdı.

Heydər Əliyev adına Hərbi Akademiyanın "Dəmir

Yumruq" əməliyyatında iştirak etmiş, düşmənlə ölüm-dirim savaşına girmiş kursantları arasında Vətən yolunda şəhid olanlar, yaralılanlar da, var idi.

Akademiyanın kursantları müharibədən sonra yenidən təhsil ocağına geri döndülər.

2021- ci il iyun ayının 23-də, Xəyal Əsgərov da daxil olmaqla onlara "Leytenant" rütbəsi verilir və Akademiyanı müvəffəqiyyətlə bitirirlər.

"-2021-ci il sentyabr ayının 30-da, bizi Laçın rayonuna göndərdilər"-deyə qəhrəman döyüşçü Xəyal Əsgərov yenə öz həyat hekayəsini davam etdirdi.

-Düşmən postu ilə ara məsafə təqribən 4 metr olardı. Laçın dağlarının zirvəsi qarla örtülmüşdü, soyuq külək dağın zirvəsindən qar topalarını alıb üzümüzə çırpırdı, əllərimizin donmaması üçün bir-birinə sürtür, qarla ovuşdururduq. Postumuz yer səviyyəsindən 320 metr hündürlükdə yerləşirdi.

Ali Baş Komandan qalxdı ayağa,
O "dımir yumuruğ" bənzədi dağa.
Xalqım da, arxada döndü dayağa,
Əzilən haqqımı dünyadan sordum,
Yeni tarix yazdın, ey şanlı Ordum!

Qırx dörd günlük gətirdi zəfər,
Tarixə yazıldı adın, "Müzəffər".
İndi xan Şuşama edirik səfər,
Qələbə günləri min şənlik qurdum,
Yeni tarix yazdın, ey şanlı Ordum!.

(Danışan illər-kitabı, 04.11.21.S.A.)

-Gecələri səhərə kimi yatmırdıq, çadırlar güllə atəşindən deşik- deşik olmuşdu. Düşmən təslim olsa da, yenə tez-tez təxribatlar törədirdilər.



2021-ci il noyabrın 13-də, Azərbaycanın Xankəndi şəhərindən, Xankəndi-Laçın yolu ilə, öz avtomobilində hərəkət edən Ermənstan vətəndaşı, avtomobilini saxlayıb əlindəki qumbaranı əsgərlərimizin durduğu əraziyə atır və bir neçə əsgərimiz yaralanır. Bu hadisədən sonra bəzi sərhəd toqquşmaları baş verir. Ona görə də, biz

daha çox ayıq-sayıq olmalı idik. Hər gün növbə ilə 1- 2 saat çadırın içində, taxta üzərində uzanıb gözümüzün "acısını" alırdıq.

2022-ci il avqustun 3- də, Azərbaycan Respublikası Müdafiə Nazirliyi rəsmi olaraq " Qisas" əməliyyatına və ya Antiterror əməliyyatlarına başlamaq barədə göstəriş verdi. Azərbaycan Silahlı Qüvvələri, Qarabağda qanunsuz erməni silahlı qüvvələrinə qarşı əməliyyata başladı.

2022-ci ilin sentyabrında sərhəddə təxribat törətmək istəyən 24 erməni əsgərini əsir alıb Bakıya yolladıq. Antiterror əməliyyatlarının birində mənim rəhbərlik etdiyim "taqim"-in mühasirəyə düşmək təhlükəsi yaranmışdı. Düşmən bizi üç tərəfdən sıldırımlı qayaya sıxışdırıb əsir almaq istəyirdi. Biz 25 nəfər idik, düşmənlə ölüm- dirim savaşına girmişdik. Ölümün addım-addım yaxınlaşdığını hiss edirdim. Ürəyimdə ailəmizlə, dost- tanışla vidalaşırdım. İstər- istəməz gözlərimdən iki damla yaş gilələnib aşağı süzüldü. Bu zaman erməni gülləsi qulağımın dibindən vıyıldayaraq keçdi, sanki yuxuda idim ayıldım, minlərlə şəhid əsgərlərimiz, Xocalı Soyqrımı, torpaqlarından didərgin düşən bir milyon qaçqın və köçgünlər gözlərim önündə canlandı. Birdən –birə mənə yeni güc-qüvvət gəldi, gözlərim işıqlandı, "Yox, biz məğlub olmamalıyıq, bizim məğlub olmağa haqqımız yoxdur"-dedim. Koroğlu kimi nərə çəkdim, "biz qalib gələcəyik"- çığırdım, bütün əsgərlərim "Yaşasın Azərbaycan"-deyərək səsimə səs verdilər.

İki saata qədər davam edən bu dəhşətli savaşda düşmənin sağ cinahını sərrast atəşlərlə geriyə çəkilməyə məcbur etdik, elə bu zaman bizim çətin vəziyyətə düşdüyümüzü hiss edən hərbi hissəmizin kəşfiyyat bölüyü "Xızır Peyğəmbər" kimi özünü yetirdi. Qısa bir müd-

dət ərzində düşməni geriyə çəkilməyə məcbur etdik. Bizdən qat- qat çox olan erməni əsgərləri öz ölülərini, yaralılarını döyüş meydanında ataraq tülkü kimi quyruqlarını qısıb qaçdılar. Hər bir əsgərimi, eyni zamanda bizə köməyə gələn əsgərlərimizi bir- bir qucaqlayıb üzündən öpdüm ".

Beləliklə "Antiterror" əməliyyatları nəticəsində qeyri-qanuni erməni birləşmələri məhv edildi. 19-20 sentyabr 2023-cü ildə Azərbaycan öz suverenliyini tam bərpa etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi, seperatçı rəhbərlər həbs olundu.

Azərbaycan Respublikasının prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

Ordumuzun igid Leytenantı, Əsgərov Xəyal Nəsrəddin oğlu,

"Cəbrayılın azad olunmasına görə"

"Zəngilanın azad olunmasına görə"

"Vətən müharibəsi iştirakçısı"

"Döyüşlərdə fərqlənməyə görə" medalları ilə təltif edilmişdir.

Həmçinin, Xəyal Əsgərov oxuduğu müddətdə və cəbhə bölgəsində olduğu müddətdə 6 dəfə Fəxri Fərmanla təltif edilmiş, bir neçə dəfə özü və ailəsi hərbi hissənin komandanlığı tərəfindən yazılı təşəkkür almışdır.

# HEYBƏTZADƏ ZEYNAL İNTİZAM OĞLU



Zeynal Heybətzadə Ordu sıralarına gedəndə, bilmirdi ki, 30 illik işğal altında əzilən, göz yaşı axıdan Qarabağın qollarına vurulmuş əsarət zəncirinin, çilik-çilik olmasına az qalıb, lakin o, bilirdi ki, bir gün gələçək Qarabağ torpağında quşlar mahnı oxuyacaq, Xan Şuşada xarı bülbüllər çiçək açacaq, yarpaqlarından süzülən həsrət damcıları gülümsəyəcək, Ordumuzu alqışlayacaqdır.

O, bilirdi ki, bir gün gələcək, Vətən Bayrağımız Şuşa dağlarında, bütün Qarabağda mənfur düşmənə meydan oxuyacaqdır. Bəli, Azərbaycan xalqı, 50 milyonluq dünya azərbaycanlıları bu anı həsrətlə gözləyirdi.

Zeynal Heybətzadə 23 sentyabr 2001- ci ildə, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

2007-2018-ci illərdə Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində oxumuş və bu məktəbi müvəffəqiyyətlə bitirmişdir.

2018- cu il oktyabrın 3-də, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır.

Danışır Qarabağ döyüşçüsü  Zeynal Heybətzadə:

- Bizi əvvəlcə Ağcabədi rayonunun № saylı hərbi hissəsinə gətirdilər. Mən hərbi hissədə topçu batareyasına düşdüm. Bir müddət bizə müxtəlif silahlarla davranmağın yollarını öyrətdilər, topu döyüşə hazırlamağın yollarını bir- bir başa saldılar.

"Ən yaxşı artilleriya divizionu"-adı uğrunda yarışlar keçirilirdi. Bir neçə ay ərzində topçuluq haqqında hərtərəfli biliklərə sahib olduq. Sonra hərbi təlimlərimizi Beyləqan rayonunun Daşburun qəsəbəsində, № saylı hərbi hissədə davam etdirdik".

**-Sizin hərbi hissənin əsgər və zabitlərinin İkinci Vətən Müharibəsinin olacağı haqda məlumatı var idimi?**

-"Bizə müharibənin olacağı haqqında heç bir məlumat verilməmişdi, lakin Ermənstan silahlı qüvvələrinin tez- tez "atəşkəs"-i pozması, sərhəddə təxribatlar törətməsi haqqında məlumatımız var idi. Hərbi Hissənin komandirləri bizə mütəmadi olaraq Qarabağın işğalda olması, Xocalı soyqrımı haqqında, ermənilərin, xalqımızın başına gətirdikləri müsibətlər haqqında ürək ağrısı ilə danışırdılar. Eyni zamanda, hazırkı vəziyyətdə Azərbaycan Ordusunun, Ermənstan Ordusundan qat-qat üstün və güclü olmasnı dəlil- sübutlarla göstərir, aprel döyüşlərini misal çəkirdilər.

Biz əsgərlər, qara ləkəni alnımızdan silmək, torpaq-

larımızı işğaldan azad etmək üçün hər an Ali Baş Komandanın əmrini gözləyirdik" - deyə "Dəmir Yumruq" əməliyyatının igid döyüşçüsü inamla danışırdı, onun hər bir sözündən erməni işğalçılarına qarşı nifrət yağırdı.

**-Sizi Beyləqanın Daşburun qəsəbəsindən sonra hara göndərdilər?**

-"Bizim N saylı hərbi hissəmizi, döyüşə tam hazır vəziyyətdə, Xocavənd rayonu istiqamətinə göndərdilər və dərhal bütün topları döyüş vəziyyətinə gətirdik, düşmən mövqeylərinə sarı tuşladıq. Hamımız hiss edirdik ki, artıq müharibə qaçılmazdır, lakin yenə müharibənin olacağı haqda heç bir məlumat verilmirdi.

Gecənin qaranlığında erməni hərbiçilərinin yerləşdiyi istiqamətdə arabir işıq parıltısı görünürdü.

2020-ci il 26 sentyabr axşamı bütün toplar, ağır silahlar birdaha yoxlanılıb hazır vəziyyətə gətirildi.

Otuz il göz yaşı axıdır xalqım,
Otuz il əzilir, pozulur haqqım.
Yağdıraq düşmənin başına alov,
Tezliklə geydirək  düşmənə kəfən,
Şair əsgərinəm mən də, bu gündən.

Yazılır tarixə, o şanlı adın,
Gözünə ox batır, yağının, yadın.
Sizinlə ucalır zəfər bayrağım,
Göz dikib yoluna bu ana Vətən,
Şair əsgərinəm mən də, bu gündən.

(Ürəyimin harayı-10.10.020. S.A.)

2020-ci il 27 sentyabr sübh çağı, saat 5:30-da, batareya komandirinin əmrini eşitdik: - "Hamı topların yanında hazır vəziyyət alsın!". Biz, bütün topçular dərhal əmri yerinə yetirdik, bütün toplar düşmən tərəfə tuşlanmışdı, biz də, topların yanında hazır vəziyyətdə əmr gözləyirdik.

Hərbi hissəmizin raket və artilleriya silahları hazır vəziyyətdə atəş mövqeyinə çıxarılmışdı.

27 sentyabr 2020- ci il saat 6:00- da, ağır artilleriya və raket zərbələrindən, pilotsuz təyyarələrin uğultusundan yer- göy lərzəyə gəldi, iri çaplı silahlar, minaatanlar, müxtəlih çaplı artilleriya qurğularının atəş gücündən erməni səngərləri göyə sovruldu, düşmənin canlı qüvvəsi pərən- pərən düşdü".

-Düşmən mövqelərinə atəş açanda düşmən səngərlərinin harda yerləşməsi haqqında dəqiq məlumatınız var idimi?

-Bizim artilleriya qüvvələrimiz Vətən müharibəsi başlayanda düşmənin əsas dayaq nöqtələrindən məlumatlı idilər.

Döyüş əmri verilən anda həmin ərazilər darmadağın edildi. Məlumdur ki, hərbi hissənin hücuma keçməsini asanlaşdırmaq üçün düşmənin atəş nöqtələrini susdurmaq ən vacib məsələdir. Hərbi hissəmizin kəşfiyyatçıları düşmənin harda yerləşməsini, yerini dəqiqliklə müyyən etmişdilər. Bizim artilleriya qurğuları içərisində yaylım atəşli reaktiv sistem olan № saylı döyüş maşını xüsusi yer tutur. Belə döyüş maşınları çox uzaqdan düşmənin döyüş nöqtələrini dəqiq vurmaq gücünə malikdir. Bizim artilleriya 2 saata qədər düşmən mövqeylərini atəşə tutdu. Bizə isə, yəni topçulara hələ atəş açmaq əmr edilməmişdi. Hər yer toz- duman içində idi, sanki

göydən od yağırdı. Belə bir mənzərəni heç kinoda da, görməmişdim".

**-Sənin ön cəbhədə olmağından ailənizin xəbəri var idimi?**

- Xeyir, yox idi, mən bu barədə, ön cəbhədə olmağımı ailəmə deməmişdim. Onlara demişdim ki, bizim hərbi hissə cəbhədən uzaqda yerləşir.

Sonra bizə, yəni topçulara-3-cü, 4-cü, 6-cı top heyyətinə düşmən səngərlərinə intensiv atəş açmaq əmri verildi. Bizim atəşimizə cavab olaraq erməni minaatanları bizim olduğumuz yeri atəşə tutmağa başladılar. Düşmən minaları bizim topların yaxınlığına düşüb partlayırdı. Dəhşətli anlar olsa da, biz irəliyə atılmaq, düşmənlə əlbəyaxa döyüşə girmək, Xocalının, 20-mindən yuxarı şəhid və itgin düşənlərimizin intiqamını almaq istəyirdik, biz ölümün gözünə dik baxırdıq, ölümdən qorxmurduq".

**-Yemək yeməyə, aclığı, susuzluğu dəf etməyə vaxt tapa bilirdinizmi?**

- Saatlarla  ac qalsaq da, biz bunu hiss etmirdik, aclıq yada düşmürdü. Ermənilər bizim arxamızı, bizə hərbi sursat, ərzaq gətirilən yolları vurub sıradan çıxarmaq istəyirdilər ki, biz silah- sursatsız, ərzaqsız qalaq. Bəzən də, buna nail olurdular. Biz aclığımızı dəf etmək üçün ağac yarpaqları, cır meyvələr, yabanı bitgilər tapıb yeyirdik. Lazım olsaydı torpaq da, yeyərdik, təki torpaqlarımızı azad edək.

-Qarabağ döyüşçüsü, Zeynal Heybətzadə bir dəqiqəliyə susdu, bir az fikirləşib söhbətinə davam etdi.

-  Müəllim, bir kişi var idi, öz niva markalı (lada Vaz) maşını ilə, bizə hərdən yemək gətirərdi, hətda yeməklərin arasında kabab da, olurdu. Çox təəssüf ki, adını



unutmuşam o, qardaşın. Cəbhə bölgəsinə mülki şəxsləri braxmırdılar, amma o, qardaş ərzaq yüklənmiş maşını ilə gələ bilirdi, bəlkə adı Dövlət idi, dəqiq yadımda deyil .

**Haşiyə:** Bəli, iki növ cəbhə var, ön cəbhə və arxa cəbhə. Azərbaycan xalqı İkinci Qarabağ döyüşlərində arxa cəbhə idi, həmişə Ordumuzun, Dövlətimizin yanında oldular, kimi ərzaqla, kimi pulla, kimi mənəvi gücü ilə, güc verdi Silahlı Qüvvələrimizə. Eyni zamanda Rusiyada yaşayan soydaşlarımız , o cümllədən Masallı rayonunun Yeyənkənd, Abasbəyli kəndindən Rusiyada, əsasən Tatarıstanda yaşayan övladlarımız da, öz maddi imkanlarını əsirgəmədilər. Rusiyada yaşayan Abasbəyli kənd sakinləri 300- min rubl toplayıb Silahlı Qüvvələrimizin hesabına köçürtdülər. (Pul S. Abasbəylinin (Əhədzadənin) vasitəsilə Masallı rayon poçtundan Silahlı qüvvələrimizin hesabına köçürüldü).

Yeyənkənd kəndinin Rusiyada yaşayan övladları da, S. Şükürovun vasitəsilə tez- tez cəbhəyə ərzaq göndərirdilər. Haşiyə bitdi.

- "Bəzən bir kratofu 4 yerə bölüb yeyirdik, su çatışmayanda bir stəkan suyu qurtum- qurtum bölüb içirdik, ən xırda tikələri belə bölüşürdük”-deyə, yenə Zeynal söhbətini davam etdirdi.

Gözümüzün "acısını" almaq üçün növbə ilə bir-birimizə qısılıb səngərdə gözümüzü yumurduq, hava çox soyuq idi, tez- tez yağış yağırdı, elə olurdu ki, paltarımız tamam suyun içində olurdu.

Sonra bizə, yerimizi dəyişmək əmr olundu. Topları, mərmiləri maşınlara yığıb Qubadlı rayonuna sarı istiqamət aldıq. Yollar bəzən selin- suyun içində, palçıq içində olurdu. Dağları, dərələri keçib döyüşə- döyüşə irəliyə doğru hərəkət edirdik. Yaralılarımız, şəhidlərimiz çox olurdu, onlara baxanda ürəyimiz param- param olur, göz yaşı axıdırdıq.

Erməni işğalçıları torpaqlarımıza zəli kimi yapışmışdılar, çıxmaq istəmirdilər. Onların 30 il ərzində qurduqları istehkamları, səngərləri onların başına tökürdük, səngərləri al-qan içində, erməni meyidləri, yaralıları ilə dolu olurdu.

Gecə hərəkət edəndə işıqları tamam söndürürdük, kibrit də, yandırmaq olmazdı, ətrafımız isə dərə- təpə, sıldırımlı qayalıqlardan ibarət idi. Hərbi hissəmiz Cəbrayıl rayonu ərazisində, iki təpə arasında dayandı. Tibb maçınlarımız yetərincə var idi, onlar dayanmadan düşmən atəşi altında şəhidlərimizi, yalalılarımızı arxaya daşıyırdılar.

Ermənilər ilə atışmada bizim topların birini vurub sıradan çıxartdılar. Onlar minaatanlarla atırdılar. Düşmənin atdığı mərmilərdən biri lap yaxınlığımıza düşdü. Cəlilabad rayonunun Ocaqlı kəndindən olan Ağahüseynli Səyyad adlı bir əsgərimiz, bir mayor, bir leytenant şəhid oldular. Allah bütün Şəhidlərimizi rəhmət eləsin.

Cəbrayıl rayonu 4 oktyabr 2020- ci ildə, erməni işğalçılarından azad edilmişdi, lakin meşəlik ərazilərdə, bir çox kəndlərdə erməni tör-töküntüləri qalmışdı, on-




lar imkan tapan kimi atəş açıb hərbi qulluqçularımıza xəsarət yetirirdilər, onlar təhlükə mənbəyi idilər. Daşlı-çınqıllı torpağı qazıb topları yerləşdirmişdik ki, yerimizi dəyişmək haqqında yeni əmr aldıq. Ermənilər minaatanlarla hey atırdılar, yaxşı ki, minalar bizdən kənara düşürdü. Sərrast atəşlərlə düşmən mövqeyini vurub darmadağın etdik. Hərbi hissə Komandirimiz bizimlə tez-tez əlaqə saxlayır, vəziyyətlə maraqlanır, göstərişlər verirdi.

Hərbi hissəmiz Qubadlı rayonu istiqamətinə hərəkət əmri aldı.

Yollarda hərəkət etmək çox çətin idi, atılan mərmilər yolları tamam dağıtmışdı, hava çox soyuq idi, əllərimiz, üz- gözümüz az qalırdı ki, donsun. Bir topumuz da, Qubadlı uğrunda gedən döyüşlərdə düşmən tərəfindən vuruldu. Düşmənlə ölüm- dirim savaşına girmişdik, onlar 30 il işğal etdikləri torpaqlarımızda güclü müdafiə isthkamları qurmuş, ölümə məkum edilmişlər kimi vuruşurdular. Azərbaycan Ordusu ermənilərin “məğlubedilməzlik”-mif-ni, ildırımsürətli hücumu ilə darmadağın edirdi. Qubadlı uğrunda gedən döyüşlərdə yenə bir şəhid verdik, bir yaralımız oldu, bir neçə əsgərimiz itgin düşdü. Düşmən səngərləri, döyüş mövqeyləri fasiləsiz

olaraq bizim atəşimizlə yerlə- yeksan olunurdu. Atəş açmaqdan toplarımızın lülələri köz kimi qızarırdı, elə olurdu ki, bir topla 50- 60 dəfə atəş açırdıq.

25 oktyabr 2020-ci ildə Qubadlı şəhəri artıq bizim əlimizdə idi. Şəhərdə saysız- hesabsız erməni ölüləri var idi. Onlar cəsədlərini aparmağa vaxt tapa bilməmişdilər".

"Məğlubedilməzk"-deyirdiniz siz,
"Qəhrəman millətik"-söyləyirdiniz,
Harda pis iş varsa orda sizdən iz,
Balayan əliylə körpəm soyuldu,
Nöqtə qoyurdunuz, sizə nə oldu?.

Topxana meşəsin qırıb çatdınız,
Qonşu ölkələrə xeyli satdınız.
Haram tikə yeyib rahat yatdınız,
" Qarabağ bizimdir"-nida qoyuldu,
Yallı gedirdiniz, sonu nə oldu?.

**S.A.**

**- Qələbə xəbərini harda eşitdiniz?.**

- 9 oktyabr 2020- ci ildə, Hadrut qəsəbəsi Silahlı Qüvvələrimiz tərəfindən alınmışdı, buna baxmayaraq bizim hərbi hissəmizə Hadrut istiqamətinə hərəkət etmək əmr olundu. Hadrutdan sonra yenə Qubadlı rayonuna qayıtdıq. İşğaldan azad edilmiş rayon və kəndlərimizdə erməni ünsürləri qrup halında gizlənərək müqavimət göstərirdilər. Onların kökünü kəsmək üçün belə yerdəyişmələr lazım idi.

Qələbə xəbərini Qubadlıda eşitdik. Bu şad xəbəri eşidəndə tək mən yox, bütün əsgərlərimiz göz yaşlarına

büründü. Bir tərəfdən qələbəmiz üçün sevinc göz yaşları axıdırdıq, digər tərəfdən isə, şəhid olan əsgər qardaşlarımız, komandirlərimiz üçün ağlayırdıq.

Bu 44 gün ərzində bir gün də, olsa rahat yatmadıq, ona görə qələbə xəbərindən bir-iki saat sonra yadımıza düşdü ki, yatmaq da, lazımdır"-deyə qəhrəman əsgər gülümsədi.

8 noyabr 2020-ci ildə, Qarabağın ürəyi olan Şuşa şəhərinin alınması düşmənin bel stununu sındırdı. Daha müqavimət göstərməyin yersiz olduğunu anladı və 10 noyabr 2020-ci ildə, Kapitulyasiya aktını imzalamağa məcbur oldu. Beləliklə 44 günlük Vətən Müharibəsi- "Dəmir Yumruq" əməliyyatı Azərbaycan Silahlı Qüvvələrinin tam qələbəsilə başa çatdı.

Ermənilərin 200- illik "Firon"-luğuna son qoyuldu, "Məğlubedilməz"-lik mif-i darmadağın edildi.

Eşitsın insanlar, eşitsin dünya,
Köləlik zəncirin qırdı yurdumuz.
Bütöv Qarabağa gəldi bayrağım,
Bu gün yeni tarix yazdı Ordumuz,
"Hay"-lara məzarı qazdı Ordumuz.

İki yüz il yanan od- alov söndü,
Xalqımın vüqarı özünə döndü.
"Muxtar vilayət"-i arxivə gömdü,
Gavurdan intiqam aldı Ordumuz,
Dəmir zindanlara saldı Ordumuz.

("Qalib bayrağım"-şeiri-1-2 bənd.S.A.

Qələbədən sonra qəhrəman əsgər Zeynal Heybətza-

də, daha 3 ay xidmət edərək "İxtisaslı Top və Mina Atıcısı" kimi Ordu sıralarından tərxis olunur.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

İgid döyüşçü, Heybətzadə Zeynal İntizam oğlu,

"Cəbrayılın azad olunmasına görə",

"Qubadlının azad olunmasına görə",

"Vətən Müharibəsi iştirakçısı"medalları ilə təltif olunur.

# GİZİR, KAMİLZADƏ CAVİDAN TELMAN OĞLU



- "2020-ci il sentyabrın 10-da, məzuniyyətə çıxıb evə gəlmişdim. Bu zaman Azərbaycan Silahlı Qüvvələrin yeni hərbi təlimlərə başlaması haqqında məlumat aldım. Dərhal ərizə yazıb könüllü olaraq Ordu təlimlərinə qatıldım" - deyə Cavidan Kamilzadə" Dəmir Yumruq" əməliyyatında öz döyüş xatirələrini danışmağa başladı.

Kamilzadə Cavidan Telman oğlu 3 iyul 1996-cı ildə Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

2002-2013-cü illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

9 iyul 2014-cü ildə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır, Nazirliyin penitensiar xidmətin mühafizə alayının 2-ci atıcı bölüyündə atıcı vəzifəsində sıravi əsgər olaraq vətənə xidmətə başlayır.

Nümunəvi xidmətinə görə əvvəlcə "Baş əsgər", "Ça-

vuş", sonra isə "Baş çavuş" rütbəsində manqa komandiri olur.

9 yanvar 2016-cı ildə, manqa komandiri vəzifəsində "Baş çavuş" rütbəsində Silahlı Qüvvələrin ehtiyatına buraxılır.

Cavidan Kamilzadə, hərbiçi olmaq arzusu ilə, bəzi hərbi qurumlara ərizə ilə müraciət edir. 15 mart 2018-ci ildə, Dövlət Sərhəd Xidməti tərəfindən qəbula dəvət edilir, bir neçə yüksək rütbəli zabitlərin qəbulundan sonra, 9 aprel 2018-ci il tarixində, Dövlət Sərhəd Xidmətinin sahil mühafizəsində, N saylı hərbi hissədə, "Baş çavuş" rütbəsində xidmətə başlayır.

-"Hərbi təlimlərdən çox şey öyrəndik"-deyə, Cavidan Kamilzadə öz döyüş yollarından danışmağa başladı.

-Müxtəlif silahlardan gecə və gündüzlər atəş açır, əl qumbaraları, tank və piyada əleyhinə minalardan istifadə etmək, döyüş zamanı yaralı əsgərlərə ilk tibbi yardım göstərmək yollarını öyrənirdik.

2020-ci il oktyabrın 27-də, ailəmi narahat etməmək üçün onlara bildirmədən N saylı hərbi hissədə, 2-ci çevik hərəkət taborunda,"qumbaraatan və tuşlayıcı operator" vəzifəsində döyüşlərə qatıldım.

Cəbrayı, Füzulin, Zəngilan, Qubadlı istiqamətində mənfur düşmənlə ölüm-dirim döyüşlərində iştirak etmişəm.

Biz döyüşə gedən zaman, bir an da olsa özümüzü düşünmürdük, çünki Vətən uğrunda döyüşə gedirdik.

Yaralılarımızın, şəhidlərimizin olması bizi göz yaşlarına bələsə də, lakin ruhdan salmırdı, biz öz ölümümüzü qəbul etmişdik, bilirdik ki, hər an ölə bilərik.

Düşmən cəsədləri qalaq- qalaq ayaqlarımızın altında yerə səpələnmişdi, 30 il əsarətdə qalan Qarabağ torpa-

ğının üstü düşmən cəsədlərilə örtülmüşdü, sanki Qarabağ torpağı çoxdan idi bu anı gözləyirdi.

2020-ci il oktyabrın 22-də, Zəngilan rayonunun qərbində yerləşən bir çox yüksəkliyi, o cümlədən Bartaz kəndini və ona yaxın məntəqələri düşmən əsarətindən qurtardıq.

**Haşiyə:** Bartaz kəndi 1993-cü il Ermənstan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdi. Bu kənd Zəngilan şəhərindən 34 km zənub-qərbdə yerləşir, Mehri silsiləsinin ətəyindədir. 1961- ci ilin inzibati bölgüsünə əsasən Bartaz kənd sovetliyinə Vejnəli, Qaraqulu, Əmirxanlı və Ağbənd dəmir yolu stansiyasına yaxın bəzi yaşayış məntəqələri də, daxil olmuşdu. Kəndin əsas hissəsində işğal dövrünə qədər azərbaycanlılar yaşayırdı. Haşiyə bitdi.



-Bartaz və ona yaxın kəndləri düşmən işğalından azad edəndən sonra, 30 oktyabr 2020- ci ildə, Vejnəli qı-

zıl yatağını da, düşməndən azad etdik.

Ermənstan dövləti 30- il Vejnəli qızıl yatağı da, daxil olmaqla Qarabağ və ətraf rayonların sərvətini talayıb aparmışdı.

Erməni işğalçılarını it kimi torpaqlarımızdan qovanda onların saysız- hesabsız döyüş sursatları, canlı qüvvəsi əlimizə keçirdi."-deyə Azərbaycan Silahlı Qüvvələrin cəsur hərbi qulliqçusu, gizir Cavidan Kamilzadə dərindən köks ötürdü və onu bir anlığa fikir apardı.

Qarabağ döyüşşüsü Cavidan danışdıqca mənim də, gözlərimdən Ermənstan Ordusunun və onların yaradıb dəstəklədikləri Qarabağın seperatçı ünsürlərinin xalqımızın başına gətirdikləri faciələr, məşəqqətli günlər kino lenti kimi gəlib keçirdi. Quqark, Qarakənd, Qaradağlı, Ağdaban, Xocalı, Ballıqaya, Malıbəyli və Quşçular faciələrini necə unutmaq olar ki?

Bu yaxınlarda Ağdamda, Xocalıda, Əsgəranda, Xocavəndə, Xankəndində, Şuşada dağıdılmış, xarabalığa çevrilmiş şəhərlərimizi, qəsəbə və kəndlərimizn ancaq uçurulmuş, yerlə-yeksan edilmiş, ətraflara səpələnmiş daşlarını gördüm, gözlərimdən yaş süzüldü. 1976-cı ildə, 1982-ci ildə gəzib gördüyüm, o bağ-bağatlı, güllü- çiçəkli, gözəlliyi göz oxşayan, o Qarabağdan əsər-əlamət qalmamışdı.

Ey şəhid ruhlar, qalxın ayağa,
Qanınız tökülən, o Qarabağa.
Baxın xan Şuşada üçrəng bayrağa,
Ağ bayraq qaldırdı o mənfur yağı,
Yeni tarix yazdı Vətən bayrağı.

Ali Baş Komandan, gözümüz aydın,
Qələbə günlərin özlədin, saydın.
Tarixə yazıldı "müzəffər" adın.
Köləlik zəncirin qırdı yurdumuz,
Yeni tarix yazdı, şanlı Ordumuz!

(Danışan illər-kitabı.04.11.021.S.A.)



10 noyabr 2020- ci ildə Ermənistan Dövləti Kapitulyasiya aktına imza atmağa məcbur oldu. Azərbaycan Respublikası 44 günlük "Dəmir Yumruq" əməliyyatnda düşməni diz çıkdürdü. Birinci Qarabağ müharibəsində erməni vəhşiləri Azərbaycan əsgərlərinin şəhid olmuş cəsədlərinin üstündən tanklarla keçmişdilər. Amma Azərbaycanın qəhrəman əsgərləri onların etdiyi vəhşiliyi heç vaxt etmədilər. Onlar kimi bizim əsgərlər körpələri, qadınları, əsrləri öldürmədilər, yandırmadılar, onlar kimi qadınların döşlərini kəsmədilər, körpələri diri- diri soymadılar. Ermənilər Qarabağdan öz xoşları ilə gedəndə, bizim əsgərlər onları sərhəddə yeməklə, su ilə təmin etdilər, axı biz insanıq.

İkinci Vətən müharibəsindən sonra Azərbaycan Ordusunun giziri Cavidan Kamilzadə daha 1 il, 6 ay N

saylı hərbi hissədə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

İgid döyüşçü, Gizir,Kamilzadə Cavidan Telman oğlu,

"Zəngilanın azad olunmasına görə"- medalı ilə,

"Vətən müharibəsi iştirakçısı"-medalı ilə,

"Antiterror əməliyyatında iştirak etdiyinə görə"-3-cü dərəcəli medalla təltif edilir.

"Müharibə veteranı"-vəsiqəsilə təmin edilmişdir.

Hal-hazırda Cavidan Kamilzadə № saylı hərbi hissənin sahil mühafizəsində "Gizir" rütbəsində, nəzarətçi vəzifəsində xidmət edir.

# KAZIMOV MUSA TAHİR OĞLU



Musa Kazımov 1 fevral 1997-ci ildə, Azərbaycan Respublikası Masallı rayonunun Allahyarlı kəndində anadan olmuş, 2014-cü ildə, Zakir Nəcəfov adına Ərkivan qəsəbə tam orta məktəbin 11-ci sinfini müvəffəqiyyətlə bitirmişdir.

2015-ci ildə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır.

Əvvəlcə Gəncə şəhərinin N saylı hərbi hissəsində, sonra isə, Gədəbəyin Ermənistanla sərhədyanı yüksək dağlıq ərazisində yerləşən N saylı hərbi hissəsində hərbi qulluğunu davam etdirir.

2016-cı il 2-5 aprel döyüşlərində, Musa Kazımov, düşmən təxribatının qarşısının alınmasında, erməni işğalında olan torpaqlarımızın işğaldan azad olunmasında cəsur bir əsgər kimi özünü göstərir.

1988-1994-cü illər Birinci Qarabağ müharibəsində, 20% torpaqlarımızı işğal edən Ermənistan Silahlı Qüvvələri yeni ərazilərimizi ələ keçirmək ümidilə, ölkəmizə qarşı tez-tez təxribatlar törədirdilər.

Belə bir təxribatlardan biri olan 2016-cı il aprel döyüşləri, Azərbaycan Silahlı Qüvvələrinin qələbəsilə başa çatdı. Uzun illər düşmən nəzarətində olan Talış

kəndi ətrafında olan yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində olan yollar, Silahlı Qüvvələrimizin nəzarətinə keçdi.

İşğalda olan torpaqlarımızın bir hissəsinin azad olunmasında göstərdiyi igidliyə görə Musa Kazımon № saylı hərbi hissə komandanlığının Fəxri Fərmanı ilə təltif edilir və 2016-cı il oktyabr ayında Ordu sıralarından tərxis olunaraq ehtiyata buraxılır.

27 sentyabr 2020- ci il saat 6:00- da, İkinci Vətən müharibəsi, “Dəmir Yumruq" əməliyyatı başlayır. Azərbaycan xalqı öz Dövlətinin ətrafında bir yumuruq kimi birləşirlər.

Belə bir gündə, xalqımızın minlərlə vətənpərvər övladları cəbhəyə getmək üçün ərizə verirlər, onların arasında Musa da, var idi.

29 sentyabr 2020- ci ildə, Musa Kazımov cəbhəyə yola düşür və Füzuli rayon istiqamətində yerləşən № saylı hərbi hissəyə göndərilir, o artıq təcrübəli bir əsgər idi, aprel döyüşlərində bərkdən- boşdan çıxmışdı.

Musanın qulluq etdiyi Hərbi hissənin tank bölmələri, ağır artilleriya və raket zərbələri endirməklə Füzuli istiqamətində düşmənin ön cəbhə xətdini darmadağın edirlər.

- Döyüşlərin birində bizim tabor çox çətin vəziyyətə düşmüşdü. Düşmən üç tərəfdən bizi sıxışdırıb mühasirəyə almaq istəyirdi. Bu zaman heç gözləmədiyimiz halda qardaş ölkənin hərbi qulluqçuları (ölkənin adını hərbi sirr olduğu üçün yazmadım) köməyimizə yetişdilər. Əgər onlar vaxtında yetişməsəydilər bizim vəziyyətimiz çox çətin olacaqdı”-deyə, igid Qarabağ döyüşçüsü öz ürək sözlərini danışmağa başladı.

Ey əziz Türkiyəm, ey qan qardaşım,
Bizə dayaq duran dostum, sirdaşım.
Ağır günlərimdə, ey Vətən daşım,
Mənfur "Gavur"-larla durduq üz-üzə,
Eşq olsun Türkiyəm, eşq olsun sizə!

Sönür erməninin evində çıraq,
Çəkilir ölkəmdən o, murdar ayaq.
Tezliklə Şuşada qalxacaq bayraq.
Gedirik qabağa hey əzə- əzə,
Ali Baş Komandan, eşq olsun sizə!
Ey şanlı əsgərim, eşq olsun sizə!

(Ürəyimin harayı-kitabı,15.09.20.S.A.)



İldırım sürətli hücum əməliyyatları ilə, düşmənin əlində olan kəndlərimiz, şəhərlərimiz cəsur əsgərlərimiz tərəfindən azad edilir, düşmənin silah- sursatı Silahlı Qüvvələrimizin əlinə keçirdi. Geriyə çəkilən Ermənistan Silahlı Qüvvələri və onların havadarlıq etdiyi erməni seperatçı qüvvələri artıq başa düşürdülər ki, bu müharibə 1988-1994-cü illərdəki, müharibə deyil, bu müharibədə vuruşan Azərbaycan Ordusu, o illərdə olan Azərbaycan Ordusu deyil. Onlar başa düşürdülər ki, "Dəmir Yumruq" əməliyyatı, onların uydurduqları "məğlubedilməz erməni" mifni tarixin zibilliyinə atacaqdır.

**-Yenə danışır Qarabağ döyüşçüsü Musa Kazımov:**

-“Hücum əməliyyatlarının birində düşmən artilleriyasının atdığı mərmi, düşmən üzərinə hücuma keçdiyimiz an yaxınlığımızda partladı. Gözümü bir də, xəstəxanada açdım. Başımdan qəlpə yarası almışdım. Məndən başqa 7 nəfər əsgərimiz də, mənimlə birlikdə yaralanmışdı, onlar da, xəstəxanada idilər. İki nəfər şəhid verdik, o partlayışda. Bir müddət xəstəxanada müalicə olundum, həkimlər məni yenidən cəbhəyə göndərmək istəmirdilər:-“ Evə yollamaq istəyirik səni, bir az dincələrsən, yaran tam sağalsın, sonra baxarıq vəziyyətə”-deyirdilər.

Mən isə əlil kimi evə qayıtmaq istəmirdim, cəbhəyə, döyüş dostlarımın yanına qayıtmaq istəyirdim. Çox xahiş edəndən sonra yenidən cəbhə bölgəsinə, öz döyüş dostlarımın yanına göndərildim”.

Kazımov Musa Tahir oğlu, Cəbrayıl və Qubadlı rayonunda N saylı hərbi hissənin tərkibində düşmənə qarşı ağır döyüşlərdə qəhrəmanlıqla döyüşür və dəfələrlə hərbi hissə komandanlığının təşəkkürünü qazanır.

-Qələbə xəbərini harda eşitdiniz?-deyə İkinci Vətən Müharibəsinin qəhrəman döyüşçüsünə sual verdim.

- Qubadlı rayonunu, 25 oktyabr 2020- ci ildə erməni işğalçılarından azad etmişdik, amma bəzi kəndlərində düşmən hələ də, müqavimət göstərirdi.

Meşəlik bir ərazidə, erməni vandalları ilə döyüşə girmişdik. Onları sıldırımlı qayaya sıxışdırıb mühasirəyə aldıq, 21 nəfər seperatçı rejimin döyüşçüsü silahlarını atıb təslim oldular, qalanları da, qaçıb qayalıqlarda gizləndilər.

Bu əməliyyatı hələ qurtarmışdıq ki, qələbə xəbərini eşitdik. Əvvəlcə elə bildik ki, komandirimiz zarafat



edir, sonra müharibənin bitdiyini təkrar deyəndən sonra sevindiyimizdən ağlamağa başladıq, bəlkə də, həyatımızda belə sevinməmişdik. Çox təəssüf ki, xeyli döyüş dostlarımız yanımızda yox idilər, şəhid olmuşdular. Bir gözümüz də, şəhid, itgin düşən əsgər dostlarımız üçün ağlayırdı".

Musa Kazımov, xidmət etdiyi N saylı hərbi hissənin tərkibində Şuşa şəhərinin qayalıqlarında, dağlarında, meşəliklərində gizlənmiş, tez-tez təxribatlar törədən erməni seperatçı qüvvələrinə qarşı Antiterror əməliyyatlarında fəal iştirak edir, düşmənin təksilah edilib əsir alınmasında igidlik nümunələri göstərir.

2021-ci il yanvarın 11-də, Musa Tahir oğlu Kazımov Ordu sıralarından tərxis olunur.

Azərbaycan Respublikasının Prezidenti, Müzəfər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

İgid döyüşçü, Musa Kazımov

"Cəbrayılın azad olunmasaına görə",

"Qubadlının azad olunmasına görə",

"Cəsur döyüşçü",

"Vətən müharibəsi iştirakçısı"-medalları ilə təltif olunmuşdur.

"Müharibə veteranı"-vəsiqəsilə təmin edilmişdir.

# LEYTENANT, MAHMUDOV HİDAYƏT RZA OĞLU



-Əslən Azərbaycan Respublikası Laçın rayonunun Ağcakənd kəndindənik.

Mahmud babam gözündən yaş süzə-süzə, ata- baba yurdumuz Laçın rayonnun necə işğal olunmasından çox danışardı bizə. 1992 ci il may ayının 18-də, rayonumuz erməni işğalçıları tərəfindən işğal olunur. Azərbaycanın vəziyyəti, o vaxtlar çox ağır idi. Müstəqilliyi yenicə bərpa olunmuş gənc Azərbaycan Respublikasını hər tərəfdən sıxır, onu "beşikdə" boğmağa çalışırdılar. Hakimiyyətdə pərakəndəlik, özbaşınalıq, ikitirəlik hökm sürürdü. Bu vəzyyyətdən istifadə edən erməni işğalçılarının əl-qolu daha da, açılaraq hər cür çirkin yollara əl atdılar. Biz, Laçın camaatı, öz ata- baba yurdumuzdan didərgin düşüb Azərbaycanın müxtəlif bölgələrinə səpələndik. 70 mindən çox Laçınlı, köçgün vəziyyətinə düşdü. 125 kənd və qəsəbə, 14745 yaşayış evi boş qaldı, erməni vandalları tərəfindən qarət edilib yandırıldı. Çox təəssüf ki, Mahmud babam Laçının azad

olunması gününü görmədi, ürəyində vətən həsrətilə bu dünyadan köçdü"-deyə, ailəsilə birlikdə Masallı rayonunun Abasbəyli kəndində məsgunlaşan Azərbaycan Silahlı Qüvvələrin leytenantı Mahmudov Hidayət Rza oğlu, babası Mahmud kişidən eşitdiklərini ürək ağrısı ilə danışırdı.

Mahmudov Hidayət Rza oğlu 26 may 1996-cı ildə, Azərbaycan Respublikası Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur.




***Leytenant Hidayət Mahmudov (sağdan 4-cü)***

2003-2007-ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində oxumuş, daha sonra təhsilini Masallı rayon " Dəfinə " məktəb- liseyində davam etdirmişdir. 2012-ci ildə, Masallı rayonunda keçirilən "Riyaziyyat fənni" Olimpiadasının qalibi olmuş və 2013- cü ildə, həmin liseyi əla qiymətlərlə bi-

tirmişdir. Hidayət 2013-cü ildə, Azərbaycan Dövlət İqtisad Universitetinin əmtəəşünaslıq fakültəsinə daxil olur. 2017- ci ildə, həmin Universiteti müvəffəqiyyətlə bitirir.

2017-ci il oktyabrın 23- də, Səfərbərlik və Hərbi Xidmətə Çağrış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır. DSX- nin Şəmkir şəhərində yerləşən N saylı hərbi hissəsində xidmət edir, sonra isə xidmətini Xızı rayonunda yerləşən DSX- nin N saylı hərbi hissəsində davam etdirir.

Xidmət illərində Hidayət Mahmudov, Hərbi hissə komandanlığının Fəxri Fərmanı və Təşəkkürnaməsi ilə təltif olunur. 2018-ci il oktyabrın 5-də, xidməti borcunu başa vuraraq Silahlı Qüvvələrin sıralarından ehtiyata buraxılır .

2018- 2019- cu illərdə, Masallı rayonunun "Alov" mühafizə xidmətində, sonra "Mühafizə Polisi"-ndə çalışır.

- Qarabağın və ətraf rayonların erməni işğalında olması, məni bir Laçınlı balası kimi çox üzürdü. Buna görə sənədlərimi hazırlayıb Azərbaycan Respublikası Müdafiə Nazirliyinin 2-ci Ordu Korpusuna təqdim etdim - deyə Hidayət Mahmudov öz döyüş xatirələrini danışmağa başladı.

- 2020-ci il iyun ayından Müdafiə Nazirliyinin 2-ci Ordu Korpusunda, N saylı hərbi hissədə, müddətdən artıq həqiqi hərbi xidmətə başladım.

27 sentyabr 2020-ci ildə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevin "DƏMİR YUMRUQ" əməliyyatının başlanması əmrini verdiyi andan, Vətən övladları kimi mən də, ilk gündən erməni vandallarına qarşı ölüm- dirim döyüşlərinə qatıldım. İlk olaraq döyüşlərə, Füzuli rayonunu istiqamə-

tində, düşmənin müdafiə xətdini darmadağın etməklə başladıq, düşmən işğalında olan Füzuli rayonunun bir çox kəndlərini işğaldan azad etdik. Daha sonra Qubadlının bir neçə yüksəkliklərini mənfur düşmənin əsarətindən qurtardıq. Həmçinin Şuşa şəhərindən 5 km aralıda yerləşən, Şuşanın Daşaltı kəndi, bilavasitə bizim hərbi hissəmizin hücumu ilə işğaldan azad edildi  və Şuşa ətrafı ərazilərin məkrli düşməndən azad olunması üçün ən çətin döyüşlərdə iştirak etdik".

**Haşiyə:** Daşaltı kəndinin ərazisi 3526,36 hektara yaxındır. Bir yaşayış məsgəni kimi əsası 18-ci əsrin əvvəllərində qoyulub. Azərbaycan xalqının qədim yaşayış məsgənlərindən biri olmuşdur. Şuşa şəhərindən cənubda, Cıdır düzündən aşağıda, Daşaltı çayının sahilində, nəhəng qayalığın aitında yerləşir.

Car Rusiyası önəmində burda erməni əhalisinin sayı sürətlə artmağa başlayır. Ruslar başqa ərazilərdə olduğu kimi bu kəndə də, yeni- yeni erməni ailələrini köçürməyə başlayrlar və əhalinin etnik tərkibi ermənilərin xeyrinə dəyişməyə başlayır. 1905 və 1918 -ci illərdə Daşaltı kəndi erməni -müsəlman döyüşlərinin getdiyi kəndlərdən biri olur. Daşaltı kəndində yaşayan azərbaycanlılar zaman- zaman sıxışdırılıb kətdən qovulurlar.

Azərbaycan Cümhuriyyəti dövründə, Hərbi Nazir Xosrov bəy Sultanov bir neçə kənddə olduğu kimi Daşaltıda da, erməni ünsürləri ilə baş edə bilmir, onlar Azərbaycan dövlətinə tabe olmaqdan imtina edirlər. 1920- ci ilin may ayında burda Sovet Hakimiyyəti bərqərar olur və 1931 -ci ildə, kolxoz qurluşu yaradılır.

1988- ci ilin fevralında başlanan Miatsum hərəkatnın (hərəkatın əsas məqsədi Dağlıq Qarabağı Ermənistana



*Leytenant Hidayət Mahmudov (Arxada, sağdan 4-cü)*

birləşdirmək idi) əsas dayaq nöqtələrindən bir də, Daşaltı kəndi idi. Mütəmadi olaraq Daşaltı erməniləri bu təşkilata maddi və mənəvi köməklik göstərirdilər. Daşaltı kəndi 1991- ci ildə, erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdi. Birinci Qarabağ müharibəsində, bu kənd uğrunda gedən döyüşlərdə, Silahlı Qüvvələrimiz 140 nəfər şəhid vermişdi. Birinci Qarabağ müharibəsində Daşaltı əməliyyatı ağır faciələrimizdən biri olmuşdu.

Haşiyə bitdi.

-Zəhmət olmasa, Daşaltı əməliyyatı haqqında danışın, Leytenant!

- Xaricdə yaşayan Erməni Diasporunun bilavasitə köməyilə, Daşaltıda ermənilər üçün hər cür şərait yaradılmışdı. Ermənilər yaxşı bilrdilər ki, Daşaltının əldə saxlanılması Şuşanın əldə saxlanılması deməkdir. Onlar

bu kəndə təbii qaz xətti, 3 kilometr uzunluğunda yeni su kəməri çəkmişdilər. 2018- ci ildə " Haystan" fondunun Fransa bölməsinin maliyə dəstəyilə Daşaltı kəndində günəş enerjisi ilə işləyən su qızdırıcıları quraşdırılmışdı.

Daşaltıda 2020-ci il, oktyabrın 24-də, bizim hərbi əməliyyat başladı. Ermənstan Silahlı Qüvvələri və Qarabağn erməni seperatçı ünsürləri, Daşaltı istiqamətinə xeyli canlı qüvvə və hərbi sursat, müxtəlif müasir silahlar cəmləşdirmişdilər və kəndin ətrafinda bütün yollar tutulmuş, canlı çəpər çəkilmişdi.

Əvvəlcə bizim hava qüvvələrimiz tərəfindən ərazi bombalandı.

Oktyabrın 30-da, 15:00 radələrində bizim xüsusi təyinatlılar, Daşaltının "1553.3" yüksəkliyinə doğru istiqamət aldılar. Bu istiqamətdə düşmənlə intensiv atışma başlandı. Bu yüksəklik daşla örtülü qayalıqlardan ibarət idi. Ermənilər dayanmadan bizi artilleriya atəşinə tuturdular.

Bu zaman hərbi hissəmizin bir neçə bölməsi Daşaltıya gedən yola bir neçə hücum təşkil etdilər. Həmin gün xüsusi təyinatlılarımız zirvəni ələ keçirtmişdilər.

Daxili İşlər Nazirliyinin Daxili qoşunların xüsusi təyinatlıları, 052 xüsusi təyinatlılar, eləcədə Naxşıvandan olan xüsusi təyinatlılar və bizim N saylı hərbi hissənin dəstəyilə kəndin ətrafında azad edilmiş zirvələri əlimizdə qoruyub saxladıq. Ermənilərin xüsusi təyinatlıları bir neçə dəfə zirvəni geri almaq üçün cəhd göstərsələr də, hücumları nəticəsiz qaldı.

"1553,3" zirvəsini geri ala bilməyəcəyini görən erməni ünsürləri öz qüvvələrini Daşaltı- Sığnax istiqamətinə yönəltdilər.

Azərbaycan bölmələri paralel olaraq Daşaltı istiqamətində olan Nəbilər kəndi istiqamətindən hücuma başladı. Burda bizim məqsədimiz, Keçəldağ- Şuşa yolundan keçib İsa bulağının ətrafında olan əraziləri tutmaq idi. Eyni zamanda bizim başqa bir bölməmiz hərəkət edib Daşaltıya yaxınlaşdılar. Ermənilər bizim yerləşdiyimiz əraziləri artilleriya atəşinə tutmaq üçün ön hissədə olan əsgərlərini geriyə çəkdilər və onlar bizim olduğumuz ərazini "TOS-1A" artilleriya sistemindən atəşə tutmağa başladılar. Bizim, hərbi hava qüvvələrinə məxsus PUA, həmin ağır erməni artilleriya sisteminin yerini müəyyən edən zaman, ermənilər tez öz ağır artilleriya sistemini ərazidən kənara çəkdilər. Mənim qulluq etdiyim N saylı Quru qoşunların rəhbəri Polkovnik Vilayət Quliyev idi. Bizim hərbi hissəmiz xüsusi təyinatlılarla paralel olaraq Daşaltıya hücumu həyata keçirirdi.

Erməniləri Şuşa qayalıqlarına tərəf sıxışdırmağa başladıq. Kəndin ətrafında amansız döyüşlər gedirdi. Onlar güclü müqavimət göstərir, kəndi əldən vermək istəmirdilər. Bir neçə saat şiddətli döyüşlərdən sonra ermənilər müqavimət göstərməyin mənasız olduğunu başa düşüb geri çəkilməyə məcbur oldular. Noyabrın 4-də, axşam saat 21: 00-da, Daşaltı qəsəbəsindən son erməni əsgəri ərazini tərk etdi.

Biz artıq kəndin içərisində idik. Kənddə ilk Azərbaycan bayrağını ucaltdıq.

-Xan Şuşanı düşmən əsarətindən necə xilas etdiniz?

-" Şuşa dağlıq ərazidə, dağlar qoynunda yerləşdiyi üçün strateji baxımdan böyük əhəmiyyətə malik bir şəhərdir. Qarabağın ürəyi sayılan Şuşa şəhərinin alınması ermənilərin bel stununun sınması demək idi.

Daşaltı və bəzi yüksəkliklər, həmçinin Topxana

meşəsi azad edildikdən sonra, Şuşa yolu artıq erməni vandallarından təmizlənmişdi. 05 noyabr 2020- ci ildə, hərbi hissəmiz xüsusi təyinatlılarla birlikdə, paralel vəziyyətdə Şuşa əməliyyatına başladı. Şuşa ətrafındakı əməliyyatları, çox cəsur polkovnik Tehran Mənsimovun rəhbəri olduğu Naxçıvan xüsusi təyinatlıları icra edirdi.

Şuşa kimi mürəkkəb relyefə malik bir şəhəri düşmən işğalından xilas etmək üçün böyük hərbi bacarıq, hərbi hazırlıq və taktiki döyüş üsulları tələb olunurdu.

(Şuşa şəhəri 1992- ci il may ayının 8-də, erməni quldurları tərəfindən işğal edilmişdi).

Düşmən nəyin bahasına olursa- olsun Şuşanı öz nəzarətində saxlamağa çalışırdı. Dəniz səviyyəsindən 1500 metr yüksəklikdə yerləşən Şuşa şəhəri, üç tərəfdən nəhəng sıldırımlı qayalıqlarla əhatə olunmuşdu. Buna görə Şuşanın azad edilməsi çox çətin idi. Şəhərin ağır artilleria ilə və ya havadan bombardıman edilməsi mədəniyyət ocağı olan Şuşa şəhərində dağıntılara səbəb ola bilərdi. Buna görə də, şəhərin azad olunmasında, əlbəyaxa döyüş taktikasına üstünlük verilmişdi.

Şuşaya hücum, Azərbaycanın Xüsusi Təyinatlı Qüvvələrin komandiri, general Hikmət Mirzəyevin taktiki planı əsasında həyata keçirilirdi. Azərbaycanın xüsusi təyinatlı qüvvələri ( 400 nəfər ), yüngül silahlarla silahlanaraq, sıldırımlı qayaları, meşələri keçərək, 5 gün Şuşa istiqamətinə hərəkət edərək, addım- addım irəliləyirdi. Əsgərlərimizin şəhərə hücumu zamanı, şəhərdə 3000 erməni əsgəri var idi. Noyabr ayının 6-da, hərəsi 100 nəfərlik, dörd qrupdan ibarət Xüsusi Təyinatlılarımız, Şuşanın sıldırımlı qayalıqlarına çatdılar. Onlar dəmir qırmaqlarla, iplərlə sildırımlı qayalardan pələng kimi dırmaşaraq, keçilməz sədləri aşıb yüngül silah-sursatla,

dörd tərəfdən şəhərə daxil olub ermənilərlə küçə döyüşlərinə atıldılar.

Sayca üstün olan ermənilər, Azərbaycan cəngavərlərinin cəsarəti qarşısında duruş gətirə bilməyib qaçmağa üz tutdular.

Xüsusi Təyinatlılarımız şəhərə girib şəhəri ələ keçirəndən sonra, bizim hərbi hissəmiz Daşaltı istiqamətindən şəhərə daxil oldu. Məqsəd ermənilərin Xankəndi istiqamətindən gələn hücumlarının qarşısını almaq idi.

Düşmən toparlanıb yenidən Şuşanı geri almaq üçün T-72 tanklarla və BMP-2 döyüş maşınları ilə hücuma keçdilər, şiddətli döyüşlər başladı. Belə bir vaxtda bizim hərbi hissəmiz də, Naxçıvan xüsusi təyinatlıları ilə birlikdə mənfur düşmənə qarşı ölüm- dirim savaşına girmişdi. Düşmənin Xankəndi istiqamətindən şəhərə hücuma keçən saysız- hesabsız döyüşçülərinin qarşısını qətiyyətlə alırdıq. Mənfur düşmən bəlkə, 5 dəfə şəhəri geri almaq üçün hücuma keçdi. Şuşa şəhərinin daxilində və ətrafında qan su yerinə axırdı. Bu döyüşlər zamanı Şuşa qalasının bizə çox böyük əhəmiyyəti oldu. Şuşa qalası, bizi düşmən tanklarının, ağır artilleriyanın yağış kimi yağan atəşindən qoruyurdu. Şuşa uğrunda döyüşən hər bir əsgər ölümün gözünə dik baxır, heç nədən qorxmurdu. Biz özümüz haqqında, ölüm haqqında düşünmürdük. Bizim qəhrəman komandirimiz Tehran Mənsimov "dəmir adam" ləqəbini almışdı, əyninə heç bir qoruyucu geymirdi və döyüşü çox sərbəst, müdrikcəsinə, soyuqqanlı başla idarə edirdi. Şuşa şəhərində 1000-nəfərdən çox düşmən meydi tökülüb qalmışdı."

Azərbaycan Silahlı Qüvvələri 7 noyabr 2020- ci ildə, Şuşa şəhərini mənfur düşməndən azad edirlər və Şuşada Azərbaycn bayrağı dalğalanır. Şuşada dalğalanan

bayrağımızı görəndə sevindiyimizdən göz yaşı axıdırdıq. Biz Şuşada Azərbaycan bayrağını ucaltmaqla Birinci Qarabağ müharibəsində həlak olan, itgin düşən 20-mindən çox şəhidlərimizin, "Dəmir Yumruq" əməliyyatında şəhid olan üç mindən çox şəhidlərimizin ruhlarını şad etdik, bir milyon qaçqın və köçgün soydaşlarımızın ürəyindən tikan çıxartdıq. Bu qələbə nəin-



*Leytenant, Hidayət Mahmudov (sağdan birinci)*

ki Azərbaycan tarixinə, eyni zamanda Dünya tarixinə qızıl hərflərlə yazıldı. Bu qələbə Azərbaycan xalqının və Dünya azərbaycanlılarının əyilmiş başını dim- dik qaldırdı, üzünü güldürdü, 200-illik alın ləkəsini sildi. Bu qələbə "məğlubedilməz erməni ordusu"-nun mif-ini alt- üst etdi, "Cəhənnəmə göndərdi".

2020- ci il noyabrın 8-də, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyev, Azərbaycan xalqını bu münasibətlə təbrik etdi. 8 noyabr günü Azərbaycan tarixində silinməz iz buraxdı.

Siz ey şanlı Ordum, eşq olsun sizə,
Gəzdin Qarabağı, gəzdin diz- dizə.
Ölümlə qaldınız hər an üz- üzə,
Sarsılmaz qayatək keşikdə durdun,
Haqqın məhkəməsin Bakıda qurdun.

**S.A.**

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

İgid döyüşçümüz, leytenant, Mahmudov Hidayət Rza oğlu,

"Füzulinin azad olunmasına görə",

"Şuşa şəhərinin azad olunmasına görə",

"Qubadlının azad olunmasına görə",

"Vətən müharibəsi iştirakçısı",

"Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilmiş və Müdafiə Nazirliyinin " Müharibə veteranı" vəsiqəsilə təmin edilmişdir.

# MİKAYILOV RAHİM RAUF OĞLU



Rahim Rauf oğlu Mikayılov 1999- cu il dekabrin 3-də, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

2006- 2017- ci illərdə Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

2018-ci ilin yanvar ayında Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və Goranboy rayonunun Goran bölgəsinin N saylı hərbi hissəsinə göndərilir, artilleriya diviziyasında sürücü vəzifəsində işləməyə başlayır.

2019-cu ildə, Rahim Mikayılov Ordu sıralarından tərxis olunur.

Vətənimizin başı üzərini qara buludlar aldığı bir vaxtda Azərbaycan xalqının vətənpərvər övladları könüllü olaraq Ordu sıralarına yazılırdılar. Rahim Mikayılov da, tərəddüd etmədən Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsinə müraciət edir.

27 sentyabr 2020- ci il, İkinci Vətən müharibəsinin başlanması günü Ordu sıralarına göndərilir.

- 2020- ci il oktyabrın 1-də, bizi Füzuli rayonunun Horadiz qəsəbəsinə yaxın, Araz çayı istiqamətində qə-

rar tutan N saylı hərbi hissəyə gətirdilər - deyə "Dəmir Yumruq" əməliyyatının veteran döyüşçüsü, öz döyüş xatirələrini danışmağa başladı.

- "Bizim hərbi hissə, sıldırımlı qayalarla əhatə olunmuş bir ərazidə qərar tutdu. Bizi bura gətirəndə maşının işıqları söndürülmüşdü, göz- gözü görmürdü. Lysan yağış yağır, ayaqlarmızın altından su şırıltıyla axırdı, üst- başımız tamam suyun içində idi, havadan sanki şaxta süzülürdü. Lap yaxınlığımızda canavar, çaqqal ulaşması adamı vahiməyə salırdı.

Artilleriya atəşlərinin ardı- arası kəsilmək bilmirdi, çox dəhşətli anlar yaşasaq da, 30 il həsrətində olduğumuz torpaqlara qovuşmaq arzusu bizi hər cür çətinliyə qalib gəlməyə sövq edirdi.

Səhər açıla- açılmaz tabor komandiri qarşıdakı düşmən səngərlərini ələ keçirməyi əmr etdi. Artıq bizim hərbi hissə Cəbrayıl rayonunun ərazisində qərar tutmuşdu. Biz 356 nəfər idik. Polkovnik-leytenant İqbal Bayramov çox təcrübəli, cəsarətli, hərbi savadı olan bir komandir idi. Cəbrayıl rayon ərazisində olan düşmən postu möhkəmləndirilmiş, hündür, qayalıq bir yerdə yerləşirdi. Onların gözləmədiyi istiqamətdən sıldırımlı qayalıqları aşıb düşmənə ölümcül zərbə endirdik. Ermənilər, o istiqamətdən təhlükə gözləmirdi. Şiddətli atışmada düşmənin xeyli canlı qüvvəsi məhv edildi.

Onlar öz ölülərini ataraq qaçmağa məcbur oldular.

Komandanlıq tərəfindən bizə verilən tapşırıq tam yerinə yetirildi, lakin bu döyüşdə, bizi öz atdınca hücuma aparan cəsur tabor komandiri, polkovnk- leytenant İqbal Bayramov döyüşün axırında düşmən snayperindən atılan güllə yarasından şəhid oldu.

O gün, oktyabr ayının 5-i idi. Ölümündən sonra tabor

komandiri polkovnik- leytenant İqbal Bayramov Əhmədağa oğlu, ölkə başçısının sərəncamı ilə,

"İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif olundu".



***Əsgər, Rahim Mikayılov (arxada sağdan ikinci)***

- O döyüşdə neçə nəfər şəhidimiz oldu?

- "O döyüşdə 5 nəfər əsgərimiz şəhid oldu, 7 nəfər yaralandı. Təcili olaraq şəhidlərimizi, yaralılarımızı döyüş yerindən çıxardıb arxaya göndərdik.

Yeni komandirimiz Xəyal Məmmədov oldu. Azğın düşmənlə döyüşlərin birində Xəyal Məmmədov da, şəhid oldu. Komandirlərimiz heç vaxt döyüşə gedəndə əsgərlərin arxasında olmurdular, onlar əsgərlərin önündə, ilk döyüşə atılanlar idilər. Sonra komandirimiz olan Vüqar Ağayev " Vətən Müharibəsi Qəhrəmanı " adına layiq görüldü, şəhid olandan sonra 2-ci Fəxri Xiyabanda dəfn olundu".

Ey şəhid qardaşım, sən zəfər çaldın,
İşğal torpağımı geriyə aldın.
Düşmən boğazına ilməni saldın,
Xalqın inanc yeri, pirisən, Şəhid,
Sən də,bir mələksən, dirisən, Şəhid.

**S.A.**

-Yenə danışır Vətən müharibəsinin cəsur əsgəri Rahim Mikayılov: - Gecəni qayalıqlar arasında keçirirdik, hava çox soyuq olurdu, şaxta qılınc kimi kəsirdi. Biz əsgərlər, soyuqdan donmamaq üçün bir- birimizə qısılaraq səhəri “dirigözlü” açırdıq. Hər tərəf qarla örtülmüşdü, sanki yerə ağ xalçalar döşənmişdi.

2020- ci il noyabrın 7- də, saat təxminən 17:00- olardı, atəş səsləri bir az azalmışdı, tez fürsətdən istifadə edib evə zəng etdim, atamla danışdım, bir dəqiqə keçmədi ki, yenidən mərmi yağışı başladı, tez telefonu söndürdüm ki, ailəmiz mərmi səsini eşitməsin. Bu vaxt biz Qubadlı rayonunda idik. Qubadlı şəhərini 25 oktyabr 2020- ci ildə mənfur düşməndən azad etsək də, ətraf ərazilərində hələ də, azğın düşmən müqavimət göstərir, əsgərlərimiz üçün  təhlükə mənbəyi olurdular. Düşmən bizim olduğumuz yeri müəyyən edəndən sonra üstümüzə aramsız atəş açmağa başladı. Üstümüzə yağış kimi yağan mərmilərdən biri, məndən 20-25 metr aralı yerə düşdü. Bu zaman ayağım altında yer titrədi, müvazinətimi saxlaya bilməyib yerə yıxıldım. Gözlərimi azca açdım, hər tərəf alova bürünmüşdü, üz-gözüm yanırdı, əlimi üzümə çəkəndə, əlimi qan içində gördüm. Papağımı çıxardıb axan qanı kəsmək istədim, ətrafa baxanda yerdə 2 nəfər şəhid, 8 nəfər yerdə uzanıb zarıldayan yaralı gördüm. Biz dərhal komandirin istiqamət verdiyi tərəfə, dağın ətəyinə tərəf, sıldırımlı qayanın top, mərmi tutmayan hissəsinə çəkilib mövqe tutduq.

Bizim kəşfiyyatçılar, üstümüzə atəş yağdıran düşmənin yerini müəyyən edib hərbi hissə komandanlığına xəbər verəndən sonra, düşmənin atəş nöqtəsi vurulub sıradan çıxarıldı.

Taqim komandiri hava qaralan vaxtı bir neçə əsgərə



*Əsgər, Rahim Mikayılov (sağdan birinci)*

əmr etdi ki, şəhidləri, yaralıları çayın, o biri üzünə, sakit bir yerə keçirtsinlər. O ərazini yaxşı tanıdığım üçün yola bələdçiki etdim. Orda tibb maşınları, bizi gözləyirdilər. Onlar mən də, daxil olmaqla yaralı və şəhidlərimizi Ağcabədi xəstəxanasına gətirdilər.

**-Qələbə xəbərini harda eşitdiniz? -** deyə igid döyüşçüyə sual verdim.

-“ Ağcabədi şəhərinin mərkəzi xəstəxanasında müalicə olunurdum. Başımda hələ top, mərmi səslərinin uğultusu eşidilsə də, yatmışdım, axı çoxdan idi ki, şirin yuxuya, yorğan- döşəyə həsrət idim, təkcə mən yox, bütün döyüş bölgəsində olan əsgərlər də, mənim kimi. Yuxuda gördüm ki, şəhid olan əsgər dostlarım ən uca zirvədən, əllərində Azərbaycan bayrağı mənə baxıb gülümsəyirlər. O bayrağ səmanın əngəlliklərində, şəhid əllərində dalğalanırdı. Bu zaman qışqırıq səsləri məni

yuxudan oyatdı. Bütün xəstəxana həyəcan içində qışqırırdı. Qorxu içində gözlərimi açdım, əvvəlcə heç nə başa düşmədim, ayağa durub pəncərənin önünə gəldim. O səslərin içində "Biz qalib gəldik"-sözlərini eşitdim. Yenə heç nə anlamadım, birdən özümə gəldim, bədənim gizildədi, bədənimə güc- qüvvət gəldi, elə bil dünyanı mənə verdilər. Pəncərəni açdım, qışqırmaq istədim, səsim çıxmadı, yavaş səslə,- biz qalib gəldik, ey insanlar -deyə pıçıdadım, gözlərimdən leysan yağışı yağmağa başladı, bu daha atəş yağışı deyildi, sevinc göz yaşları idi, bu göz yaşları həm də, yuxuda gördüyüm şəhid qardaşlarım üçün axan göz yaşları idi, bu göz yaşları qələbə damcıları idi.

Bəli, bu misralar şair- publisist Sübhan Abasbəylini də, göz yaşlarına qərq etmişdi. Onun da gözlərindən, bir tərəfdən sevinc yaşları, bir tərəfdən də, Birinci və İkinci Vətən müharibəsində 20 mindən çox şəhidlərimiz, itkin düşənlərimiz üçün, Quqark, Qarakənd, Qaradağlı, Xocalı, Ağdaban, Ballıqaya, Malıbəyli- Quşçular faciələri üçün göz yaşları axırdı.

İkinci Vətən Müharibəsi, "Dəmir Yumuruq" əməliyyatından sonra cəsur əsgər Rauf Mikayılov Ordu sıralarından tərxis olunur.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

İgid döyüşçü, Mikayılov Rahim Rauf oğlu,

"Cəbrayılın azad olunmasına görə",

"Qubadlının azad olunmasına görə"

"Cəsur döyüşçü",

"Vətən müharibəsi iştirakçısı" –medalları ilə təltif olunmuşdur.

# MUSTAFAYEV İMRAN XANSUVAR OĞLU



- Düşmənin atdığı top mərmisi məndən bir neçə metr aralı düşdü, yer- göy lərzəyə gəldi, sanki dəhşətli bir zəlzələ baş vermişdi, yerə yıxılsam da, huşumu tamam itirməmişdim. Qorxa-qorxa gözlərimi qıyıb azca açdım, ətrafa baxdım, göydən yerə toz- torpaq yağırdı, çığırtı, inilti səsləri ətrafı bürümüşdü. Heç bir ağrı hiss etmirdim, ayağa durmaq istədim, dura bilmədim, yerə yıxıldım, düşündüm ki, bəlkə yuxu görürəm, bəlkə şəhid olmuşam, ailəmiz bir- bir xəyalımdan keçdi, haqqınızı halal edin,-deyə pıçıldadım, gözlərimdən damcı- damcı yaş süzüldü və öz-özünə yumuldu"-deyə " Dəmir Yumuruq" əməliyyatının cəsur döyüşçüsü İmran Mustafayev öz döyüş xatirələrini mənimlə bölüşməyə başladı...

Mustafayev İmran Xansuvar oğlu 27 iyun 1998- ci ildə, Azərbaycan Respublikası, Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur. 2004- 2015- ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

27 sentyabr 2020- ci ildə, İkinci Vətən Müharibəsinin ilk günündə, vətənin başı üstünü təhlükə aldığı bir vaxtda, xalqımızın qəhrəman övladları kimi İmran Mustafayev də, könüllü olaraq Ordu sıralarına yollanır.

Azərbaycan Silahlı Qüvvələrinin № saylı hərbi hissəsində təlim keçib müxtəlif silahlardan istifadə etmək bacarığına yiyələndikdən sonra cəbhə bölgəsinə, N saylı hərbi hissəyə göndərilir.

İmran Cəbrayıl istiqamətində mənfur düşmənlə ölüm- dirim savaşlarına qatılır.

Qarabağın başqa rayonları kimi Cəbrayıl rayonu da, Ermənstan Silahlı Qüvvələri və Qarabağın erməni seperatçı ünsürləri tərəfindən ( 23.08.093.) işğal edilmiş, əhalisi köçgün vəziyyətinə düşmüşdü. İşğal olunan bütün rayonlar kimi, Cəbrayıl rayonu da, ermənilər tərəfindən narkotik plantasiyalarına çevrilmişdi.



Düşmən 30 il müddətində Cəbrayılda da, möhkəm müdafiə istehkamları qurmuşdu. Cəsur əsgər İmran Mustafayev N saylı hərbi hissənin tərkibində Cəbrayıl rayonunun Şükürbəyli, Yuxarı Maralyan, Mahmudlu, Süleymanlı və Füzuli şəhəri də, daxil olmaqla Qaradağlı, Xatınbulaq, Qarakollu kəndlərinin mənfur düşməndən azad olunmasında igidlik nümunələri nümayiş etdirərək hərbi hissə komandanlığının rəğbətini, təşəkkürünü qazanır.

2020-ci il oktyabrın 4-də Cəbrayıl, oktyabrın 17-də Füzuli, oktyabrın 20-də, Zəngilan rayonu Ermənstanın Silahlı Qüvvələrindən azad edilmiş, düşmənin hər iki ayağı kəsilmişdi. Qubadlı şəhəri uğrunda şiddətli döyüşlər gedirdi. İmran Mustafayev N saylı hərbi hissənin

tərkibində öz əsgər dostları ilə birlikdə, Qubadlı şəhərinin işğaldan azad olunmasında misilsiz qəhrəmanlıqlar göstərir. Cəsur döyüşçü şəhərin alınması günü, 25 oktyabr 2020- ci ildə, düşmənin atdığı top mərmisi ilə başından ağır yaralanır. ..

- Gözlərimi bir də, xəstəxanada açdım - deyə, cəsur döyüşçü İmran Mustafayev söhbətini davam etdirir.




Demək, hələ şəhid olmaq qismətimdə yox imiş. Hərbi bölüyümüzün əsgərləri sonra mənə danışdılar ki, məni huşsuz vəziyyətdə döyüş meydanından çıxardıb başqa yaralılarla birlikdə arxaya, xəstəxanaya göndərirlər. Əvvəlcə Silahlı Qüvvələrimizin Baş Klinik Hospitalında (Bakı), sonra isə Salyan şəhər mərkəzi xəstəxanasında müalicə almağa başladım".

Həkimlər İmranı xəstəxanadan evə göndərmək istəyirlər: - Bir ay evdə, ailənin yanında qal, yaran tam sağalsın, sonra gələrsən, bir də yoxlayıb göndərərik cəbhəyə" - deyirlər. İgid döyüşçü cəbhəni, əsgər dostlarının yanını üstün tutur. Öz xahişilə yenidən cəbhə bölgəsinə yola salınır.

İmran Mustafayev cəbhəyə qayıtdıqdan sonra Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Mollalı, Qaracallı, Yusifbəyli kəndlərinin mənfur düşməndən azad olunmasında öz döyüş dostları ilə birlikdə, bir cəngavər kimi vuruşaraq düşmənə qan uddururlar. Ermənilər öz meyidlərini, silah-sursatlarını ataraq qaçmağa üstünlük verirdilər.

10 noyabr 2020- ci il tarixdə, mənfir düşmən Kapitulyasiya aktını imzalamağa məcbur olur.

İkinci Vətən Müharibəsi, "Dəmir Yumuruq" əməliyyatı Azərbaycan Silahlı Qüvvələrinin  qələbəsilə başa çatır. Dağlıq Qarabağın və ətraf rayonların 30- illik işğalına son qoyulur, Azərbaycan xalqının 30 il gözlədiyi gün, sevinc göz yaşları ilə qayıdır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan , cənab İlham Əliyev, Azərbaycan bayrağını  Qarabağda və Qarabağın ətraf rayonlarında zirvələrə ucaldır.

Müzəffər Ordumuz keçdi hücuma,
Şəhidlik şərbətin inamla içdi.
Dağlardan-dağlara hey cuma- cuma,
Səngərdə düşmənin kökünü biçdi.

Ali Baş Komandan, eşq olsun, sizə,
Xalqın qürurunu ucaltın dağa.
Mənfur düşmənləri endirdin dizə,
Əyilmiş belimiz qalxdı ayağa.

**S.A.**

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

Azərbaycan Silahlı Qüvvələrin İgid əsgəri, İmran Xansuvar oğlu Mustafayev

"Cəbrayılın azad olunmasına görə",

"Qubadlının azad olunmasına görə",

"Cəsur döyüşçü",

"Vətən müharibəsi iştirakçısı"-medalları ilə təltif edilir.

"Müharibə veteranı"- vəsiəqəsilə təmin olunmuşdur.

# MUSTAFAYEV SİMRAN MAHİR OĞLU



Mustafayev Simran Mahir oğlu, 1 oktyabr 2001-ci ildə, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

2007-ci ildə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbin 1-ci sinfinə getmiş və həmin məktəbin 9-cu sinfini müvəffəqiyyətlə bitirmişdir.

Simran Mustafayev 2019-cu il oktyabrın 1-də, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və Gəncə şəhərinin N saylı hərbi hərbi hissəsinə göndərilir. Burda peşəkar hərbiçilərimizin komandanlığı ilə döyüş bacarığına yiyələnməklə müxtəlif silah və hərbi texnikanın sirlərini öyrənir.

Hərbi xidmətə gəldiyi gündən Simran Mustafayev nümunəvi bir əsgər kimi hərbi hissə komandanlığının diqqətini cəlb edir. İlk gündən başlayaraq özünü vətənpərvər, qorxmaz, bacarıqlı, səmimi bir əsgər kimi göstərir. Gəncə şəhərində hərbi təlimlərdə olarkən, səngərdə durub vətənə xidmət etməyi, vətənin keşiyini çəkməyi öyrənir. 3 ay hərbi hazırlıqdan sonra o, rabitəçi hazırlığı olan bir əsgər kimi Daşkəsənin N saylı hərbi hissəsinə göndərilir.

Məlum olduğu kimi cəbhə bölgəsində hərbi hissəni rabitəsiz təsəvvür etmək mümkün deyil. Simran da, ra-

bitəçi peşəsinin sirlərinə yiyələnərək bir telefonist kimi həmişə xidmət etdiyi hərbi hissəsinə uğur qazandırır.

-İkinci Vətən Müharibəsinin olacağını bilirdinizmi?- deyə N saylı hərbi hissənin veteran əsgəri Simran Mustafayevə sual verdim.

-"Biz İkinci Vətən Müharibəsinin olacağı haqda heç bir məlumata malik deyildik, lakin hərbi hissəmizdə çox güclü təlimlər gedirdi. Tez- tez həyacan sıqnalları verilir, sayıqlığımızı artırır, müasir silahlardan, texnikadan istifadə etmək bacarığı aşılayır, vətənpərvərlik tədbirləri keçirirdilər.

Günlərin birində general- leytenant Polad Həşimov hərbi hissəmizə gəlmişdi. O, bizimlə də, görüşdü, söhbət etdi. - Dağlıq, sıldırımlı yerlərdə özünüzlə çox yük aparmayın - deyə bizə məsləhət verdi. Çox səmimi, gözəl insan idi. Bu görüşümüz generalla son görüşümüz oldu. Biz sonra, müharibənin gedişində sıldırımlı qayalıqlara dırmaşanda başa düşdük ki, general niyə, o sözləri, bizə deyirmiş.



27 sentyabr 2020-ci ildə, saat 6:00-da, İkinci Vətən Müharibəsi- "Dəmir Yumruq" əməliyyatı başladı.

Bizim hərbi hissəmiz müharibənin ilk günündə Kəlbəcər istiqamətində, Murovdağ silsiləsi uğrunda gedən döyüşlərdə düşmənə sarsıdıcı zərbə endirməyə başladı. Payız fəsli olsa da, hava çox soyuq idi, hər tərəf ağ yorğana bürünmüşdü, şaxta

qılınc kimi kəsirdi. Buna baxmayaraq havanın soyuqluğu bizi qorxutmur daha da, mənfur düşmənə qarşı döyüşlərə səsləyirdi, çünki, uğrunda döyüşdüyümüz torpaq, Vətəndir ”.

-Kəlbəcərər rayonu əsasən dağlıq ərazidən, sıldırımlı qayalıqlardan ibarətdir, üstəlik hər tərəf qar, şaxta. Belə bir şəraitdə erməni vandalları ilə necə vuruşurdunuz?.

- Hərbi hissəmizin qəhrəman döyüşçüləri, dağlıq ərazidə, hər tərəf dağ- dərə, sıldırımlı qayalıqlarla əhatə olunmuş bir ərazidə, düşmənin 3 postunu ələ keçirtdi. Artilleriya atəşlərilə düşmən səngərləri bir-birini ardınca göyə sovrulurdu. Lakin “hay”-ların da, minaatanları susmur, bizim yerləşdiyimiz ərazini aramsız atəşə tuturdular. Top atəşlərindən qarla örtülmüş torpağın səthində xeyli qara çuxurlar açılmışdı. Cəsur komandirimiz Əlsahib Ələkbərov öz oğlunun doğum günündə şəhid oldu. Komandirlərimiz həmişə ön sırada döyüşlərə atılırdılar, komandirlərimizin və biz əsgərlərin gözündə ölüm qorxusu yox idi.

Bəzən biz hərbi taktika işlədərək geriyə çəkilir, sonra sağ və sol cinahdan hücuma keçərək düşmənə ölümcül zərbə endirirdik. Düşmən öz ölülərini, yaralılarını atıb döyüş meydanından qaçırdılar. Əlbətdə bizim də, şəhidlərimiz, yaralılarımız çox olurdu. Ancaq bu bizim döyüş ruhumuzu qıra bilmirdi. Düşməndən fərqli olaraq biz 30 il işğal altında olan, göz yaşı axıdan totpağımız uğrunda döyüşürdük.

Qarla örtülmüş torpağın səthi qıp-qırmızı qara rəngə çalan düşmən qanı ilə rənglənmişdi, hər tərəf düşmən meyidlərilə dolu idi.

Azərbaycan Silahlı Qüvvələrin Qarabağda döyüşən bütün hərbi hissələri bir-birilə əlaqəli şəkildə erməni

vandallarına qarşı amansız döyüşlərə girmişdi. Mən də, bir rabitəçi-əsgər kimi komandanlığın bütün tapşırıqlarını tam və dəqiq yerinə yetirirdim".

-Cəbhə bölgəsində hansı yadda qalan hadisə ilə üzləşmisiniz?

- Cəbhə bölgəsinin hər günü mənim üçün əzizdir və hər bir günü mənim, daha doğrusu biz əsgərlərin heç vaxt yadından çıxmaz, amma bir döyüşümüzü daha çox xatırlayıram.

Bir gün tabor komandiri bizim manqanı yığıb belə bir hadisə danışdı: - Bizdən xeyli aralı, dağlı-dərəli, meşəlik bir ərazidə başqa N saylı hərbi hissənin taqim bölüyü ( 26 nəfər ) düşmənə sarsıdıcı zərbə endirərək xeyli döyüşçülərini məhv etmiş və düşməni geri çəkilməyə məcbur etmişdir. Lakin düşmən əlavə qüvvə alaraq yenidən hücuma keçərək bizim əsgərləri çətin vəziyyətə salırlar. Onların hərbi sursatları, ərzaqı, suyu qurtarmaq üzrədir. Mühasirəyə düşmək qorxusu ilə üzləşən əsgərlərimizə köməyə getmək lazımdır. Mən və əsgər dostlarım Qəlbinur Budaqov, Araz Məmmədov, İlkin Hüseynov tabor komandirindən, köməyə bizi göndərməyini xahiş etdik. - "Gedin, amma ehtiyatlı olun, yollarda mina ola bilər, yol çox uzaqdır" - dedi.

Biz lazım olan hərbi sursatı, ərzaq, 3 balon suyu atlara (3 at) yükləyib komandir və əsgər yoldaşlarımızla halallaşıb ayrıldıq. Suyun donmaması üçün balonları yun parçalara bükmüşdük. Yüklü atlarla dağdan aşağı, taqim bölüyünün çətin vəziyyətə düşdüyü istiqamətə tərəf getməyə başladıq. Hər tərəf qarla örtülmüşdü, qar topaları atların və bizim ayaqlarımız altında xışıldayır, qaratoyuq quşları tez- tez "fırr" eləyib uçurdular, sübh çağı idi, səhər hələ açılmamışdı.



Atlar bir- birindən 5- 6 metr məsafədə hərəkət edirdi. Mən qabaqda, Qəlbinur atların sağında, İlkin sol tərəfində, Araz isə arxadan gəlirdi. Əllərimiz avtomat silahın tətiyində idi. Hava təzəcə işıqlanırdı. Sərt dağ yamacı ilə ağır-ağır hərəkət edir, bir birimizlə əl hərəkətilə danışırdıq. Aramsız yağan qar yolları daha da, çətinləşdirirdi, üst-başımız qarla örtülmüşdü. Əllərimiz keyiməmək üçün barmaqlarımızı tez-tez açıb yumurduq. Artıq sıldırımlı qayalar arxada qalmışdı. Bəzən atların ayağları çuxura düşür, büdrəyir, lakin yenə də qalxırdılar. Səhər açılmışdı, bir- birimizin üzünü, ətrafı görə bilirdik.

Birdən atlardan biri büdrəyib yıxıldı və güclü partlayış baş verdi. Atlarımızdan biri düşmənin basdırdığı minaya düşmüşdü. Partlayış səsindən sonra çox keçmədi ki, bizə tərəf atəş yağışı yağmağa başladı. Salamat qalan 2 atı isə güllə tutmayan yerə çəkdik və düşmənlə ölüm- dirim savaşına girdik. Biz təxmin etdik ki, bizə atəş açanlar, düşmənin 5-6 nəfərdən ibarət kəşfiyyat- divversiya qrupunun əsgələridir. Düşməni tələyə salmaq üçün Qəlbinur və Ayaz düşmənə cavab atəşi açan zaman mən və İlkin meşənin sıx yerindən düşmənin sağ cinahına keçdik və yaxın məsafədən düşməni atəş yağışına tutduq. Erməni quldurları iki tərəfdən atəş altında qalaraq 3 nəfər ölmüş əsgərlərinin meydini döyüş mey-

danında ataraq uzaqlaşdılar. Ölmüş düşmənin silahlarını alıb yolumuza davam etdik.

Təxminən bir saat sonra mühasirəyə düşmək təhlükəsilə üz- üzə qalan № saylı hərbi hissənin taqim bölüyünün köməyinə yetişdik. Onlar bizi görən kimi çox sevindilər, üz- gözləri gülməyə başladı. Komandirləri bizi bir- bir qucaqlayıb üzümüzdən öpdü. Hərbi sursatı, ərzağı, iki balon ( hərəsi 5 l ) suyu atların belində açıb əsgər qardaşlarımıza verdik."

- Simran, orda mühasirə təhlükəsindən necə xilas oldunuz?

- Mən bir rabitəçi kimi öz hərbi hissəmiz ilə əlaqə saxladım və düşmənin olduğu ərazinin kordinatlarını komandanlığımıza ötürdüm. Təxminən 25- 30 dəqiqədən sonra hərbi hissəmizin komandanlığı bizimlə əlaqə saxladı və bildirdilər ki, narahat olmayın, durduğunuz ərazidən sıldırımlı qayaya sarı çəkilin və ehtiyatlı olun. Biz başa düşdük ki, düşmən mvqeyi bir azdan mina yağışına tutulacaq.

Bizim döyüşçülər döyüşə-döyüşə qayaya sarı geri çəkilməyə başladı. Təxminən 1 saat sonra düşmən mövqeylərinə göydən od yağmağa başladı. Göy üzü toz- torpaqla örtülmüşdü, artilleriya atəşindən az qala qulaq tutulurdu. Artilleriya atəşindən sonra düşmən səngərlərinin üstünə şir kimi atıldıq. Düşmənə göz açmağa belə imkan vermədik. Onların müdafiə mövqeyləri tamamilə yerə yeksan olunmuşdu. Səngərlərin içi erməni meyidləri, yaralıları ilə dolu idi. Düşmənin 7 əsgərini əsir aldıq, tör-töküntüləri isə qaçıb dağlara səpələndilər.

**-Qələbə xəbərini harda eşitdiniz?-** deyə son sualımı,

Azərbaycan Silahlı Qüvvələrin qəhrəman veteran əsgəri, Simran Mustafayev Mahir oğluna ünvanladım.



- Kəlbəcər dağlarında mənfur düşmənlə döyüşlərin getdiyi bir vaxt, 2020- ci il noyabr ayının 8-də, Qarabağın şah damarı olan Şuşa şəhərinin düşməndən azad olunması bizim üçün toy-bayrama çevrildi. Bilirdik ki, Şuşanın azad olunmasından sonra düşmən çox davam gətirə bilməz.

2020-ci il noyabrın 10-da, hərbi hissə komandanlığı bütün hərbi hissəyə elan etdi ki, daha atəş açmayın, müharibə bitmişdir. Hamımız qışqırıb papaqlarımızı göyə atmağa başladıq, sevincimizin həddi-hüdudu yox idi, ömrümdə bu qədər sevinməmişdim. Bir gözümüz ağlayır, biri gülürdü, axı neçə-neçə əsgər dostlarımız şəhid olmuşdular, neçə-neçə dostlarımız yaralanıb yataq xəstəsi olmuşdular. Ona görə də, ürəkdən gülə bilmirdik. Müzəffər Ordumuza eşq olsun ki, mənfur düşmən üzərində qələbə çaldıq, işğal torpaqlarımız azad olundu".

Mustafayev Simran Mahir oğlu 2021- ci il iyul ayında Ordu sıralarından tərxis olunaraq ehtiyata buraxılır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin Sərəncamı ilə,

İgid döyüşçü, Mustafayev Simran Mahir oğlu,
“Kəlbəcərin azad olunmasına görə”,
“Cəsur döyüşçü” medalları ilə təltif olunmuş,
“Müharibə veteranı”-vəsiqəsi ilə təmin edilmişdir.

Yeni tarix yazdı müzəffər Ordum,
Çıxdı əsarətdən sızlayan yurdum.
Başımı dik tutdum, qürurla durdum,
Makron üz- gözünü yoldu, ay Dədə,
Düşmənin niyyəti soldu, ay Dədə.

Sübhan Abasbəyli, yalvar Allaha,
Xalqımız düşməsin dara birdaha,
Hicranlı illərim çox gəldi baha,
“Hay”lara etibar yoxdur, ay Dədə,
Etdiyi zülmlər çoxdur, ay Dədə.

**S.A.**

# NAĞIYEV DAŞQIN DAĞISTAN OĞLU



- İkinci Vətən Müharibəsinin başlanması haqqında heç bir məlumatımız yox idi, müharibə olacağını biz əsgərlər bilmirdik, lakin, hərbi hissəmizin komandirləri əvvəlki kimi sakit deyildilər, bizdən yüksək sayıqlıq, nizam- intizam tələb edirdilər. Vaxtışarı hərbi təlimlər keçirilir, müxtəlif silahlarla düzgün davranmağı tələb edirdilər - deyə N saylı hərbi hissənin veteran əsgəri Daşqın Nağıyev "Dəmir Yumruq" əməliyyatnda öz döyüş xatirələrindən danışmağa başladı.

-" Mən 22 fevral 2002- ci ildə, Rusiyanın Saratov şəhərində anadan olmuşam. 2008 ci ildə, Ərzuman İsmayılov adına Azərbaycan Respublikası, Masallı rayonununun Yeyənkənd kənd tam orta məktəbin 1-ci sinifində oxumuşam. Həmin məktəbin 3-cü sinifini bitirdikdən sonra ailəliklə Bakı şəhərinə köçərək orta təhsilimi Eldar Məmmədov adına 21 saylı tam orta məktəbdə almışam.

2020- ci ilin aprel ayında, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Bakı şəhər şöbəsi tərəfindən həqiqı hərbi xidmətə çağırıldım. Əvvəlcə Gəncə şəhərinin N saylı hərbi hissəsində "Tank əleyhinə qumbaraatan (DMN-73mm)" ixtisasına yiyələn-

dikdən sonra Murovdağ ətrafına, № saylı hərbi hissəyə göndərildim.

**Haşiyə:-**Murovdağ silsiləsi Kiçik Qafqazın şimal-şərq hissəsində yerləşir və Azərbaycan respublikasının ərazisində, 10 km enində, 70 km uzunluğunda bir ərazini əhatə edən dağ silsiləsidir (silsılə-sıra ilə bir-biinin yanında zəncirvari). "Murov"- sözünün mənası- qədim zamanlarda qayda- qanuna nəzarət edən məmurlara deyilirdi. Ən yüksək zirvəsi Gamışidağ zirvəsidir, hündürlüyü 3724 m-dir. Silsilənin şimal- şərqində müxtəlif göllər yerləşir. Onlardan biri də, Göygöl gölüdür. Murovdağ silsiləsi Hünaldağ zirvəsindən Gamış dağına qədər şimala uzanır. Kəlbəcər, Gədəbəy, Daşkəsən, Goranboy, Göygöl, Ağdərə ərazilərindən keçir.

Birinci Qarabağ müharibəsində, Azərbaycan Respublikasının daxilində baş verən pərakəndəlikdən istifadə edən erməni vandalları Murovdağın ən yüksək zirvələrini, Gamışdağı, Ömərdağı, Koroğludağı, Ağdağı işğal edə bilmişdilər. Kiçik zirvələr isə Azərbaycan Ordusunun nəzarətində idi.

Ermənilər bu hündür zirvələrdən ətraf ərazilərə nəzarət edə bilirdilər. Murovdağda olan cəbhə xətdi 50 km-dən çox idi. Bu strateji əhəmiyyəti olan uzun məsafə qayalıq və dağlıq hissələrdən ibarətdir. Belə bir ərazidə heç bir nəqliyyat vasitəsi hərəkət edə bilmir. Nəqliyyatın hərəkət etməsi üçün yeganə keçid "Ömər aşırımı" idi ki, bu aşırım da, ermənilərin əlində idi. Kəlbəcərdə ermənilərin çox güclü hərbi bazası yerləşdirilmişdi.

Birinci Qarabağ müharibəsində, 14 fevral 1994-cü ildə, Murovdağda erməni işğalçıları ilə döyüşlərdə Azərbaycanın 1501 əsgər və zabiti şəhid olur. Bu şəhidlərin içərisində bir neçə yüz nəfəri həmin şaxtalı ge-

cədə soyuqdan donaraq həlak olmuşdu. Qışın ən qandonduran vaxtı, hərbi hissəmizin mühasirəyə düşməsi, mühasirəni yarıb geri çəkildiyi zaman uçurumlardan yıxılması, qar uçqunlarının altında qalması və donaraq şəhid olması bizim 1-ci Qarabağ müharibəsində ən dəhşətli faciəmiz idi. Haşiyə bitdi.

-Murovdağın bəzi zirvələri bizim əlimizdə olsa da, ən hündür zirvələr ermənilərin əlində idi. O dağlara maşınla qalxmaq qeyri mümkün idi, ona görə hərbi sursatı əlimizdə, kürəyimizdə daşıyırdıq. Hava çox soyuq idi, ona görə özümüzlə bəzən odun da, aparmalı olurduq".

-Siz İkinci Vətən Müharibəsinin, "Dəmir Yumruq" əməliyyatının başlanmasını harda eşitdiniz?

- 2020- ci il sentyabrin 27-si, səhər saat 6:00-da, çox güclü atəş səsləri eşitdik, yer- göy lərzəyə gəldi. Bu zaman 1-ci tabor istiqamətindən döyüşə dayaq məntəqəsi olan Koroğlu "post"-undan gəmi siqnalına oxşar uzun siqnal verildi. Əvvəl elə bildik ki, qısa bir atışma olub dayanar, amma başa düşdük ki, bu atışma əvvəlki atışmalardan deyil, bi atışma Vətən Müharibəsinin başlanması demək idi.

Silahlı Qüvvələrimizə məxsus iriçaplı silahlar, minaatanlar, müxtəlif çaplı artilleriya qurğuları, döyüş təyyarələri yeri- göyü lərzəyə gətirmişdi. Mənfur düşmən məzarının qazılmasının vaxtı, artıq gəlmişdi. Birinci Qarabağ döyüşlərinin 20 minə qədər şəhid və itgin düşənlərin, əsir gedənlərin ruhları, bunu bizdən tələb edirdi. Qisas vaxtı yetişmişdi. Erməni vandallarının 30 il Qarabağda və ətraf rayonlarda kökünün kəsilməsinin vaxtı yetişmişdi. Düşmənin 30 il ərzində törətdikləri təxribatlara, faciələrə cavab verməyin vaxtı gəlib çatmışdı.

Dərhal hərə öz yerini tutdu. Birinci və ikinci tabor is-

tiqamətində ixtisaslar üzrə bölündük. Düşmən mövqeyini dağıtmaq üçün SRQ-9 MN 73 MM-lik dəzgahlı qumbaraatanları hazırladıq (tank əleyhinə dəzgahlı qumbaraatan). Kəlbəcərdə, Murovdağ relyefi çox çətin idi, ermənilər 30 il idi ki, burda möhkəmlənmişdilər.

Gərgin döyüşlərdə ermənilərin bəzi döyüş məntəqələrini ələ keçirə bildik, lakin onlar çalışırdılar ki, itirdikləri məntəqələri yenidən geri alsınlar, itirdikləri ərazilərin kordinatlarını yaxşı bildikləri üçün dayanmadan həmin ərazilərə  atəş açırdılar. Bütün cəhdlərinə baxmayaraq işğaldan azad etdiyimiz yüksəklikləri əlimizdə saxlaya bildik, lakin Murovdağ əməliyyatında ən yüksək zirvələr yenə düşmən əlində idi. Bu döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini və hərbi texnikasını məhv etdb sıradan çıxartdıq. Bizim də, şəhidlərimiz çox idi.

Murovdağda düşmənlə ölüm- dirm savaşı apardığımız vaxt, 2020-ci il noyabrın 8-də, eşitdik ki, Şuşa şəhərimiz düşmən əsarətindən azad olunub, inanın ki, göz yaşlarımızı saxlaya bilmədik, əsgərlərin, zabitlərin gözündən leysan yağışı yağırdı. Sonra qələbə xəbəri gəldi, sevinc- sevincə qarışmışdı, lakin nə qədər sevinsək də, ürəkdən gülə bilmirdik, bir gözümüz sevinc yaşları axıdırdı, digəri isə, kədər- qəm damcıları süzürdü, bu qəm yaşları, şəhid olan əsgər və zabitlərimiz üçün axan göz yaşları idi.

30 il dünya susdu, ermənilərin Azərbaycan torpağında törətdikləri soyqrımlara, bir milyon qaçqın və köçgünlərin əzablarına, göz yaşlarına, Azərbaycan xalqının ah- naləsinə. Şükr ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Müzəffər Ordumuz öz "Dəmir Yumuruq" əməliyyatı ilə ermənilərə, ömrlərində görmədiyi tarixi bir dərs verərək ürəklərinə dağ çəkdi.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

Azərbaycan Silahlı Qüvvələrin cəsur əsgəri Nağıyev Daşqın Dağıstan oğlu,

“Kəlbəcərin azad olunmasına görə”,

“Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif edilir.

Müharibə veteranı vəsiqəsilə təmin edilmişdir.

Didərgin salındıq, Vətən ağladı,
Xocalım od tutdu, sinə dağladı.
Qçqın insanların yolun bağladı,
Dünya görüb susdu “hay”-a, ay Dədə.
Hay vermədi bizim haya, ay Dədə.

Bir milyon qaçqınım soyulan zaman,
Bir- bir rayonlarım tutulan zaman,
Gözlərin kor edib oyulan zaman,
Görən harda idi dünya, ay Dədə?
Çağırdıq gəlmədi haya, ay Dədə.

Erməni dığalar ölkəmdən getdi,
Onlar İrəvana xətərsiz yetdi.
Xalqımız sərhəddə köməyə yetdi,
Evinə çatanda söydü, ay Dədə,
Uzaqdan bizləri “döydü”, ay Dədə.

**S.A.**

# NADİROV NADİR TAHİR OĞLU



- Hələ müharibə başlamamış biz hərbi təlimlərdə olanda, 3-cü Ordu Korpusunun Qərərgah rəisi general- mayor Polad Həşimov tez-tez biz əsgərlərlə görüşə gələrdi. Çox səmimi, mehriban bir insan idi. Bizimlə birlikdə yemək yeyər, zarafat edərdi. Özünü general kimi yox, bir əsgər kimi aparırdı. Növbəti dəfə bizimlə görüşə gələndə gördü ki, bir əsgərin üzü tüklüdür, gülümsəyərək: "Gəl əyləş, üzünü qırxım" - dedi. Əsgərlər hamısı gülüşdülər. Generalın bu sözündən sonra bir daha, heç birimiz üzü tüklü olmadıq. Ordu sıralarından çoxdan tərxis olunsam da, üzüm bəzən tüklü olanda, generalın sözünü xatırlayıb tez gedib üzümü qırxıram.

**Haşiyə:-** Polad Həşimov 1975-ci ilin yanvar ayının 2-də, Qəbələ rayonunun Vəndam qəsəbəsində anadan olmuşdur. Sonra ailəsilə Sumqayıt şəhərinə köçürlər, orta təhsilini Sumqayıt şəhərində alır. Polad Həşimov Heydər Əliyev adına Ali Hərbi İnstituta qəbul olunur və ali məktəb ocağını müvəffəqiyyətlə bitirir.

General- mayor Polad Həşimov 2020- ci il iyulun 14-də, Tovuz İstiqamətində, Ermənistan Silahlı Qüvvələrilə baş verən şiddətli döyüşlər zamanı qəhrəmancasına şəhid olur. Qəhrəman şəhidimiz iyulun 15-də, İkinci Fəxri Xiyabanda dəfn olunur. 2020- ci il dekabrın 9-da, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə, general-mayor Polad Həşimov, Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülür. Haşiyə bitdi.

Nadir Nadirov, 2001-ci il sentyabrın 2-də, Azərbaycan Respublikası, Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. 2006-2017-ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

Nadir 2019-cu il oktyabrın 3-də, Səfərbərlik və Həqiqi Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağrılır.



*Əsgər, Nadirov Nadir (soldan birinci)*

Əvvəlcə Gəncə şəhərinin N saylı hərbi hissəsində, hərbi təlimlərdə iştirak etdikdən sonra Daşkəsənd və Şəmkir rayonunlarında, N saylı hərbi hissələrin hərbi təlimlərində özünü çox intizamlı, cəsur bir əsgər kimi gostərir.

-“ Bizim dəstə N saylı hərbi hissənin tərkibində 26

nəfər (taqim) minaaxtaran heyyətdən ibarət idi- deyə veteran- əsgər öz xatirələrini yenə danışmağa başladı.

- Bizə tapşırılan vəzifə, hərbi hissəmizin döyüşə girməsindən əvvəl, minalanmış ərazidən keçid açmaq, Silahlı Qüvvələrimiz üçün hücum vaxtı əlverişli, xətərsiz sahə yaratmaq idi.

27 sentyabr 2020- ci ildə, çoxdan gözlədiyimiz Vətən Müharibəsi başladı. Ermənstan Silahlı Qüvvələrin ərazimizdə törətdikləri yeni- yeni təxribatlar, yenə də, torpağımızı işğal etmək cəhdləri, 30 il işğalda olan Qarabağ, müharibənin başlanmasını tələb edirdi.

"Dəmir Yumruq" əməliyyatının ilk günündən başlayaraq, bizim № saylı hərbi hissəmiz, Daşkəsən tərəfdən Kəlbəcər istiqamətinə sarı, düşmən işğalında olan torpaqlarımızın düşmən caynağından xilas olunması üçün hücuma başladı.

Biz, minatəmizləyənlər, əsgərlərimizin hücuma keçməsi üçün "keçid"-lər hazırlayıb hərbi hissə komandanlığına məlumat verirdik. Məlum olduğu kimi Kəlbəcər Azərbaycanın ən böyük dağlıq rayonlarından biridir. Məlumat üçün bildirim ki, Kəlbəcər, Dağlıq Qarabağa aid deyil, Qarabağın ətraf rayonlarından biridir. Ərazisi zəngin təbii sərvətlər məmbəyidir və Ermənstanla həmsərhəddir. 1993-cü il aprelin 3-də, Ermənstan Silahlı Qüvvələri tərəfindən işğal edilmişdir.

10 noyabr 2020-ci il üçtərəfli ( Azərbaycan, Ermənstan, Rusiya) bəyanata uyğun olaraq 25 noyabr 2020-ci ildə, Ermənstan Silahlı Qüvvələri Kəlbəcər şəhərini tərk etdilər.

-Sizin hərbi hissə Kəlbəcərə hansı tarixdə daxil oldu?

- Bizim hərbi hissəmiz 25 noyabr 2020-ci ildə, Kəlbəcər şəhərinə hücumsuz daxil oldu. Azərbaycan bayrağı



yenidən şəhərin ən hündür yerində dalğalanmağa başladı. Ermənilər işğal etdikləri başqa ərazilərimizdə olduğu kimi Kəlbəcərdə də, strateji əhəmiyyətli bütün yerləri minalamışdılar. Biz bir neçə gün ərzində əsas yerlərdən minaları təmizləyib zərərsizləşdirdik.

Sonra hərbi hissəmiz, Laçın rayonu istiqamətinə hərəkət əmri aldı. Laçın istiqamətində, uzunluğu 250 metrlik yeraltı keçid var idi. Ermənilər bu tunelin giriş hissəsini dağıtmış və minalamışdılar. Tunelin dağıdılmış və minalanmış hissəsinin təmizlənib keçid açılmasına bir neçə saat vaxt sərf etdik. Bu keçid döyüşçülərimizin hücuma keçməsi üçün çox vacib idi. Minalanmış ərazinin minalardan təmizlənməsi çox məsuliyyətli və son dərəcə qorxulu bir işdir. Ani ehtiyatsızlıq nəinki özünün, yanındakı əsgər yoldaşlarının da, həyatına son qoya bilər.

Azərbaycan Silahlı Qüvvələrin cəsur döyüşçüsü Nadirov Nadir Tahir oğlu 2021-ci il iyulun 1-də, Ordu sıralarından tərxis olunb Azərbaycan Silahlı Qüvvələrin ehtiyatına buraxılır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

İgid döyüşçü ,Nadirov Nadir Tahir oğlu,

“ Kəlbəcərin azad olunmasına görə”,

“ Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif edilir.

Nadirov Nadir- № saylı Hərbi Hissə Komandanlığının Fəxri Fərmanı ilə və ailəsinə göndərilən “ Təşəkkürnamə” ilə mukafatlandırılmışdır.

Vətən Müharibəsi veteranı vəsiqəsi ilə təmin edilmişdir.

Ey Vətən övladı, sən ey vətəndaş,
Otuz il ağlayır hər cığır, hər daş.
Başlandı “hay”-larla amansız savaş,
Əsir torpaqlarım qovuşur bizə,
Ali Baş Komandan, eşq olsun sizə!

Bir- bir qoparılır, birləşir Vətən,
Dığalar əzilir, düşübdür pərən.
Xalqımız sevinir, gülür ürəkdən,
Şəhid ruhları da, çıxıbdır düzə,
Ey şanlı əsgərim, eşq olsun sizə.

Düşmənin üzülür, üzülür bağrı,
Tutub havadarın qarnını ağrı.
İşğal torpaqlarım alınıb yarı,
Gəlməsin əsgərim nəzərə, gözə.
Ey Vətən övladı, eşq olsun sizə!

15.09.2020. - "Ürəyimin harayı" - S.A.

# BAŞ ÇAVUŞ NƏCƏFOV
# FƏRİD FAİQ OĞLU




**-Sizin hərbi hissənin zabit və əsgərləri, "Dəmir Yumruq" əməliyyatı və ya İkinci Vətən Müharibəsinin tezliklə başlanması haqqnda hər hansı bir məlumata malik idilərmi?-** deyə,Vətən Müharibəsinin igid döyüşçüsü, baş çavuş Fərid Nəcəfova sual verdim.

- Biz müharibənin başlanmasının dəqiq vaxtını bilməsək də, hərbi hissə komandanlığının əsgərlərlə vətənpərvərlik ruhunda apardığı söhbətlər, müasir silahlarlarla necə davranmaq qaydaları haqqında keçirilən təlimlər, tez- tez həyacan siqnalları, Qarabağın və ətraf ərazilərin erməni vandalları tərəfindən 30 illik işğalı haqqında aparılan söhbətlər, sərhədimizdə vaxtışarı törədilən erməni təxribatları, deməyə əsas verirdi ki, müharibə qaçılmazdır.

2020- ci il sentyabrın 26-da, bizim N saylı hərbi hissəmiz müharibəyə tam hazır vəziyyətdə idi.

Fərid Nəcəfov 1987-ci il iyulun 2-də, Azərbaycan Respublikası, Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur. 1994- 2005-ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində oxumuş və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

6 iyul 2005-ci ildə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi vidmətə çağırılır və Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun N saylı hərbi hissəsinə göndərilir. Faiq Nəcəfov bir müddət sonra həmin hərbi hissədə manqa komandiri vəzifəsində işləməyə başlayır. 2007- ci ildə, Azərbaycan Respublikasının Silahlı Qüvvələrindən tərxis olunaraq ehtiyata buraxılır.

**-Fərid, necə oldu ki, hərbiçi oldunuz?**

Hərbiçi olmaq, Azərbaycan Silahlı Qüvvələrində xidmət etmək mənim çoxdanki arzum idi. Nəhayət 2015-ci ildə, Azərbaycan Ordusunda müddətdən artıq hərbi xidmət keçmək üçün Azərbaycan Müdafiə Nazirliyinin Təlim və Tədris mərkəzində fəaliyyət göstərən qəbul komissiyasına ərizə ilə müraciət etdim. Sağlamlıq vəziyyətim yoxlanıldıqdan sonra,  Ordu sıralarına, hərbi qulluğa qəbul edildim və Talışkənd istiqamətində olan N saylı hərbi hissəyə göndərildim.

N saylı hərbi hissə əfsanəvi qəhrəman, şəhid General- mayor Polad Həşimovun adını daşıyan N saylı məntəqədə yerləşirdi.

27 sentyabr 2020- ci il, saat 6:00- da, düşmən təxribatlarına, əsarətdə inləyən torpaqlarımızın " haray"-səsinə cavab olaraq,  Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyev əks- hücum əmrini verdi.

Azərbaycan Ordusu bu əmrin intizarında idi".

**-Sizin hərbi hissənizin qarşısında duran ən başlıca vəzifə nədən ibarət idi?**

-" Bizim N saylı Hərbi hissəmizin qarşısında duran ən başlıca vəzifə, Talışkənd və Suqovuşan məntəqələrindən sonra, Goranboyun Gülüstan kəndi və Murov-

dağ istiqamətində döyüş tapşırıqlarını yerinə yetirmək idi.

**Haşiyə:-** İgid döyüşçü, baş çavuş Fərid Nəcəfovun "Gülüstan"-kəndinin adını çəkməsi, yenə məni bir tarixçi kimi uzaq keçmişə, 1804-1813-cü illərdə, Gülüstan sülhü ilə nəticələnən Rusiya- İran, 1826-1828-ci illərdə, Türkmənçay sülhü ilə nəticələnən İran- Rusiya, 1828-1829-cu illərdə, Ədrinə sülhü ilə nəticələnən Rusyaya-Osmanlı (Türkiyə) İmperiyası arasında olan işğalşılıq müharibələrinə apardı. Bu haqda kitabın əvvəlində məlumat versəm də, yenə təkrar yazmağı özümə borc bildim. Məhz, bu müharibələrdən sonra İrandan və Osmanlı İmperiyasından hissə-hissə bir milyondan çox erməni bizim əzəli torpaqlaımız olan Zəngəzura, İrəvana, Qarabağa, Naxçıvana və.s köçürüldülər. Rusiya bu əməliyyatla özlərinə cənubi Qafqazda casus şəbəkəsi yaratmağı planlaşdırırdı.

Yerli hakimlərdən "Çar"-a yazhayaz,
Satqınlıq "yan"-lara verir imtiyaz.
"Gülüstan"-dan ötən, on yeddi il, ay,
Sürüldü yurduma yüz minlərlə "hay".
Doldu erməniylə Göyçə, İrəvan,
Kədər tariximi yazdı " Gülüstan".

(Kədər tariximiz oldu Gülüstan- poemasından S.A.).

Haşiyə bitdi.

-Bizim Hərbi hissəmiz 3 oktyabr 2020- ci ildə, Talış və Madagiz kəndlərini düşmən işğalından azad etdi. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevin qərarı ilə, Madagiz kəndinin adı



***Baş Çavuş, Fərid Nəcəfov (soladan birinci)***

dəyişdirilərək "Suqovuşan" adlandırıldı. Həmçinin "Suqovuşanın azad olunmasına görə" medalı təsis edildi. Talış və Suqovuşan kəndləri 5 dekabr 2020-ci ildə, Ağdərə rayonunun tərkibinə qatıldı.

Hamımız çox sevinirdik. Talış və Suqovuşan kəndləri hərbi strateji əhəmiyyətli məntəqələr idi. Bu əməliyyatda düşmənin 4 tankını məhv etdik, 3 tankını isə qənimət olaraq götürdük. Azad etdiyimiz məntəqələrdə Azərbaycan bayrağını ucaltdıq. Talış kəndi istiqamətində strateji əhəmiyyəti olan yüksəkliklər artıq bizim, hərbi hissəmizin nəzarətində idi"-deyə baş çavuş Fərid Nəcəfov iftixarla əsgər və zabitlərimizin qəhrəmanlığından danışırdı.

**-Gülüstan kəndini işğaldan necə azad etdiniz?**

-"Bizim hərbi hissəyə, Gülüstan kəndini Ermənstan Silahlı Qüvvələrindən, 30 illik işğaldan azad etmək əmri verildi.

Əvvəla, Birinci Qarabağ müharibəsində ( 1988- 1994) erməni vandalları Gülüstan kəndini ələ keçirtsələr də, Azərbaycan Ordusu hücuma keçib kəndi geriyə ala bilmişdi. Çox təəssüf ki, Ermənstan silahlı qüvvələri və erməni seperatçı ünsürləri əlavə qüvvə toplayaraq yenidən Gülüstan kəndinə hücum etmiş, 22 nəfər kənd

sakinlərini vəhşicəsinə öldürmüş, xeyli kənd sakinlərini yaralamış, şikəst etmiş və xeyli kənd sakinlərini əsir götürmüşdülər. Salamat qalan kənd sakinləri öz ata-baba yurdlarından didərgin düşmüşdü. Erməni silahlı qüvvələri Murovdağ silsiləsinin ən uca nöqtələrini ələ keçirtdikləri üçün, Murovdağ yamacında yerləşən Gülüstan kəndinə tam nəzarət edə bilirdilər. Ona görə bizin hərbi hissəmiz Gülüstan kəndini tam işğaldan azad etmək üçün Murovdağ silsiləsini ələ keçirməli idi.



Çox ağır döyüşlər gedirdi. Bu əməliyyat çox vacib həm də, çox çətin bir əməliyyat idi. Ermənilər 30 il nəinki burda, işğal etdikləri Qarabağın hər yerində şox güclü müdafiə istehkamları qurmuşdular.

Ordumuzun ağır artilleriya və minaatanları, pilotsuz uçuş aparatları düşmənə sarsıdıcı zərbə endirməklə düşmən müdafiəsinin ön hissəsini darmadağın edərək açdılar. Bir neçə istiqamətdən hücuma keçib yüksək dağ zirvəsindəki bəzi düşmən məntəqələrini ələ keçirtdik. Mənfur düşməndən azad etdiyimiz məntəqələri başqa hərbi hissəyə (Könüllülərə) təhvil verərək irəliyə doğru hücum əməliyyatlarını davam etdirdik.

Ağdamda olan erməni hərbi birləşmələrinə Ermənistandan gələn hərbi sursatın qarşısını almaq, eyni zamanda Gülüstan kəndində olan erməni silahlılarını darmadağın etmək tapşırığı aldlq. Verilən bütün tapşırıqlar N saylı hərbi hissəmiz tərəfindən uğurla və tam yerinə yetirildi. Çox təəssf ki, yaralılarımız, şəhidlərimiz çox idi.

Budur, qoç igidlər qalxdı ayağa,
Ordumuz oxşayır sanki bir dağa.
İt kimi qovuldu o, mənfur dığa,
Qardaşlar verdilər çiyin-çiyinə,
Qovuşdu Qarabağ, qırıldı zindan,
Vətən xilas oldu vətənsiz "yan"-dan.

Alnımızada qara olan bir ləkə,
Əydi qəddimizi hey zaman- zaman,
Ağır qəm yükünü biz çəkə- çəkə,
Güldü üzümüzə hiyləgər düşman.
İnşəallah qurtuldu, o Cənnətməkan,
Gəzlərimiz aydın, can Azərbaycan!.

"Kədər tariximiz oldu, Gülüstan"-poemasından. S.A.

Sonra Kəlbəcərdə, Laçında, Ağdərə istiqamətində (2022), Ağdam və Əsgəran qəsəbəsində, Qarabağda keçirilən "Lokal Xarakterli Antiterror " əməliyyatlarında ( 19-20 sentyabr 2023), ümumuyyətlə, sona qədər Hərbi hissəmizin tərkibində, erməni vandallarına qarşı ölüm-dirim savaşlarında iştirak etmişəm.

Hal-hazırda N saylı hərbi hissənin əməliyyat manqasında baş çavuşam.

Müharibədən sonra Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə;

İgid döyüçü, Baş Çavuş- Nəcəfov Fərid Faiq oğlu

“ Ağdamın azad olunmasına görə”-medalı,

“ Vətən müharibəsi iştirakçısı”-medalı,

“ Vətən müharibəsi veteranı”-medalı,

“ Qüsursuz xidmətə görə”-3-cü dərəcəli medalla təltif olunmuşdur.



# MAYOR ŞÜKÜROV RƏŞAD GÜLƏLİ OĞLU



Şükürov Rəşad Güləli oğlu 28 may 1990- cı ildə, Azərbaycan Respublikası Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

1996-2007-ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində təhsil almış və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir. Rəşad 2007-ci ildə, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi İnstitutuna (Akademiya) daxil olur,2011-ci ildə, ali məktəbi bitirərək "Kəşfiyyatçı" ixtisasına yiyələnir.

2011- 2012-ci illərdə, həmin ixtisas üzrə Azərbaycan Ordusu sıralarında xidmət borcunu yerinə yetirir. Əvvəlcə leytenant, baş leytenant, sonra isə kapitan hərbi rütbəsinə ucalır.

Rəşad Şükürov, 2016- cı ilin aprel ayının 1-dən 2-nə keçən gecə "Xüsusi əhəmiyyətli tapşırıq"-la, kəşfiyyat qrupunun komandiri kimi düşmənlə ölüm- dirim savaşında iştirak edərək, döyüş tapşırıqlarını tam yerinə yetirir.



10 aprel 2016- cı ildə, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə "İgidliyə görə" medalı ilə təltıf edilir.

Azərbaycan Silahlı Qüvvələrin igid hərbi qulluqçusu, Mayor Rəşad Şükürovun "Milli.Az"-saytına verdiyi müsahibəsini olduğu kimi təqdim edirəm: - "Ötən ilin aprelində (2016) Lələtəpə istiqamətində hücuma keçən erməni döyüşçüləri heç də, adi döyüşçülər deyildi. Onların hamısı seçilmiş hərbiçilər idi. Ermənilər aprel döyüşlərində çoxlu itgilər verdilər. Ölmüş erməni əsgərlərinin sənədlərini yoxlayanda hamısının yaşlı olduğunu gördük. Meyidlərin arasında cəmi bir əsgərin yaşı az idi, qalanları isə, 32- 37 yaşlı seçilmiş hərbiçilər idi. Ehtimal olunur ki, onların hamısı kəşfiyatçı, və ya xüsusi təyinatlılar olmuşdu. İndi siz düşünün, ermənilərin belə bir təcrübəli hərbiçiləri ilə, bizim adi əsgərlərimiz döyüşmüş və onları məhv etmişdilər. Çünki biz Vətən üçün, İşğalda olan torpağımız üçün vuruşurduq, daha ermənilər kimi özgə torpaqlarını işğal edib əldə saxlamaq üçün vuruşmurduq.

"Atəşkəs" elan olunandan sonra Ermənstan tərəfdən xüsusi adamlar gəlib bizim tərəfdə öz meyidlərini axtarmağa başladılar, lakin bəzi meyidləri tapa bilmədilər, çünki, həmin əsgərlər döyüş bölgəsindən qaçmışdılar. Onlar Azərbaycan əsgərlərinin igidliyindən, cəsarətin-

dən qorxaraq vahiməyə düşüb qaçmışdılar. Hətda, ermənilərin iki manqası Araz boyu istiqamətində qaçıb gizlənmişdilər. Həmin döyüş günlərində, bizim bölmədə yaralanan bir əsgərimizi hospitala yola salmışdıq, əsgər yaralı halda hospitaldan qaçıb Lələtəpəyə gəlmişdi ki, yenidən döyüşlərə qatılsın. Bəli, bizlərə qələbəni qazandıran əsgərlərimizin cəsarəti, igidliyi, qorxmazlığı idi. Biz təkcə Lələtəpəni yox, ətraf "post"-ları da, işğalçılardan azad etdik".

27 sentyabr 2020-ci il, səhər saat 6:00-da, təyin olunmuş siqnalla Azərbaycanın 200-illik ağır dərd-sərinə, ləkəli illərinə son qoyan İkinci Vətən Müharibəsi, "Dəmir Yumruq" əməliyyatı başladı. Əsas hücum nöqtəsi Horadiz qəsəbəsi, Füzuli istiqaməti idi.

**-Hücum başlayanda sizin hərbi hissəniz Qarabağın hansı bölgəsində idi?**



baş leytenant Rəşad Şükürov
"İgidliyə görə"
medalı ilə təltif olunub

- Bizim N saylı hərbi hissəmiz Füzuli rayonunun Yastıtəpə istiqamətində idi. Döyüş siqnalı veriləndən sonra dərhal Yastıtəpə istiqamətindən hücuma keçdik. Düşmənin ağır artilleriya və minaatanları susmaq bilmədən hey atırdılar. Hər yer toz- duman içində idi, bir-birimizi çətinliklə görə bilirdik. Buna baxmayaraq təhlükəsi az olan ərazilərdən keçib irəliləyirdik. Düşmən çox hiyləgərcəsinə öz durduğu əraziləri minalayıb geriyə, daha hündür yüksəkliklərə qalxırdılar.

Bizim baş kəşfiyatçımız Yusif Əhmədov, (sonra şəhid

oldu, Allah rəhmət eləsin) düşmənin tərk etdiyi ərazilərin minalanmasını dərhal hiss edərək, kəşfiyyatşı- rabitəçi Anar Abbasov vasitəsilə, radiorabitə əlaqəsi qurmaqla, arxadan gələn hərbi bölmələrə məlumat verdi.

Biz Yaşıltəpə istiqamətindən irəlilyirdik. Döyüşçülərimiz irəlilədikcə döyüş meydanı daha da, genişlənirdi. Düşmən "qırsaqqız" olub torpağımızdan yapışmışdı, ölümə məhkum edilmişlər kimi vuruşurdular. Hərbi Hissəmiz düşmən səngərlərini, 30-ilin müdafiə istehkamlarını, bir-birinin ardınca  darmadağın edib irəliyə şığıyırdı. Biz zabitlər, ön cərgədə, əsgərlərdən əvvəl "Vətən uğrunda"-deyib döyüşə atılırdıq. Qarşımızı heç nə kəsə bilmirdi, nə ölüm qorxusu, nə də, yaralanmaq qorxusu. Dayanmadan irəliyə doğru hərəkət edirdik. Minlərlə şəhid qanına bələnmiş, əsarət altında olan torpaqlarımız, bizi irəliyə səsləyirdi, ölüm bizim üçün adiləşmişdi .

Cəsur kəşfiyyatçı mayor Rəşad Şükürov danışdıqca, döyüş bölgələrində mənfur düşmənlə ölüm-dirim çırpışmalarında döyüşən igid əsgərlərimizin qəhrəmanlıq yolları gözlərim önündən keçirdi.

Ürəkdə qovrulduq biz, ikiyüz il,
Gözlər ana yurda dikilib, qaldı.
Nəsillər ha köçdü, illər dəyişdi,
Xalqımı ağir dərd möhnətə saldı.

Vətən torpağında Vətənsiz qaldıq,
Neçə yol soyqrım törətdi yağı.
Qanlı yaş axıtdıq, solduq, saraldıq,
Sinədə dağ oldu hey, Vətən dağı.
İki min iyirmi, bir payız günü,

"Qarabağ" hayqırdı, şanlı Ordumuz.
Qırx dörd günlük döyüş gətirdi zəfər,
Bir-bir azad oldu Vətən yurdumuz.

(Danışan illər-kitabı.S.A.)

Yenə danışır mayor, Rəşad Şükürov



***Mayor Şükürov hərbi təlimlərdə***

- Döyüş meydanında irəliləyərkən öncü kəşfiyyatçımız ( irəlidə gedən) Sahil Mirzəyv düşmən rabitəsinin antenasını görərək: -"Düşmən 12" istiqamətində pusqu"- deyərək komanda verdi. Həmin anda düşmənin fasiləsiz yaylım atəşi başlandı. İki hərbi qulluqçumuz, qrup komandirləri gizir Seyran Vəliyev və Niyaməddin Ələkbərov qəhrəmancasına şəhidlik zirvəsinə ucaldılar. Bir neçə hərbi qulluqçumuz ağır yaralandı. Buna baxmayaraq kəşfiyyatçı əsgər və zabitlərimizin yüksək döyüş bacarığı ilə, düşmən pusqusundan az itgi verməklə

çıxa bildik. Pusquya düşməyimizə baxmayaraq şəxsi heyyət öz döyüş ruhunu qoruyub saxlaya bildi.

İlk növbədə hər bir kəşfiyyatçı, atəş açan düşməni öz atəşi altında saxlamalı idi. Bu bir döyüş qanunudur. Döyüşçülərimiz yaralıları, şəhidləri döyüş meydanından tüstülü bombalardan və rəngli –tüstülü bombalardan istifadə etməklə çıxarırdılar. Kəşfiyyatçı-snayper



Vüsal Sumbatzadə dəqiq, sərrast atəşilə, "müşahidə et, aşkar et və məhv et" prinsipilə düşməni geriyə çəkilməyə məcbur edirdi. (ruhu şad olsun).

Hərbi  məktəbdə oxuyanda belə bir şüar öyrətmişdilər bizə: -"Ya indi, ya da, heç vaxt". Bax, biz bu şüarı dilimizdə təkrar edə- edə iləliləyib düşmən mövqeylərinə girirdik və düşmən üçün cəhənnəm bundan sonra başlayırdı".

"Hay"-ların gözünə çəkərək min dağ,
İşğaldan qurtuldu doğma Qarabağ.
Qalxdı xan Şuşada üçrəngli bayraq.
Qanlı döyüşlərdə göstərdin hünər,
Düşmənə zərbəni endirən əsgər!.

**S.A.**

Aprel döyüşlərində və "Dəmir Yumruq" əməliyyatında, kəşfiyyat üzrə əməliyyat komandiri kimi vuruşan, Azərbaycan Silahlı Qüvvələrin qəhrəman mayoru Şükürov Rəşad Güləli oğlu,

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

**"Azərbaycan Bayrağı" ordeni ilə,**

**"İgidliyə görə",**

**"Şücaət və Qəhrəmanlıq göstərdiyinə görə",**

**"Füzulinin azad olunmasına görə",**

**"Cəbrayılın azad olunmasına görə",**

**"Qubadlının azad olunmasına görə",**

**"Vətən Müharibəsi iştirakçısı",**

**"Qüsursuz xidmətinə görə"(iki dəfə),**

**"Azərbaycan Ordusunun 100-illiyi" medalı,**

**"Azərbaycan Respublikası Silahlı Qüvvələrin 95 illiyi" yubley medalı ilə, təltif edilmişdir.**

Mayor Rəşad Şükürov hal-hazırda öz xidməti vəzifəsini davam etdirir.

# ŞÜKÜROV RASİM FAİQ OĞLU



Şükürov Rasim Faiq oğlu, 11 noyabr 2001- ci ildə, Azərbaycan Respublikas, Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur.

2007-2018-ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində təhsil almış və müvəffəqiyyətlə həmin təhsil ocağını bitirmişdir.

Rasim Şükürov 2019- cu ilin yanvar ayının 8-də, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və № saylı hərbi hissənin 2-ci batareyasında top tuşlayıcısı vəzifəsində xidmətə başlayır.

**Qeyd:** Top tuşlayıcısı, aşkar edilmiş hədəfləri birinci atəşlə məhv etmək, atəşin aparılmasını tankın hərəkətlərinə uyğunlaşdırmaq, tanıma əlamətlərinə görə hədəfləri qısa zamanda axtarıb tapmaq və atəş üçün ilkin məlumatları təyin etmək bacarığına malik olmalıdır.

İkinci Qarabağ müharibəsində digər qoşun növləri kimi artilleriyaçıların da, qələbənin əldə olunmasında böyük xidmətləri olmuşdur.

O cümlədən Rasim Şükürov da, ilk günlərdən başlayaraq öz çevikliyi, qorxmazlığı, hərbiçi bacarığı ilə, hərbi hissə komandanlığının hörmətini qazanır.

Ürəyi Vətən eşqilə döyünən N saylı hərbi hissənin

igid döyüşçüsü, 30 il düşmən tapdağı altında əzilən Qarabağın nə vaxt azad olunmasını səbrsizliklə gözləyirdi.

Azərbaycan Silahlı Qüvvələrinin hər bir əsgər və zabiti kimi Rasim də, tez- tez hərbi təlimlərdə iştirak edir, öz döyüş bacarığını artırırdı.



27 sentyabr 2020- ci il, o gözlənilən gün gəlib çatdı, “ Dəmir Yumruq” əməliyyatı, İkinci Vətən müharibəsi başladı. Bu qanlı döyüşlərdə № saylı hərbi hissənin 2-ci batareyasının top tuşlayıcısı vəzifəsində Rasim Şükürov da, qəhrəmancasına vuruşurdu. Cəsur əsgərin döyüş yolu Ağdamdan başlayaraq Qubadlı rayonuna qədər davam edir.

2020-ci il oktyabrın 25-də, Qubadlı rayonunda, sonra Ağdam uğrunda gedən döyüşlərdə, igid bir Azərbaycan əsgəri kimi komandanlığın təşəkkürünü qazanır.

Qubadlı rayonunun erməni əsarətindən xilas olunması Azərbaycan Silahlı Qüvvələrinin erməni işğalında olan Laçın və Şuşa şəhərinə yolunu açır. Ağdam və ətraf

kəndlərin işğaldan azad edilməsi Azərbaycanın qələbəsinin mühüm bir hissəsi idi.

Qeyd: 20 noyabr 2020-ci ildə, Ağdam rayonunun işğaldan azad edilməsi, noyabrın 10-da, imzalanmış üçtərəfli bəyanata uyğun həyata keçirilmişdi.

2021- ci il iyul ayının 10-da, Rasim Faiq oğlu Şükürov Azərbaycan Silahlı Qüvvələrin sıralarından tərxis olunaraq ehtiyata buraxılır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

Cəsur əsgər Rasim Faiq oğlu Şükürov

**"Qubadlının azad olunmasına görə",**

**"Ağdamın azad olunmasına görə",**

**"Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilir.**

Müharibə veteranı vəsiqəsilə təmin edilmişdir.

Ay ellər, bir dönün, tarixə baxın,
Gülüstan sülhünə, keçmişə axın.
Qələbə bayrağın sinəyə taxın,
"Hay"-a məzar qazdı indi, Ordumuz,
Düşmən bayrağını yendi, Ordumuz!

**S.A.**

# GİZİR- SƏİD TEYMUROV İMAMƏDDİN OĞLU



- 2020-ci ilin sentyabr ayının 26-sı, Günəş batmaq üzrə idi. Bu zaman N saylı hərbi hissəmizdə həyacan siqnalı verildi. Biz düşündük ki, yəqin əsgərlərin sayıqlığını, döyüş keyfiyyətini artırmaq üçün verilən növbəti hazırlıqdır.

Komandir bizə boş gilizləri paylayıb dedi:-“ Adınızı, soyadınızı yazıb gilizin içərisinə qoyun və döş cibinizdə saxlayın”. Komandir bu sözləri deyəndə, onun səsindəki həyacanı, qətiyyəti hiss etdik, başa düşdük ki, yox, bu siqnal, əvvəlki təlim siqnallarına oxşamır, bu səs 30 illik həsrətində olduğumuz, erməni əsarətində inləyən, göz yaşları tökən, vətən oğullarını intizarla gözləyən Qarabağın, haray səsidir. Bu həyacan siqnalı, 200- illik erməni həqarətinə, saysız -hesabsız soyqrımlara tutarlı cavab vermək istəyən, Vətən oğullarının haray səsidir”- deyə, N saylı hərbi hissənin hərbi qulluqçusu, gizir, Səid Teymurov, həyəcanla 44- günlük “ Dəmir Yumruq “ əmə-

liyyatı günlərindən, öz döyüş xatirələrindən danışmağa başladı...






Əvvəlcə, Səidin təcümeyi-hal,-ına nəzər salaq.

Səid Teymurov 1999- cu ildə, Azərbaycan Respublikası Masallı rayonunun Abasbəyli kəndində, müəllim ailəsində anadan olmuşdur. 2006- 2017- ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində təhsil almış və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

2018- ci ilin yanvar ayında, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və N saylı hərbi hissəyə göndərilir. 2019-cu ilin iyul ayına qədər N saylı hərbi hissədə tuşlayıcı-minaatan vəzifəsində xidmət etmiş, 2020-ci llin iyun ayından sentyabr ayına kimi Silahlı Qüvvələrin Təlim-Tədris mərkəzində "Motaatıcı" ixtisası kursunu bitirmişdir.

2020-ci ilin sentyabr ayından № saylı hərbi hissədə, motaatıcı taqim komandirinin müavini, sonra döyüş hazırlığı bölməsinin operatoru, şəxsi heyyəyin üçot bölməsinin məsul icraçısı, çavuş, əsgərlər üzrə rəis köməkçisi, manqa komandiri vəzifələrində işləmişdir.

- Bizim hərbi hissə Tapqaraqoyunlu kəndi istiqamətində, Talış kəndinə yaxın bir ərazidə mövqe tutmuşdu. Ermənstan Silahlı Qüvvələri və Qarabağın erməni seperatçı dəstələri, birinci Qarabağ müharibəsi illərindən başlayaraq "Dəmir Yumruq" əməliyyatına kimi, 30 il müddətində, Goranboy rayonunun Tapqaraqoyunlu kəndini tez- tez atəşə tuturdular. Mənfur düşmən bu kəndi işğal etmək istəsə də, Azərbaycan Ordusu və kəndin özünümüdafiə qüvvələri buna imkan verməmişdi. 2010- cu il oktyabrın 14-də, Tapqaraqoyunlu kəndində, hündürlüyü 65 metr olan (uzunluğu 18, eni 9 metr) Azərbaycan bayrağı ucaldılmışdır.

Talışkənd isə ermənilərin əlində idi. Düşmən həmin əraziləri yüksək zirvələrdən gecə-gündüz izləyir, nəzarətində saxlayırdı. Ona görə də, axşamlar hərəkət edəndə maşınların işıqlarını söndürüb hərəkət edirdik.

Axşam saat 10:00 olardı, biz işıqları söndürülmüş maşınlarla iki- iki, üç- üç hərəkət edərək İpəkçay-ın dərə boşluğunda mövqe tutduq. Hərbi hissə komandiri hərbi hissənin şəxsi heyyətini sıraya düzüb dedi:-" Vaxt yetişdi, qardaşlar, 30 il buxovda inləyən torpaqlarımızın buxovdan azad olunmasının, bir milyon qaçqın və köçgünlərin göz yaşının silinməsinin, ermənilərin törətdikləri soyqrımlara, tez-tez sərhəddə törətdikləri təxribatlara cavab verməyimizin vaxtı gəlib çatdı. Vətənimiz Azərbaycan, 50-milyonluq dünya azərbaycanlıları bizə ümidlə baxır".

Komandirin bu sözlərindən təxminən iki saat sonra, saat 6:00-da, 27 sentyabr 2020-ci il tarixdə, atəş səslərindən yer- göy titrədi, İkinci Vətən Müharibəsi başladı.

Ey ulu torpağım, ey Azərbaycan,
Bölünüb ürəyim, parçalanıb can.
Hər gün axıdılır vətənimdə qan,
İt kimi diş atır "hay" cuma- cuma,
Hadı igid əsgər, haydı hücuma!

Çoxsaylı xalqlarıq, vahid bir millət,
Babalardan gələn ünsiyyət, ülfət,
Bir Vətən içində qardaşlıq vəhdət.
Böyük Turan elim, güc ver qoluma,
Haydı igid xalqım, haydı hücuma!

("Ürəyimin harayı"-kitabından.S.A.)

Səhər saatlarında hava hələ tam açılmamış bizə qruplar halında, Talışkənd istiqamətinə irəliləmək əmr olundu. Talışkənd istiqamətindən hücuma keçməyə, bzim tabor üçün iki yerdən keçid açılmalı idi (ərazini minalardan təmizləmək). Bu vəzifəni minatəmizləyənlər yerinə yetirməli idilər. Hərbi hissə komandanlığından bizə bildirildi ki, saat 7:20-də, hücuma keçmək üçün hazır olun. Bizim tabor əmrə uyğun tam hazır vəziyyət almışdı.

Deyilən vaxtda düşmənin döyüş mövqeylərinə sarsıdıcı zərbələr endirilməyə başlandı, düşmən vahimə içərisində idi. Onlar yeraltı bunkerlərinə girərək atəşin kəsilməsini gözləyirdilər və nələr olduğunu anlamağa çalışırdılar. Artilleriyamız 20 dəqiqə fasiləsiz atəş açan-



dan sonra, bizim istehkam-mühəndis bölmələrimiz tərəfindən açılmış keçidlərdən, tank bölmələrimiz tanklarla, katoklar (ağır texnika) vasitəsilə açılmış keçidləri daha da, dərinləşdirərək irəliləməyə başladılar. Biz də, açılmış cığırlarla, avtomat silahla (7,62-mm AKM) irəliləməyə başladıq və düşmənin ön xətdini ələ keçirtdik. Erməni əsgərləri çoxlu sayda itgilər verərək ikinci səngərə geriyə çəkilməyə məcbur oldular. Torpaq üstündə xeyli erməni cəsədləri tökülüb qalmışdı.

Bizim də, yaralılarımız, şəhidlərimiz var idi.

Suqovuşan istiqamətindən düşmənə köməyə gələn yeni qüvvələr də, onları bu ağır vəziyyətdən xilas edə bilmədi. Beləliklə, 27 sentyabr, təxminən saat 13:45-də, Talış kəndini mənfur düşməndən azad etdik, sonra dayanmadan, düşmənə göz açmağa macal verməyərək irəliyə doğru, Suqovuşan istiqamətinə tərəf hərəkət etməyə başladıq.

Otuz ildir gözüm gözləyir zəfər,
Nə vaxt Qarabağa edəcək səfər?
Daha ürəyimdə qalmayıb təpər,
Qırın zəncirləri, nur saç yoluma!
Haydı igid əsgər, haydı hücuma!

**S.A.**

Düşmən artilleriyası, keçdiyimiz yolları aramsız atəşlə vurur, bizim arxa ilə əlaqəmizi kəsməyə çalışırdılar. Arxa ilə əlaqə saxladığımız yollar düşmən tərəfindən tamamilə dağıdılmışdı. Arxadan kömək ala bilmirdik, azuqəmiz tamamilə qurtarmışdı, bir tərəfdən də, hey leysan yağış yağır, kəsilmək bilmirdi, pal-paltarımız tamam islanmışdı, havadan şaxta qoxusu gəlirdi, sanki qış günləri idi. Lakin nə aclıq, nə soyuq, nə də, ölüm bizi qorxutmurdu, çünki Vətən uğrunda vuruşurduq. Aclığı dəf etmək üçün yerdən otları, ağaclardan yarpaqları, meyvələri dərib yeyirdik.

Yolumuz Suqovuşana idi. 30 ilə yaxın idi ki, düşmən Suqovuşanda mökəmlənmişdi, hər cür müdafiə istehkamları qurmuşdular. Buna baxmayaraq Suqovuşanı mənfur düşməndən geri ala bildik. 3 oktyabr 2020-ci ildə, Azərbaycan bayrağını Suqovuşanda ucaltdıq”. Haşiyə:

Yaxın, uzaq tarix keçdin,
Sən dönməzlik andı içdin.
Gah yenildin, gah ucaldın,
Torpağından ilham aldın.
Keçdiyin yol, hər bir çığır,
Şəhidlərin qan yaddaşın,
Tarixindir qayan, daşın,
Şan- şöhrətim, uca dağım,
Sən ey şanlı, hərb bayrağım!.

(Ürəyimin harayı-kitabından -S.A.)

-Suqovuşanın azad olunanda, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev,

Azərbaycan xalqını təbrik etdi və "Suqovuşanın azad olunmasına görə"-medalı təsis edildi.

Kəndin əvvəlki Madaqiz adı dəyişdirilib Suqovuşan adlandırıldı və 5 oktyabr 2023-cü ildə, Ağdərə rayonunun tərkibinə daxil edildi. Haşiyə bitdi.

**-Suqovuşanı işğaldan azad edəndən sonra, hərbi hissənizin qarşısında duran əsas vəzifə nədən ibarət idi?**

7 oktyabr 2020-ci ildə, bizə xəbər verdilər ki, sizi əvəz etmək üçün şəxsi heyyət gəlir. Bizə, yeni şəxsi heyyətin gəldiyi maşınlarla geriyə qyayıtmaq və komplektləşib yenidən hücuma hazırlaşmaq əmr olundu. Biz, geriyə, Talışkəndə gəldik, burda çoxdan yemədiyimiz isti yemək yedik, paltarlarımızı dəyişərək təzə, isti paltarlar geyindik.

Gecəni yataraq 8 oktyabr 2020- ci il tarixdə, saat 16:00-da, yenidən maşınlara minib Suqovuşan istiqamətinə hərəkət etməyə başladıq. Suqovuşana çatmamış, meşənin sıx yerində, maşınlardan düşdük və qruplara bölünərək piyada getməyə başladıq. Suqovuşana çatanda artıq hava qaralmışdı.

Bizim bölük dayanmadan Ağdərə istiqamətindən, Qlobus yüksəkliyinə qalxmağa başladı.

Lakin biz, göstərilən yerə 2 saatdan çox gecikdiyimiz üçün hücum təxminən bir gün təxirə salındı. Hücumun vaxtı 9 oktyabr, saat 8:00- a müəyyən edildi.

Axşam yağan leysan yağış paltarlarımızı tamam islatmışdı, hava çox soyuq idi, soyuqdan əllərimiz titrəyirdi. Bir- birimizə qısılıb isinməyə çalışırdıq. Səhəri, bir gözümüz yumulu, bir gözümüz açıq halda açdıq, paltarlarımız su içində idi.

İgid döyüşçü, Səid Teymurovun, o cümlədən Silahlı Qüvvələrimizin əsgər və zabitlərinin, Vətən uğrunda

apardıqları döyüş yollarını izlədikcə, onları dinlədikcə fəxr edirəm ki, bizim belə Vətən oğullarımız vardır, bir tərəfdən də, kədər qığılcımları üz- gözümə tökülür, gözmdən damcı-damcı yaş axır, ermənilərin Vətənimizdə törətdikləri saysız-hesabsız dəhşətli hadisələr gözlərim önündən keçir. İstər-istəməz Tatarıstan Respublikasında (Rusiya) işlədiyim zaman yazdığım " Kədər tariximiz oldu, Gülüstan" poemam yadıma düşür.

Sonra da, verildi Laçınım, Şuşam,
Xocavənd, Kəlbəcər, Xocalım, Ağdam.
Gözəl Zəngilanım qana boyandı,
Qarabağ torpağım olaraq biryan,
Faciəm sən oldun, sən ey " Gülüstan".

Otuz il Qarabağ edildi işğal,
Otuz il utandıq, biz olduq bihal.
Ağır məğlubiyyət etdi bizi lal,
Ağladı Sübhan da, əlində Quran,
Kədər tariximiz oldu,"Gülüstan".

(Ürəyimin harayı.S.A.)

**Yenə danışır Silahlı Qüvvələrin cəsur döyüşçüsü, gizir- Səid Teymurov.**

- Saat 7:40- da, hərbi hissəmizin artilleriya atəşi başladı. Biz, saat 7:55-də, hücum əmri almışdıq. Kəşfiyyat bölüyümüz zəncirvari düzüldü, bizim tabor isə, onların ardınca hərəkət edib dəstək verməli idi.

Kəşfiyyat rəisi, briqadanın qərərgah rəisi polkovnik- leytenant Abdulrəhmanov Əfqanı (şəhid) çağırdı və dedi: -"Gəlin əraziyə birlikdə baxaq, çünki bizim ar-

dımızca siz gələcəksiniz, sonra səhv salıb bizi vurmayın". Bu zaman polkovnik-leytenant Ə.Abdulrəhmanov qayanın arxasından çıxaraq bizim tabor komandiri polkovnik- leytenant Sultan Məmmədovu (Şəhid) çağırdı ki, əraziyə birlikdə baxsınlar. Biiz də, yerdə uzanmış vəziyyətdə idik. Bizim komandir görünən kimi tankla vurdular. Tankın mərmisi düz yanıma, 2 metr məsafəyə düşdü, dünya başıma fırlandı, göydən yerə torpaq yağışı yağmağa başladı, çığırtı, ah-nalə səsləri ürək yandırırdı. O mərmi ilə, 21 nəfər şəhid verdik, 43 nəfər yaralımız oldu. Mən də, yaralanmışdım, qəlpə isti olduğu üçün əvvəlcə hiss etmədim. Şəhidlərimizi adyalların arasında yuxarıdan aşağı düşürməyə başladıq.

Yaralı MAXE əsgər Xəyal Əsgərzadənin hər iki ayağını, dizdən 5-6 sm aşağı qəlpə aparmışdı, dizlərdən aşağı dəri sallanmışdı. Morfi vurub dərmanla ayaqlarından süzülən qanı saxlayandan sonra, adyalın üstünə uzadıb aparmağa başladıq. Bu zaman, Xəyal başını qaldırıb ayaqlarına baxdı və görən kimi keçindi...

Torpağa bələnən al-qan müqəddəs,
O qurban verdiyin o can, müqəddəs,
Qızıl- qan axıdan yaran, müqəddəs,
Vətənin ürəyi, zərisən, Şəhid!
Sən də, bir mələksən, dirisən, Şəhid!

(Danışan illər səh. 22, S.A.)

Şəhidlərimizi, yaralılarımızı düşmən atəşi altından çıxardıb döyüş meydanından uzaqlaşdırdıq. Düşmən susmaq bilmir, hey atırdı. Çiynimdən qan süzülüb ayaqlarımı islatmışdı, geydiyim əsgər botinkası qan

içində idi, hiss etdim ki, daha yeriyə bilmirəm. Ağrı getdikcə şiddətlənirdi, yerə oturdum, kürəyimi bir ağaca söykədim, gözlərimdən şəhid olan əsgər dostlarım, şəhid komandirlərim, ailəm, kəndimiz bir- bir gəlib keçdi və gözlərim öz-özünə yumuldu...

"Bir də, gözlərimi Gəncə şəhər Abbas Səhət adına 1 №-li xəstəxanada açdım".

Qəhrəman döyüşçü, yaralı halda özünü unudaraq şəhidlərimizi, yaralılarımızı, əsgər yoldaşları ilə birlikdə atəş yağışı altından çıxardıb təhlükəsiz yerə aparır. Bundan sonra daha o, yeriyə bilmir və ağacın dibində yerə oturur. Sonradan əsgər yoldaşları, gizir Səid Teymurovu huşsuz halda, ağaca söykənmiş vəziyyətdə tapırlar...

**- Səid, qələbə xəbərini xəstəxanada eşitdinzmi?**

- Xəstəxanada keçən hər günüm əzab verirdi mənə. Əsgər və zabit yoldaşlarım orda, cəbhədə düşmənlə ölüm- dirim savaşı apardığı halda, mən xəstəxanada idim. Çox qan itirdiyim üçün qan köçürtmüşdülər mənə. Yaram hələ tam sağalmamışdı, lakin xəstəxanada da, qala bilmirdim, cəbhəyə, əsgər yoldaşlarımın yanına dönmək istəyirdim. Həkimlərdən dönə-dönə xahiş etdim ki, məni cəbhəyə yola salsınlar. Onlar da, məcbur olub özümlə aparmağa bəzi dərmanlar verib məni cəbhəyə yola saldılar. Bizim hərbi hissə bu vaxt, Qlobus yüksəkliyi və ya 951 yüksəkliyi uğrunda vuruşurdu.

**Haşiyə:** Qlobus yüksəkliyi (951), Tərtər rayonu ərazisində, Kiçik Qafqaz dağ sisteminin Murovdağ dağ silsiləsində yerləşən yüksəklikdir. Hündürlüyü 951 metrdir. Bu yüksəklik Suqovuşan su anbarının ( Tərtər) cənub-qərbində yerləşir. Strateji əhəmiyyətli yüksəklik olduğu üçün Birinci Qarabağ müharibəsində bu yüksəklik uğrunda xeyli qan axıdılmışdı. Nəhayət, ermə-

nilər Qlobus yüksəkliyinə nəzarəti ələ keçrə bilmişdilər.

Ermənilər, 951 zirvəsindən ətraf əraziləri, o cümlədən Suqovuşanı atəş altında saxlayırdılar. Erməni hərbi qüvvələri bu zirvədə çox mökəm müdafiə istehkamları qurmuşdular. Azərbaycan Silahlı Qüvvələri müharibənin sonuna kimi burda, mövqe döyüşləri apararaq 951 zirvəsini mənfur düşməndən azad edilməsini sonraya saxladı. Antiterror əməliyyatından sonra (2023-cü il- 24 sentyabr) Ağdərə və ətraf ərazilər Azərbaycanın nəzarətinə keçir. Həmçinin Qlobus yüksəkliyi (951) də, Ordumuzun nəzarətinə keçir. Haşiyə bitdi.

-" Qlobus yüksəklyi ətrafında düşmənlə qanlı döyüşlər apardığımız zaman 8 noyabr 2020-ci ildə, Şuşa şəhərinin azad olunması haqqında sevindirici xəbər aldıq. Sevincimizin həddi-hüdudu yox idi, bilirdik ki, düşmən daha çox davam gətirə bilməz. 10 noyabr 2020 ci ildə, saat 00:00-da, Hərbi Hissə Komandiri bu şad xəbəri bizə verdi: -"Biz qalib gəldik, müharibə qurtardı, yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan Respublikası!"Yaşasın Müzəffər Ali Baş Komandan!. Biz, bütün əsgərlər, komandirin səsinə səs verib ucadan, həyacanla təkrar edirdik. Bu həyacanlı səslərin içində, iniltili göz yaşları da, var idi, bu göz yaşları, şəhidlərimiz üçün tökülən göz yaşları idi ".

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyrvin sərəncamı ilə,

İgid döyüşçü, gizir –Səid Teymurov,

**"Cəsur döyüşçü"-medalı ilə,**

**" Laçının azad olunmasına görə"-medalı ilə,**

**" Şücaətə Görə"-medalı ilə,**

**" Vətən müharibəsi iştirakşısı"-medalı ilə təltif edilmiş,**

"Müharibə veteranı"- vəsiqəsilə təmin olunmuşdur.

# TEYMUROV MURAD TALEH OĞLU



27 sentyabr 2020- ci ildə, Ermənistan Silahlı Qüvvələrin genişmiqyaslı təxribatlarına cavab olaraq, 30 il erməni işğalında göz yaşı axıdan Qarabağın və ətraf rayonların işğaldan azad olunması üçün, Azərbaycan Silahlı Qüvvələri əks hücum əməliyyatına başladılar.

Azərbaycan Ordusunun əks hücum əməliyyatının ilk günlərində, illərdən bəri öz ordusunu "Məğlubedilməz" adlandırıb qürrələnən erməni mif-i darmadağın edildi.

Azərbaycan Ordusu ilk gündən, Cəbrayıl və Füzuli rayonlarında, eyni zamanda başqa istiqamətlərdə, 30 il müdafiə istehkamları qurmuş düşmənə sarsıdıcı zərbə endirərək bir çox kəndləri, qəsəbələri işğaldan azad etdi.

"Dəmir Yumuruq" əməliyyatında Azərbaycan Ordusunun igid kəşfiyyatçıları, hərbi əməliyyatların uğurlu olması üçün, ölümün gözünə dik baxaraq öhdələrinə düşən bütün hərbi tapşırıqları tam və dəqiq yerinə yetirdilər.

O kəşfiyyatşılardan biri də, Quru Qoşunların N saylı hərbi hissəsinin kəşfiyyatçı əsgəri, Murad Teymurov idi. Cəsur kəşfiyatçı Murad Teymurov, bir əsgər kimi, Ordumuzun cəbhədə uğur qazanması üçün düşmən

mövqeyləri, hərəkətləri, silahları haqqında bilgilər toplayıb hərbi hissə komandanlığını dəqiq məlumatlarla təmin etməkdə qəhrəmanlıq nümunələri göstərmişdir.

Murad Teymurov, 16 may 2000-ci ildə, Azərbaycan Respublikası, Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. 2006- 2017- ci illərdə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbində təhsil almış və həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

9 iyul 2018-ci ildə, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır və 01 yanvar 2020- ci ildə, Azərbaycan Silahlı Qüvvələrin sıralarından tərxis olunaraq ehtiyata buraxılır.

Vətənimizin başı üstünü təhlükə alanda, xalqımızın vətənpərvər oğulları kimi, Murad da, cəbhəyə getmək üçün Hərbi Xidmətin Masallı rayon şöbəsinə ərizə ilə müraciət edir. 2020- ci il oktyabrın 5-də, könüllü olaraq cəbhəyə yola düşür.

- Mən Ordu sıralarına qoşulanda ehtiyatda olan təcrübəli bir əsgər idim" - deyə, İkinci Vətən Müharibəsinin cəsur veteran döyüşçüsü öz döyüş yollarından danışmağa başladı.

- Əvvəllər Ordu sıralarında olmuşdum. Ona görə bütün silahlardan necə davranmaq lazım olduğunu yaxşı bilirdim. Kəşfiyyat sahəsi cəbhədə ən çətin sahələrdəb biri olduğu üçün "Dəmir Yumruq" əməliyyatında kəşfiyyat sahəsini seçdim. Biz, N saylı hərbi hissənin 8 nəfər kəşfiyyatçısı, düşmənin arxa hissəsinə keçir, ən mühüm hərbi məlumatları toplayıb hərbi hissəmizin komandanlığına ötürürdük.

Suqovuşan, Silahlı Qüvvələrimiz tərəfindən alınsa da, bəzi yüksəkliklər hələ də, düşmən əlində idi. Ermə-

nilər həmin istiqamətlərdə çoxlu hərbi qüvvə toplamaqla yenidən Suqovuşanı və Talış kəndini ələ keçirmək üçün bütün vasitələrdən istifadə etməyə çalışırdı.

Suqovuşan istiqamətində hərbi hissəmizin hücum əməliyyatının uğurlu alınması üçün sinəmizi sipər edərək düşmən kəşfiyyatşılarını diz çökdürür, onların içərisindən yüksək rütbəli hərbiçiləri əsir alıb hərbi hissəmizə təhvil verirdik. Topladıqlarımız dəqiq məlumatlar, hücum əməliyyatlarının, düşmənin yerləşdiyi ərazilərin vurulub sıradan çıxarılmasında, hərbi əməliyyatların uğurlu alınmasında böyük rol oynayırdı”.

**-Müharibədə kəşfiyyatçının hər bir anı çox təhlükəli və yadda qalan hadisələrlə zəngin olur. Sən bir kəşfiyyatçı kimi hansı hadisələri daha çox xatırlayırsan?**

- Bizim kəşfiyyat manqasının bir çox yüksəkliklərin azad olunmasında, düşmən səngərlərinin məhv olunmasında müstəsna rolu olmuşdur. Füzuli istiqamətində düşmənin canlı qüvvəsilə dolu hərbi avtomobili, bizim kəşfiyyatçı qrupumuz tərəfindən zərərsizləşdirildi.

İkinci Vətən müharibəsinin hər gününü, hər saatını xatırlayıram, amma bir neçə hadisə daha tez-tez gözlərim önündə canlanır.

Bir dəfə biz, kəşfiyyatçı qrupumuz, Murovdağ ətrafında düşmənin kəşfiyyat-divversiya dəstəsinin mühasirəsinə düşdük. Onlar bizdən qat- qat çox idi. İki gün mnfur düşmənlə ölüm-dirim savaşına girdik. Hərbi sursatımız qurtarmaq üzrə idi. Ərzağımız tamam qutarmışdı, meşədən cır meyvələri, yabanı bitgiləri yığıb yeyrdik. Düşmən bizi 8 nəfər yox, daha çox bilirdi. Düşdüyümüz vəziyyəti komandanlığa bildirsək də, hələlik kömək göndərmək üçün imkan yox idi. Soyuq qılınc kimi kəsirdi, ölümümüzü göz önünə almışdıq. Bir- biri-

mizə söz verdik ki, ya ölməliyik, yada mühasirəni yarıb çıxmalıyıq, düşmənə təslim olmamalıyıq.

Gecə, səhərə az qalmış, iki yerə bölünərək, iki istiqamətdə, meşənin sıx yerindən fasiləsiz atəş açaaçaa hücuma keçdik. Düşmənin kəşfiyyat-divversiya qrupu bizim bu istiqamətdə hücumumuzu gözləmirdi. Bizim "Koroğlu nərəsi" kimi nərəmiz düşmənin canına qorxu salmışdı. Onların sağ cinahı vahiməyə düşüb geriyə çəkilməyə məcbur oldu. Biz bir şəhid verdik, düçmənin isə beş ölüsü yerdə qalmışdı. Səhər açıla- açılmaz mühasirəni yarıb təhlükəli ərazidən uzaqlaşdıq. Gedəndə şəhid qardaşımızı da, özümüzlə apardıq.

Bir dəfə də, yenə Qarabağ su kanalının yuxarısında, Suqovuşanın üstündə ermənilərin kəşfiyyat- divversiya qrupu ilə bizim kəşfiyyat qrupumuz arasında çox şiddətli atışma oldu.

Suqovuşan və Talış kəndini geri almaq üçün erməni silahlı qüvvələri dəridən- qabıqdan çıxırdılar.

Bizim kəşfiyyat manqası, döyüş ərəfəsində öz döyüş istiqamətini dəyişməyə məcbur idi. Mən erməni kəşfiyyat- divversiya qrupunun önünü yaylım atəşilə kəsdim və kəşfiyyat qrupumuzun geriyə çəkilib yeni döyüş mövqeyi tutmasını təmin etdim".

**Haşiyə:-** Qarabağ su kanalı 1958-ci ildə istifadəyə verilib. Uzunluğa 172,4 km-dir, 122 min hektar sahəni su ilə təmin edir. Azərbaycanın ən böyük magistral suvarma kanallarından biridir. Kanalın su mənbəyi Mingəçevir su anbarı və Kür çayıdır. Samur- Abşeron kanalından (182 km) sonra uzunluğuna görə ikinci yerdədir. Qarabağ su kanalı, Qarabağ və Mil düzlərini suvarmaqla Bəhrəmtəpə su qovşağı yaxınlığında Araz çayına qədər davam edir. Bəzən Araz çayında su az olanda bu

kanalla Kürdən Araza su axır. Erməni işğalı zamanı kanalın bəzi yerləri dağıdılmış, istisimara məruz qalmışdı. Bu kanal 6 rayon ərazisindən keçir, 11 rayona xidmət edir. Haşiyə bitdi.

N saylı Hərbi hissənin kəşfiyyat qrupu, Murad Teymurov da, daxil olmaqla Talış kəndi istiqamətində, Çaylı kəndinin mənfur düşməndən azad edilməsində misilsiz qəhrəmanlıq lar göstərmişdir.

Teymurov Murad Taleh oğlu, 26 fevral 2021-ci ildə, Azərbaycan Silahlı Qüvvələrin sıralarından tərxis edilir.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

İgid kəşfiyyatçı-əsgər, Murad Taleh oğlu Teymurov ,

“ Vətən müharibəsi iştirakçısı”-medlı ilə,

“ Suqovuşanın azad olunmasına görə”-medalı ilə təltif edilmişdir. (Bu medal hazırdır,Müdafiə Nazirliyindəndədir.)





# KİÇİK ÇAVUŞ, XALİQ XALİQZADƏ MİRZƏLİ OĞLU



- Gənc yaşlarımda hərbiçi olmaq arzusu ilə yaşayırdım, televizorda, adi həyatda hərbiçi görəndə, onlara həsədlə baxırdım. Hərbiçi paltarı geyinmək, əlimə silah alıb vətənin keşiyində durmaq və bununla fəxr etmək istəyirdim - deyə gənc hərbiçi Xaliq Xaliqzadə, “Dəmir Yumuruq”-əməliyyatında öz döyüş xatirələrini danışmağa başladı. O, evlərinə, ailəsinin yanına üç günlüyə gəlmişdi, yenə sevdiyi işinə, N saylı hərbi hissəyə qayıtmalı idi.

Xaliq Xaliqzadə 3 fevral 1999-cu ildə, Azərbaycan Respublikası, Masallı rayonunun Yeyənkənd kəndində anadan olmuşdur. 2005-ci ildə, Ərzuman İsmayılov adına Yeyənkənd kənd tam orta məktəbin 1-ci sinifinə getmiş, 2014- cü ildə, həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir. Xaliq sonra Masallı rayon Dövlət Regional Kollecinə daxil olur. 2018-ci ildə həmin məktəbi bitirdikdən sonra, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Masallı rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılır.

Hərbi xidmət müddətində özünü nümunəvi əsgər kimi apardığı üçün Hərbi Hissə Komandanlığı Xaliqə hərbiçi olmağı təklif edir. Bu təklif gənc əsgərin ürəyincə olur və uşaqlıqdan arzuladığı hərbiçi peşəsi gerçək-

ləşməyə başlayır.

Xaliq, 23 yanvar 2020-ci ildə, "Müddətdən Artıq Həqiqi Hərbi Xidmət" - kursuna göndərilir.

16 mart 2020- ci ildə, hərbi kursu bitirib N saylı hərbi hissədə, "Baş tuşlayıcı" vəzifəsində xidmət etməyə başlayır.



- İkinci Vətən Müharibəsinə bir neçə ay qalmış bizimlə çox ciddi hərbi təlimlər keçməyə başladılar - deyə, Azərbaycan Silahlı Qüvvələrin baş çavuşu, Xaliq Mirzəli oğlu Xaliqzadə, mənfur düşmənlə necə döyüşdüklərini kino lenti kimi gözlərinin önünə gətirməyə başladı.

- Hərbi hissəmizin komandanlığı bəlkə də, bilirdilər, Vətən müharibəsi tezliklə başlayacaq, amma bunu bizə bildirmək istəmirdilər.

Hərbi hissəmizdə vaxtışarı, Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan Silahlı Qüvvələrin əsarəti altında olması, şəhidlərin və itgin düşənlərin, əsir aparılanların əzab çəkən ruhları, bir milyon qaçqın və köçgünlərin acı fəryadları haqqında tez-tez vətənpərvərlik mövzusunda mühazirələr oxuyur, söhbətlər edirdilər. Ermənistan Silahlı Qüvvələri, və Qarabağın erməni seperatçı qüvvələri tərəfindən bütün sərhəd boyu təxribatlar törədilir, yeni ərazilər ələ keçirmək istəyirdilər.

Düşmənə qarışı nifrət hissi içimizdə alışıb yanırdı. Tezliklə azadlıq müharibəsinin başlanmasını istəyirdik.

Düşmən Qarabağı edərək işğal,
Ağır məğlubiyyət bizi etdi lal.
Alnımız ləkəli, olmuşduq bihal.
Başımız aşağı gəzdik bir zaman,
Kaş ki, xəcalətli olmaya insan.

Müzəffər Ordumuz qalxdı ayağa,
Vətənim büründü üçrəng bayrağa.
Qaçdı ölkəmizdən, o mənfur dığa,
Ali Baş Komandan- Milli Qəhrəman,
Yazdın yeni tarix, unutmaz zaman!

(Ürəyimin harayı-səh.33. S.A.)

25 sentyabr 2020- ci ildə, bizim hərbi hissənin məzuniyyətdə olan bütün hərbi qüllуqçuları geriyə çağırıldı. Artıq, 26 sentyabrda, səhər saat 8:00- da, məzuniyyətdə olanlar bir nəfər kimi, hərbi hissədə hazır vəziyyətdə idilər.

N saylı hərbi hissəmizə təcili yerini dəyişmək haqqında əmr gəlmişdi. Biz hələ müharibənin olacağını dəqiq bilmirdik, lakin ürəyimizin dərinliyində hiss edirdik ki, bu hərbi hazırlıq əvvəlkilərə oxşamır, bu hazırlıq müharibə sədasından xəbər verirdi.

27 sentyabr 2020- ci il, sübh çağı saat 4:00-da, hərbi hissəmizin bütün əsgər və zabitləri hazır vəziyyətdə idilər, əmr gözləyirdilər. Saat 6: 00 -da, gəmi siqnalına oxşar uzun, vahiməli siqnal eşitdik. Bundan sonra Hərbi hissəmizin uzaq mənzilli raket və artilleriya qurğuları öz ölümsaçan atəşilə müharibənin başlanması haqqında xəbər yaydı. Bu atəş erməni təxribatlarına, Qarabağın 30 illik işğalına bir cavab idi.

**-Sizin hərbi hissə Qarabağın hansı bölgəsində döyüş mövqeyi tutmuşdu?**

- Biz əvvəlcə Ağcabədi, Ağdam istiqamətindən hərəkət etmək tapşırığı alsaq da, hərəkət istiqamətimiz təcili Füzuli rayonunun Horadiz istiqamətinə dəyişdirildi. Əvvəla, məlumat üçün bildirim ki, 1994-cü il yanvarın 5-dən, 6-na keçən gecə, Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirtdiyi uğurlu əməliyyat nəticəsində, Füzuli rayonunun 20 Arazboyu kəndləri, o cümlədən Horadiz qəsəbəsi, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edilmişdi.

**-Düşmənlə birinci döyüşünüz harda oldu?**

-Hərbi hissəmiz Araz boyu istiqamətində hərəkət etməyə başladı. Lələtəpə istiqamətində mənfur düşmənə sarsıdıcı zərbə endirdik. Lələtəpə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin 2,9 km. şimal-qərbində yerləşir, hündürlüyü 271 metr olan bir təpədir. Lələtəpənin bizim ərazimizdə olması Horadiz qəsəbəsini və Füzuli rayonunu da, atəş nəzarətində saxlamağa imkan verirdi. Ona görə 2016-cı ildən bizim nəzarətimizdə olan Lələtəpəni yenidən işğal etmək üçün ermənilər o istiqamətdə xeyli qüvvə toplamışdı.

Bizim hərbi hissəmiz başqa hərbi birləşmələrimizlə əlaqəli şəkildə hərəkət edirdi. 2020- ci il 30 sentyabrda yenidən Lələtəpə istiqamətində ermənilərlə səngər döyüşlərimiz başladı.

Cəbrayıl rayonunun Nüzkar kəndini mənfur düşməndən azad etdik. Nüzkar kəndi Arazboyu düzənlikdə yerləşir. Bu kəndi azad edəndə, cəsur əsgər, dostum Xalid Məcidov tank əleyhinə qumbaraatanla vuruldu, mərmi demək olar ki, bədəninin bir tərəfini aparmışdı. Görəndə gözlərimdən sel kimi yaş süsüldü. Çoxlu şə-

hidlərimiz, yaralılarımız olurdu. Yaralılarımızı şəhidlərlə birlikdə arxaya yola salırdıq.




Füzuli rayonunda Diliqarda kəndini işğaldan azad edəndə yenə iki şəhid verdik. Ermənilərin isə həddindən çox ölüləri, yaralıları olurdu.

**Haşiyə:-** Rusiya 1813- cü il Gülüstan müqaviləsindən sonra İrandan xeyli erməni ailəsini bu əraziyə köçürür. Köçürülən əhalidən 24 kənd yaranır. Bu kəndlərdən üçü Diliqarda, Araz Diliqarda, Qobu Diliqarda idi. Kəndin əsas məşğuliyyəti maldarlıq idi. Bu kəndlər 1993-cü ildə, Ermənstan Silahlı Qüvvələri tərəfindən işğal edilir. 2020-ci ildə, noyabrın 9-da, Ordumuz tərəfindən azad edilirlər. Haşiyə bitdi.

-Bizim N saylı hərbi hissəmiz Xocavənd istiqamətindən hərəkət etmək üçün əmr aldı. Bu istiqamətdə hərbi strateji əhəmiyyəti olan bir neçə kəndi erməni işğalından azad etdik. Əsgərlərimizdən biri sevindiyindən, düşmənə göz dağı vermək üçün səngərdən çıxıb oynamağa başladı. Bu zaman düşmən tank əleyhinə silahla onu vurdu. Qardaşım kimi xatirini istədiyim əsgər tikə-tikə oldu. Hamımızın gözündən sel kimi yaş axırdı. Şəhidimizin parçalanmış bədənini bir yerə yığıb qutuya qoyduq.

**-Xaliq, şəhid olan, o qəhrəman əsgərin adı yadında qalıbmı?**



- Müəllim, o şəhid əslən Masallıdan olsa da, Bakıda yaşayırdılar, adını deyərəm, amma, xahiş edirəm kitaba yazmayın bu faciəli hadisəni. Axı şəhidin ailəsi, övladının belə faciəli halda şəhid olmasını bilmir. Biz elə şəhidləri qutuda yerləşdirib göndəririk, qutu isə açılmır.

Xaliq kimi mənim də, gözlərimdən süzülən göz yaşları dayanmaq bilmirdi. Bir əlimdə qələm ağ kağız üzərində gəzir, digər sol əlim isə göz yaşlarımı silirdi.

-Düşmənin atəş nöqtəsini susdura bildinizmi?

- Dərhal düşmənin atəş açdığı ərazinin kordinatlarını çıxardıb silahlı qüvvələrimizin artilleriya bölməsinə ötürdük. Çox çəkmədi ki, düşmənin həmin nöqtəsi darmadağın edildi, torpağı göyə sovruldu, göyə sovrulan torpağa erməni meyidləri də, qarışmışdı. Bütün tankları vurulub yandırıldı. Artilleriya atəşi dayanan kimi hücuma keçib sağ qalan düşmən əsgərlərinə qan uddurduq.

**-Arxa ilə əlaqəniz necə idi, hərbi sursat, ala bilirdinizmi?**

- Hərbi hissəmiz Cəbrayıl istiqamətinə hücuma keçməyə başladı. Bu istiqamətdə, bir dağ ətəyində, arxadan hərbi sursatın gəlməsini gözləməyə başladıq. Düşmən, bizə hərbi sursat gətirən maşını top atəşinə tutmağa başladı. Maşının sürücüsü maşını sağa, sola hərəkət etdirməklə atəşdən yayınmağa çalışırdı, lakin, təəssüf ki, düşmən tərəfindən vuruldu və maşın yanmağa başladı.

Gözlərimizin önündə 3 nəfər əsgərimiz yanaraq şəhid oldular...

Ərzağımız tamam qurtarmışdı, hər tərəf qalın meşə ilə örtülmüşdü, ağaclardan meyvə tapıb yeyirdik. Birdən qoyun mələməsi eşitdik, elə bildik ki, düşmən kəşfiyyatçılarıdır. Hazır vəziyyət alıb ehtiyatla səs gələn tərəfə getdim, 5-6 metr alalı iki əsgər məni qoruyurdu. Bir az gedəndən sonra kollara ilişmiş bir qoyun gördüm. Hamımız bu işə çox təəccüb etdik. Axı, burda qoyun nə gəzirdi ki? Təsəvvür edin ki, bir neçə gün idi ki, yeməksiz qalmışdiq, ac idik. Allah bizi aclıqdan qurtardı. Müharibədən beş il keçsə də, bu möcüzə yadımdan çıxmır".

**-Qələbə xəbərini harda eşitdiniz?-** deyə qəhrəman döyüşçü, Xaliq Xaliqzadəyə son sualımı verdim.

- Biz, Xocavənd rayonunda Susanlıq, Tuğ, Azıx, Böyük Tağlar və bir çox kəndləri azğın düşməndən azad etdik.

8 noyabr 2020-ci ildə, Şuşa şəhərinin düşməndən azad edilməsi düşmənin bel sutununu sındırdı.

2020-ci il noyabrın 10-da, biz Azıx mağarası ətrafına toplaşıb, Azıx mağarasının ən qədim insan məsgəni olması haqqında söhbət edirdik. Bu vaxt müharibənin qurtarması xəbərini eşitdik. Sevincimizin həddi- hüdudu yox idi, lakin bir tərəfdən də, şəhidlərimiz üçün göz yaşı axıdırdıq.

Ey igid əsgərim, sən bir qəhrəman,
Unutmaz sizləri, can Azərbaycan.
Yandır Qarabağda bayram şamları,
Hər bir Vətən oğlu öpür üzündən,
Şair əsgərinəm mən də, bu gündən.

**S.A.**

**Haşiyə:-** Azıx mağarası dünyanın ən qədim yaşayış məsgənlərindən biridir. Füzuli şəhəri yaxınlığında yerləşən Azıx mağarası 1960 cı ildə, Azərbaycan arxeoloqları (Məmədəli Hüseynov) tərəfindən kəşf edilmişdir. Mağarada aparılan qazıntı işləri nəticəsində neandertal tipə məxsus insanın alt çənə sümüyü aşkar edilir. Bu tapıntının ən azı 350-400 min illik tarixi vardır, sahəsi isə, 800 kv.km-dir. Haşiyə bitdi.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan, cənab İlham Əliyevin sərəncamı ilə,

Silahlı Qüvvələrin igid döyüşçüsü, Kiçik Çavuş, Xaliq Xaliqzadə Mirzəli oğlu,

**“Vətən müharibəsi iştirakçısı”,**

**“Füzulinin azad olunmasına görə”,**

**“Xocavəndin azad olunmasına görə”,**

**“Cəbrayılın azad olunmasına görə”,**

**“Hərbi xidmətdə fərqlənməyə görə” medalları ilə,**

**“Fəxri fərman”-la təltif edilmişdir.**

Kiçil Çavuş, Xaliq Xaliqzadə hal- hazırda № saylı hərbi hissədə hərbi xidmətini davam etdirir.

# LƏNKƏRAN XANLIĞI HAQQINDA QISA MƏLUMAT

*(Abasbəyli və Yeyənkənd kənd adlarının mənşəyini Lənkəran xanlığının səhifələrində axtaraq)*

1747-ci il 20 iyunda Nadir şahın ölümündən sonra onun qurmuş olduğu böyük imperiya parçalanıb dağılır.

Əvvəla, Səfəvilərin əldən vermiş olduğu torpaqların xeyli hissəsini geri alan, Hindistanı və Orta Asiyanı fəth edən böyük fateh Nadir şahın adı, dünyanın ən güclü sərkərdələrilə yanaşı çəkilir. Nadir şah Osmanlı və Rusiya imperiyasını onunla hesablaşmağa məcbur edir. Çox təəssüf ki, böyük Fateh, daxili feodal hərisliyinin qurbanına çevrilir.

Nadir şahın ölümündən sonra Azərbaycanda da, çox sayda xanlıqlar-feodal dövlətləri meydana gəlir. O xanlıqlardan biri də, Lənkəran xanlığı idi. Xanlığın ərazisi, indiki Astara, Lənkəran, Lerik, Masallı, Yardımlı, indiki Cəlilabad rayonunun ərazisi, həmçinin indiki İranın Gilan vilayətinin Astara və Həştpər (hazırda Taleş adlanır) bölgələrini əhatə edirdi (Seyid Abbas bəyin xanlığından etibarən). Talış xanlığının mərkəzi əvvəlcə Qızılağac (indiki Masallı ərazisində olan kənd), sonra Astara şəhəri, daha sonra Lənkəran şəhəri idi. Lənkəran xanları sülaləsinin banisi seyid Abbas bəy olmuşdur.

**Qeyd:-** Lənkəran xanı Seyid Abbas bəydən əvvəl Qızlağaclı Musa xan (əmir) 1736-cı ilə kimi bu yerlərin hakimi olmuşdur. Səfəvilər sülaləsinin süqutundan sonra Talış mahalında hakim dairələr arasında yaran-

mış ziddiyyətlər nəticəsində Talış mahalı bir neçə yerə parçalanır. 1722-ci ildə, Rusiya İmperatoru Birinci Pyotr Xəzəryanı əraziləri işğal etmək üçün hücum təşkil edir. Bundan istifadə edən yerli feodallardan Əmir Aqis Lənkəranda, Məmmdhüseyn Astarada, Musa xan isə, Qızılağacda özlərini müstəqil hakim elan edirlər.

Musa xan 1725-ci ildən, Nadir şahın dəstəyilə güclü ordu yaradaraq 1727-ci ildə, Lənkəran və Astara hakimləri olan Əmir Aqisin, Məmmədhüseynin qoşunlarını məğlub edərək vahid əmirlik yaradır, paytaxt əvvəl Qızılağac, sonra Astara olur.  Birinci Pyotur Xəzəryanı ərazilərin Rusiyaya birləşdirilməsinə çox böyük önəm verirdi, o cümlədən Bakıya, Dərbəndə, Lənkərana Rus tacirlərini, Rus donanmasını, quru qoşunlarını göndərirdi. Rusiyadan gələn tacirlər təkcə ticarət etmək üçün yox, həm də, kəşfiyyat işlərilə də, məşğul olurdular. Musa xan çox uzaqgörən, ağıllı, işgüzar bir hökmdar kimi, həm Rusiya ilə, həm də, Nadir şahla isti münasibətləri qoruyub saxlamağa çalışırdı. Onun vaxtında Talış əmirliyi xeyli inkişaf etmiş, bir neçə qala tikilmişdir.

**Seyid Abbas bəy kim idi?**

Seyid Abbas bəy XVII əsrin sonu, XVIII əsrin əvvəllərində, vəziyyətin çətinliyi üzündən ailəsilə birlikdə, Güney Azərbaycanından (Ərdəbildən) Lənkəranın Xalxatan kəndinə köçür və bu kətdə məsgunlaşırlar. Seyid Əli Kazım bəy oğlu, öz “ Cəvahirnameyi Lənkəran” əsərində, Seyid Abbasın Həzrəti Məhəmməd Peyğəmbərin (s) 32-ci nəsil şəcərəsi olduğunu göstərir( ana xəttilə). Xalxatan kəndində yaşayarkən Seyid Abbas bəy, çox keçmir ki, yerli feodallarla dostluq münasibətləri

yarada bilir və Boradigah (Boradigah qəsəbəsi Masallı rayonuna aiddir) kəndindən olan Əsəd bəyin bacısı Ahu xanımla evlənir.

Bu nigahdan onların Cəmaləddin bəy, Əli bəy adlı övladları dünyaya gəlir.

1736- cı il fevral, mart aylarında, Nadir xan Muğan düzündə, Kür çayı ilə Araz çayının qovuşduğu yerdə, Suqovuşanda Muğan qurultayını çağırır. Nadir xan Əfşarın qurultayı çağırmaqda məqsədi Səfəvi sülaləsinə son qoymaq, hakimiyyəti rəsmi olaraq ələ keçirib özünü şah elan etmək idi. Bu qurultayda Nadir xan siyasət işlədərək özünü hakimiyyətən imtina edən kimi göstərir və nəticədə əyanların çox hissəsi Nadir xanı " Şah" görmək istəyirlər. Beləliklə Nadir xan "Şah" elan edilir. Muğan qurultayı 1736-cı il martın 21-də, Səfəvilər hakimiyyətinə son qoyur. 22 dekabr 1501-ci ildən, 1736-ci il 8 mart tarixə kimi davam edən Səfəvi sülaləsi sona çatır.

Nadir şahın, "Şah" seçilməsinin əleyhinə olan bir çox əyanlar conradan cəzalandırılır, o cümlədən Gəncə bəylərbəyliyinə daxil olan BORÇALI və QAZAX mahalları, o zaman Nadir şahdan vassal asıllığında olan Kartli-Kaxetiya çarlığına qatılır( Gürcüstan). O vaxt bu çarlıq da, İranın hakimiyyəti altında olmuşdur. Bu qərar Borçalının faciəsinin əsasını qoyur.

Muğan qurultayında Seyid Abbas bəy də, öz qaynı Əsəd bəylə birlikdə iştirak edirdilər. Sonra Seyid Abbas bəy, oğlanları Cəmaləddin bəyi və Əli bəyi Nadir şahın hərbi qulluğuna göndərir. Nadir şah, Cəmaləddin və Əli bəyə "Yüzbaşı" rütbəsi verir. Şahın məmurları Cəmaləddin bəyi, dərisi qara olduğu üçün " Qara bəy"-deyə, çağırırdılar. Nadir şahın Dağıstana yürüşü zamanı, döyüşlərdə fərqləndiyi üçün Cəmaləddin bəyə,

ömürlük “ Xan”-rütbəsi verilir.

**Lənkəran xanları**

1. Qızılağaclı Musa Xan- 1723(?)- 1736, (əmirlik)
2. Seyid Abbas bəy-----------1736- 1747,
3. Cəmaləddin (Qara) bəy-1747- 1786,
4. Mir Mustafa xan---------1786- 1812,
5. Mir Həsən xan------------1812- 1826.

Lənkəran xanlığı bəzi məlumatlarda 6 mahal, bəzilərinə isə, daha çox göstərilir.

1.Ərkivan mahalı (Dəstvənd). 2.Dərin. 3. Alar. 4.Məringül. 5. Zuvand. 6.Sepidac.

Xanlığın Ərkivan və ya Dəstvənd mahalı Boradigahdan başlamış Yardımlı da, daxil olmaqla indiki Biləsuvara qədər böyük bir ərazini əhatə etmişdir. Cəmaləddin xanın dövründə xanlığın paytaxtı Astaradan Lənkərana köçürülür (1747). O zamanlar Lənkəran kiçik bir məntəqə idi.

Cəmaləddin xan vəfat edəndən sonra oğlu Mir Mustafa xan Lənkəran xanlığına rəhbərlik edir. Mir Mustafa xan, oğlu Mir Həsən xanı Lənkəran xanlığının ƏRKİVAN əyalətinə xan təyin edir. Mir Mustafa xan oğlunu Ərkivana göndərməzdən əvvəl Ərkivan qalasında ( QALA bazarı) yeni binalar tikdirir və qalanı xeyli möhkəmlədir. Bəzi məlumatlara görə Qala 4, 6 əsrlərdə inşa edilmişdir. Mir Həsən xan atasının ölümündən sonra Lənkəran xanlığını, Astaradan Biləsuvara qədər olan əraziləri, Ərkivan qalasından idarə etmişdir. O, Qala bazarını daha da, möhkəmlədir, qalada yeni ticarət mərkəzləri istifadəyə verilir. Qala bazarının sorağı

uzaq- uzaq torpaqlardan eşidilirdi. Beləliklə Mir Həsən xan 1826-cı ilə qədər, yəni ömrünün sonuna qədər Ərkivan qalasından bütün Lənkəran xanlığını idarə etmişdir.

1828-ci ildə, Rusiya ilə İran arasında bağlanmış Türkmənçay müqaviləsi, Azərbaycan torpaqlarının bölüşdürülməsini başa çatdırır, bu müqavilə Gülüstan müqaviləsinin davamı idi...

Lənkəran xanlığı haqqında yuxarıda göstərilən tarixi məlimatlardan bir daha aydın olur ki, Ərkivan kəndi Lənkəran xanlığının ən böyük əyalətlərindən biri olmuş və Mir Həsən xan Ərkivan kəndindən Astaradan başlamış Biləsuvara kimi olan əraziləri idarə etmişdir.

## MASALLI RAYONUNUN YEYƏNKƏND KƏNDİ HAQQINDA

Yeyənkənd kəndi Azərbaycan Respublikası Masallı rayonunun İnzibati- ərazi vahidində kənddir, Masallı şəhərindən 7 km. məsafədə yerləşir. 1886-cı il aparılan siyahıyaalınmaya əsasən Lənkəran qəzasının Ərkivan şöbəsinə daxil olan Yeyənkənd kəndində 240 nəfər əhali yaşamışdır ki, bunların da, 142 nəfəri kişi, 98 nəfəir qadın olmuşdur.

Hal- hazırda Yeyənkənd kəndində, 23 iyil 2025-ci il göstəricisinə əsasən 1900 nəfərə qədər əhali yaşayır. Viləş çayının sol sahilində yerləşən kəndin əsas məş-

ğuliyyəti əkinçilik və heyvandarlıq, qismən arıçılıqdır. Əhalinin etnik tərkibi azərbaycanlılardan ibarətdir.

Yeyənkənd kəndi, şimaldan Tatyanoba-Güllütəpə, şərqdən Banmaşı, qərbdən Abasbəyli, cənubdan Viləşçay və Allahyarlı, cənub- şərqdən Ərkivan qəsəbəsinə aid olan " Qala bazarı" ilə həmsərhəddir. "Qala bazarı" Lənkəran və Masallının tarixində böyük rol oynamışdır. Yeyənkənd

kəndinin adı ilə bağlı bir çox fikirlər mövcuddur. Bəzi tədqqatçıların fikirincə kəndin adı, türkdilli tayfalarda işlədilən "Yekə şəxs" adı əsasında yaranıb. Yəni kənd əslində " Yekəkənd" adlanmalı idi. " Yeyənkənd" isə bu toponimin dəyişmiş formasıdır.

Bir fikirə görə də, kəndin əhalisi yeyin, yəni qoçaq olduqları üçün kənd, bu adı daşıyır. Bundan əlavə ehtimal olunur ki, Yeyənkənd kəndi, Yankənd, yəni "sıra kənd" sözündən yaranıb. Başqa bir məlumata görə isə, kəndin ilk sakinləri "çoxyeyən" olduqları üçün yaşayış yeri, "Yeyənkənd" adlandırılıb. ( Musarza Mirzəyev, Şahrza Ağayev. Masallı toponimləri. Bakı 1992., məlumat Cənublu.az saytından götürülüb).

# "YEYƏNKƏND" KƏND ADININ MƏNŞƏYİ HAQQINDA, KƏND AĞSAQQALI FƏXRƏDDİN FƏRƏCOVUN KEÇMİŞLƏRDƏN QAYNAQLANAN FİKİRLƏRİ



Uzun illər Masallı rayonunun Yeyənkənd kənd tam orta məktəbin Direktoru işləmiş, Masallı rayon Ağsaqqallar Şurasının üzvü, Yeyənkənd İnzibati Ərazi Dairəsinin Ağsaqqallar Şurasının sədri Fəxrəddin müəllimin, keçmişlərdən gələn məlumatlara istinad edərək verdiyi açıqlama daha inandırıcı və real görünür.

Fərəcov Fəxrəddin İzzət oğlu, 1949-cu ildə, Azərbaycan Respublikası, Masallı rayonunun Yeyənkənd kəndində müəllim ailəsində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndlərində almış, 1960-cı ildən 1963-cü ilə kimi, Qarabağın döyünən ürəyi olan Şuşa şəhərində oxumuş, 1963- ci ildən 1966-cı ilə kimi, Lənkəranda təhsilini davam etdirmişdir. 1967-ci ildə, ADPU (İnstitut)-nin Filalogiya fakültəsinə daxil olmuş, 1971-ci ildə, ali təhsil ocağını bitirərək təyinatla Cəlilabadın Bayxanlı kəndində, Göytəpə qəsəbə 2 saylı orta məktəbində dil-ədəbiyyat müəllimi işləmişdir. Sonra Masallı

rayonunun, öz doğma kəndi olan Yeyənkənd kəndində müəllim, təşkilatçı müavin, məktəb direktoru vəzifələrində çalışmışdır.

Fəxrəddin müəllimin verdiyi məlumata əsasən, Lənkəran xanının iki övladı Yegan bəy və Abbas bəy qardaşları, Viləş çayının sol sahillərində, yanaşı olaraq məsgunlaşmış, sonralar bu torpaqlar " Yegankənd" adlanmış, səsdəyişmə ilə əlaqədar " Yeyənkənd" şəklinə düşmüşdür. Abbas bəyin məsgunlaşdığı torpaq isə sonralar "Abasbəyli" kimi adlandırılmışdır.



*Fərəcov Fəxrəddin İzzət oğlu (soldan birinci)*

# ABASBƏYLİ KƏNDİ HAQQINDA

Abasbəyli kəndi, Azərbaycan Respublikası, Masallı rayonunun inzibati ərazi vahidində kənddir. 5 oktyabr 1999-cu il tarixli 708- İQ saylı Azərbaycan Respublikasının qanunu ilə, Masallı rayoyonunun Abasbəyli kəndi, Yeyənkənd kənd İnzibati -ərazi dairəsinə daxil edilmiş, ayrıca yaşayış məskəni kimi tanınmışdır.

Abasbəyli kənd sakinləri, əvvəllər Viləş çayının sol sahilində məskən salmış, sonralar isə, çay daşqınlarından qorunmaq üçün, çaydan azca aralı, hündür əraziyə köçmüşlər. Əhalisi 1000 nəfərə yaxındır. Kənd əhalisini azərbaycanlılar təşkil edir.  Kənd, Talış dağlarının ətəyində, Viləş çayının sol sahilində yerləşir, Masallı şəhərindən 7 km. məsafədədir.

Abasbəyli kəndi, cənub- qərbdə Xəlfələr, şimaldan Güllütəpə, Tatyanoba, şərqdən Yeyənkənd, cənubdan Viləş çayı, Allahyarlı kəndlərilə həmsərhəddir. Kənd sakinlərinin əsas məşğuliyyəti əkinçilik, heyvandarlıq, qismən arıçılıqdır.

# “ABASBƏYLİ” və “YEYƏNKƏND” ADLARININ MƏNŞƏYİNİ TARİXİ FAKTLARDA AXTARAQ

Seyid Abbas bəy öz ailəsilə birlikdə, XVII əsrin sonu, XVIII əsrin əvvəllərində Güney Azərbaycanın Ərdəbil şəhərindən (Hil kəndi) Talış mahalının Xarxatan kəndinə, köçüb məsgunlaşırlar (atası Seyid Məhəmməd ). Bir müddət sonra Seyid Abbas bəy, bu kəndin sahibi, Boradigahlı Əsəd bəylə tanış olur və onun bacısı Ahu xanımla evlənir. Boradigah kəndi, Masallı rayonunun ərazisinə daxildir, Masallnın Ərkivan kəndindinin yaxınlığında yerləşir. Xarxatan kəndi Masallının Mahmudavar, Türkoba, Tüklə kəndələrinə yaxın bir məsafədədir, lakin Lənkəran şəhərinin ərazisinə daxildir. Ərkivan kəndi Lənkəran xanlığının ən böyük əyalətlərindən biri olmuşdur ( O vaxt Masallı mərkəz deyildi, mərkəz Ərkivan kəndi idi). Ərkivanın şimal- qərb cinahında isə, Qala bazarı yerləşirdi. Qala bazarının tarixi çox qədimlrə gedib çıxır. Ərkivan qalası böyük bir ticarət mərkəzi olmuşdur . Bütün bunları yazmaqda məqsədim odur ki, Xarxatan kəndində məsgunlaşan Seyid Abbas bəy öz qardaşı “ Yegan bəylə ” birlikdə, Ərkivan qalasının 1,5, 2 km. məsafəsində, gözəl mənzərəli bir yerdə, Viləş çayının sol sahilində, Talış dağlarının ətəyində, həm istirahət yeri, həm də, təhlükəsizlik baxımından daha əlverişli olan bir ərazidə bir neçə bina tikdirirlər.

Lənkəranın sonuncu xanı Mir Həsən xan, bütün Lənkəran xanlığını məhz, Ərkivan qalasından idarə etmişdir. Mir Həsən xandan əvvəl də, Lənkəran xanlarının Ərkivan qalasında tez-tez görünmələri heç də, təsadüfü

deyildi. Qala təhlükəsizlik baxımından çox əlverişli bir ərazidə yerləşirdi. Rusiya İmperatoru öz donanmasını, əsgərlərini Xəzərin sahillərinə, o cümlədən Lənkərana göndərməsi, xanlara qarşı təzyiq göstərməsi, Lənkəran xanlarını məcbur edirdi ki, öz ailələri üçün əlavə olaraq daha təhlükəsiz, diqqətdən uzaq ərazilər tapsınlar. Belə təhlükəsiz yerlərdən biri də, Ərkivan qalası və qalaya yaxın, Talış dağlarının ətəyində, Viləş çayının sol sahillərində olan ərazilər idi.

Seyid Abbas bəy, Ərkivan qalasından 1000, 1500 metr aralı, cənub istiqamətində, Viləş çayının sol sahilində, Talış dağlarının ətəyində, təbii bulaqlarla zəngin, təbiət gözəllikləri ilə əhatə olunmuş bir məkanda özü və qardaşı Yegan bəyə istirahət mərkəzi, həm də, təhlükəli vaxtlarda ailəni qorumaq üçün bir neçə ev tikdirməsi təhlükəsizlik baxımından çox əlverişli idi. Seyid Abbas bəyin və qardaşı Yegan bəyin əsasını qoyduğu bu məkan bir vaxt gələcək ABASBƏYLİ və YEYƏNKƏND kəndləri adlanacaqdı ( Təqribən 1737 -1740 –cı illərdə).

Uşaq vaxtı Abasbəyli kəndinin ilk əvvəl yerləşdiyi əraziyə yolumuz düşəndə, ordan saxsı qablar, kərpic qırıntıları tapardıq. Kərpic qırıntıları barədə babamdan soruşanda o, “Evlərimizi o, vaxtlar çiy kərpicdən tikərdik”- deyərdi. Bəs onda, qırmızı kərpic qırıntıları nəyin göstəricisi idi?

Yeyənkənd kənd 8 illik məktəbini bitirib Valeh Teymurovla birlikdə Ərkivan kənd orta məktəbinə oxumağa gedəndə, çox vaxt “ Qala bazarı” deyilən yerdən keçib gedərdik. Hər dəfə ordan keçəndə sökülmüş divarların tör-töküntülərinə xeyli baxıb təəssüflənərdik.

Təxminən 1830-1835- ci illərdə, Mir Həsən xanın oğlu Mir Abdulla, Qala bazarını Masallı kəndinə köçürür və Masallı gün-gündən inkişaf edərək şəhər statusu alır.

# KƏND AĞSAQQALI, AYDIN BABAYEVİN KEÇMİŞLƏRDƏN GƏLƏN SÖHBƏTİ

Təxminən 2025-ci ilin fevral ayında, yolda mənimlə rastlaşanda: - "Sübhan müəllim, vaxtın olsa gələrsən bizə, kəndin tarixindən danışmaq istəyirəm sənə"- deyə, hamımızın "Dayı"deyə müraciət etdiyimiz Aydın Babayev, adəti üzrə mənə baxıb gülümsədi. -Baş üstə gələrəm, Dayı, - dedim.

Üç xeyirxah insan haqqında dəyərli oxucularımıza məlumat verməyi özümə borc bilirəm.

Aydın İzzət oğlu Babayev 1940-cı il martın 20-də, Masallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. Əvvəlcə Yeyənkənd kənd məktəbinin 7-ci sinifini, sonra isə Masallı rayon orta məktəbin 10-cu sinifini bitirmişdir.

Aydın Babayev Bakı şəhərində sürücülük məktəbini bitirdikdən sonra 1959-cu ildə, Ordu sıralarına, hərbi qulluğa çağırılmış və Belarusiyada xidmət etmişdir. Gözəl bir ailə başçısı olan Aydın Babayev həyatının çox hissəsini Dövlət idarəsində sürücü kimi fəaliyyət göstərmişdir.

Yeyənkənd kənd məktəbimiz, o vaxtlar 8-illik məktəb olduğu üçün, məktəbimizin 8-ci sinifini bitirən məzunları, təhsilini davam etdirmək üçün Masallı rayon mərkəzində olan orta məktəblərə, ya da, Ərkivan kənd orta məktəbinə üz tuturdular (1974-cü ilə qədər). Kəndimizlə Masallı şəhəri arasında olan məsafə 7 km- idi, avtobus işləmirdi və indiki kimi maşın yox idi. O illərdə, Aydın dayı Babayev və Lətif əmi İsgəndərov oxumaq üçün rayon mərkəzinə gedən məktəbliləri, maşını saxlayıb götürər və rayon mərkəzinə apardılar.




Lətif əmi İsgəndərov Masallının Abasbəyli kəndində anadan olmuş və ömrünün çox hissəsini rayon mərkəzində, Dövlət idarələrində sürücü işləməklə keçirmişdir. Xəlfələr, Abasbəyli, Yeyənkənd, Bambaşı kəndlərinin rayon mərkəzində oxuyan şagirdlərin, ən yaxın dostuna çevrilmişdi bu iki insan. Lətif əmiyə Allah rəhmət eləsin, Aydın dayıya da, Allah can sağlığı versin.

Aydın dayı ilə söhbət etmək üçün Abasbəyli kənd məscidinin xuddamı Hacı Akif Mehdiyevlə onlara gəldik.

Akif Mediyev 1952-ci il fevralın 21-də, Msallı rayonunun Abasbəyli kəndində anadan olmuşdur. Yeyənkənd kənd məktəbinin 7-ci sinifini bitirdikdən, sonra təhsilini Masallı şəhər bir nömrəli orta məktəbində davam

etdirmiş və 1968- ci ildə, orta təhsilini başa vurmuşdur. 1970-1972-ci illərdə, Ordu sıralarında olmuşdur. Uzun illərdir ki, Abasbəyli kənd məscidinin Xuddamı işləyir və hər gün məsciddən azan səsləri ətrafa yayılır...

El ağsaqqalı Aydın Babayev bizə keçmişin çətinliklərindən, 1941-1945- ci illərin müharibəsindən sonra əhalinin səfalət içində yaşamasından, aclıq illərindən xeyli danışdı...

**-Dayı, bəs Abasbəyli kənd adının mənşəyi haqqında nə deyə bilərsiniz?**

-" Mənim fikirimə görə kəndin mənşəyi İranın Ərdəbil şəhəri ilə əlaqədardır. 18-ci əsrin əvvəllərində Ərdəbil yaxınlığından Abbas bəy adlı şəxs, öz ailəsilə bu yerlərə gələrək Viləş çayının sahilində məsgən salmışdır. Sonra Viləş çayının tez- tez daşmasından ziyan çəkən kənd sakinləri çaydan bir az aralı, hündür bir ərazidə məsgunlaşmışdır.

El ağsaqqalı, Aydın Babayevin, Abasbəyli kənd adının mənşəyi haqqında verdiyi məlumat, əvvəlki məlumatlarla, yəni Lənkəran xanı Seyid Abbas bəyin, Abasbəyli kəndinin əsasını qoyması haqqında olan məlumatla düşünürəm ki, üst-üstə düşür. Axı, Seyid Abbas bəy də, Ərdəbildən idi.

"Dayı"-deyə çağırdığımız bu gözəl insanla xüdahafizləşəndə mənə bir kağız parçası uzatdı və dedi: -" Müəllim, bu kağızıda yazdıqlarımı yeni kitabında çap etdirərsən"-deyə, əl verib görüşdü. Mən də, "Baş üstə, dayı"-dedim. Bu bir vərəq kağız, bir nəslin ömür şəcərəsi idi.

# ÜNVANINA YETİŞMƏYƏN MƏKTUB




Moskvaya iki günlüyə iş dalınca getmişdin. Sonra yaşadığın, işlədiyin Kazan şəhərinə gəlmək üçün vağzala gəldin. İki nəfər idiniz. "Əvvəl namazımı qılım, sonra gedərik" demişdin. Yol yoldaşın sənə deyəndə ki: -"Axı qatara gecikərik". Sən isə cavabında: - "Namaz daha vacibdir" - demişdin.

Namazdan sonra "platformaya" yaxınlaşdınız, lakin qatar getmişdi, gecikdiniz.

Sən heç vaxt maşınla qayıtmazdın, ya qatarla, ya da,

təyyarə ilə gələrdin. O gün sən nədənsə, maşınla gəlməyi qərara aldın. Adını çəkmək istəmədiyim yol yoldaşın da, sənin yanında əyləşmək istədi, sən isə ona:-Yuxumu pis görmüşəm, gözlə, qatarla gedərsən"-demişdin. Bir də, ona:-" Mən daha Moskvaya gəlməyəcəm, əvəzimdə sən gələcəksən"-demişdin.

Düz deyirdin, sən Moskvaya, bir daha getmədin, heç gəlmədin də. 28 iyul 2011-ci il, o qorxulu gecə (11:30) səni qoymadı gəlməyə Kazan şəhərinə, 3 körpə uşaqlarının, atanın, qardaşının, dostlarının yanına. Mən gəldim ora, Vladimir şəhərinə, sənin yanına. Birlikdə getdik Azərbaycana, boya -başa çatdığın Masallı rayonunun Abasbəyli kəndinə. Evə kimi mən səninlə danışdım, amma sən susmuşdun, cavab vermirdin, sanki küsmüşdün məndən. Gün yarıma təcili yardım maşını ilə gəldik. Təyyarə ilə 3 nəfəri aparmağa icazə vermədilər, axı siz 3 nəfər idiniz, sən, qaynatan, qaynanan. Mən təyyarə ilə uçmadım, səni maşında tək qoymağa ürəyim gəlmədi.

Sağ olsunlar Masallının Yeyənkənd kəndindən, halhazırda Vladimir şəhərində yaşayan Sehran, Mais, Samid qardaşları sənədləşmə işində çox kömək etdilər bizə.

Maşın kəndin girəcəyinə çatanda ağır-ağır getməyə başladı. Əvvəl sənin qaynatanla, qaynananı apardıq evlərinə, sən onlarla vidalaşdın, sonra gəldik evimizə. Maşın həyətə girəndə yaxınların bildilər ki, sən gəlirsən, gəlib boynunu qucaqladılar, ancaq sən yenə də, susdun, onlarla da danışmadın.

Gözlənilməz oldu sənin gəlişin, axı sən bir aydan sonra gəlməliydin evimizə. Mənə söz vermişdin ki :-" Evimin təmirini bu il qurtarıb köçəcəyəm evimə". Ancaq sən başqa evə köçdün, sözünün üstündə durmadın...

El-oba səninlə görüşə gəldilər, “iynə atsaydın yerə düşməzdi”. Hamı səni görmək istəyirdi. Bilirsən niyə? Çünki sən elin məhəbbətini qazanmışdın. Sən əsl müsəlman idin, xeyrixah, təvazökar, səmimi, təqvalı. Harda məscid tikilsəydi yardım edərdin. Mədrəsələrə, orda oxuyan tələbələrə öz köməyini əsrgəməzdin. Ehtiyacı olanlara yardım əlini uzadardın. Yardım alan ailə, kimin ona yardım etdiyini bilməzdi. Sən, Allaha xatir kömək edərdin ehtiyacı olanlara. İranın Qum şəhərində təhsil almış bir azərbaycanlı din xadimi gəlmişdi səninlə vidalaşmağa. O, belə bir söhbət etdi: - “Mən Qum şəhərində oxuyanda onun haqqında çox eşitmişdim, ancaq üzünü görməmişdim. O vaxt onun haqqında yaxşı sözlər eşitdiyim üçün bu gün onun məclisinə gəlmişəm...

Axı sən, İranın Qum şəhərində, dini mədrəsədə oxuyan azərbaycanlıları da, yaddan çıxartmırdın.

Ətraf rayonlardan da, din xadimləri gəlmişdilər səninlə vidalaşmağa, onlar da, danışırdılar sənin haqqında. Sən, Allah, imam aşiqi idin, “Allah” kəlməsi heç düşməzdi dilindən. Həmişə yaxşılıq haqqında düşünərdin. Sən Əli aşiqi idin, oğluna, Əli, qızlarına Fatimə, Zeynəb adını verdin. Sən gül kimi tez açıldın, öz ətrini ətrafa yaydın. “Gül kimi tez soldun”-deməyə dilim gəlmir, çünki sənin kimi insanlar solmurlar, ölmürlər, həmişə xalqın qəlbində yaşayırlar. Axı sən təkcə özün üçün yaşamırdın, həm də, başqaları üçün yaşayırdın. Kəndimizdə qadın mədrəsəsi açdın, lakin bu barədə heç kim bilmirdi. Bu faciədən sonra kənd sakinləri bildilər ki, mədrəsənin maliyyə xərcini sən ödəyirmişsən.

Sən 32 il yaşadın, ailən üçün, insanlar üçün çox iş gördün. Azərbaycandan, Moskvadan qalaq-qalaq kitablar gətizdirib paylayardın Kazan şəhərində. Neçə- neçə

insanlar sənin təbliğatınla namaz qıldılar. Yaxın, uzaq qohumlar sənin sözlərinlə hicab bağladılar. Çoxlu Tatar qadınları tanıyıram ki, onlara namaz qıldırdın, hicab bağlatdırdın, əsasən də, öz işçilərinə. Onlar səndən çox razılıq edirlər: - İlkin bizim gözümüzü açdı, islamı öyrətdi bizə" - deyirlər.

Sən hüquqşünas idin, Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirmişdin, ancaq bu sahədə işləmədin, biznes sahəsini seçdin. Sən iş adamı idin.

Kazan şəhərində, Rusiya Daxili İşlər Nazirliyinin Hüquq Akademiyasını qurtarmış qardaşın Elçini də, qoymadın Polis orqanlarında işləməyə. "Mənimlə işləsin, mənə kömək etsin" - dedin.

Sən şəhidliyi sevərdin, "Şəhidlər xoşbəxtdirlər" - deyərdin. Sən çörək dalınca getmişdin, öz ailən üçün, köməyə ehtiyacı olanlar üçün. Sən Allah yolunda çox iş gördün, belə insanlar həlak olanda şəhid qismindədirlər.

Birinci Qarabağ müharibəsi illərində sən məktəbli idin, 6-ci sinifdə oxuyurdun. Bir gün Masallı Hərbi Komissarlığından məktəbə xəbər göndərdilər ki, "Sizin məktəbin 2 şagirdi gəlib, Ordu sıralarına getmək istəyirlər". O iki şagirddən biri sən idin.

Həyatın qəribə qanunları, gözlənilməz anları var. 1995-ci ildən sonra, Kazan şəhərinə gəldim, kiçik bizneslə məşğul olmağa başladım. Sən o vaxt 3-cü kursda oxuyurdun. - "Ata icazə ver, qiyabiyə keçim, gəlim sənə kömək edim" - dedin. Gəldin, çalışdın, sonra öz biznessin oldu, öz işin oldu.

Qarabağa, Xocalı faciəsinə aid bukletləri (Xocalı haqqında məlumatlar) Kazana gətirən ilk dəfə sən oldun.

Biz səni Vətən torpağına tapşırıb, ay yarım sonra yenə qayıtdıq Kazan şəhərinə. Heç gəlmək istəmirdim, səni orda tək qoymaq istəmirdim, işlərimi qaydaya salıb yenə qayıdcağam yanına. Üç körpəndən arxayın ol, İnşəallah oxudacağam onları, gözün arxada qalmasın, oğul!. Bilirəm, məktubumu oxumasan da, məzmunundan xəbərdar olacaqsan. Bizsiz darıxma, evimizi, öz evini sənin ümüdünə qoyuram, mənim əziz övladım, İlkin!.

Atan, Sübhan Əhədzadə. 31 dekabr 2011-ci il. Kazan şəhəri. Təkrar çap olunur.






Coca-Cola



## Mündəricat

Qəhrəmanlığın yaddaş tarixi (Ön söz)..........................9
Sübhan Abasbəylinin (Əhədzadə) ...............................11
Həyat hekayəsi ....................................................11

**Azərbaycan Respublikasının Masallı rayonuna qiyabi səyahət**

Gəl Masallıya ......................................................15
Mətərə çayı haqqında ..........................................18
Babam, İsayev Cahangir Kərbəlayi Əhəd oğlunun keçmişlərdən gələn hekayəsi.......................................20
Kəndimizdə ilk məktəb..........................................24
Dəyirman daşı ......................................................25
İkinci dünya müharibəsinin başlanması, Böyük vətən müharibəsi (1941-1945) .........................................26
Yeyənkənd kəndi, 1941 -1945-ci illərdə........................28
Abasbəyli kəndi, 1941- 1945-ci illərdə.........................29
Xəlfələr kəndi, 1941-1945-ci illərdə.............................30
Bir tikə çörək... ....................................................31
Ermənilərin Azərbaycan torpaqlarına axışmasının sirri ..33
Kədər tariximiz oldu, "Gülüstan" ................................35
Xalqımızın başına gətirilən müsibətlərdə erməni izləri ...46
Quqark faciəsi.....................................................52
Meydan hərəkatı .................................................54
Sumqayıt hadisələri ..............................................56

Qanlı yanvar – oyanış günü-1990 ................................58
Müstəqil Azərbaycan....................................................61
Qanlı göz yaşımız, Qarakənd faciəsi............................62
Malibəyli və Quşçular faciələri ....................................63
Qanlı göz yaşımız, Qaradağlı faciəsi............................65
Xocali, qan yaddaşımız ................................................67
Qanlı göz yaşımız , "Ağdaban" faciəsi.........................72
Qanlı göz yaşımız, "Ballıqaya" faciəsi .........................74
Ermənilərin Rusiyada çirkin işləri...............................76
Xankəndi şəhərinin işğalı.............................................78
Şuşa şəhərinin qısa tarixi ..............................................80
Laçın rayonu haqqında məlumat.................................83
Xocavənd rayonu haqqında.........................................87
Kəlbəcər haqqında qısa məlumat ................................89
Ağdərə rayonu haqqında..............................................92
Ağdam rayonu haqqında..............................................94
Cəbrayıl rayonu haqqında............................................96
Füzuli rayonunun qısa tarixi ........................................99
Qubadlı rayonunun qısa tarixi....................................101
Zəngilan haqqında qısa məlumat...............................103
Birinci vətən müharibəsinin ağır nəticələri!...............105

**Birinci vətən müharibəsi ölümsüz doğulanlar**

Şəhid-İsmayilov Ərzuman Əlizamin oğlu .................116
Şəhid- Eyvazov Cəmil İsmayıl oğlu ............................122
Onları ulduzlarda axtar...............................................126

Abbasov Asif Fərman oğlu ........................................128
Qazi –İsayev Eyvaz Şirvan oğlu ....................................130
Qazi- Həmidov Maqsud Həmid oğlu ..............................136
Abbasov İnkişaf Kamil oğlu ........................................140
Abbasov Camal Şaban oğlu ..........................................146
Baxşıyev Vasif Mirzağa oğlu ........................................150
Əliyev Bəyməmməd Yunus oğlu ....................................152
Kapitan- Eyvazov Əfrail İsmayıl oğlu ...........................154
Polis mayoru Fərəcov Vasif izzət oğlu ...........................157
Baş leytenant, həsənov ruslan həsən oğlu .....................162

**İkinci vətən müharibəsi -**
**"Dəmir yumuruq" əməliyyatı**

Ölümün gözünə dik baxanlar .........................................172
Şəhid Məmmədov Ramil Habil oğlu ...............................183
Şəhid- Məhərrəmov İsa məhərrəm oğlu .........................189
Ağayev Sahil Şərbətəli oğlu ............................................195
Baş leytenant, Bayramov Asif Cəlil oğlu ........................199
Baş leytenant, Yaşar Yavərov .........................................205
Əsgərov Xəyal Nəsrəddin oğlu .......................................210
Heybətzadə Zeynal İntizam oğlu ...................................218
Gizir, Kamilzadə Cavidan Telman oğlu .........................229
Kazımov Musa Tahir oğlu ..............................................235
Leytenant, Mahmudov Hidayət Rza oğlu ......................240
Mikayilov Rahim Rauf oğlu ...........................................251
Mustafayev İmran Xansuvar oğlu ..................................257

Mustafayev Simran Mahir oğlu ....................................261
Nağıyev Daşqın Dağıstan oğlu ....................................269
Nadirov Nadir Tahir oğlu ............................................274
Baş Çavuş Nəcəfov ....................................................279
Fərid Faiq oğlu.............................................................279
Mayor Şükürov Rəşad Güləli oğlu ..............................286
Şükürov Rasim Faiq oğlu.............................................293
Gizir Səid Teymurov İmaməddin oğlu .......................296
Teymurov Murad Taleh oğlu.......................................307
Kiçik çavuş, Xaliq Xaliqzadə Mirzəli oğlu .................312
Lənkəran xanlığı haqqında qısa məlumat..................320
Masallı rayonunun Yeyənkənd kəndi haqqında ......324
"Yeyənkənd" kənd adının mənşəyi haqqında, kənd ağsaqqalı Fəxrəddin Fərəcovun keçmişlərdən qaynaqlanan fikirləri ...................................................326
Abasbəyli kəndi haqqında ..........................................328
"Abasbəyli" və "Yeyənkənd" adlarının mənşəyini tarixi faktlarda axtaraq ...........................................................329
Kənd ağsaqqalı, Aydın Babayevin keçmişlərdən gələn söhbəti.........................................................................331
Ünvanına yetişməyən məktub ....................................334

**Sübhan Abasbəyli**

# O yerlərdə izim qaldı

İMZA
NƏŞRLƏR EVİ


**Direktor:** **Səbuhi Aslan**

**Dizayner:** **Sadıqova Nigar**

**Texniki redaktor:** **Hüseyn Məmmədov**

Çapa imzalanmışdır: 29.10.2025
Ofset çapı. Əla növ kağız
Tiraj: 500
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru